**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**MƏHƏMMƏD FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU**

**İbrahim Zöhrab oğlu Quliyev**

# Əllamə Məclisi və onun "Biharül-ənvar" əsərinin hədis tarixində yeri

**BAKI-2018**

**Kitab Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu Elmi şurasının 06 aprel 2018-ci il 3 saylı iclasının qərarına əsasən nəşr edilmişdir.**

**Elmi redaktoru və ön sözün müəllifi:**
*akademik*
**Möhsün Nağısoylu**

**Elmi məsləhətçi:**
*fəlsəfə üzrə elmlər doktoru, professor*
**Sakit Hüseynov**

**Redaktor:**
*filologiya üzrə fəlsəfə doktoru*
**Təhminə Bədəlova**

**Ərəbcə mətnlərin redaktoru:**
*ilahiyyat üzrə fəlsəfə doktoru*
**Aqil Şirinov**

***Rəyçilər:***

*filologiya üzrə elmlər doktoru, professor*
**Kamandar Şərifov**

*tarix üzrə elmlər doktoru, professor*
**Şahin Fərzəliyev**

*filologiya üzrə elmlər doktoru, professor*
**Nəsrulla Məmmədov**

*filologiya üzrə elmlər doktoru*
**Nəsib Göyüşov**

*fəlsəfə üzrə elmlər doktoru*
**Zəkiyyə Əbilova**

*ilahiyyat üzrə fəlsəfə doktoru*
**Səbinə Nemətzadə**

Əllamə Məclisi kimi ilahiyyat aliminin "Biharül-ənvar" adlı yetkin bir elmi əsər yazıb ortaya qoyması XVII əsrdə Azərbaycan Səfəvilər dövlətinin elm və mədəniyyətə verdiyi yüksək diqqətdən xəbər verir. Əllamə Məclisi Azərbaycan İslam mədəniyyəti tarixində iyirmidən artıq hədis aliminin yetişməsində mühüm rol oynamış, onun özünün yetişməsində isə Ağa Hüseyn əl-Xansari və Molla Xəlil əl-Qəzvini kimi Azərbaycan alimlərinin böyük xidmətləri olmuşdur. Buna görə də Əllamə Məclisinin həyat və yaradıcılığına diqqət yetirmək, onun ən böyük elmi əsərini və bu əsərin mənbələrini tədqiq etmək, onun İslam ilahiyyatüşünaslığındakı yerini müəyyənləşdirmək aktual əhəmiyyət kəsb edir.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

# ELMİ REDAKTORDAN

Məlum olduğu kimi, İslam dininin, xüsusilə də müsəlman hüququnun Qurani-Kərimdən sonra ikinci mühüm və başlıca qaynağı hədislər sayılır. Məhəmməd peyğəmbərin (s) mübarək kəlamlarını, o həzrətin həyatı və davranışları ilə bağlı rəvayətləri özündə birləşdirən hədislər ümumiyyətlə İslamın, xüsusilə də İslam əxlaqının başlıca prinsiplərini ehtiva edir və bu baxımdan böyük ictimai-siyasi, əxlaqi-tərbiyəvi əhəmiyyət daşıyır. Məhz buna görə də Azərbaycan dövlət müstəqilliyi qazandıqdan sonra ölkədə yaranan demokratik şəraitin nəticəsi olaraq hədislərin öyrənilməsinə başlanılmış və bu sahədə bir sıra dəyərli elmi araşdırmalar ortaya qoyulmuşdur. Bununla belə, ayrı-ayrı orta əsr müəlliflərinin, xüsusilə də birbaşa Azərbaycanla bağlı görkəmli alimlərin hədis elminə dair əsərləri hələ də yetərincə tədqiq olunmamışdır. Bu baxımdan dinşünas alim, fəlsəfə üzrə fəlsəfə doktoru Quliyev İbrahim Zöhrab oğlunun "Əllamə Məclisi və onun "Biharül-ənvar" əsərinin hədis tarixində yeri" adlı kitabı bu sahədə mövcud olan boşluğu doldurmağa xidmət edir və elmi əhəmiyyət daşıyır. Kitabda Azərbaycanda ilk dəfə olaraq Səfəvilər dövrünün böyük alimi və nüfuzlu dövlət xadimi Əllamə Məclisinin elmi irsi araşdırılır, onun hədis elmi sahəsindəki yeri müəyyənləşdirilir.

Dövrünün ən görkəmli ilahiyyatçı alimi kimi tanınan Əllamə Məhəmməd Bağır Məclisi XVII yüzillikdə Səfəvilər dövlətində ən böyük vəzifələrdən birini – Şeyxülislam vəzifəsini tutmuş və İslam ilahiyyatının inkişafına öz töhfələrini vermişdir. Alim həm də bilavasitə Azərbaycanla bağlı bir sıra mühüm işlərin yerinə yetirilməsi sahəsində səmərəli fəaliyyət göstərmişdir ki, bu da onun istər həyat və fəaliyyətinin, istərsə də elmi irsinin, xüsusilə də fundamental bir əsər olan "Biharül-ənvar"ın tədqiqinin aktuallığını sübuta yetirir. Qeyd etmək lazımdır ki, Əllamə Məclisiyə qədər hədis elmi müsəlman Şərqində çox inkişaf etmiş və bu sahədə bir sıra mötəbər, sanballı əsərlər ortaya qoyulmuşdur. Əllamə Məclisinin "Biharül-ənvar" əsərinin isə üstünlüyü və yeniliyi ondadır ki, müəllif bu nəhəng kitabda mövcud qaynaqlara tənqidi yanaşmış, onlardakı müsbət cəhətləti əxz edərək ümumi bir məxrəcə gəlməyə, barışdırıcı mövqe tutmağa çalışmış, ümumislam dəyərləri və mənafelərinə üstünlük vermişdir. İ.Z.Quliyevin də bu tədqiqatında başlıca üstün cəhətlərindən biri odur ki, araşdırdığı əsərdə bu məsələlərə xüsusi diqqət yetirmiş, onları müasir elmi tələblər səviyyəsində təhlil etmiş və bir sıra maraqlı elmi nəticələr ortaya qoymağa nail olmuşdur. Müəllifin özünün bu sahədə təcrübəli mütəxəssis kimi ilahiyyata, Şərq mənbələrinə bələdliyi öz müsbət nəticəsini göstərmişdir.

Kitabın yazılmasında istifadə olunan nəzəri ədəbiyyat və qaynaqlar da zənginliyi, rəngarəngliyi ilə seçilir ki, bu da kitabın uğurlu olmasında az rol oynamamışdır.

Kitab qarşıya qoyulan məsələlərin zəruriliyi və vacibliyi, əldə edilmiş nəticələrin elmi əhəmiyyəti ilə diqqəti çəkir. Müəllifin gəldiyi qənaət və nəticələr qənaətbəxşdir və elmi şəkildə əsaslandırılmışdır.

Bütün bunları nəzərə alaraq hesab edirik ki, Quliyev İbrahim Zöhrab oğlunun "Əllamə Məclisi və onun "Biharül-ənvar" əsərinin hədis tarixində yeri" adlı kitabını çapa tövsiyə etmək olar.

***Möhsün Nağısoylu***
*akademik*

## ELMİ MƏSLƏHƏTÇİDƏN

Müasir dövrdə dinə qayıdış, dinin əhəmiyyətinin dərk olunması tendensiyası müşahidə edilməkdədir. Bu gün artıq keçmiş dəyərlərə yenidən nəzər salmaq, onları müasir dövrdə yaşatmaq nəzərə çarpmaqdadır. Belə ki, Sovetlər dövründə dinə və din adamlarına qarşı olan təzyiqlər haradasa dini irsin araşdırılmasının qarşısını almışdır. Ancaq, müstəqillik dövrü bu tendensiyanın əks tərəfini ortaya çıxardı.

Belə ki, dinşünas alim, fəlsəfə üzrə fəlsəfə doktoru Quliyev İbrahim Zöhrab oğlunun "Əllamə Məclisi və onun "Biharül-ənvar" əsərinin hədis tarixində yeri" adlı kitabı keçmiş irsin tədqiqinə həsr olunmuş əsərlərdən biri kimi böyük əhəmiyyət kəsb etməkdədir. Kitab giriş, altı fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Girişdə müəllif mövzunun müasir dövrdəki aktuallığını, onun elmi yeniliyini, din və təbiətşünaslığın bir-birinə olan müsbət münasibətini, dinin elmə əsaslandığını, Quran və hədislərdə hələlik kəşf edilməmiş elmi sirlərin olduğunu, dinin mahiyyəti, onun idrak və qnoseoloji kökləri, cəmiyyətdəki yeri haqqında məlumatlar vermiş və qoyulmuş hər bir problemi elmi əsaslarla əsaslandırmağa çalışmışdır.

Kitabın birinci fəsli **"Əllamə Məclisinin dövrü, həyatı və elmi-dini fəaliyyəti"** adlanır. Burada müəllif Məhəmməd Bağır Məclisinin həyat və yaradıcılığını tədqiq edərək göstərmişdir ki, o, Səfəvi və Osmanlının ən qarışıq siyasi dövründə dünyaya göz açmış və bu dini-siyasi mühitdə böyümüşdür. Müəllif qeyd etmişdir ki, onun siyasi fəaliyyəti nəticəsində dini hökmlərin icra dairəsi genişlənmiş, bütün ölkədə elm və mədəniyyətin inkişafına təkan vermiş, zalım məmurlar vəzifədən kənarlaşdırılmışdı. Bu fəsildə ayrıca Əllamə Məclisinin dini-elmi yaradıcılığı da tədqiq edilmişdir. Müəllif burada Əllamə Məclisinin müəllimləri ilə yanaşı, tələbələri haqqında da məlumat vermişdir. Əllamə Məclisi çoxlu sayda tələbə yetişdirmişdir. Seyid Əhməd əl-Hüseyninin verdiyi məlumata görə, onun tələbələrinin sayı 274 nəfər olmuşdur. Hətta əl-Hüseyni onların hamısının avtobioqrafiyasını bir-bir "Təlamizətu-Əllamə Məclisi" əsərində qeyd etmiş və bunlardan iyirmi dördünün azərbaycanlı olduğunu bildirmişdır.

İ.Z.Quliyev burada Əllamə Məclisinin dinə, elm və fəlsəfəyə münasibətini də xüsusi qeyd etmiş və bu haqda fikirlərini irəli sürmüşdür. Belə ki, Əllamə Məclisi, şəriətin zahiri cahil və zəif ruhlu adamlar üçün, batini isə yüksək dərəcədə məlumat və mədəniyyət sahibləri üçün olduğunu deyir. Bundan ötrü isə İslam şəriətinə mükəmməl vaqif olmaq və nəzəri elmlər sahəsində müəyyən bir səviyyəyə çatmağı şərt bilir. Əllamə Məclisinin elmi-fəlsəfi görüşlərində İbn Sinanın təbiət elmləri sahəsində yazdığı əsərlər əsas qaynaq təşkil edir. O, əxlaqı dinin tərkib hissəsi kimi görərək bu haqda xeyli rəvayətlər nəql etmiş və onları elmi-fəlsəfi baxımdan dəyərləndirmişdir. Bu da kitabın əhəmiyyətini bir az da artırmaqdadır.

İkinci fəsil **"Əllamə Məclisinin "Biharül-ənvar" əsərinin hədis elmində yeri"** adlanır. Müəllif bu fəsildə əsasən "Biharül-ənvar" əsərinin İslam ilahiyyatşünaslığındakı, xüsusilə də hədis elmindəki yeri və rolunu tədqiq etmişdir. Hədis qaynaqlarında "Biharül-ənvar"ın oynadığı rolu geniş şərh edən müəllif göstərməyə çalışmışdır ki, bu əsər hədis elmi ilə yanaşı, bütövlükdə İslam ilahiyyatşünaslığı sahəsində də ən yaxşı örnəklərdən biridir.

Müəllif qeyd edir ki, "Biharül-ənvar" dini elmlər sahəsində ensiklopedik xüsusiyyət daşısa da, onun barəsində aparılan tədqiqatlar əsərdə olan bəzi naqislikləri üzə çıxarmaqdadır. "Biharül-ənvar" səhih xəbərlərlə yanaşı, bəzi zəif və uydurma rəvayətləri də ehtiva etməkdədir. Musa əl-Musəvfinin də bildirdiyi kimi, əsər zəngin bir mədəniyyət xəzinəsi olmasına baxmayaraq, əsassız olaraq bir çox məlumatlarla da doludur.

Üçüncü fəsil **"Əllamə Məclisinin "Biharül-ənvar" əsərində kainatın yaradılışı"** adlanır. Müəllif burada kainatın yaranması məsələsinə din və təbiətşünaslıq elmlərinin yanaşmalarını, yer və göylərin yaradılma mərhələlərini və bu problemlərin Əllamə Məclisinin nəql etdiyi hədislər çərçivəsində dəyərləndirilməsi məqamlarını araşdırmışdır. Burada diqqəti çəkən məqamlardan biri budur ki, müəllif hərtərəfli tədqiqatçılıq səriştəsi göstərərək qeyd olunmuş problemləri müasir elmi nailiyyətlər əsasında da təhlil etmişdir.

Dördüncü fəsil **"Əllamə Məclisinin "Biharül-ənvar" əsərində canlıların yaradılması"** adlanır. Müəllif burada "Mələklərin və cinlərin yaradılması" və "Bitki və heyvanların yaradılması, yayılıb inkişaf etməsi" başlıqları altında mövzunu dini və elmi cəhətdən araşdırmışdır.

Beşinci fəsil **"Əllamə Məclisinin "Biharül-ənvar" əsərində ilk insanın yaradılması"** adlanır. Müəllif burada böyük elmi-dini əhəmiyyəti olan problemlərə toxunmuş və onları təhlil etmişdir. Burada həzrət Adəmin (ə), həzrət Həvvanın (ə) yaradılışı, həzrət Adəmin (ə) yaradıldığı gün, həzrət Adəmdən (ə) əvvəl dünyada insanların varlığı, Quranda insanın yaradılışına aid müddəaların elmlə üst-üstə düşməsi, insanın yaranışına aid materialist baxış və onun tənqidi-təhlili, təkamül nəzəriyyəsinə müasir baxış adlı məsələlər təhlil və tədqiq edilmişdir. Burada diqqəti çəkən məqamlardan biri də mövzuya materialistlərin baxışının və onların bu məsələlərdəki nəzəriyyələrinin də araşdırılması və nəhayət, onların baxışlarının elmi-dini cəhətdən təhlil edilməsidir.

Altıncı fəsil **"Əllamə Məclisinin "Biharül-ənvar" əsərində vəhyin mahiyyəti və növləri"** adlanır. Müəllif burada "Biharül-ənvar" əsəri kontekstində vəhy, onun keyfiyyəti və növləri haqqında geniş məlumat vermiş və onun səmavi mahiyyətini açmağa çalışmışdır.

Müəllif kitabın sonunda gəldiyi nəticələri ümumiləşdirmiş və sistemləşdirmişdir.

Daha sonra isə müəllif istifadə etdiyi ədəbiyyat siyahısını qeyd etmiş və bununla da kitabın zəngin və mötəbər mənbələr əsasında yazıldığını ortaya qoymuşdur.

Bütün bunlarla yanaşı, qeyd etmək istəyirik ki, dinşünas alim Quliyev İbrahim Zöhrab oğlunun "Əllamə Məclisi və onun "Biharül-ənvar" əsərinin hədis tarixində yeri" adlı kitabı dərin elmi-dini və fəlsəfi əhəmiyyət kəsb edir. Ona görə də kitabın çapa tövsiyə olunması məqsədəuyğundur.

***Sakit Hüseynov***
*fəlsəfə üzrə elmlər doktoru, professor*

# GİRİŞ

İslam mədəniyyəti tarixinin korifey alimlərindən sayılan Əllamə Məhəmməd Bağır Məclisinin İslam ilahiyyatşünaslığındakı, xüsusilə də hədis elmindəki müstəsna xidmətlərini öyrənmək və tədqiq etmək müasir dövrümüz üçün böyük əhəmiyyət kəsb edir. Onun ilahiyyat elmləri, xüsusilə də bu elmlərin əsaslarından biri olan hədis elmləri sahəsində ensiklopedik xarakter daşıyan "Biharül-ənvar" əsərinin hədisşünaslıq elminin araşdırılması baxımından aktuallıq kəsb etməsi sözü gedən sahə üzrə mütəxəssis olan hər kəsə yaxşı məlumdur.

Qeyd edək ki, Əllamə Məhəmməd Bağır Məclisinin "Biharül-ənvar" əsəri İslam ilahiyyatını öyrənməklə yanaşı, təbiətşünaslıq elmlərini öyrənib tədqiq etmək baxımından da mötəbər və sanballı bir əsərdir. Əbəs deyildir ki, yazılmasından 300 ildən artıq bir vaxtın keçməsinə baxmayaraq, əsər hələ də müsəlman aləmindəki şöhrətini itirməmiş, əksinə, zaman ötdükcə daha da məşhurlaşmışdır. Təəssüflər olsun ki, ölkəmizdə indiyə kimi belə bir mötəbər və fundamental əsər haqqında heç bir araşdırma aparılmamışdır. Amma İran alimləri əsəri fars dilinə tərcümə etmiş, müasir dövr Cənubi Azərbaycan ilahiyyatşünaslığının ən görkəmli nümayəndəsi olan Əllamə Məhəmmədhüseyn Təbatəbai Təbrizi (öl. 1983) 110 cildlik bu əsərin altı cildini təshih etmiş, onun hədislərinin hansı kateqoriyaya aid olduğunu göstərmişdir. Təəssüflər olsun ki, Əllamə Təbatəbai müəyyən səbəblər üzündən bu işi başa çatdıra bilməmişdir.

Əlinizdəki bu kitab konkret olaraq Əllamə Məclisinin (1628-1700) həyatı və fəaliyyəti, onun məşhur "Biharül-ənvar" əsərinin elmi-dini yöndən təhlili, "Biharül-ənvar" əsəri kontekstində kainatın yaranmasına, yer üzündə həyatın əmələ gəlməsinə elmi-dini baxış və bir sözlə, din (İslam) və təbiətşünaslıq mövzusuna həsr edilmişdir. Kitabın adından da göründüyü kimi, mövzunun tədqiqi üçün XVII əsrin ensiklopedik alimi Əllamə Məhəmməd Bağır Məclisinin "Biharül-ənvar" əsəri əsas götürülmüş, bununla yanaşı, elektron resurslardan da geniş istifadə edilmişdir.

Tədqiqat prosesində sovetlər dönəmində ölkəmizdə dinin əleyhinə yazılmış əsərlərdə, Karl Marks (1818-1883), Fridrix Engels (1820-1895), Vladimir Lenin (1870-1924) kimi dialektik materializmin bani və tərəfdarlarının kitablarında yer almış mülahizələrə tənqidi yanaşılmış, darvinizm nəzəriyyəsinin çürük və qeyri-elmi olduğu elmi-dini əsalarla sübuta yetirilmişdir.

Beləliklə, kitabda qeyd edilmiş məqsədlərə nail olmaq üçün aşağıdakı vəzifələr yerinə yetirilmişdir:

- Əllamə Məclisinin yetişdiyi dövrün nəzərdən keçirilməsi, onun həyat və fəaliyyətinin elmi şəkildə araşdırılması;
-"Biharül-ənvar" əsərinin İslam ilahiyyatşünaslığında, xüsusilə də hədis tarixindəki yerinin müəyyənləşdirilməsi;
- "Biharül-ənvar" əsərinin mənbələrinin quruluşunun və məzmununun təsviri və təhlili, mənbələrlə "Biharül-ənvar" əsəri arasında paralellər aparılması;
- "Biharül-ənvar" əsərinin Azərbaycan ilahiyyatşünaslığının inkişafındakı rolunun müəyyənləşdirilməsi;
- "Biharül-ənvar" əsərinin mənbələrinin müəllifləri haqqında məlumatların sistemləşdirilməsi;

- Əllamə Məclisinin mövcud mənbələrdən istifadə metodunun müəyyənləşdirilməsi və bu yolla "Biharül-ənvar" əsərinin elmi-tədqiqat əsəri olmasının sübuta yetirilməsi;

-Kainatın yaradılması haqqındakı elmi-dini nəzəriyyələr və Əllamə Məclisinin bu problemlərlə bağlı nəql etdiyi hədislərin təhlili;

-İnsanın yaranması və çoxalması, insandan əvvəl yer üzündə şüurlu varlıqların olub-olmaması məsələsinə elmi-dini baxış və mövzu ilə əlaqəli "Biharül-ənvar"dakı hədislərin təhlili;

-İnsandan başqa digər şüurlu varlıqların (cin və mələklərin) yaradılışı və "Biharül-ənvar" baxımından mövzunun tədqiq-təhlili;

-Əllamə Məclisiyə görə vəhy, onun mahiyyəti, keyfiyyəti və növləri.

Kitab giriş, altı fəsil, nəticə və istifadə olunmuş mənbə və ədəbiyyat siyahısından ibarətdir.

Bütün irad və təkliflərin **quliyev.ibrahim.78@mail.ru** ünvanına göndərilməsi xahiş olunur.

# I FƏSİL

# ƏLLAMƏ MƏHƏMMƏD BAĞIR MƏCLİSİNİN DÖVRÜ, HƏYATI VƏ ELMİ-DİNİ FƏALİYYƏTİ

## 1.1. Əllamə Məhəmməd Bağır Məclisinin dövrü

Şah İsmayıl Səfəvi tərəfindən əsası qoyulan mərkəzləşdirilmiş Səfəvilər dövləti Azərbaycan tarixinin qızıl dövrü hesab olunur. Səfəvilər dövlətində dini islahatlar həyata keçirən Şah İsmayıl 1501-ci ilin payızında - Səfəvi hakimiyyətinin ilk günündən etibarən dövlətin müqəddəs İslam dini və onun əsasları üzərində qurulduğunu elan etdi. XVII əsrin ikinci yarısınadək müxtəlif inkişaf mərhələləri keçən Səfəvilər bu əsrdə bir neçə dəfə Osmanlı xilafətinin hücumlarına məruz qalmışdılar. Səfəvilərlə Osmanlılar arasında həlledici döyüşlərdən biri də 1618-ci ilin sentyabr ayında olmuşdur. Bu döyüşdən qalibiyyətlə çıxan Səfəvi hökmdarı I Şah Abbas həmin ilin 26 sentyabrında Xəlil Paşa ilə sülh müqaviləsi imzaladı. Lakin bu müqavilədən az keçməmiş Osmanlı imperiyasında hərc-mərclik başladı. Bundan istifadə edən I Şah Abbas 1622-1623-cü illərdə sülh müqaviləsini pozaraq Bağdad, Kərbəla, Nəcəf, Mosul və Kərkük şəhərlərini tutdu. 1624-1626-cı illər arasında Bağdad uğrunda Səfəvi-Osmanlı müharibəsi I Şah Abbasın qələbəsi ilə başa çatdı.

1629-cu ilin yanvar ayında I Şah Abbas vəfat edəndə Axalsık daxil olmaqla bütün Azərbaycan Səfəvilərin hakimiyyəti altında idi. Lakin osmanlılar Bağdadı almaqda daha israrlı idilər. Buna görə də I Şah Abbasın nəvəsi I Səfinin (1629-1642) hakimiyyətə keçməsindən istifadə edən IV Murad 1629-cu ildə Səfəvilərə qarşı hərbi əməliyyatlara başladı. Beləliklə, Xosrov paşanın komandanlığı altında Səfəvi torpaqlarına osmanlı hücumları başlandı. Xosrov paşa iyun ayında Həmədanı tutdu, lakin əks hücumdan qorxaraq 6 gündən sonra şəhəri tərk etdi.

1630-cu illərin ortalarında baş vermiş Səfəvi-Osmanlı müharibələrində I Şah Səfi qalib çıxdı. Lakin Osmanlı sarayında Bağdadı ələ keçirmək planı qüvvədən düşməmişdi. 1637-ci ildə Səfəvilərə osmanlıların hücum edəcəkləri haqqında xəbər yetişdi. Bu xəbəri alan I Şah Səfi Rüstəm xanın və Şahverdi xanın komandanlığı altında 12 minlik ordunu osmanlıların qarşısına çıxardı. Lakin onlar osmanlıların qarşısını ala bilmədilər. Beləliklə, 1638-ci ilin dekabr ayında IV Murad Bağdadı aldı. 1639-cu ilin martında imzalanmış sülh müqaviləsi nəticəsində Səfəvi-Osmanlı müharibəsi sona yetdi. Bundan sonra XVII əsrin ikinci yarısında Səfəvilər dövlətinin siyasi həyatında nəzərə çarpan hadisə baş verməmiş, əsasən dinc inkişaf şəraiti hökm sürmüşdür. Bu ərəfədə Azərbaycan ərazisi inzibati bölgüsünə görə 4 vilayətdən (Təbriz, Çuxursəd, Qarabağ və Şirvan) ibarət idi. Bu vilayətləri İsfahan şah sarayının sərəncamı ilə bəylərbəyi idarə edirdi.

Səfəvilər dövlətində məhkəmə orqanları Şeyxülislamın başçılığı altında fəaliyyət göstərir, müsəlman şəriət normalarına əsaslanırdı. Azərbaycan şəhərlərində hakimlərin başçılığı ilə çoxsaylı dövlət məmurları çalışan mürəkkəb idarə aparatı var idi.[1] Uzun illər Təbrizdə məhkəmə başçısı olmuş Mövlana Rəcəbəli Vahid Təbrizi və

---

[1] Azərbaycan tarixi. 7 cilddə. III c. Bakı, Elm nəşriyyatı, 2007. s. 291.

digər azərbaycanlılar Səfəvilər dövlətində müxtəlif elm sahələrinin inkişafında mühüm rol oynamışlar. Bu alimlər arasında ensiklopedik bilik sahibi olan Məhəmmədhüseyn Xələf oğlu, Ağa Hüseyn Xansari, Mirzə Abdullah Əfəndi Təbrizi, Mövlana Mirzə Məhəmməd Həsənoğlu və Mövlana Mirzə Məhəmmədhəsən oğlu Şirvani xüsusilə qeyd edilmləlidir. Mövlana Şirvani bir müddət Nəcəf şəhərində yaşamış, lakin Şah Süleyman Səfəvinin xahişi ilə İsfahana dönmüş və orada yaşayıb yaratmışdı.

Məlum olduğu kimi, XVI-XVII əsrlərdə Səfəvilər ərazisində maarif və məktəb işləri ruhanilərin ixtiyarında idi. Bu ərəfədə Azərbaycanda da uşaqların təhsili məscidlərin nəzdində olan mədrəsələrdə aparılırdı. Bu dövrlərdə Azərbaycan-türk dilində dərs vəsaitlərinin çox az olması səbəbilə ərəb və fars dillərində olan dərsliklərdən istifadə edilirdi. Mədrəsələrdə tədris olunan fənlər sırasında ilahiyyat dərsləri xüsusilə böyük əhəmiyyət daşıyırdı. 1647-ci ildə Təbrizdə 600, Şamaxıda isə 40 məktəb və 7 mədrəsə vardı. Bu mədrəsələrdə yuxarıda adlarını çəkdiyimiz alimlər dərs deyirdilər.

Səfəvilərin bu dövrdəki iqtisadi vəziyyətinə gəldikdə isə demək olar ki, XVII əsrdə Azərbaycanda yerli bazarların formalaşmasında müəyyən inkişaf nəzərə çarpırdı. Bir sıra şəhərlər ayrı-ayrı vilayətlərin, ən böyük şəhərlər isə bütün ölkənin iqtisadi mərkəzlərinə çevrilirdi. Avropa səyyahlarının məlumatlarına görə, Azərbaycan şəhərlərinin üstüörtülü bazarlarında ticarət cərgələri düzəldilir, müxtəlif yerli və xarici mallar satılırdı.

Ticarət dövriyyəsi və sənətkarlıq istehsalı baxımından Təbriz şəhəri xüsusilə fərqlənirdi. Böyük karvan yollarının ayrıcında yerləşmiş və təxminən yarım əsr ərzində Azərbaycan Səfəvilər dövlətinin paytaxtı olmuş bu şəhər XVII əsrin ortalarından etibarən böyük iqtisadi mərkəz mövqeyini bərpa etmişdi. Şamaxı şəhəri də Səfəvi dövlətinin daxili ticarətində boyük rol oynamışdı. Naxçıvan bazarlarında olan intensiv ticarət gedir, uzun və üstüörtülü küçələrin hər iki tərəfində köşklər qurulur, müxtəlif sənətkarlıq və ərzaq məhsulları satılırdı.

XVII əsrin ortalarında və II yarısında Azərbaycanın qonşu ölkələrlə, həmçinin qərblə ticarət əlaqələri canlanmışdı. Səfəvi dövləti ilə Osmanlı imperiyası arasında bərqərar olmuş sabit münasibətlər Aralıq dənizindəki limanlar vasitəsi ilə Qərbi Avropa ölkələri, habelə Venetsiya, Genuya ilə ticarətin bərpa olunması üçün şərait yaratmışdı. Moskva dövləti ilə də ticarət münasibətləri canlanmaqda idi. Marağada, Mərənddə, Qarabağda, Muğanda və başqa Azərbaycan bölgələrində bəslənilmiş atlara, dəvələrə Osmanlı imperiyasında böyük maraq vardı. Azərəbaycan tacirləri Venetsiya, Genuya, Fransa ilə sıx iqtisadi əlaqələri Osmanlı dövləti ərazisindəki ticarət yolları vasitəsilə həyata keçirirdilər. XVII əsrdə Azərbaycanla Hindistan arasında da geniş ticarət əlaqələri yaranmışdı.

Səfəvi ərazisi içərisində İsfahan şəhərinin iqtisadi inkişafı daha da sürətlə inkişaf etdirilirdi. Çünki Səfəvi şahlarının buranı özlərinə paytaxt seçmələri şəhərin maddi mədəniyyət və digər sahələrdə qüvvətli inkişafına səbəb olmuşdur. Artıq burada yeni-yeni binalar tikilir, məktəb və mədrəsələrin maddi-texniki bazası yeniləşdirilir və ölkə üzrə ən tanınmış alimlər və müəllimlər buraya cəlb olunurdu.

Bundan başqa, Xorasan bölgəsindən və Kaşan şəhərinin də iqtisadi inkişafı nəzərə çarpacaq dərəcədə irəliləmişdi. Təkcə Xorasanda olan VII imam Rzanın (ə)

məqbərəsinin qızıldan tikilməsi (bura 400 kq-dan artıq qızıl işlənmişdir) həmin şəhərin iqtisadi baxımdan necə inkişaf etməsini sübut edir.

Səfəvilər dövründə elm və mədəniyyətin inkişafı da diqqətdən qaçmamalıdır. Səfəvilər dövlətində elm və mədəniyyətin inkişafına töhfə vermiş alimlərdən biri də Əllamə Məclisidir. Onun həyatı və elmi fəaliyyəti XVII əsrin ikinci yarısına təsadüf edir. Daha dəqiq desək, Səfəvilərdən Şah Səfinin (1629-1642), II Şah Abbasın (1642-1666), Şah Süleyman Səfəvinin (1666-1694) və Şah Sultan Hüseynin (1694-1722) zamanında yaşayıb yaratmışdır. O, azərbaycanlı alim Ağa Hüseyn Xansarinin vəfatından sonra hicri 1098-ci (miladi 1687) ildə Şah Süleyman Səfəvi tərəfindən şeyxülislam vəzifəsinə təyin edilmiş və ömrünün sonunadək bu vəzifəni icra etmişdir. Şeyxülislamlıq məqamı isə o dövrün ən yüksək icraçı orqanı sayılırdı. Əllamə Məclisi 7 il Süleyman şahın, 5 il isə Sultan Hüseynin dövründə şeyxülislam vəzifəsini daşımışdır.

Əllamə Məclisinin siyasi fəaliyyəti əsasən onun şeyxülislamlıq vəzifəsinə təyin edilməsindən sonra başlamışdır. Bu dövrdə onun mühüm siyasi fəaliyyətləri sırasında aşağıdakı məqamlar xüsusi diqqətə layiqdir:

1) Əllamə Məclisi şeyxülislam olan kimi onun əmrilə İsfahan şəhərindəki hind bütpərəstlərinin bütü sındırıldı. Hadisə belə baş vermişdir:

“Bir gün Əllamə Məclisinin qulağına çatır ki, hind bütpərəstləri İsfahan şəhərində gizli bir bütə sitayiş edirlər. O, bütün sındırılması üçün şəriətə uyğun hökm verir və kafirlərin əks təsiri heç bir fayda vermədi”. Məclisinin bu fitvasının əhəmiyyəti onda idi ki, bütpərəstliklə İslam bir-birinə zidd olduğu üçün hindlilərin Səfəvi paytaxtında bütə sitayiş etmələri siyasi baxımdan zərərli idi.

2) Sultan Hüseynin dövründə şahın tacqoyma mərasimində hökmdar icazə vermişdi ki, qılıncı onun belinə sufilərdən biri bağlasın. Lakin Sultan Hüseyn qəflətən fikrini dəyişərək bu işin Şeyxülislam tərəfindən həyata keçirilməsini istədi. Əllamə Məclisi qılıncı onun belinə bağladı və tacqoyma mərasimində xütbəni özü oxudu. Şah onun bu işinə minnətdarlıq olaraq söz verdi ki, onun hər hansı bir istəyini həyata keçirəcək. Əllamə Məclisi bu fürsətdən istifadə edərək şahdan üç şey istədi: 1) Şərab içmək qadağan olunsun, 2) Tayfaların bir-birləri ilə müharibə etmələri qadağan olunsun, 3) Göyərçinlə oynamaq qadağan olunsun.

Şah dərhal Şeyxülislamın istəklərinin həyata keçrilməsi haqqında əmr verdi.

Əllamə Məclisinin ikinci və üçüncü istəyinin nə dərəcədə əhəmiyyətli olması üçün İsfahan və İranın digər şəhərlərinin həmin dövrdəki durumu nəzərə alınmalıdır. Belə ki, o dövrdə bəzi məmurlar bu işlərlə məşğul olmaqla xalqa əziyyət verirdilər. Tayfalar arasındakı tez-tez baş verən toqquşmaların əsası isə I Şah Abbas dövründə qoyulmuşdur. Bu da xeyli insanın tələf olması ilə nəticələnirdi. Bu iki məsələ o dövrdə ictimai problemlərdən idi.

Şeyxülislamın birinci istəyinə gəldikdə, bu məsələyə daha çox diqqət yetirmək lazımdır. Çünki Əllamə Məclisi bu istəyi vasitəsilə uzaqgörənlik edərək Səfəvilərin gələcək taleyini həll etmiş oldu. O, Şah Süleymanın və digər saray məmurlarının şəraba aludəçiliyini bilirdi. Əllamə Məclisinin vəfatından sonra Şah Hüseynin şəraba aludəçiliyi ucbatından əfqanların onlara hücumu nəticəsində taxt-tacı Mahmud Əfqana təslim etməsi alimin siyasi uzaqgörənliyindən xəbər verir.

3) Əllamə Məclisinin siyasi addımlarından biri də şahın xalqla olan rəftarı barədə bir traktat yazması oldu. O, İmam Əlinin (ə) Malik Əştərə yazdığı əhdnaməni sadə bir dildə farscaya çevirərək saray əyanları içərisində oxunmasını təmin etdi. Bununla da Şeyxülislam dövlət məmurlarına xalqla necə rəftar etməyi, zülm və pozğunçuluğa son qoymağı və dövləti idarə etməkdə səhlənkarlığa yol verməməyi öyrətmiş oldu.

Əllamə Məclisinin siyasi fəaliyyəti nəticəsində dini hökmlərin icra dairəsi genişlənmiş, bütün ölkədə elm və mədəniyyətin inkişafına təkan verilmiş, zalım məmurlar vəzifədən kənarlaşdırılmışdı.

## 1.2. Əllamə Məhəmməd Bağır Məclisinin həyatı və elmi-dini fəaliyyəti

Hədis ədəbiyyatı tarixinin ən ğörkəmli nümayəndələrindən biri XVII əsrin ensiklopedik bilik sahibi Əllamə Məhəmməd Bağır Məclisi dövrünün məşhur müctəhidi Məhəmməd Tağı bin Maqsud Əli Məclisi Əvvəlin oğludur. Bəzi mənbələrə görə, onun nəsli Livanın Cəbəlülamil bölgəsindən olub Şah İsmayıl Səfəvinin dövründə İrana gəlib məskunlaşmışdır.[2] Əllamə Məclisinin “Məclisi” ləqəbini daşımasının səbəbi həm atasının, həm də onun evinin daim alimlər yığıncağı (məclisi) olmasına görədir. Onun adı Məhəmməd Bağır, ləqəbi isə Əllamə Məclisi əs-Sanidir. Daha çox Əllamə Məclisi adı ilə tanınır.

Əllamə Məclisi müsəlman dünyasında ən çox müraciət edilən alimlərdəndir. Alimin elm aləmindəki titullarının sırasında “Əllamə”, “Xatəmül-mühəddisin”, “Şeyxülislam” və s. göstərilir.[3]

Əllamə Məclisinin doğum tarixi dəqiq bilinmir. Mənbələr onun doğum tarixi kimi müxtəlif illəri göstərməkdədir. Belə ki, ərəb alimi Seyid Möhsün əl-Əmin (öl. 1953) yazır: “O, hicri 1027-ci (miladi 1618) ildə İsfahanda doğulmuşdur”.[4] Əbdülhüseyn bin Məhəmməd Xatunabadi isə onun 1037-ci (miladi 1627) ildə doğulduğu qənaətindədir.[5] Bu fikri XX əsrin məşhur İran alimi Əli Əkbər Dehxuda da “Lüğətnamə” əsərində təsdiq etməkdədir.

Əllamə Məclisi hicri 1110-cu (miladi 1699/1700) ildə İsfahanda vəfat etmişdir.[6] Lakin bəzi müəlliflər onun vəfatının hicri 1111-ci ildə ramazan ayının 27-də (miladi 18. 03. 1700) vəfat etməsi qənaətindədirlər. Əllamə Məclisi İsfahan şəhərində öz camisində atasının yanında dəfn edilmişdir.[7]

Əvvəldə qeyd etdiyimiz kimi, Əllamə Məclisi fəzilətli bir alim ailəsində dünyaya gəlmişdir. Şübhəsiz ki, belə bir ailədə doğulub boya-başa çatan şəxs daha savadlı və imanlı böyüməyə hamıdan daha layiqlidir. Onun atası Məhəmməd Tağı Maqsud Əli öz dövrünün məşhur müctəhidlərindən olduğu üçün evi alim və arif insanların gediş-gəliş yeri olmuşdur. Əllamə Məclisinin ulu babası Əbu Nüeym əl-İsfahani da dövrünün tanınmış alimlərindən idi. O, “Tarixül-İsfahan” və “Hilyətül-

---

[2] DİA. 44 cilddə. XXVIII c. Ankara, Diyanet Vakfı Yayınları, II baskı, 2000. “Meclisi” maddəsi.
[3] Seyid Möhsün əl-Əmin. Əyanüş-şiə. 10 cilddə. IX c. Beyrut, Darüt-təarif, 1403/1983. s. 181.
[4] Həmin mənbə. IX c. s. 182.
[5] Məhəmməd Saleh Xatunabadi. Rövzatül-cənnat. II c. ikinci nəşri. s. 154.
[6] Seyid Möhsün əl-Əmin. Əyanüş-şiə. IX c. s. 182.
[7] Məhəmməd Baqir əl-Xansari. Rövzatül-cənnat. 7 cilddə. I c. Qum, Darül-islamiyyə, 1390/1970. s. 123.

övliya" əsərlərinin müəllifidr. Alimin evinə toplaşan insanların Əllamə Məclisinin dünyagörüşünün formalaşmasına təsiri olmuşdur.

Əllamə Məclisinin ailə üzvləri aşağıdakılardan ibarət olmuşdur:

Mövla Abdullah ailənin ortancıl oğlu və dövrünün qabaqcıl alimlərindən biri olmuşdur. Onun haqqında görkəmli azərbaycanlı alim Mirzə Abdullah Əfəndi (1653-1719) yazırdı: "O, şəriət və digər elmləri atasından öyrənmiş, sonra Hindistana səfər edərək orada yaşamışdır. O, təqribən hicri 1074-cü ildə elə orada vəfat etmişdir".[8]

Mövla Əzizullah qardaşı Abdullah kimi dövrünün tanınmış alimlərindən və fəqihlərindən olmuşdur.

Əllamə Məclisinin isə özünün beş qız, beş oğlan olmaqla on övladı olmuşdur. Oğlanları atalarından aldıqları təhsil hesabına öz dövrlərində alim kimi tanınmışdılar.

Əllamə Məclisinin haqqında aparılan tədqiqatlar onun müsəlman alimləri və filosofları tərəfindən həmişə təqdir olunub təriflədiyini göstərir. Mövla Məhəmməd Əli əl-Ərdəbili onun haqqında yazır: "Məhəmməd Bağır Məclisi bizim ustadımız və şeyximiz, həmçinin bütün müsəlmanların şeyxidir. O, xatəmül-müctəhidin, əllamələrin rəhbəri, böyük tədqiqatçı, yüksək mərtəbəli insan və zamanəsinin yeganəsi idi. O, dəqiq və humanitar elmlər sahəsində dərin biliyə yiyələnmiş, güvənilən, əmanətdar və ədalətli bir zat idi".[9]

Hürr Amili (1623/25-1693/95) isə onun haqqında yazırdı: "Mövlana Məclisi fəzilətli, mahir tədqiqatçı, əllamə, dərin anlayışlı, fəqih, filosof və olduqca güvənilən hədisçi və bütün yaxşılıqları öz şəxsində toplayan bir şəxsiyyətdir".[10]

Əllamə Bəhrülulum Təbatəbai: "Mötəbər hədisçilərin sonuncusu, şəriət elmlərinin təbliğ edib yayanı, rəbbani alim, pak imamların xəbərlərinin xidmətçisi və "Biharül-ənvar" əsərinin müəllifi Məhəmməd Bağır din elmlərini bizə bəxş etmişdir".

Məhəmməd Saleh Xatunabadi: "Mövlana Məhəmməd Bağır Məclisi fəqihlərin və hədisşünasların ən böyüyü, öz dövrünün isə din alimlərinin fiqh, təfsir, hədis, rical, fəlsəfə və digər elmləri sahəsində ən ali dərəcəlisi idi".[11]

Yusif əl-Bəhrani (1696-1772): "Dərin düşüncəli əllamə, "Biharül-ənvar"ın müəllifi, xəbərlərin və hədislərin xəzinələrinin əldə edəni, öz dövründə, özündən əvvəlki və özündən sonrakı dövrlərdə tayı-bərabəri olmayan, dinin rəvac verəni, Peyğəmbərin (s) şəriətinin dirçəldicisi, müxtəlif fundamental əsərlərin sahibi... Əllamə Məclisi öz dövründə hədis və digər elmlər sahəsində öndər idi".[12]

Əllamə Möhsün əl-Əmin (öl. 1953): "İslamda bu əzəmətli şəxsə qədər dinə rəvac verən ikinci bir şəxs olmamışdır".[13]

Həqiqətən də onun haqqında deyilmiş bu sözlər göstərir ki, Əllamə Məclisi ömrünün bütün vaxtını İslam ideologiyasının yayılmasına çalışmış zəngin bir alimdir. O, təkcə elmi keyfiyyətləri ilə deyil, eyni zamanda, Allahdan çox qorxan, imanlı, zahid, dünyaya meyil etməyən və gecələri ibadətlə keçirən biri olmuşdur. Bəzi mənbələrin verdiyi məlumatlara görə o, İmam Əlinin (ə) məqbərəsində olarkən ona: "öz bölgən İsfahana get. Sənin cismin orada daha da faydalı olacaqdır" deyilmişdir.

---

[8] Mirzə Abdullah Əfəndi ət-Təbrizi. Riyazül-üləma. 7 cilddə. V c. Qum, 1401 h/q. s. 39-40.
[9] Məhəmməd bin Əli əl-Ərdəbili. Camiür-ruvat. 2 cilddə. I c. Beyrut, 1403/1983. s. 78 .
[10] Hürr əl-Amili. Əməlül-amal. Nəcəfül-əşrəf, 1385/1965. s. 60.
[11] Məhəmməd Bağır Musəvi əl-Xansari. Rövzatül-cənnat. 7 cilddə. Beyrut, Darül-islamiyyə, 1991. I c. s. 121.
[12] Seyid Müsləhəddin Mehdi. Zendeginame Əllamə əl-Məclisi. Tehran, 1344 h/q. s. 44.
[13] Seyid Möhsün əl-Əmin. Əyanüş-şiə. IX c. s. 182-183.

Əlbəttə, bu rəvayətin doğru olub-olmaması elmə məlum olmasa da, bir şey həqiqətdir ki, alimin əsərləri o dövrdə İslam aləmi üçün böyük faydalar vermiş və bu günün özündə də müsəlmanlar o alimin elmi irsindən faydalanmaqdadırlar.

Hədis elmində ən zəruri məsələlərdən biri hədis aliminin əsil-nəsəbinin bilinməsi və onun dərs aldığı ustadların kimliyidir. Bu elmin əsas prinsiplərinə görə, əsil-nəsəbi və ustadları bilinməyən bir şəxsin hədis yazmağa, onu rəvayət etməyə heç bir hüququ yoxdur və onun nəql etdiyi hədislər mötəbər hesab edilmir. Buna görə də burada Əllamə Məclisinin əsil-nəsəbinin və ustadlarının kimliyini araşdıracağıq.

Əllamə Məclisi heç şübhəsiz ki, ilk təhsilini öz atası Məhəmməd Tağı Məclisidən (öl. 1659) almışdır. Onun evi alimlər yığıncağı olduğundan Məclisi ləqəbini almış və soyundan gələnlər də bu ləqəbi daşımışlar.[14] Məhəmməd Əli əl-Ərdəbili onun haqqında yazırdı: "Məhəmməd Tağı Məclisi öz dövrünün yeganəsi, hədis elmində çox güvənilən, uca məqamlı və təqvada ən üstün olan bir şəxs idi".[15]

Hürr Amili isə onun çox fəzilətli, alim, gözəl tədqiqatçı, abid sifətli və hədis elmində çox güvənilən bir şəxs olmasından xəbər verir.[16]

Əllamə Məclisinin atası Məhəmməd Tağıdan başqa aşağıdakı alimlər də onun yetişməsində böyük rol oynamışlar:

1) Şeyxülislam Bəhaəddin əl-Amili. Şeyx Bəhaəddin Amili ömrünün otuz ilini müxtəlif bölgələri gəzmiş və həmin bölgələrdə olan görkəmli alimlərdən dərs almışdır. Mənbələrin verdiyi məlumatlara görə o, artıq on üç yaşında ikən ərəb və fars dillərində mükəmməl danışmışdır. Gənc yaşlarında Hicaza Həcc səfərinə çıxmış və orada bir müddət qalaraq alimlərdən din elmlərini öyrənmişdir. Sonra isə İsfahana qayıtmış və oranın alimlərindən ədəbiyyat, qrammatika, tarix və fəlsəfə elmlərini mənimsəmişdir. Bundan başqa o, dəqiq elmlər sahəsində dərin mütaliələr etmiş riyaziyyat, astronomiya, cəbr və məntiq elmlərində öz dövrünün yeganəsi olmuşdur. Şeyx Bəhaəddin I Şah Abbas tərəfindən Şeyxülislamlıq vəzifəsinə təyin olunmuşdur. 1611-ci ildə I Şah Abbasın əmri ilə Şeyx Bəhaəddin Amili və digər məşhur alimlər Marağa rəsədxanasının bərpası üçün layihə hazırlayıb onu hökmdara təqdim etmişdilər.

Şeyx Bəhaəddin cəbr elminə aid yeni bir üsul qoyaraq buna "Təriqətül-kəffəteyn" və ya "Təriqətül-mizanir-riyazi" adını vermişdir. Alim bu metodla cəbrə aid bəzi elmi problemlərin çox həssas və dəqiq həll yolunu müəyyənləşdirmişdir. O, "Mizan" metodu ilə Xarəzminin "Xətaeyn" kəşfindən yararlanaraq cəbrə aid bir çox problemləri həll etmişdi. Alimin bu metodu sayəsində cəbr elmində kök tapma və çoxdərəcəli tənliklərin həlli yolu öyrənilmişdir. Bundan sonra onun əsərlərini mütaliə edən İsaak Nyuton bu metoddan istifadə edərək həqiqi kök tapmaq məsələsində yeni bir metod işləyib hazırlamışdı. Onun bu metoduna isə "Nyuton-Papson" metodu deyilir. Bu metod vasitəsiylə differansial və inteqral hesabları daha dəqiq həll etmək mümkün oldu.

Şeyx Bəhaəddin eyni zamanda humanitar elmlər sahəsində də böyük xidmətlər göstərmişdir. O, daha çox din elmlərinə aid əsərlər yazmış və bununla da özünü zamanının ən bilikli ilahiyyatçı alimi kimi tanıtmışdır. Alimin yazdığı əsərlərin əsas

[14] Seyid Möhsün əl-Əmin. Əyanüş-şiə. II c. s. 152.
[15] Məhəmməd bin Əli əl-Ərdəbili. Camiür-ruvat. 2 cilddə. II c. s. 82.
[16] Hürr əl-Amili. Əməlül-amal. s. 610.

xüsusiyyəti bir sıra çətin və problemli məsələlərin həllinə nail olmasıdır. Onun əsərlərindən aşağıdakıları qeyd etmək olar:

“Kitabu xülasətil-hisab”, “Kitabu müləxxəsil-hisab vəl-cəbr və amalil-məsaha”, “Kitabül-kəşkül”, “Bəhrül-hisab”, “Risalətül-hilaliyyə”, “Təriqül-əflak”, “Risalə fi cəbri vəl-müqabələ”, “Risalə fi təhqiqi cihətil-qiblə”, “əl-Müləxxəs fil-heyət”, “Risalə ənil-kurə”, “Risalə fil-cəbri əlaqatihi bil-hisab”, “Kitabu ənil-həyat”, “Təfsirül-müsəmma bil-həblil-mətin”, “Haşiyə əla ənvarit-tənzil”, “Risalə fi vəhdətil-vücud”, “Miftahül-fəlah”, “Zübdətül-üsul”, “əl-Hədiqətül-hilaliyyə”, “Hidayətül-ümmət”, “əl-Fəvaidüs-Səmədiyyə”, “Əsrarül-bəlağə”, “Təhzibün-nəhv”, “əl-Mələha”, “Təhzibül-bəyan”.[17]

Şeyx Bəhaəddinin dəqiq elmlər sahəsində ən önəmli əsəri “Xülasətül-hesab”dır. Bu əsər on fəsildən ibarətdir. Müəllif burada riyaziyyat elminin ən mühüm problemlərinin həllini işləyib hazırlamışdır. Əsərin birinci cildində o, təməl hesablama üsullarından bəhs edərək, toplama, çıxma, bölmə, vurma və digər qaydalara toxunmuşdur. İkinci fəsli isə kəsrlə əlaqədar olub üç giriş və altı bölümdən ibarətdir. Bu fəsildə o, kəsrlərin toplanması, çıxılması, vurulması və bölünməsi məsələlərindən bəhs etmişdir. Beləliklə, alim riyaziyyat elminin müxtəlif problemlərini şərh etmişdir. Müəllifin bu əsərini məşhur türk alimi Əbdürrəhim bin Əbu Bəkr “Xülasətül-hisabın şərhi” adı ilə şərh etmişdir. Daha sonra onu Ramazan bin Əbu Hüreyrə əl-Cəzəri “Şərhu xülasətil-hisab” adı ilə şərh etmiş və bununla da əsər İslam aləmində tanınaraq istifadə edilmişdir.

“Xülasətül-hesab” əsəri 1843-cü ildə Berlində alman dilində nəşr edilmiş, 1864-cü ildə isə fransızcaya tərcümə edilmişdir. Müəllif bu əsərində özünəqədərki riyaziyyat alimlərinin toxuna bilmədiyi mühüm problemlərdən bəhs etməklə dünya alimlərini heyrət içində buraxmışdı.

Alim həmçinin “Həblül-mətin” əsərində hind dairəsi terminini şərh etmiş və onun sayəsində qiblənin necə təyin ediləcəyini düzgün şəkildə göstərmişdir.

O, həmçinin öz dövründə şiə dünyasının mərcəi-təqlid müctəhidi olmuşdur. Əllamə Məclisi dəqiq elmləri onun əsərləri vasitəsi ilə oxuyub öyrənmişdir.

2) Məhəmməd Bağır Mirdamad əl-Hüseyni əl-Astarabadi müsəlman dünyasında Aristotel və Fərabidən sonra “Müəllimi-salis” (üçüncü müəllim) ləqəbi ilə şöhrət tapmışdı. Atası Şəmsəddin Məhəmməd “Mühəqqiqi-sani” kimi xatırlanan Əli bin Hüseyn əl-Kərəkinin qızı ilə evləndiyi üçün “Mirdamad” (kürəkən) ləqəbi ilə tanınmışdı. Atasından sonra oğlu Məhəmməd Mirdamad və ya İbn Mirdamad deyə məşhur olmuşdur.

Mirdamad Məşhəddə dayısı Əbdüssələm bin Əli və İzzəddin Hüseyn bin Əbdüssəməd əl-Amili kimi müəllimlərin nəzarətində yaxşı təhsil almış, humanitar və dəqiq elmləri öyrənmək üçün böyük səy sərf etmişdi. Hələ tələbəlik illərində İbn Sinanın “əş-Şifa” və “əl-İşarat” kimi bir çox fəlsəfi əsərləri oxuyub öyrənmişdi. Bir müddət Qəzvin və Kaşanda qalan Mirdamad İsfahana yerləşərək elmi fəaliyyətini burada davam etdirmişdir. I Sah Abbas və xələfi I Şah Səfı ilə yaxşı münasibəti olmuşdur. Müasiri olan müəlliflərdən İskəndər bəy Münşi 1616-cı ildə yazdığı “Tarixi-aləm araye-Abbasi” adlı əsərində onun fəlsəfə, dil, riyaziyyat, tibb, fiqh,

[17] Mirzə Abdullah Əfəndi ət-Təbrizi. Riyazül-üləma. 7 cilddə. II c. s. 54-57.

təfsir və hədis kimi bir çox elmlərdə müvəffəqiyyətli olduğunu yazaraq təlif etdiyi əsərlərə yer vermişdir.

Məhəmməd Mirdamad çoxlu sayda tələbə yetişdirmişdir. Bunlar arasında ən tanınmışları Qütbəddin əl-Əşkuri, Feyz əl-Kaşanı və Molla Sədra deyə tanınan Sədrəddin Şirazidir. Xüsusilə Şirazi ustadının şəxsiyyətindən çox təsirlənmiş və ondan hər vaxt hörmətlə bəhs etmişdir.

Mirdamadın başda əqli və fəlsəfi elmlər olmaq üzrə müxtəlif mövzularda yazdığı əllidən çox əsərin çoxu nəşr edilməmişdir. Əsərlərindən bəziləri bunlardır:

"Əmanəti İlahi". Əhzab surəsinin 72-ci ayəsinin farsca təfsiri olub "ər-Rəsailüs-səman" içində hicri 1315-ci ildə Tehranda nəşr edilmişdir.

"Təlsimi-Quran".

"ər-Rəvaşihus-səmaviyyə şərhi1-əhadisil-İmamiyyə". Əsər hicri 1311-ci ildə Tehranda nəşr edilmişdir.

"Haşiyət səhifətü-Səccadiyyə". Bu əsərini İmam Zeynülabidinin (ə) "səhifətüs-Səccadiyyə" əsərinə şərh olaraq yazmışdır.

"Haşiyə Kitabil-Kafi lil-Küleyni".

Onun fəlsəfəyə aid yazdığı "Risaləti-hudusül-aləm" əsəri göstərir ki, alim aləmin yaradılması məsələsində Əflatuna qarşı Aristotelin yolunu tutmuşdur.

Əllamə Məclisi Mirdamadın qurduğu İsfahan fəlsəfə məktəbinin ən məşhur yetirmələrindəndir. Demək olar ki, onun fəlsəfə ilə ilk tanışlığı məhz bu məktəbdə və Mirdamadın əsərləri əsasında olmuşdur. Buna görə də o, ustadını daim hörmət və xüsusi ehtiramla yad etmişdir.

3) Molla Sədrəddin Məhəmməd bin İbrahim bin Yəhya Şirazi (öl. 1651) Səfəvi dövrünün ən qüdrətli filosof və alimidir. Onun 1571-ci ildə Şirazda doğulduğu təxmin edilməkdədir. Ənənəvi İslami elmlər sahəsindəki təhsilini Şirazda tamamladıqdan sonra İsfahana gedərək Bəhaəddin Amili və Mirdamad Astarabadi kimi alimlərdən dərs almışdır. Müəllimləri arasında filosof Əbülqasimin də olması ehtimalı var, ancaq onun əsl fəlsəfə müəllimi Mirdamad olmuşdur.

Molla Sədra naməlum bir tarixdə İsfahanı tərk edib inzivaya çəkilmişdir. "əl-Əsfarül-ərbəə" adlı əsərinin ön sözündə bioqrafiyasını yazarkən inzivaya çəkilməsinin iki səbəbini göstərir. Bunlardan birincisi, fəlsəfə təhsilinin ardından mənimsədiyi "Məşşai" və "İşraqi" fikirlərinə görə bəzi alimlər tərəfindən qınanması, ikincisi və daha əhəmiyyətlisi isə daxilində bir həqiqət axtarışı arzusunun oyanması idi. O, inzivaya çəkilib riyazətə başladıqdan sonra fəlsəfi fikirləri əhəmiyyətli ölçüdə dəyişmişdir. Məsələn, əvvəllər varlıqda əsl olanın mahiyyət olduğunu desə də, inzivadan sonra həqiqətin vücuddan (varlıq) ibarət olduğunu qəbul etmişdi. Buna görə həqiqət məlumatı yalnız ağılla deyil, şəxsən yaşayaraq mənəvi zövq və ruhi sevgiylə də əldə edilə bilər.

Qum yaxınlarında kiçik bir kənd olan Kəhəkdə inzivaya çəkilən Molla Sədranın inzivada nə qədər qaldığı məlum deyildir. "əl-Əsfar"ın ön sözündə bunun "uzun bir müddət" olduğunu bildirməklə kifayətlənmişdir. Əsərə ön söz yazmış Məhəmməd Rza əl-Müzəffər müqədiməsində Sədranın sonrakı həyatında gerçəkləşdirdiyi fəaliyyətlərdən bu müddətin on beş il olduğu nəticəsini çıxarmışdır.

İnzivadan çıxan Molla Sədra Şah I Abbasın arzusu ilə vətəni Şiraza dönərək tədrisə başlamışdır. Rza əl-Müzəffərə görə, Sədranın inzivadan çıxdıqdan sonra

qələmə aldığı ilk əsəri “əl-Əsfarül-ərbəa”dır. Bir çox şagird yetişdirən Sədranın yeddi dəfə həccə getdiyi, 1651-ci ildə son həccindən dönərkən Bəsrə yaxınlarında vəfat etdiyi deyilir. Onun yazdığı əsərlərdən “Təfsiri-ayətin-nur”, “Məfatihül-ğeyb”, “Şərhu-üsulil-Kafi”, “Xəlqül-əmal”, “Hüdusül-aləm”, “Risalə fil-qəza vəl-qədər”, “Kitabül-məbdə vəl-məad” və digərlərini qeyd etmək olar.

Fəlsəfə elmlərinin dahi nümayəndəsi, görkəmli filosof Molla Sədra Sədrəddin Şirazi müsəlman aləminin fəxr etdiyi şəxsiyyətlərdəndir. Onun fəlsəfəyə aid ən məşhur əsəri olan “əl-Əsfar” İslam aləmində məşhurluğunu itirməyən əsas qaynaqlardandır. Onun fəlsəfədə qoyduğu metodlar bu gün də İslam fəlsəfəsində hakim metod hesab edilir.

Əllamə Məclisi fəlsəfəni onun əsərlərindən əxz etmiş, onun yolunu izləmiş, həmçinin “Biharül-ənvar”da mürşidinin əsərlərindən bir mənbə kimi faydalanmışdır.

4. Məhəmməd bin Şah Mürtəza əl-Kaşani hədis ədəbiyyatı tarixinin ən görkəmli nümayəndələrindən və İsfahan fəlsəfə məktəbinin davamçılarındandır. Alimin doğum və vəfat tarixləri ixtilaflı olsa da, 1596-cı ildə Kaşanda doğulduğu və 1680-cı ildə vəfat etdiyi bildirilir. Onun atası da ilahiyyat elmləri sahəsində əllamə ünvanı ilə tanınmışdı. Buna görə də Feyz Kaşaninin ilk təhsilini ailə ocağında atasından aldığı güman edilir. Bundan başqa o, Şeyx Bəhaəddin Amili və Molla Sədra kimi elm nəhənglərindən də dərs almışdır. Mənbələr onun haqqında yazır: “Feyz Kaşani tanınmış elmi və ədəbi şəxsiyyətlərdən biridir. Bu şəxs irsi və kəsb edilmiş fəzilətlərə sahib idi. O, fiqh və hədis elmlərində bayraqdar, fəlsəfə sahəsində isə nəhəng idi”.[18] Seyid Məhəmməd əl-Mişkat isə qeyd edir ki, “Feyz Kaşani dörd məsələdə digər alimləri ötüb keçmişdir:

I. Feyz Kaşaninin evi kimi heç kəsin evi müxtəlif təbəqədən olan alimlərlə dolu olmamışdır.

II. Elmin müxtəlif sahələrindən xəbərdar olan alimi Fəxrəddin Razi, Xacə Nəsrəddin Tusi, Əllamə Hilli və Qütbəddin Şirazi ilə qarşılaşdırmaq olar. Əsərlərinə gəldikdə isə “əl-Vafi” əsəri onu məşhur hədis liderinə çevirmişdir.

III. Fəlsəfənin şəriət üzərində tətbiq edilməsi baxımından rəqiblərindən üstündür.

IV. O, əsərlərinin çoxluğu baxımından Əvhədidən başqa hamıdan üstündür.[19]

Feyz Kaşaninin ən məşhur əsəri “əl-Vafi”dir ki, Əllamə Məclisi də ondan kifayət qədər bəhrələnmişdir. Həmçinin o, Əllamə Məclisinin yetişməsində mühüm xidmətlər göstərmiş alimlərdəndir.

Əllamə Məclisi özü də çoxlu sayda tələbə yetişdirmişdir. Seyid Əhməd əl-Hüseyninin verdiyi məlumata görə, onun tələbələrinin sayı 274 nəfər olmuşdur.[20] Hətta Hüseyni onların hamısının tərcümeyi-halını bir-bir “Təlamizətu Əllamə Məclisi” əsərində qeyd etmişdir. Bunlardan iyirmi dörd nəfəri azərbaycanlıdır.

Əllamə Məclisinin tələbələrindən və həmçinin ondan hədis rəvayət edənlərdən aşağıdakıları qeyd etmək olar:

---

[18] Həmin mənbə. X c. s. 17.

[19] Feyz əl-Kaşani. əl-Vafi. 26 cilddə. I c. Qum, 1406 h/q. s. 31.

[20] Seyid Əhməd əl-Hüseyni. Təlamizə Əllamə əl-Məclisi. Qum, 1410 h/q. və İsfahan, Məktəbətu Əmirəlmöminin (ə), “Müqəddimə” fəsli.

1. Ağa Mirzə Abdullah bin Məhəmməd ət-Təbrizi əl-Əfəndi əl-Azərbaycani (öl. 1719). O, Azərbaycanın paytaxtı Təbriz şəhərində doğulmuşdur. Mirzə Abdullah ibn İsa bəy Təbrizi bir müddət İstanbulda yaşadığı üçün, "Əfəndi" ləqəbi ilə məşhurlaşmışdır. Ümumiyyətlə, onun ömrünün yarısı Türkiyə, Xorasan, Azərbaycan, İraq, Şam, Məkkə, Misir və sair diyarlara səfərlərdə keçmişdir. Əfəndi müxtəlif elmlər üzrə, xüsusilə, rical və biblioqrafiya sahəsində misilsiz məharət sahibi olmuşdur. Mirzə Abdullah Əfəndi təqribən 15 kitabın, o cümlədən hicri 3-11-ci əsrlərdə yaşamış alimlərin həyatından bəhs edən "Riyazül-üləma" ("Alimlər bağçası") əsərinin müəllifidir. Onun bu əsəri "Riyazul-üləma və hiyazul-fuzəla" adı ilə hicri 1401-ci (miladi 1987-ci) ildə Qumda nəşr olunmuşdur.

2. Mövlana Mirzə Məhəmmədhəsən oğlu Şirvani (1623-1687) Azərbaycan torpağının yetişdirdiyi məşhur ruhani alimlərdən biri də "Molla Mirzə" və "Müdəqqiq Şirvani" ləqəbləri ilə tanınmış Məhəmməd Şirvanidir. Məhəmməd ibn Həsən Şirvani təqribən miladi 1623-cü ildə Azərbaycanın ən qədim elm və mədəniyyət ocaqlarından biri olan Şirvan bölgəsində doğulmuş, amma ömrünün çox hissəsini o dövrün dini elmlər mərkəzlərinin ən qabaqcıllarından sayılan İsfahan şəhərində keçirmişdir. Mövlana Mirzə Məhəmmədhəsən Şirvani mükəmməl ilahiyyat təhsili almaq üçün İsfahana getmiş və Əllamə Məclisinin dərslərində iştirak etmişdir.

Onun müəllimlərinin arasında Əllamə Məclisidən başqa məşhur azərbaycanlı ilahiyyatçı Ağa Hüseyn əl-Xansarinin (1605-1687) də adı xüsusi qeyd olunmalıdır. Mənbələrdə "Mühəqqiq Xansari" kimi də xatırlanan Ağa Hüseyn bin Cəmaləddin XVII əsrin ən böyük cəfəri fəqihlərindən sayılırdı. Əllamə Məclisinin atası Məhəmməd Tağı Məclisi kimi elm nəhəngindən dərs almış Ağa Hüseyn Xansari fəlsəfə, kəlam və məntiq kimi əqli elmlərdə də dərin biliyə malik idi. Ağa Hüseyn Xansari öz ustadı Məhəmməd Tağı Məclisinin qızı, yəni Əllamə Məhəmməd Bağır Məclisinin bacısı ilə evlənmişdi. O, həm camaat arasında, həm də Səfəvilər sarayında böyük nüfuz sahibi idi. Hətta Süleyman şah Səfəvi səfərə gedərkən, İsfahanda öz yerinə Ağa Hüseyn Xansarini canişin qoyurmuş. Məhəmməd Şirvani bir müddət İsfahanda təhsil aldıqdan sonra biliyini təkmilləşdirmək məqsədilə İraqa yola düşür və Nəcəfül-əşrəf şəhərində məskunlaşır. Lakin Süleyman şah Səfəvi İsfahanda bu böyük alimin şəxsiyyətinə ehtiyac duyaraq, ona qayıtmağı təklif edir. Şirvani hökmdarın dəvətini qəbul edib İsfahana qayıdır və şəhərin Əhmədabad məhəlləsində, şah tərəfindən ona hədiyyə edilmiş evdə yaşamağa başlayır. O, 1687-ci ildə Məşhəddə vəfat etmişdir.

Məhəmməd Şirvaninin elmi və əxlaqi məqamını təsəvvür etmək üçün alimlərin həyatından bəhs edən biblioqrafik kitablara nəzər salmaq kifayətdir. Müdərris Təbrizinin "Reyhanətül-ədəb" əsərində Molla Mirzə Məhəmməd Şirvani "dərin bilikli, yüksək ixtisaslı, tədqiqatçı alim, elm və əməl sahibi, əqli və nəqli elmləri özündə birləşdirən, fiqh, hədis, kəlam, hikmət və elmi mübahisə sahələrində tayı-bərabəri olmayan" bir şəxs kimi təsvir edilir. Həmçinin, bu kitabda yazıldığına görə, Şirvaninin zehn, hafizə, diqqət, rəy möhkəmliyi və elmi əhatə sahələrindəki uca məqamı sübuta ehtiyacı olmayacaq dərəcədə aşkar həqiqətdir. Elə bu keyfiyyətlərinə görə, Məhəmməd bin Həsən Şirvanini "Əllamə", "Vəhidül-əsr və fəridüd-dəhr" (zəmanənin və dünyanın yeganəsi), "Sultanül-hükəma vəl-mütəkəllimin" (hikmət və kəlam alimlərinin sultanı) kimi epitetlərlə tərifləmişlər. Şirvaninin şagirdi Mirzə

Abdullah Əfəndi öz xatirələrində "ustazənal-əllamə" (əllamə ustadımız) sözləri ilə öz müəllimindən söz açırdı. Qeyd etmək yerinə düşər ki, Mirzə Abdullah Əfəndi sair müəllimləri sırasında Məhəmməd Tağı Məclisini "ustazənal-istinad" (sənəd və etibar sahibi ustadımız), Ağa Hüseyn əl-Xansarini "ustazənal-muhəqqiq" (tədqiqatçı ustadımız), Məhəmməd Bağır Səbzəvarini "ustazənal-fazil" (fəzilət sahibi ustadımız) ləqəbləri ilə xatırlamışdır. Buna görə də bəzi müəlliflər həmin ləqəbləri müqayisə edərək, belə fikir yürütmüşlər ki, Mirzə Abdullah Əfəndi öz müəllimləri sırasında Şirvanini daha yüksək qiymətləndirmiş və onu digər üç böyük alimdən daha üstün saymışdır. Məhəmməd bin Həsən Şirvaninin şagirdləri arasında bir neçə nəfər xüsusi şöhrət qazanmışdır. Onlardan biri - yuxarıda adı çəkilən Mirzə Abdullah Əfəndidir. Zəmanəsinin ən böyük alimlərindən dərs almaq şərəfinə nail olmuş Əfəndi, Məhəmməd Şirvaninin də dərslərində iştirak etmiş, Küleyninin "Üsulül-kafi", Şeyx Tusinin "Təhzibül-əhkam" və "Şərhi-müxtəsəril-üsul" kitablarını onun yanında oxumuşdur. Şirvaninin başqa bir şagirdi Molla Məhəmməd Əkməl Bəhbəhani olmuşdur. O, cəfəri fiqhini uzun müddətli tənəzzül mərhələsindən xilas etmiş, əxbarilik cərəyanı ilə şiddətli mübarizə aparıb üsul məktəbini qüvvətləndirmiş və "ustadul-əkbər" (Ən böyük müəllim) ləqəbini almış Vəhid Bəhbəhaninin atasıdır. Şirvaninin şagirdlərindən biri də rical elminə aid olan "Tənqihül-məqal" əsərinin müəllifi Şeyx Həsən ibn Abbas Bəlaği Nəcəfi idi. Şeyx Həsən Bəlaği həmin əsərdə öz ustadı haqqında son dərəcə ehtiram və hörmət ilə söz açaraq yazır: "Üsul və füru (yəni əqaid və şəriət) elmlərində ona istinadımız vardır". Kitabda Şirvani "son dövr alimlərinin ən üstünü, dərin bilik sahiblərinin ən kamili, aləmlər içində Allahın ayəti (nişanəsi), tədqiqatçıların seçilmişi, hikmət və kəlam sahiblərinin sultanı" və s. epitetlərlə vəsf olunur. Mirzə Məhəmməd Şirvaninin bir şagirdi də Əmir Məhəmməd Saleh Xatunabadi olmuşdur (öl. 1704). Əmir Məhəmməd Saleh Şirvani həm də Əllamə Məhəmməd Bağır Məclisinin kürəkəni idi. Məclisinin qızı ilə Məhəmməd Şirvaninin birgə ailə həyatı da uğurlu olmuşdur. Bu izdivacdan dünyaya gələn Molla Heydər Əli nüfuzlu din xadimi kimi şöhrət qazanmış, "Məsalik" kitabına haşiyə yazmış, Şeyxüt-taifə Tusinin "Misbahül-mutəhəccidin" kitabını yeni tərtibatla hazırlamış, yəni kitabın məzmununu ixtisar etmiş, ona bəzi dua və ziyarətnamələr artırmışdır.[21]

3. Məhəmməd bin Həsən bin Əli əl-Hürr əl-Amili əl-Məşğəri (öl. 1693) məşhur hədisşünas və fəqihlərdən biridir. 1624-cü ildə qədim elm mərkəzi olan Cəbəlülamil bölgəsinin Məşğərə kəndində doğulmuşdur. Daşıdığı Hürr ləqəbi Kərbəlada şəhid olan Hürr bin Yezid ər-Riyahiyə çatan nəsəbi ilə əlaqədardır. Anasının atası Şeyx Əbdüssəlam bin Məhəmməd əl-Hürr, əmisi Şeyx Məhəmməd əl-Hürr ilə atasının dayısı Şeyx Əli bin Mahmudun yanında dərs almışdı. Daha sonra Cəbəlülamildə olan Cibə kəndinə gedib Şeyx Hüseyn əz-Zahiri və Şeyx Zeynəddin bin Məhəmmədin yanında təhsilə davam etmişdi. Cəbəlülamildə qaldığı təxminən qırx il boyunca iki dəfə həccə getmişdir. Daha sonra İraqdakı imamların türbələrini ziyarət etmək üçün Cəbəlülamildən ayrılmış və o dövürdə müsəlman alimləri üçün böyük cazibəsi olan İrana keçərək İmam Əli ər-Rzanın (ə) dəfn olduğu Məşhədə gəlmişdir (1663-cü ildə). Ölənə qədər bu şəhərdə şeyxülislam və qazilqüzat vəzifələrini icra etmişdir.

[21] https://az.wikipedia.org

Məşhəddə ikən iki dəfə həccə getmiş, 1693-cü ildə Məşhəddə vəfat etmişdir. Qəbri İmam Rzanın (ə) türbəsinin yaxınlığındadır. Tarixçi qardaşı Əhməd də şeyxülislam və qazilquzat mövqelərinə çatmışdır. Hürr əl-Amili fiqh və əqaidlə əlaqədar məsələlərdə Quran və sünnəni (hədisləri) əsas götürüb ağılı metodlara qarşı çıxan əxbariyyə məktəbinə mənsub olmaqla yanaşı, həm də üsuliyyəyə qarşı münasib bir yol izləmiş, şöhrətini də fəqih olaraq deyil, hədisşünas olaraq qazanmışdır.

Müxtəlif mövzularda əsər qələmə alan Hürr əl-Amili vəfatından yeddi il öncə yazdığı "Əməlül-amal"da özünün tərcümeyi-halında iyirmidən artıq kitab və traktat adını verməkdədir. Əsərlərindən aşağıdakıları qeyd etmək olar:

1. "Təfsilu vəsailiş-şiə ilə təhsili məsailiş-şəriyyə" Amilinin ən əhəmiyyətli əsəri olub daha çox "Vəsailüş-şiə" adıyla tanınmışdır. Əsər on səkkiz ildə yazılmışdır. Fiqh bablarına görə yazılan əsərdəki hədislər müxtəlif rəvayət yolları ilə birgə yazılmış, müəllif bəzi ixtilaflı mövzularda öz fikirlərini də qısaca vermişdir. Müxtəlif vaxtlarda nəşr edilən "Vəsailüş-şiə" Əbdürrəhim ər-Rəbbani əş-Şirazi tərəfindən yenidən nəşr edilmişdir.

Mirzə Hüseyn Nuri bu əsərdə tapılmayan hədisləri toplayaraq "Müstədrək vəsailiş-şiə" adlı, Ayətullah Aga Hüseyn Burucirdi (öl. 1961) də əsərin bəzi səhvlərini düzəldərək "Təhzibül-vəsailiş-şiə" adlı əsərləri qələmə almışlar, bəzi alimlər də əsər üzərinə şərh yazmışlar.[22]

2. "Bidayətül-hidayə". "Vəsailüş-şiə"nin qısaldılıb sadələşdirilmiş şəkli olan bu əsərdə Quran və hədisdə hökmü olan fərz (vacib) və haramlara yer verilmişdir. Bir neçə dəfə nəşr edilən əsər hicri 1407-ci ildə Qumda Əli əl-Ənsari tərəfindən nəşr edilmişdir.

3. "İsbatül-hüdat". Bir çox kitabdan yığılan və Peyğəmbər (s) ilə İmamlara (ə), onların fəzilətlərinə dair 20000-i aşan hədis ehtiva edən əsəri Seyid Haşim ər-Rəsuli nəşr etdirmişdir.

Hürr Amili İrana ikinci səfərində İsfahana gedib ölkənin siyasi və dini işlərində böyük nüfuzu olan Əllamə Məhəmməd Bağır Məclisi ilə görüşmüşdür.

Əllamə Məclisi ona şəxsən dərs deməmişdir. Lakin ona hədis rəvayət etmək hüququnu (icazət), hədis rəvayəti mövzusunda "icazətül-müdəbcibə" adlı xüsusi şəhadətnamə vermişdir. Xatırladaq ki, "icazətül-müdəbcibə" hər hədis aliminin əldə edə bilməyəcəyi hüquqi sənəd olmuşdur. Çünki bu sənədi hədis elmində ən qüvvətli olanlar almaq hüququna malikdirlər. Bunun vasitəsilə o, bütün hədis kitablarından hədis rəvayət etmək səlahiyyətinə sahib olmuşdur. Amili, eyni zamanda, Səfəvi hökmdarı Şah Süleymanın qəbulunda olmuşdur.[23]

Əllamə Məclisi elə bir ensiklopedik şəxsiyyətdir ki, onun dünyagörüşünə birmənalı şəkildə yanaşmaq mümkün deyil. Onun əsərlərinin tədqiqi onu göstərir ki, o, dövrünün həm böyük filosofu, həm tarixçisi, həm astronomu və həm də nəhəng ilahiyyatçısıdır. Bunu biz bariz şəkildə dövrün alimlərinin ona verdikləri qiymətdən, müxtəlif ləqəb və adlardan da görməkdəyik.

Əllamə Məclisi təkcə əsərlər yazmaqla və tələbələr yetişdirməklə məşğul olmamış, eyni zamanda yaşadığı dövrdə yüksək dövlət vəzifəsi tutaraq bunun nəticəsində ali səfəvi hakimiyyətini dini təsir altında saxlamışdır.

---

[22] Ağa Bozorg ət-Tehrani. əz-Zəriə ila təsanifiş-şiə. 25 cilddə. V c. Nəcəfül-əşrəf, 1357 h/q. s. 353 və XIV c. s. 169-170.
[23] DİA. XVIII c. s. 493-494.

Məlumdur ki, XVI-XVII əsrlər Yaxın və Orta Şərqin müsəlman ölkələrində ideoloji şərait İslam dininin daha da güclənməsinə və müsəlman ruhanilərinin mövqeylərinin möhkəmlənməsi kimi xarakterizə edilir. Bu əsrlərdə yaşayan İslam alimləri o cümlədən, Əllamə Məclisi də yalnız dini məsələlər ilə məşğul olmamış həm də dövlətin idarə olunması işlərində fəal iştirak etmişdir. Həmin dövrlərdə hakimiyyət başında olan Səfəvi hökmdarları İslam dininin təbliğ edilməsinə və dini ideyaların xüsusilə də cəfəriliyin yayılmasına təkan vermişlər. Şübhəsiz ki, öz dövründə hakimiyyət dairələrində böyük nüfuz sahibi olan Əllamə Məclisi bu fürsətdən istifadə edərək həm dövlətin dini qaydalar çərçivəsində siyasət yürütməsinə, həm də insanların dini mühütdə yaşamasına zəmin yaratmışdır. O, vəzifədə olduğu müddətdə bu vəzifəsindən istifadə edərək elmi hövzələrin yaranmasına və onların maliyyələşdirilməsinə köməklik göstərmiş, Yaxın Şərqin bir çox bölgəsində olan alimləri həmin elmi mərkəzlərə toplayaraq dini elmlərin yayılmasına xidmət etmişdir. Beləliklə də o, dini və bir çox dünyəvi elmlərin inkişafına və formalaşmasına bir başa təsir etmişdir. Onun İslam aləmində göstərdiyi bu böyük xidmətlər müsəlman ümmətinin ona qarşı olan rəğbətini çoxaltmışdır.

Əllamə Məclisi haqqında aparılan tədqiqat əsərlərində onun hədis elmində əxbarilər, yoxsa üsulilər yolunu izləməsi problemi mühüm əhəmiyyət kəsb etmişdir. Həqiqətən də İslamda hədis aliminin bu yollardan hansını izləməsinin aydınlaşdırılması böyük əhəmiyyətə malikdir. Bu əhəmiyyəti nəzərə alıb Əllamə Məclisinin əxbarilərdən, yoxsa üsulilərdən olmasını aydınlaşdıracağıq.

Məlum olduğu kimi, əxbarilər şiəlikdə dini hökmlərin vahid qaynağı olaraq yalnız İmamların (ə) rəvayətlərini əsas qəbul edənlərə verilən addır. Əxbariyyə xəbər sözünün cəmidir. Əxbarilər dini terminologiyada nəql olunan rəvayətlərə bağlananlar deməkdir. Üsul sözü isə lüğətdə "əsl" sözünün cəmidir. "Köklər, əsillər, üzərinə bir şey bina edilən şey" mənalarındadır. Lüğətdə anlayış mənasını verən fiqh isə din terminində: "Təfsili dəlillərdən çıxarılmış olan şəri-əməli hökmləri bilməkdir" şəklində təsvir edilir. Buna görə üsulül-fiqh lüğətdə fiqhin əslləri, fiqhin dəlilləri mənasını verməkdədir. Üsulül-fiqh dini terminologiyada "Müctəhidin şəri əməli hökmləri təfsili dəlillərindən çıxara bilməsi üçün lazımlı olan qayda və prinsiplərdir", - deyə təsvir edilməkdədir.[24]

Əxbariyyə İmamların (ə) nüfuzuna mütləq bağlılıq əsasından hərəkət edərək onlardan nəql edilən şifahi və yazılı rəvayətlərin əqaid və fiqh sahələrində tək qaynaq olduğunu müdafiə etməkdədir. Qeybət döneminin başlamasından etibarən (260/873-cü ildən) İslamda ortaya çıxan üsuliyyə isə əxbariyyənin əksinə olaraq dini hökmlərin təsbit edilməsi və anlaşılması mövzusunda istidlal metodunu mənimsəmişdir.

Əxbariyyə və üsuliyyə İslamda mövcud bir-birinə zidd iki anlayışı ifadə edən təbirlər olaraq ilk dəfə Əbdülcəlil Qəzvininin miladi 1170-ci ildə qələmə aldığı "Kitabün-Naqida" əsərində yer almışdır. Bununla birlikdə əxbariyyənin qurucusu "Kitabül-fəvaidil-mədəniyyə" adlı əsərində əxbariyyə anlayışını əsaslandıran Məhəmməd Əmin əl-Astarabadi (öl. 1624) qəbul edilir. Astarabadi öz dövründən əvvəl olan, lakin sistemləşdirilməmiş olan əxbariyyə metodunu böyük bir incəliklə araşdırmış və onu yeni bir anlayışla müstəqil bir məktəb halına gətirmişdir. Həmin

[24] DİA. I c. s. 490.

müəllif  Küleyni ilə Büveyhilər dövrünün üç məşhur alimi Şeyx Müfid (öl. 1022), Şeyx Mürtəza (öl. 1044) və Şeyx Tusinin (öl. 1067) əsərlərini diqqətlə araşdırmış, Əllamə Hilli, Şəhidi-Sani Zeynüddin əl-Amili və müasiri Bəhaəddin əl-Amili kimi bir çox alimin əqaid və fiqh üsulu mövzularındaki fikirlərini tənqid atəşinə tutmuşdur. Nəticədə üsuliyyə anlayışına qarşı çıxaraq nəslərın (səhih hədislərin) həqiqi təfsirçilərinin Allah tərəfindən bu işlə vəzifələndirilmiş günahsız İmamlar (ə) olduğunu, İmamlara (ə) aid xəbərlərə zahirindən və ağıldan əvvəl yer verilməsi lazım olduğunu, bu xəbərlərin dini hökmlərin yeganə qaynağını təşkil etdiyini israrla vurğulamışdır. Ona görə İmamlara (ə) aid rəvayətlərin hamısı "səhih kateqoriyası"nda olub yəqinlik ifadə edir. Bunlar üsuliyyə tərəfdarlarının iddialarının əksinə, heç bir zaman zəif olaraq dəyərləndirilə və bu cür xəbərlərin zənn (güman) ifadə etdiyi irəli sürülə bilməz.

Din üsul (əqaid) və füru (ibadət və müamələt) olmaq üzrə iki ana hissədə araşdırılır. Bu iki hissənin mövzu və məzmununu təsbit etmək üçün istinad qaynaqlar isə ümumiyyətlə Qurani-Kərim, sünnə (hədis), icma və ağıl olaraq qəbul edilir. Əllamə Məclisi yalnız Əhli-beyt (ə) yolu ilə digər bəzi səhabələrin rəvayətlərini sünnə olaraq qəbul etməkdədir. Çünki ona görə sünnə müəyyən ravi toplumunun Peyğəmbərin (s) də daxil olduğu on dörd məsumdan (ə) günümüzə qədər çatdırdıqları rəvayətlərdən ibarətdir. Dolayısıyla, Quranın açıqlanması və izah edilməsində ancaq bu rəvayətlər əsas alına bilər. İcma da alimlərin dini bir mövzunun hökmündə ittifaq etməsi deyil, yalnız alimlərin bir mövzudakı ittifaqıdır.

Əllamə Məclisiyə görə hədislər günahsız qəbul edilən İmamlardan (ə) alınmalıdır. Ona görə ki, Allah tərəfindən onlara imamlıq vəzifəsi verilmiş, üstün xüsusiyyətlərlə vəsf edilmiş və günahdan qorunmuş (məsum) şəxslərdir.[25]

Əxbariyyə mənsubları dörd əsərdə ("Üsulül-kafi", "Mən la yəhzuruhül-fəqih", "Təhzibül-əhkam" və "əl-İstibsar") olan bütün xəbərləri səhih qəbul etməkdə və bunların yəqin ifadə etdiyinə inanmaqdadırlar. Onlara görə iki xəbər arasında bir ziddiyyət görülsə, bu ziddiyyət İslamın ana prinsipləri işığında aradan qaldırılmalı, bu mümkün olmadığı təqdirdə isə hər hansı bir qərar və izahdan qaçınılmalıdır.

Əxbariyyə anlayışı Məhəmməd Əmin əl-Astarabadinin ölümündən sonra iki əsr içində böyük inkişaf göstərmiş, bu dövrdə Astarabadinin fikirləri Məhəmməd Tağı əl-Məclisi, Molla Möhsün Feyz əl-Kaşani tərəfindən təsavvüf və fəlsəfəylə yoğrularaq dəstəklənmişdir. "Vəsailüş-şiə" adlı əsərində İmamların (ə) xəbərlərinə geniş bir şəkildə yer verən əxbariyyə anlayışını mənimsəyən Məhəmməd bin Həsən Hürr əl-Amili (1625-1695) əxbariyyənin məşhur və təsirli müdafiəçilərindən biri olmuşdur.

İslamda davam edən əxbariyyə və üsuliyyə mübahisəsi sonda üsuliyyə lehinə sona yetmiş və bu anlayış daha məşhur bir şəkildə mənimsənmişdir. XVIII əsrin ikinci yarısında yaşayan bəzi müəlliflərin əxbariləri günahlandıran əsərlərinin də dəstəyi ilə yaxşıca güclənən üsuliyyə qarşısında, artıq İslamın mənəvi mərkəzlərindən biri olan Kərbəlada hiss edilən əxbariyyə hakimiyyəti, zamanla burada da təsirini tamamilə itirmişdir. Əxbariyyənin son məşhur nümayəndəsi Mirzə Məhəmməd bin Əbdünnəbi ən-Nişapuridir (öl. 1818). Mirzə Məhəmməd üsuliyyə liderlərindən Cəfər Kaşifülğita ən-Nəcəfi (öl.1812) tərəfindən qələmə alınan "Kaşifül-ğita" adlı əsərdə

[25] Əllamə əl-Məclisi. Biharül-ənvar. 110 cilddə. VIII c. Beyrut, Müəssisə əl-Vəfa, 1403/1983. s. 238.

şiddətlə tənqid olunmuşdur. Bu tənqid və iddiaların nəticəsində Mirzə Məhəmməd Kazımeyndə izdihamlı bir qurup tərəfindən öldürülmüş, beləcə əxbariyyə qolu tamamilə tarix səhnəsindən silinmişdir.

Əllamə Məclisinin həyat tarixi izlənəndə onun dövrünün əxbarilərin zəifləməsi, üsulçuların isə qələbə çaldığı dövr olduğu məlum olur. Bu dövrdə (XVII əsrin sonları XVIII əsrin birinci yarısı) əxbarilərlə ictihad əhli olanlar (üsulilər) arasında şiddətli mübarizədə uduzmuş əxbarilərin demək olar ki, tərəfdarları qalmamışdır. Həmçinin əxbarilərin üsuli-fiqhi qadağan etmələrini və hər şeyin hədislər vasitəsilə ələ gətirilməsini dəstəkləmələri bir müctəhid olan Əllamə Məclisi tərəfindən dəstəklənə bilməzdi. Bunu biz bariz şəkildə onun "Biharül-ənvar"da yeri gəldikcə izah etdiyi hədislərdən də görməkdəyik. Belə ki, o, adı çəkilən əsərində hədislərin kateqoriyalarından bəhs etmiş və heç də İmamlardan (ə) nəql olunan hədislərin hamısını kor-koranə şəkildə dəstəkləməmişdir. Onun mühəddis adlandırılması isə təəssüflər olsun ki, bəzi araşdırıcıları çaş-baş salmış və onlar nəticədə Əllamə Məclisinin hədisdə əxbarilər qoluna mənsub olduğu qənaətinə gəlmişlər. Lakin bunu xatırlatmaq lazımdır ki, Əllamə Məclisinin mühəddis adlanması onun hədis elmində lider olmasına görədir. Bunu görkəmli alim Əhməd Nəraqi də təsdiq etməkdədir. Həmçinin Seyid Məsləhəddin Mehdəvi yazdığı məşhur "Zendeginami-Əllamə Məclisi" əsərində onun bir müctəhid olduğunu, üsuli-fiqhin prinsipləri əsasında fitva verdiyini və heç vaxt əxbarilər qoluna tabe olmadığını yazır.

Əllamə Məclisinin nə üsulilərdən, nə də ki əxbarilərdən olmadığını qeyd edən Hüseyn Müdərris Təbətəbai isə yazır: "Əllamə Məclisinin atası Məhəmməd Tağı Məclisi əxbarilərə meyil etmiş biri olsa da, Əllamə Məclisi əxbarilərlə üsulilərin arasında dayanmış biri idi".[26]

XVII əsrin böyük İslam filosoflarından olan Əllamə Məclisinin fəlsəfəyə münasibəti, onun hansı fəlsəfi cəbhədə yer alması, məşhur "Biharül-ənvar" əsərində fəlsəfi problemlərə yer verməsi, fəlsəfə ilə dinin bir-birlərinə münasibəti və s. bu kimi problemlər necə izah olunmuşdur? İşraqilik fəlsəfi dünyagörüşünü İslam aləmində Fərabi, İbn Sina, Molla Sədra, Feyz Kaşani və nəhayət, Əllamə Məclisi inkişaf etdirmişdir. Doğrudur, Əllamə Məclisi fəlsəfədə adını çəkdiyimiz filosoflar qədər şöhrət sahibi olub onlar kimi fəlsəfi fikirləri inkişaf etdirə bilməsə də, onu ən azından bu fəlsəfəni təbliğ edən və onun tərəfində dayanan bir filosof kimi xarakterizə etmək olar.

Həqiqət budur ki, Əllamə Məclisi "Biharül-ənvar" əsərində yeri gəldikcə mühüm fəlsəfi mövzulara toxunmuş, Allahın varlığının isbatı, ağılın mahiyyəti, ruhun ölməzliyi, peyğəmbərlik missiyasının hikməti, vəhyin mahiyyəti, əxlaqın tərifi, qəbir haqq-hesabı və s. bu kimi problemlərin çözülməsində hədislərə söykənən mühüm fəlsəfi fikirlər söyləmişdir. Həmçinin o, yuxarıda izah etdiyimiz dəhrilər, təbiətçilər və bu kimi İslam dünyasında ortalığa çıxmış materialist fikirlərə tutarlı fəlsəfi cavablar vermişdir. Alim adı çəkilən əsərinin müxtəlif yerlərində dəhrilərə və təbiətçilərə (VI c. s. 331), Allahın birliyini inkar edənlərə (II c. s. 230), qəza və qədər haqqında (XI c. s. 89), cəbr və təfviz (fatalizm və özbaşınalıq) (V c. s. 82) və digər İslam fəlsəfəsinə aid olan problemlərə öz münasibətini bildirmişdir. Fəlsəfi

[26] Seyid Məsləhəddin Mehdəvi. Zendeginami-Əllamə əl-Məclisi. s. 59.

dünyagörüşündə İbn Sinanın yolunu davam etdirən Əllamə Məclisinin İbn Sina fəlsəfəsinin təsirində qalmasının başlıca səbəbi ustadı Molla Feyz Kaşaninin, onun da ustadı Molla Sədranın təsiri olmuşdur. Bildiyimiz kimi, İbn Sinanın İslam düşüncəsindəki yeri və metodu çox böyük və çoxşaxəlidir. İbn Sina Fərabi məktəbinə mənsub filosoflardadır. Bu məktəbin ən başlıca xüsusiyyəti isə dinin İlahi bir təşkilat olduğu fikridir. Fərabiyə məntiq sahəsindəki müvəffəqiyyətinə görə "Müəllimi-sani", İbn Sinaya da fəlsəfə və digər elmləri sistematik və didaktik bir yüksəlişə gətirdiyi üçün "Şeyxür-rəis" ünvanı verilmişdir. Bu səbəbdən XI əsrdən sonra İslam dünyasında "fəlsəfə" deyildikdə, öncəliklə ağıla Fərabi və İbn Sina gəlməkdədir. İbn Sina bəlkə də Fərabidən də artıq Əflatun və Aristotel sisteminə bağlıdır.

Əllamə Məclisinin fəlsəfi görüşlərində İbn Sinanın təbiət elmləri sahəsində yazdığı əsərlər əsas qaynaq təşkil edir. O, əxlaqı dinin tərkib hissəsi kimi görərək bu haqda xeyli rəvayətlər nəql etmiş və onları əxlaqi-fəlsəfi baxımdan dəyərləndirmişdir.

Burada xüsusu olaraq qeyd etmək lazımdır ki, XVI-XVII əsrlərdə fəlsəfəylə bir yerdə icra edilən kəlam, əsas etibarilə Molla Sədra, Mirdamad, Feyz Kaşani və Əllamə Məclisi kimi məşhur müdərrislər vasitəsi ilə elm və mədəniyyət mühitində yayılmaqda idi. Digər tərəfdən əsərləri uzun illər boyunca mədrəsələrdə oxudulan və İşraqi meyillər daşıyan Molla Sədra kimi müəlliflər vasitəsi ilə də İşraqilik yaxından öyrənilir, bu fəlsəfəyə yeni ölçülər qatılaraq inkişaf etdirilir, xüsusilə də Molla Sədra və tələbələri sayəsində İranda ən hakim düşüncə olaraq varlığını davam etdirirdi.

Əllamə Məclisi "Biharül-ənvar" əsərində bir filosof kimi fəlsəfənin tərəfdarlarından olduğunu, mühüm dini məsələlərə, yeri gəldikcə, fəlsəfi yöndən şərhlər verdiyi açıq-aydın görünməkdədir. O, əsərinin "Məad", "Tovhid", "Nübüvvət" və digər fəsillərində öz fəlsəfi düşüncəsini ortaya qoymuşdur.

Əvvəldə qeyd etdiyimiz kimi, Əllamə Məclisinin "Biharül-ənvar" əsərində üzərində dayandığı mühüm nöqtələrdən biri məad, yəni ölümdən sonrakı həyat məsələsidir. O, adı çəkilən əsərində məada ayrıca fəsil ayırmış, ilk öncə ona aid ayələri, sonra hədisləri, daha sonra isə həmin hədislərdə olan bəzi dərkedilməz (mütəşabeh) məqamları fəlsəfi baxımdan izah etməyə çalışmışdır. Onun axirət haqqında söylədikləri qısa olaraq üç nöqtədə toplana bilər: birincisi, axirətin varlığının isbatı, ikincisi, həşrin cismani olub-olmayacağı məsələsi, üçüncüsü də axirət hayatının mahiyyətidir. Bu mövzuları Əllamə Məclisi "Biharül-ənvar" əsərində inkişaf etdirmişdir (VI c. s. 270).

Əllamə Məclisi sonda bu nəticəyə gəlmişdir ki, Allah tərəfindən göndərilən bütün dinlərdə özünə yer alan mühüm məsələlərdən biri məad, yəni ölümdən sonrakı həyat, daha doğrusu, insan öldükdən sonra təkrar dirilərək bu dünyada etdiyi əməllərin hesabını verməsidir. Bunu biz Adəmdən (ə) tutmuş sonuncu peyğəmbərədək (s) təbliğ edilən bütün tövhid dinlərində bariz şəkildə görməkdəyik.

Müəllif Allahın məad barəsində Quranda buyurduğu aşağıdakı ayələri də qeyd etmişdir:

**حَتَّىٰ إِذَا جَاءَ أَحَدَهُمُ الْمَوْتُ قَالَ رَبِّ ارْجِعُونِ. لَعَلِّي أَعْمَلُ صَالِحًا فِيمَا تَرَكْتُ ۚ كَلَّا ۚ إِنَّهَا كَلِمَةٌ هُوَ قَائِلُهَا ۖ وَمِنْ وَرَائِهِمْ بَرْزَخٌ إِلَىٰ يَوْمِ يُبْعَثُونَ.**

**“Onlardan birinə ölüm gəlincə: Rəbbim! Məni geri qaytar. Bəlkə yarımçıq qoyduğum işləri tamamlayaraq, yaxşı işlər görərəm, deyir”.[27]**

وَنَضَعُ الْمَوَازِينَ الْقِسْطَ لِيَوْمِ الْقِيَامَةِ فَلَا تُظْلَمُ نَفْسٌ شَيْئًا ۖ وَإِنْ كَانَ مِثْقَالَ حَبَّةٍ مِنْ خَرْدَلٍ أَتَيْنَا بِهَا ۗ وَكَفَىٰ بِنَا حَاسِبِينَ.

**“Qiyamət günü düzgün tərəzilər qurarıq. Heç bir kəs heç bir haqsızlığa məruz qalmaz”.[28]**

وَالَّذِينَ كَفَرُوا وَكَذَّبُوا بِآيَاتِنَا أُولَٰئِكَ أَصْحَابُ النَّارِ ۖ هُمْ فِيهَا خَالِدُونَ.

**“İnkar edən şəxslər və ayələrimizi yalan sayanlar cəhənnəmlik olanlardır. Onlar orada əbədi qalacaqlar”.[29]**

Həmçinin bu və ya digər ayələrdən başqa məadı sübut edəcək hədislər də vardır ki, Əllamə Məclisi onların bir neçəsini adı çəkilən əsərində qeyd etmişdir. Belə ki, Peyğəmbər (s) buyurmuşdur:

“Dörd şeyə inanmayan heç vaxt mömin sayılmaz: Allahdan başqa ilahın olmadığına və onun heç bir şərikinin olmadığına şəhadət verməyənədək, məni haqq olaraq peyğəmbər göndərdiyinə inanmayanadək, ölümdən sonra dirilməyə inanmayanadək və qəzavü-qədərə inanmayanadək”.[30]

“Qəbir - ya Cənnət bağçalarından bir bağça, yaxud Cəhənnəm çuxurlarından bir çuxurdur”.[31]

Əllamə Məclisi bu növdən olan ayələrdən belə nəticəyə gəlmişdir ki, həddi-buluğa yetmiş hər bir şüurlu və ağıllı insan Allah varlığına və vəhdaniyyətinə iman etməlidir. Allah Quranda buyurur: **“Məgər göyləri və yeri yaradan Allaha da şübhə etmək olarmı?”[32]** Bu ayədən belə anlaşılır ki, Allahın varlığını sübut etmək üçün dəlil və ya sübuta heç bir ehtiyac yoxdur. Lakin buna baxmayaraq, əqidə alimləri və kəlamçılar kimi Əllamə Məclisi də Allahın varlığını və vəhdaniyyətini isbat etmək üçün müxtəlif nəzəriyyələr irəli sürmüş və Allahaxtaranlara dürüst yollar göstərmişdir.

İslam etiqadına görə, iman və ya dinin əsaslarını təşkil edən anlayışlardan biri də ədalətdir, yəni Allahın adil olmasıdır. Ədalət Allahın kamal sifətlərindən biridir və ona iman etmək zəruri məsələlərdəndir. Qurani-Kərimdə dinin əsaslarından olan bu prinsip dəfələrlə vurğulanmış və Allahın hər cür zülm və istibdaddan uzaq olduğu önə sürülmüşdür. Əllamə Məclisi də Allahın ədalətli olması haqqında aşağıdakı ayələri qeyd etmişdir:

وَوُضِعَ الْكِتَابُ فَتَرَى الْمُجْرِمِينَ مُشْفِقِينَ مِمَّا فِيهِ وَيَقُولُونَ يَا وَيْلَتَنَا مَالِ هَٰذَا الْكِتَابِ لَا يُغَادِرُ صَغِيرَةً وَلَا كَبِيرَةً إِلَّا أَحْصَاهَا ۚ وَوَجَدُوا مَا عَمِلُوا حَاضِرًا ۗ وَلَا يَظْلِمُ رَبُّكَ أَحَدًا.

**“Qiyamət günü hər kəsin əməl dəftəri qarşısına qoyulacaq. Rəbbin heç kəsə haqsızlıq etməz”.[33]**

شَهِدَ اللَّهُ أَنَّهُ لَا إِلَٰهَ إِلَّا هُوَ وَالْمَلَائِكَةُ وَأُولُو الْعِلْمِ قَائِمًا بِالْقِسْطِ ۚ لَا إِلَٰهَ إِلَّا هُوَ الْعَزِيزُ الْحَكِيمُ.

**“Allah özündən başqa heç bir tanrı olmadığına şahiddir...”[34]**

---

[27] Muminun surəsi, ayə 100.
[28] Ənbiya surəsi, ayə 47.
[29] Bəqərə surəsi, ayə 39.
[30] Əllamə əl-Məclisi. Biharül-ənvar. VI c. s. 108.
[31] Həmin mənbə. VI c. s. 159.
[32] İbrahim surəsi, ayə 10.
[33] Kəhf surəsi, ayə 49.
[34] Ali-İmran surəsi, ayə 18.

Müəllif Allahın ədalətli olmasının zəruri olduğunu qeyd edərək yazır: "Çünki onun adil olmaması zülmünün olmasından xəbər verir ki, bu da Quran və sünnədə rədd edilmiş və batil bir əqidə hesab olunur. Bunu biz açıq-aşkar şəkildə aşağıdakı ayə və hədisdə də görməkdəyik. Belə ki, Allah buyurur: **"Allah zərrə qədər də heç kəsə zülm etməz"**[35] və yaxud: **"Allah öz bəndələrinə zülm etməz".**[36] Həmçinin bu mövzuya aid aşağıdakı hədislər də çox əhəmiyyətlidir:

Peyğəmbər (s) buyurub: "Allah taala zülm etməyin pis iş olduğunu bilib ona heç bir ehtiyacı da olmadığından zülm etmir".[37]

İmam Əli (ə) isə buyurur: "Mən şəhadət verirəm ki, o, adildir, adildir..." "...Bəndələrə olan zülmü aradan qaldırdı, yaratdıqlarına ədalət göstərdi və öz hökmündə onlarla ədalətlə rəftar etdi".[38]

Əllamə Məclisi yuxarıda göstərilən ayə və hədislərdən belə bir nəticəyə gəlmişdir ki, Allah mütləq adildir və onun ədalətinə şəkk-şübhə ilə yanaşmaq imansızlıq əlamətidir.

Əllamə Məclisinin "Biharül-ənvar" əsərində mühüm dini-fəlsəfi problemlərdən olan Allahın təkliyi məsələsinə toxunması da diqqəti cəlb etməkdədir. Bildiyimiz kimi, Allahın varlığının sübutu bütün dövrlərdə filosofları məşğul etmişdir. Belə olduğu təqdirdə Əllamə Məclisi kimi öz dövrünün öndə gələn fikir sahibi heç vaxt bu problemdən yayına və ya belə mühüm fəlsəfi məsələyə münasibət göstərməyə bilməzdi. Müəllif həm müstəqil traktatlarında, həm də "Biharül-ənvar" əsərində mövzu ilə əlaqədar ayə və hədisləri nəql etmiş, sonra isə yeri gəldikcə həmin ayə və hədisləri İslam fəlsəfəsi çərçivəsində izah etməyə çalışmışdır. O, əsərin "Tövhid" bölümündə bu mövzunu geniş şəkildə işıqlandırmışdır. Burada əvvəlcə ayələri, daha sonra hədisləri vermiş və mövzu ilə əlaqədar fikirlərini izah etmişdir. Əllamə Məclisi Allahın varlığının isbatı üçün qədim filosofların yolunu izləmiş və bunun üçün mövcud olan bir çox dəlillərdən istifadə etmişdir.

Əllamə Məclisi "Biharül-ənvar" əsərində etiqad əsaslarından olan nübuvvət məsələsinə də toxunmuşdur. O, bu haqda yazır: "Nübüvvət peyğəmbərlik deməkdir. Buna inam bəsləmək isə nəinki İslam dininin əsaslarından, o cümlədən digər səmavi dinlərin də əsas prinsiplərindən biri olmuş və dinin ardıcıllarına buna etqad bəsləmələri vacib edilmişdir. Çünki Allahın insanlar üzərinə göndərdiyi bütün dini və dünyəvi bilgilər peyğəmbərlərin vasitəsi və təbliği nəticəsində onlara çatmışdır. Belə olan halda, insanların peyğəmbərləri qəbul etmələri və onlara iman gətirmələri şübhəsiz ki, dinin əsas müddəalarından biridir və hər kəsin buna iman etməsi vacibdir, əks halda həmin şəxsin dindən çıxması gerçəkləşir" (VII c. s. 24).[39]

Həqiqətən də nübuvvətin İslamın əsaslarından olması haqqında heç bir ixtilaf yoxdur. Çünki bu məsələ Quran və sünnədə mütləq olaraq tanıdılan və iman edilən məsələlərdir. Allah peyğəmbərlərə tabe olmaq, onlara iman gətirmək haqqında səmavi kitablarında müxtəlif ayələr nazil etmişdir. Burada Quranda nazil olan

---

[35] Nisa surəsi, ayə 40.
[36] Mumin surəsi, ayə 31.
[37] Şeyx Səduq. ət-Tövhid. Tehran, Məktəbətüs-Sadiq. Tarixsiz, s. 397-398.
[38] Əllamə əl-Məclisi. Biharül-ənvar. V c. s. 110.
[39] İbrahim Quliyev. Suallara cavablar (hədisi-şəriflər kontekstində). Bakı, Elm və təhsil, 2016. s. 338-347.

ayələrin bir neçəsinə nəzər yetirmək əlbəttə ki, faydalı ola bilər. Belə ki, Allah peyğəmbərlik mövzusunda buyurmuşdur:

ذَٰلِكَ بِأَنَّهُمْ كَانُوا يَكْفُرُونَ بِآيَاتِ اللَّهِ وَيَقْتُلُونَ النَّبِيِّينَ بِغَيْرِ الْحَقِّ ۗ ذَٰلِكَ بِمَا عَصَوْا وَكَانُوا يَعْتَدُونَ.

**“...Bu, onların Allahın ayələrini inkar etdiklərinə və peyğəmbərləri haqsız yerə öldürdüklərinə görə idi”.**[40]

آمَنَ الرَّسُولُ بِمَا أُنْزِلَ إِلَيْهِ مِنْ رَبِّهِ وَالْمُؤْمِنُونَ ۚ كُلٌّ آمَنَ بِاللَّهِ وَمَلَائِكَتِهِ وَكُتُبِهِ وَرُسُلِهِ لَا نُفَرِّقُ بَيْنَ أَحَدٍ مِنْ رُسُلِهِ ۚ وَقَالُوا سَمِعْنَا وَأَطَعْنَا ۖ غُفْرَانَكَ رَبَّنَا وَإِلَيْكَ الْمَصِيرُ.

**“Peyğəmbər Rəbbi tərəfindən ona nazil edilənə inanmış və möminlər də iman gətirmişlər.** (Onların) **hamısı Allaha, onun mələklərinə və bütün peyğəmbərlərinə iman gətirərərk dedilər ki: “Biz onun peyğəmbərləri arasında fərq qoymuruq”.**[41]

Həmçinin bu və ya digər ayələrdən başqa nübuvvəti təsdiq edən çoxlu sayda mütəvatir (doğruluğu sübut olunmuş) hədislər də vardır ki, Əllamə Məclisi onları adı çəkilən əsərində qeyd etmişdir. Belə ki, Peyğəmbər (s) buyurub: “Allah taala yüz iyirmi dörd min peyğəmbər yaratmışdır və mən onların ən üstünüyəm...”[42]

Həmçinin bu xüsusda İmam Əli (ə) buyurmuşdur: “...Allah taala onların arasından öz peyğəmbərlərini seçərək onlarda fitri olan Allahın əhd-peymanını tələb etmək və unudulmuş neməti (fitri tövhidi) xatırlatmaları, təbliğ yolu ilə onlarla söhbət etmələri, gizlənmiş ağılları üzə çıxararaq işə salmaları və Allahın qüdrət nişanələrini onlara göstərmək üçün onları bir-birinin ardınca göndərdi...”[43]

Nübüvvət haqqında olan xəbərlərdən belə anlaşılır ki, insanların bu əqidə əsasını qəbul etmələri həm əqlən, həm də fitrətən mümkün bir işdir. Həmçinin peyğəmbərlik insanların dünya və axirət xoşbəxtliyinə yetişmələri üçün bir vasitədir. Bu vasitədən də lazımınca istifadə etmək və yararlanmaq üçün şübhəsiz ki, onlara iman edilməli, onların Allah tərəfindən göndərildiyi, məsum olduqları, ilahi vəhydən qaynaqlandıqları qəbul edilməlidir.

Həmçinin burada diqqətçəkici məqamlardan biri də budur ki, ilk peyğəmbər həzrət Adəm (ə) olduğu kimi son peyğəmbər də həzrət Məhəmməddir (ə). Deməli, hər bir şəxsin Adəmdən (ə) tutmuş sonuncu peyğəmbərədək (ə) olan peyğəmbərləri və onlara nazil olan səhifə və kitabları qəbul etməsi dinin əsaslarındandır və onların hər hansı birini inkar etmək yolverilməzdir. Çünki etiqadımıza görə nübuvvət ilahi vəzifədir və Allah onu bəndələri içərisində ən saleh və insaniyyət baxımından ən kamil insanlara həvalə etmişdir.

Əllamə Məclisinin toxunduğu əqidəvi mövzulardan biri də imamət məsələsidir. O, bu haqda yazır: “İmamət, cəfəri məzhəbinin əqidəsinə görə, dinin əsaslarından biridir və onun inkarı kamil imana dəlalət edə bilməz. Çünki imamət Allah tərəfindən təyin edilən bir vəzifədir və müsəlmaların ona etiqad bəsləməsi dinin zəruri məsələlərindəndir”.[44]

---

[40] Bəqərə surəsi, ayə 61.
[41] Bəqərə surəsi, ayə 285.
[42] Əllamə əl-Məclisi. Biharül-ənvar. VII c. s. 65.
[43] Seyid Rəzi. Nəhcül-bəlağə. Tərc: Ağabala Mehdiyev və b. Bakı, İran Mədəniyyət Mərkəzi, 2009. s. 12.
[44] Həmin mənbə. VIII c. s. 123.

Müəllif imamətin Allah tərəfindən verilən bir vəzifə olduğunu qeyd etdikdən sonra yazır: “Hər kəs imam olmadığı halda imam olduğunu iddia etsə, o, lənətlənmişdir”.[45]

Əllamə Məclisi İslam etiqadını tədqiq edərkən sonda belə bir nəticəyə gəlmişdir ki, Allah hər bir insanın dünya və axirətdə xoşbəxt yaşaması üçün din göndərmiş və öz dinini müxtəlif dövrlərdə müxtəlif peyğəmbərlər vasitəsi ilə təbliğ etmişdir. Allah göndərdiyi dini üçün müəyyən qayda-qanunlar tərtib etmiş və insanların da yalnız bu qayda-qanunlara əməl etmələrini zəruri bilmişdir. Həmçinin hər bir insanın Allahın göndərdiyi dinə tabe olması və ona girməsi üçün müəyyən şərtlər irəli sürmüşdür. Bu şərtlər vasitəsilə hər bir insanın Allahın dininə tabe olub-olmadığını müəyyən etmək mümkün olmuşdur. Sözsüz ki, həmin şərtlər içərisində birinci təbəqəni dinin əsasları tutmaqdadır. Buradan belə məlum olur ki, hər hansı bir insanın müsəlman olub-olmadığını müəyyən etmək üçün onun əqidəsinə baxmaq lazımdır. Yəni əgər həmin şəxs yuxarıda sadaladığımız əqidə əsaslarına iman gətiribsə, deməli, özünü müsəlman saya bilər. Yox əgər göstərilən əqidə əsaslarından hər hansı birini qəti şəkildə inkar edərsə, şübhəsiz ki, bu, onun müsəlman olmadığına və dindən çıxmasına səbəb olacaqdır. Əlbəttə ki, burada ixtilaflı məsələlər istisnadır.

Bildiyimiz kimi, İslam bəşəriyyətin sonuncu dinidir və Allah bu din vasitəsilə son olaraq öz hökmlərini insanlara çatdırmış və onların da bu hökmlər əsasında ömür sürmələrini tövsiyə etmişdir. Əgər İslam dininin gətirdiyi hökmlərə diqqət yetirilərsə, həqiqətən məlum olacaqdır ki, bu din fərdi və ictimai problemlərin bütün sahələrinə toxunmuş və onları son nöqtəsinədək həll etməyə qadirdir. Lakin təəssüflər olsun ki, bəzi insanlar İslamın əqidə prinsiplərinə etiqad bəsləməmiş, onun gətirdiyi fərdi və ya ictimai hökmləri öz həyatlarında tətbiq etməmiş və bunun da nəticəsində qlobal problemlər meydana gələrək insanları acı məşəqqət bürümüşdür. Bu acı məşəqqətləri biz dinsiz və imansız cəmiyyətlərdə daha çox görməkdəyik. Belə ki, dinsiz cəmiyyətlər həmişə mənəviyyatsızlıq girdabında boğulmuş və öz problemlərinin həlli yollarını tapmayaraq dünya və axirətdə rüsvayedici vəziyyətdə olmuşlar.

Əvvəldə qeyd etdiyimiz kimi, Əllamə Məclisi elmin müxtəlif sahələrinə aid çoxlu əsərlər yazmışdır. Sözsüz ki, onun qələmə aldığı əsərlərin böyük əksəriyyəti dini elmləri ehtiva etməkdədir. O, əsərlərini iki dildə - ərəb və fars dillərində - yazmışdır. Mənbələrdə onun aşağıdakı əsərlərinin adı çəkilməkdədir:

1. “Biharül-ənvaril-camiətu li dürəril-əimmətil-əthar”.
2. “Miratül-üqul fi şərhi əxbari Alir-Rəsul”. “Miratül-üqul” əsəri Küleyninin “əl-Üsul minəl-kafi” əsərinə şərh olaraq yazılmışdır. Əsər hicri 1401 və 1409-cu illərdə Tehranda iyirmi beş cilddə nəşr edilmişdir.
3. “Mülazil-əxyar fi şərhi təhzibil-əxbar” (1406/1985/86-ci illərdə Qumda nəşr edilmişdir).
4. “Şərhül-ərbəin”.
5. “əl-Fəvaidüt-tərifə fi şərhis-səhifə”.
6. “əl-Vəcizə fir-rical”.
7. “Risalətül-itiqadat”. (Əsər hicri 1409-cu ildə İsfahanda nəşr edilmişdir).
8. “Risalətül-əvzan”.

[45] Həmin mənbə. VIII. c. s. 265.

9. “Risalə fiş-şukuk”.
10. “əl-Məsailül-Hindiyyə”.
11. “əl-Həvaşil-mütəfərriqa aləl-kutubül-ərbəəti və ğeyriha”.
12. “Risalə fi azan”.
13. “Risalə fi badiyyətüs-saqitə anis-səhifətül-kamilə”.
14. “Eynül-həyat. (Əsər hicri 1273 və 1297-ci illərdə İranda nəşr edilmişdir).
15. “Mişkatül-ənvar müxtəsər eynül-həyat”.
16. “Həqqül-yəqin. (Əsər hicri 1259, 1268-ci illərdə İranda nəşr edilmişdir).
17. “Hilyətül-müttəqin”. (Əsər hicri 1372-ci ildə İranda nəşr edilmişdir).
18. “Həyatül-qulub”. (Əsər üç cilddədir: birinci cild “Fi əhvalil-ənbiya”, ikinci cild “Fi əhvali nəbiyyina”, üçüncü cild “Fil-imamət” adlanır. Əsər hicri 1260 və 1374-cü illərində İranda nəşr edilmişdir.
19. “Tühfətüz-zair”. (Əsər hicri 1261, 1300, 1312 və 1314-cü illərində İranda nəşr edilmişdir).
20. “Cilalül-üyun”. (Əsər hicri 1352-ci ildə İranda, hicri 1353-cü ildə isə Nəcəfül-əşrəfdə nəşr edilmişdir).
21. “Miqbasul-məsabih”. (Əsər hicri 1311-ci ildə İranda nəşr edilmişdir).
22. “Rəbiul-əsabi”. (Əsər bir dəfə İranda nəşr edilmişdir).
23. “Zadül-məad”. (Əsər hicri 1272, 1273- cü illərdə İranda çapdan çıxmışdır).
24. “Risalətüd-diyat”. (Əsər Pakistanda hicri 1262-ci ilində nəşr olunub).
25. “Risalə fiş-şukuk”.
26. “Risalə fil-əvqat”.
27. “Risalə fir-rəcət”.
28. “Risalə fi ixtiyaratil-əyyam və hiyə ğeyrə məştəhərət nisbətəha ileyhi”.
29. “Risalə fil-cənnəti vən-nar”.
30. “Risalə fi mənasikil-həcc”.
31. “Risalə uxra”.
32. “Məfatihul-ğeyb fil-istixarə”.
33. “Risalə fi malin-nasibi”.
34. “Risalə fi adabis-salat”.
35. “Risalə fil-kəffarrat”.
36. “Risalə fi adabir-rəmy”.
37. “Risalə fis-salatil-leyl”.
38. “Risalə fiz-zəkat”.
39. “Risalətüs-sabiqunəs-sabiqun”.
40. “Risalə fi fərqi beynə sifatiz-Zatiyyə vəl-Filiyyə”.
41. “Risalətül-müxtəsirə fit-təqib”.
42. “Fil-bəda”. (Əsər müstəqil halda hicri 1260-cı ildə Hindistanda çap olunub).
43. “Risalə fil-cəbr vət-təfviz”.
44. “Risalə fin-nikah”.
45. “Risalə səvaiqül-yəhud fil-cizyəti və əhkamid-diyə”.
46. “Risalə fis-səhm”.
47. “Risalə fi ziyarətil-əhlil-qübur”.
48. “Münacatnamə”.
49. “Şərhu duai-cövşanil-kəbir”.

50. “Kitab mişkatil-ənvar fi adabi qiraətil-Quran vəd-dua və şurutihima”.
51. “Tərcümə əhdi-Əli (ə) ilə Malik əl-Əştər”.
52. “Tərcümə tövhidi-Müfəzzəl”.
53. “Tərcümə tövhidi-Rza (ə)”.
54. “Tərcümə fəthətil-ğəriyyi li İbn Tavus”.
55. “Tərcümə hədisi-Rəca bin Əbi Dəhhak”.
56. “Tərcümə ziyarətil-camia”.
57. “Tərcümə duai-Kümeyl”.
58. “Tərcümə duail-Mübahilə”.
59. “Tərcümə duai cövşanis-səğır”.
60. “Tərcümə hədisi-Abdulla bin Cündəb”.
61. “Tərcümə qəsidəti Dibəl”.
62. “Tərcümə hədisi sunnəti əşyai leysə lil-ibad”.
63. “Əcvibətül-məsail-mütəfərriqa”.[46]

Bütün bunlardan başqa, “Kitab ixtiyaratil-əyyam”, “Kitab təzkirətil-əimmə”, “Kitab sıratin-nəcat” və “Kitab fi təbiril-mənam” əsərləri də bəzi müəlliflər tərəfindən Əllamə Məclisinin əsərləri sırasına daxil edilmişdir. Lakin bu əsərlərin üslubundan bunların Məhəmməd Bağır bin Məhəmməd Tağı əl-Lahiciyə məxsus olduğunu güman etmək olar. Bu fikri bir çox tədqiqatçılar da təsdiq etməkdədirlər. Ola bilsin ki, burada tədqiqatçıları müəlliflərin həm özlərinin həm də atalarının adlarının bir-birlərinə oxşaması çaşdırmışdı. Bu barədə görkəmli azərbaycan ilahiyyatçısı Mirzə Abdullah Əfəndi yazdığı “Riyazül-üləma” əsərinin beşinci fəslində adı çəkilən əsərləri məchul müəlliflər sırasında yerləşdirmişdir. O, bu haqda ustadı Əllamə Məclisinin həyatını yazarkən yuxarıdakı şübhəli əsərləri onun əsərləri sırasında qeyd etməmiş və “bunların müəllifi naməlumdur” demişdir.

Əllamə Məhəmməd Bağır Məclisiyə aid olunan əsərlərdən biri də “Şərhu hədisi-vədi vəl-vəid” əsəridir. Bu əsərin ona məxsus olması şübhəli olsa da, Əllamə Ağa Bozorg Tehraninin (1876-1970) fikrincə Məclisiyə aiddir. Həmçinin Əllamə Məclisiyə aid olan əsərlərin bəziləri onun “Biharül-ənvar” əsərində yer almış bəzi fəsillərin fars dilinə müəllifin özü tərəfindən tərcümə etdiyi əsərləridir. Bu haqda Əllamə Ağa Bozorg Tehrani yazırdı: “Biharül-ənvarın birinci və ikinci cildləri müəllif tərəfindən farscaya tərcümə edilmişdir. Birinci cildi “Eynül-həyat” adı ilə Hindistan şahzadəsi Sultan Məhəmməd Bülənd Əxtər üçün tərcümə etmiş, ikinci cildi isə “Camiül-məarif” adı ilə fars dilinə çevirmiş və bunlar İranda nəşr edilmişdir.

## 1.3. Əllamə Məhəmməd Bağır Məclisinin yaradıcılığında “Biharül-ənvar” əsəri

Əllamə Məclisinin qələmə aldığı əsərlər içərisində ən məşhuru və ən irihəcmlisi, heç şübhəsiz ki, “Biharül-ənvar” əsəridir. Əsərin tam adı “Biharül-ənvaril-camiətu li durəri əxbaril-əimmətil-əthar”dır. Müəllifin ərəb dilində yazdığı əsəri müsəlman alimləri “Dairətul-məarif” adlandırırlar. Həqiqətən də əsər ensiklopedik xarakter daşıyaraq dini elmlərlə yanaşı, bir çox dünyəvi elmləri də ehtiva etməkdədir. Əsərdə

---

[46] Əllamə əl-Məclisi. Biharül-ənvar. I c. s. 31-32.

müəllif təfsir, hədis, fiqh, tarix, əxlaq, fəlsəfə, ədəbiyyat, dilçilik, təbiətşünaslıq və s. elmlərə aid problemləri işıqlandırmışdır. Buna görə də müsəlman alimləri əsərə yüksək qiymət verərək onu İslam elmlərinin ensiklopediyası adlandırmışlar. Lakin bütün bunlara baxmayaraq, əsər əhatə etdiyi məsələlərə hədis elmi nöqteyi-nəzərindən yanaşır. Buna görə də o hər şeydən əvvəl bir hədis əsəridir.

Məlum olduğu kimi, Allah taala insanları doğru və düzgün yola yönəltmək, onların bütün fərdi və ictimai problemlərini həll etmək üçün Qurani-Kərimi göndərdi. Peyğəmbər (s) də Allah tərəfindən göndərilən bu müqəddəs kitabı təkcə insanlara çatdırmaqla kifayətlənməyib, eyni zamanda orada yer alan ayələri insanlara açıqlayıb izah edirdi. Bütün müsəlmanlar Quranın kamil bir ilahi kitab olması haqqında müttəfiq fikirdədirlər. Lakin müqəddəs kitabdakı ayələr hər hansi bir anlayışı ümumi şəkildə bəyan edir, oradakı hökmlərin bütün təfərrüatlarını izah etmir. Deməli, belə olan halda müsəlmanların qarşısında Quran ayələrini doğru-düzgün şəkildə başa düşmək və burada göndərilən hökmlərə necə əməl etmək problemi dayanır və bu cür hallarda “müsəlmanların vəzifəsi nədir?” sualı ortalığa çıxır.

Qurani-Kərim müsəlmanlara belə problemlərlə qarşılaşan zaman Allah Rəsulunun (s) hədislərinə əməl etməyi əmr edir. Buna görə də digər müsəlman alimləri kimi Əllamə Məclisi də səhih hədislərin bütün müsəlmanlara dəlil olduğu qənaətinə gəlmiş, möminlərin Peyğəmbərə (s) itaət göstərib onun hökmünə tabe olmağın vacib olduğunu demişdir.[47] Allah Quranda Peyğəmbərə (s) itaət göstərməyin vacib olduğu haqqında kifayət qədər ayələr göndərmişdir. Həmin ayələrdən aşağıdakını misal göstərmək olar:

**قُلْ إِنْ كُنْتُمْ تُحِبُّونَ اللَّهَ فَاتَّبِعُونِي يُحْبِبْكُمُ اللَّهُ وَيَغْفِرْ لَكُمْ ذُنُوبَكُمْ ۗ وَاللَّهُ غَفُورٌ رَحِيمٌ قُلْ أَطِيعُوا اللَّهَ وَالرَّسُولَ ۖ فَإِنْ تَوَلَّوْا فَإِنَّ اللَّهَ لَا يُحِبُّ الْكَافِرِينَ.**

**“De ki: “Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah bağışlayan və mərhəmətlidir!” Söylə ki, “Allaha və onun Peyğəmbərinə itaət edin! Əgər üz döndərirsinizsə, şübhəsiz ki, Allah da kafirləri sevməz!”[48]**

Bu ayədən başqa biz Peygəmbərin (s) hədislərində də ona tabe olub, sünnəsini (şəriətini) yaşatmağın vacib olduğunu görməkdəyik. Əllamə Məclisi Peyğəmbərdən (s) aşağıdakı hədisi rəvayət edir:

“Kim mənim sünnəmdən üz çevirərsə, məndən deyildir”.[49]

Deməli, bu və ya digər hədislərdən də məlum olur ki, Peyğəmbər (s) və onun əhli-beytinin (ə) hədislərini əzbərləyib onları qoruyub saxlamaq dinimiz üçün böyük əhəmiyyət kəsb edir. Çünki hədislərdə Quranı izah edən və hətta orada olmayan, lakin icra edilməsi müsəlmanlara vacib olan bəzi hökmlərin yerinə yetirilməsini göstərən göstərişlər vardır. Şübhəsiz ki, hədis və ya sünnənin qoruyub saxlanması və təbliğ edilməsi dinin zəruri məsələlərindən olmasaydı, nə Allah Quranda Peyğəmbərə (s) və onun əhli-beytinə (ə) tabe olmağı vacib buyurar, nə də Məsumlardan bu qədər hədislər nəql olunardı. Deməli, yuxarıda göstərilən ayə və hədislər bizə Allahın hökmü ilə Peyğəmbərin (s) hökmünün eyni olduğunu, Peyğəmbərə (s) itaət etməyin Allaha itaət etmək olduğunu, Rəsulullahdan (s) üz çevirməyin insanın kafirliyinə

[47] Əllamə əl-Məclisi. Biharül-ənvar. XV c. s. 197.
[48] Ali-İmran surəsi, ayə 31-32.
[49] Əllamə əl-Məclisi. Biharül-ənvar. I c. s. 219.

dəlalət etdiyini, bir sözlə, Peyğəmbərin (s) sünnəsi ona nazil olan Quranın açıqlanması olduğunu aydın edir.

Hədislərin Quranı izləməsi, həmçinin şəriətin bir qisminin Quranın gətirdiklərindən, digər bir qisminin isə Peyğəmbərin (s) qoymuş olduğu sünnədən ibarət olduğu inkar edilməz bir həqiqətdir.

Əbəs deyildir ki, hədislər Qurani-Kərimin açıqlanması olduğu üçün İslam alimləri ona “Vəhyi-ğeyri-mətluvv” (oxunmayan vəhy), Qurana isə “Vəhyi-mətluvv” (oxunulan vəhy) demişlər.

Qurani-Kərim bizə Peyğəmbərin (s) sözlərinin vəhy altında olduğunu, bütün xəta və nöqsandan uzaq olduğunu anlatmaqdadır. Əgər Peygəmbərin (s) haqqında nazil olan ayələrə bir daha baxsaq, o Həzrətin “Aləmlərə rəhmət”, “Hidayət rəhbəri”, “Son Peyğəmbər”, “Böyük bir əxlaq sahibi” adları altında zikr edildiyinin şahidi olarıq.

Məlumdur ki, Peyğəmbər (s) özündən əvvəl göndərilən peyğəmbərlərdən fərqli məziyyətlərə malik olmuşdur. Bu məziyyət və üstünlüklərdən biri də onun qoyduğu sünnənin qiyamətə qədər yaşayacağıdır.

Quran ayələri şəri hökmləri formul şəkildə bəyan edir. Məsələn, Quran buyurur:
فِيهِ آيَاتٌ بَيِّنَاتٌ مَقَامُ إِبْرَاهِيمَ ۖ وَمَنْ دَخَلَهُ كَانَ آمِنًا ۗ وَلِلَّهِ عَلَى النَّاسِ حِجُّ الْبَيْتِ مَنِ اسْتَطَاعَ إِلَيْهِ سَبِيلًا ۚ
وَمَنْ كَفَرَ فَإِنَّ اللَّهَ غَنِيٌّ عَنِ الْعَالَمِينَ.

**“...Gücü çatan hər bir kəsin həccə gedib o evi ziyarət etməsi insanların Allah qarşısında borcudur”.**[50]

Qurani-Kərim ayələrinin hər şeyi bəyan etməsi inkaredilməz bir həqiqətdir. Amma onu daim oxuyan və dinləyən insanların anlayış səviyyələri fərqli olduğu üçün onu təkbaşına oxuyub dürüst şəkildə başa düşmək çətindir. Belə olan halda onu insanlara başa salan bir qüvvəyə ehtiyac vardır ki, bu da heç şübhəsiz ki, Peyğəmbər (s), səhabələri və onun əhli-beytidir (ə). Əlbəttə ki, Peyğəmbərin (s) Quranı açıqlayıb izah etməsi Qurana əksiklik və qüsur gətirməz, əksinə, bu izahlar sayəsində bəndələrin o Uca Allaha necə ibadət edəcəkləri öyrənilmiş olacaqdır. Buna görə də alimlər: “Sünnəsiz müsəlmanlıq mümkün deyildir”, - demişlər.

Yuxarıda göstərilən bütün ayə və hədislərdən belə nəticəyə gəlmək olur ki, hədisin Qurani-Kərim qarşısında üç durumda olduğu inkaredilməz həqiqətdir:

1) Təkid: Hədis hər hansı bir hökmə Quran kimi dəlalaət edər, yəni hər yönü ilə Quranın hökmünə uyğun bəyanat verər.

2) Təfsir və bəyan: Hədis Quranda keçən hər hansı bir hökmü müəyyən bir yöndən açıqlayar, yəni orada olan mücməl və müşkül mənaları izah edər.

3) Təşri: Quran hər hansı bir mövzuda hökm gətirmədiyi halda hədis bir hökm ortaya qoyar.[51]

Məlumdur ki, Peyğəmbərin (s) və məsum İmamların (ə) sözləri, hərəkətləri və qısası, bütün həyat tərzləri biz müsəlmanlar üçün örnəkdir. Bəşər cəmiyyətində olan hər bir insan üçün onların hədisləri müalicəvi əhəmiyyət kəsb etməkdədir. Həmçinin, onlar insan yaşayışının bütün sahələrinə aid müxtəlif hədislər demişlər. Onların söylədikləri isə həmişə müsəlman alimlərinin diqqət mərkəzində olmuş, buna görə də o hədislər alimlərimiz tərəfindən müxtəlif adlar altında diqqətlə kitab halında

[50] Ali-İmran surəsi, ayə 97.
[51] İbrahim Quliyev. Hədisşünaslığın əsasları. Bakı, Elm nəşriyyatı, 2013. s. 19.

toplanmışdır. Alimlərmizdən fəqih olanlar daha çox fiqhi mövzularda hədis əsəri yazmış və fitva verərkən bu qəbildən olan əsərə üstünlük vermişlər. Doğrudur, bəzi alimlər təkcə fiqhi mövzuları ehtiva edən hədisləri deyil, eyni zamanda, digər mövzulara aid hədisləri də toplamışlar. Lakin belə əsərlərə diqqət yetirdikdə məlum olur ki, həmin əsərlərdə yer alan hədislər ya azlıq kəsb etməkdədir, yaxud da mövzunu tamamilə ehtiva etməməkdədir. Buna misal Küleyninin (876-941) "əl-Kafi" əsərini misal göstərmək olar. Belə ki, bu əsər fiqhi fəsillərə deyil, başqa bir tərtiblə fəsillərə ayrılmışdır. Lakin bu əsərin özündə də hər şeyi əhatə edən fəsillər yoxdur.

"Biharül-ənvar" əsərinə gəldikdə, o digərlərinə nisbətən mövzu baxımından daha zəngindir. Bu əsər özündən əvvəlki əsərlər əsasında yazılmış olsa da, onların toxunmadığı mövzuları əhatə etmişdir. Buna görə də əsəri tədqiq edən bəzi müəlliflər onun digər əsərlərə xas olmayan bəzi xüsusiyyətlərini qeyd etmişlər. Belə ki, həmin xüsusiyyətlərdən aşağıdakıları qeyd etmək olar:

I. Əsər bütün dini mövzulara aid fəsilləri ehtiva edən hədisləri özündə toplamışdır;

II. Müəllif nəql etdiyi hədislərin sənədlərini və yaxud hədislərin qaynağını qeyd etmişdir;

III. Müəllifin mənbə kimi göstərdiyi bəzi qaynaqlar dövrümüzədək gəlib çıxmamışsa da, məhz bu əsər vasitəsilə həmin mənbələrlə tanış oluruq və s.[52]

Əllamə Məclisinin "Biharül-ənvar" əsərinin ən mühüm xüsusiyyətlərindən biri hədis elmində mühüm problemlərdən olan ravilər təbəqəsinin araşdırılması, səhabələrin kimliyi, məşhur hədis nəql edən səhabələr, onlardan sonra gələn və hədis elmində ikinci təbəqə hesab olunan tabiunlar təbəqəsinin araşdırılması məsələsidir. Müəllifə görə, səhabə təbəqəsi hədis elmində mühüm bir mövzudur. Çünki onları tanımadan, onların İslamdakı yerini müəyyənləşdirmədən Peyğəmbərdən (s) rəvayət olunmuş hədisləri əldə etmək mükünsüzdür.

"Biharül-ənvar" əsərini digər hədis kitablarından fərqləndirən xüsusiyyətlərdən biri və ən başlıcası Peyğəmbərin (s) əhli-beytindən gələn hədislərin də bu əsərdə yer almasıdır. Bu barədə müəllif yazır: "Səhih sənədlə məsum imamlardan nəql olunan hədis və rəvayətlər şəriət hökmləri üçün dəlil və istinad mənbəyi hesab edilir. Onların məzmununa əməl edilməli və onlara müvafiq olaraq fitva verilməlidir".[53]

İmamlar (ə) nəql etdikləri hədisləri bir neçə üsulla əldə ediblər. Həmin üsullardan aşağıdakıları sadalayır:

- Hədislərin Allah Rəsulundan (s) nəql edilməsi:

Məsum insanlar (ə) hədisləri (bilavasitə və ya atalarının vasitəsilə) həzrət Peyğəmbərdən (s) əxz etmiş və başqaları üçün nəql etmişlər...

- Hədislərin İmam Əlinin (ə) ("Cifr", "Camiə" və s.) kitablarından nəql edilməsi:

İmam Əli (ə) Peyğəmbərin (s) peyğəmbərliyi dövründə daima onunla bir yerdə olmuş və bu səbəbdən də öz kitabında Peyğəmbərdən (s) çoxlu hədis toplamağa müvəffəq olmuşdur...

- İlahi ilham:

---

[52] Hüseyn Dərgahi. Mənahilül-əbrar fi təlxisi biharil-ənvar. 10 cilddə. I c. s. 8-9.
[53] Əllamə əl-Məclisi. Biharül-ənvar. X c. s. 243.

Əhli-beyt imamlarının (ə) elminin “ilham” adlanan başqa bir qaynağı vardır. İlham yalnız peyğəmbərlərə xas deyil. Tarix boyu bir çox övliyalar da ondan bəhrələnmişlər...”[54]

Əvvəldə qeyd etdiyimiz kimi, Əllamə Məclisinin “Biharül-ənvar” əsəri hələ onun sağlığında müəllifə böyük şöhrət gətirmişdir. Əsərə yaxından bələd olan alimlər onu yüksək səviyyədə qiymətləndirmiş və haqqında tərifli sözlər demişlər.

Əllamə Məclisinin öz tələbəsi və kürəkəni olmuş Məhəmməd Saleh əl-Hüseyni demişdir: “Kütubu-ərbəə”də olmayan hədisləri ehtiva edən bu kitabın yanında digərləri dərya yanında damcı kimidir. Ona bərabər bir kitab yazılmamışdır”.

Əllamə Nuri (öl. 1923) isə əsər haqqında yazırdı: “Yazılan əsərlər içərisində imamiyyə məzhəbinin ən şərəfli kitabı “Biharül-ənvar”dır. Ömrümə and olsun ki, indiyə kimi belə toplum əsər yazılmamışdır. O, xəbərləri, onların zəbt (hədisin nəql edilməsi yolu) və səhihliyini əhatə etməkdədir. Elə bir məsələ yoxdur ki, onu bu kitabda tapmayasan. Üsuliddin və füruiddinə, həmçinin, tarix və kəramətlərə və digər mövzulara aid elə bir xəbər yoxdur ki, onda olmamış olsun. Orada xəbərlərin bəyanı, izahı və təhqiqi vardır”.[55]

Əllamə Möhsün əl-Əmin (öl. 1953) isə yazırdı: “Bu əsər şiəliyin elmi ensiklopediyasıdır və onun heç bir tayı-bərabəri yoxdur. Orada şiəliyin xəbərləri, izləri və elmləri öz əksini tapmışdır”.[56]

Ayətullah əş-Şərani əsər haqqında demişdir: “Həqiqətən “Biharül-ənvar” şərif hədislərin fəsillərə görə toplusudur. Bunu əhli-beyt alimlərinin hamısı təsdiq etməkdədirlər. Din elmləri üzrə mütəxəssis olan hər bir fəqih, mühəddis, tarixçi, vaiz, təfsirçi, kəlamçı və bəlkə də ilahiyyatçı filosof onunla kifayətlənə biləcəkdir”.[57]

Məhəmməd Sadiq Bəhrulülum isə əsəri belə dəyərləndirmişdi: “Biharül-ənvar” elm, din, hədis, fiqh, hikmət, irfan, fəlsəfə, əxlaq, tarix, ədəbiyyat, zikr, dua və bu kimi şeylərədək geniş elmi əhəmiyyət daşıyan bir əsərdir. Bu əsər elmi-dini məsələlərin toplusudur və fəzilətlərlə doludur”.[58]

Əllamə Təbətəbai (1903-1983) yazırdı: “Şiə elmi dairəsinin ən yaxşısı öz xəbərlərinin toplumu ilə gözə görünəndir. Onun müəllifi fəsilləri tərtibləmiş və sıralamış, sonra isə hər fəsil üçün münasib olan ayələri vermişdir. Daha sonra isə həmin fəsillərə münasib hədisləri daxil etmişdir”.[59]

Əllamə Məclisinin “Biharül-ənvar” əsəri bir hədis kitabı olmasına baxmayaraq, demək olar ki, bütün dini mövzularla yanaşı, bir çox dünyəvi mövzuları da əhatə etməkdədir. Çünki müəllif burada bütün dini mövzular haqqında olan hədisləri toplamış və onları dəyərləndirmişdir. Buna görə də “Biharül-ənvar” əsərində din və təbiətşünaslıq problemləri baş mövzu hesab olunur. Müəllif adı çəkilən əsərində dinin mənşəyi və mahiyyəti, onun idrak kökü, dinin yer üzərində insanın əmələ gəlməsinə münasibəti, cinlərin və mələklərin yaradılması, kainatın əmələ gəlməsi və bir sözlə, din və təbiətşünaslıq problemlərinə aid məqamlara toxunmuş və bunları İslam düşüncəsi çərçivəsində və elmi əsaslarla izah etməyə çalışmışdır. O, dinin necə və nə

[54] Həmin mənbə. X c. s. 243.
[55] Əllamə ən-Nuri. əl-Müstədrək əla vəsailiş-şiə. I c. s. 34.
[56] Əllamə Möhsün əl-Əmin. Əyanüş-şiə. IX c. s. 183.
[57] Həmin mənbə. IX c. s. 184.
[58] Həmin mənbə. IX c. s. 187.
[59] Həmin mənbə. IX c. s. 187.

zaman əmələ gəlməsini doğru-düzgün başa düşmək və onun ictimai həyatdakı rolunu təyin etmək üçün hər şeydən əvvəl elmə müraciət etməyin zəruri olduğunu vurğulamışdır. Buna görə də müəllif əsərdə ilk öncə elmə aid xüsusi fəsil açmış, orada Qurani-Kərimin ayələrini, daha sonra isə hədisi-şərifləri yazmaqla başlamış, İslamın elmə verdiyi dəyəri ön plana çəkmişdir. Əllamə Məclisi adı çəkilən əsərində din və təbiətşünaslıq arasında olan münasibəti İslam təfəkkürü çərçivəsində işıqlandıraraq elmlə dinin arasında heç bir ziddiyyətin olmadığını, əksinə, elmlə dinin vəhdət təşkil etdiyini xalq kütlələrinə göstərmişdir.

Dinin əsas mahiyyətinin Allaha inam olduğunu qeyd edən müəllif əsərdə xüsusi "Tövhid" fəsli açmış,[60] orada Allahın varlığının isbat olunmasını ön plana çəkmişdir. O, insanın yalnız Allaha ibadət etməsini, bu ibadətdə kor-koranə və şüursuz şəkildə deyil, o uca varlığı tanıyaraq bu işi icra etməsini zəruri saymış və bununla da dini ideologiyanın mahiyyətini açıb göstərə bilmişdir. Müəllif əsərdə Allahı kainatın yaradıcısı və onun işlərini idarə edən kimi xarakterizə edir, onu hər şeyə qadir, hər yerdə mövcud və hər şeyi bilən varlıq kimi təsvir etmişdir. O, qədim filosofların Allahın varlığını sübut etmək üçün kosmoloji, ontoloji və teoloji dəlillərin ağlabatan olduğunu vurğulamış və yeri gəldikcə bu dəlillərdən faydalanmışdır.[61]

Əllamə Məclisi əsərdə yerin və göyün yaradılması haqqında böyük fəsillər açaraq əsərin 54-cü cildindən 63-cü cildinə qədər olan məlumatları tam olaraq təbiətşünaslıq problemlərinə həsr etmişdir. O, yerin və göyün yaradılmasını mütləq ilahi qüdrətə bağlayaraq[62] Onun izni olmadan heç bir varlığın yarana bilməyəcəyini qeyd etmişdir. Həmçinin o, elmin insanlara Allah tərəfindən verildiyini və onun ilahi xarakterə malik olduğunu bildirmişdir. O, hər bir səmavi dinin elm üzərində qurulduğunu, elmsiz heç bir ibadətin fayda verməyəcəyini qeyd etmişdir. Müəllif elmin təbiət və cəmiyyətin inkişaf qanunlarını üzə çıxardığını, insanı maarifləndirdiyini və onun mənəvi görüş dairəsini genişlətdiyini yazır. Elmlə yanaşı, dini ideologiyanın da insanlara müsbət biliklər verdiyini, din vasitəsilə cəhalət və nadanlığın aradan götürüləcəyini və nəhayət, elmsiz insanın əşyadan da dəyərsiz bir varlıq olduğunu vurğulayan müəllif insanlara elm öyrənməyin zərurətini anlatmışdır.[63]

Əllamə Məclisinin "Biharül-ənvar" əsərində riyaziyyat elmlərinə aid bəzi problemlər də öz əksini tapmaqdadır. O, bu elmin Allah tərəfindən insanlara bir nemət olaraq verildiyini qeyd etmiş və İmam Əlinin (ə): "Hesab Allah tərəfindən insanlara verilmiş bir nemətdir" hədisini rəvayət etmişdir. Əllamə Məclisi astronomiya və riyaziyyat elmlərində mükəmməl məlumatlara malik olmuş bir alim idi. O, adı çəkilən əsərinin müxtəlif cildlərində[64] məsələ ilə əlaqəli problemləri işıqlandırmışdır.

Şübhəsiz ki, Əllamə Məclisi öz dövründə olan təbiətşünaslıq elmləri nöqteyi-nəzərindən çıxış edərək bəzi nəzəriyyələr irəli sürmüşdür. Onun astronomiya və riyaziyyat elmləri sahəsindəki fikirləri alimin o dövrdə məlum olan və bu sahələrdə

---

[60] Əllamə əl-Məclisi. Biharül-ənvar. II c. s. 230.
[61] Həmin mənbə. V c. s. 82, 127.
[62] Həmin mənbə. LIV c. s. 2; LX c. s. 95, 130.
[63] Həmin mənbə. I c. s. 150.
[64] Həmin mənbə. LXXXIII c. s. 137-144; LXI c. s. 270; LXX c. s. 139; LXXXII c. s. 260

yazılan əsərləri dərindən mütaliə etməsindən və bu sahədə mükəmməl bilik sahibi olmasından xəbər verir. O, "Biharül-ənvar" əsərində astronomik məlumatları izah etmişdir. Müəllif Qurani-Kərimdə keçən "səma" və "ərz" kəlmələrinin leksik mənasını belə izah edir: "Yer aşağı olduğuna görə ərz adlanıb. Çünki ərz sözü aşağı, alçaq mənalarındadır. Səma isə yüksək və ucalıq mənalarını ifadə edir".[65] Alim yerin və göylərin altı gündə yaradılması problemi haqqında İbn Abbasdan belə bir hədis nəql edir: "Ayədə olan altı gündə məqsəd axirət vaxtıdır".[66] Lakin müəllif bu fikri qəbul etməyərək burada dünya vaxtı olduğu qənaətindədir. Həmçinin o, Allahın bütün aləmləri bir göz qırpımında yaratmağa qadir olduğunu, lakin mələklərə ibrət olsun deyə onları tədricən yaratdığını söyləyir.[67]

Əllamə Məclisi "Biharül-ənvar" əsərində astronomiya elminin mühüm məsələlərindən olan göy cisimlərinin tərkibi, hərəkəti, ulduzların uzaqlığı və bu tədqiqatlardan əldə edilə biləcək hər hansı bir bilgi haqqında məlumat vermişdir.[68] O, günortanın yarı olması xəttini, qiblənin bilinməsi və başqa məsələləri araşdırmaq üçün astronomik və digər həndəsi cihazlardan istifadə etmiş, bu elmlər sahəsinə aid bəzi problemləri o zaman daha məşhur olan qədim müsəlman və hind alimlərinin görüşləri əsasında işıqlandırmışdır. Əllamə Məclisi astronomiyaya aid problemlərə toxunan zaman demişdir: "Biz tanınmış ölkələrin dəyişmə meylinin miqdarını qeyd etdik, necə ki, tədqiqatçılar astronomiya sahəsində yazılan əsərlərə müraciət edə bilərlər. Ola bilsin ki, oxucu kitabda başqa şeylərə ehtiyac duysun".[69]

Müəllif adı çəkilən əsərində günəşin əyilməsi nəticəsində namazın vaxtının müəyyən edilməsi haqqında da məlumat vermişdir. O yazır: "Burada bölgəmiz İsfahan şəhərində olan zavalın (günəşin əyilməsi) kölgəsinin miqdarını qeyd etdik. Həmçinin bu şəhərə yaxın olan bölgələrin də. Onun ərazisi $32^0$-dir və yaxud da ona yaxındır".[70] Əllamə Məclisi din və təbiətşünaslığın kainatın əmələ gəlməsi və mahiyyəti haqqında olan məlumatları təkcə bir yerə toplamaqla kifayətlənməyib, eyni zamanda, bu məsələyə də öz münasibətini bildirmişdir. O, Qurana (Bəqərə, 29) əsaslanaraq göylərin yeddi təbəqədən ibarət olduğunu,[71] bu haqda Bətlyəmusun (Ptolomeyin) "göylər doqquz təbəqədir" dediyi fikrinin yanlış olduğunu vurğulamışdır.[72] Müəllif Əllamə Süyutinin "əd-Dürrul-Mənsur" əsərində rəvayət olunan "yerlə göyün və hər göyün bir-birləri ilə olan ara məsafələri beş yüz min illik məsafə qədəridir" hədisinə də münasibətini gizlətməmişdir.[73] Həmçinin o, qədim astronomların yerin bütün kainatın mərkəzi olduğunu və hərəkətsiz vəziyyətdə qaldığı görüşünü də qəbul etməyərək yer kürəsinin hərəkətdə olduğu fikrini təsdiqləmişdir.[74] O, əsərində Yerin günəş ətrafında tam bir il müddətində hərəkət etməsi, günəş və ayın da hərəkətdə olması fikrini qeyd etmişdir.[75] O, Allahın yer

[65] Həmin mənbə. LIV c. s. 4.
[66] Həmin mənbə. LIV c. s. 6.
[67] Həmin mənbə. LIV c. s. 6.
[68] Həmin mənbə. LXXIV c. s. 76.
[69] Həmin mənbə. LXXIV c. s. 76.
[70] Həmin mənbə. LXXXII c. s. 371.
[71] Həmin mənbə. LIV c. s. 1.
[72] Həmin mənbə. LIV c. s. 5.
[73] Həmin mənbə. LV c. s. 98.
[74] Həmin mənbə. LIV c. s. 8.
[75] Həmin mənbə. LIV c. s. 216.

kürəsini yaradaraq onun üzərində insanların yaxşı yaşamasını, günəşin yeri qızdırması, ayın qaranlıq gecələri işıqlı etməsi və ulduzların isə vaxtı təyin etmək üçün yaradıldığını vurğulamışdır.[76] Həmçinin, yerin əzəli deyil, Allah tərəfindən sonradan yaradıldığı fikrini təsdiq edib bunu fəlsəfi dəlillərlə də əsaslandırmağa çalışmışdır.[77]

Müəllifin əsərdə münasibət bildirdiyi məsələlərdən biri də təbiətşünaslığın ən mühüm problemlərindən biri olan yer üzündə insanın yaradılması problemidir. Bu haqda o, yazır: "Yer üzü bom-boş idi. Orada heç bir kimsə belə yox idi. Bu zaman Allah mələklərə: **«Mən yer üzündə xəlifə yaradacağam»** - dedi. Bunun üçün O, Cəbrayılı (ə) yer üzünə göndərib onun müxtəlif şirin və şoran torpaqlarından götürməsini və insanı indiki şəklindəki kimi yoğurmasını əmr etdi. Cəbrayıl (ə) əmri yerinə yetirdikdən dərhal sonra Allah ona öz ruhundan üfürdü və beləliklə, ilk insan Adəm (ə) yarandı. Adəm (ə) yer üzünün torpağından yaradıldığı üçün (ədimül-ərz) belə adlandırılmışdı.[78]

Əllamə Məclisi gecə və gündüzün yaranma səbəbləri və s. haqqında da məlumat vermiş, gecə və gündüzün iyirmi dörd saat olduğunu qeyd etmişdir.[79] Hətta qədim ərəblərin gecə və gündüzün hər saatına xüsusi adların verdiyini də yazmışdır.[80]

Beləliklə, Əllamə Məclisi "Biharül-ənvar" əsərində günəş sistemini, onun hərəkət və inkişaf qanunauyğunluqlarını, yerin və göylərin yaranması, gecə və gündüzün bir-birini əvəz etməsi və nəhayət, yer üzərində həyatın əmələ gəlməsi problemlərini dinə və elmi nailiyyətlərə əsaslanaraq şərh etməyə çalışmışdır. İndi onun dövründən 300 ildən artıq vaxt keçmiş, göy cismlərini, yerdə həyatın əmələ gəlməsini və s. problemləri öyrənmək üçün yeni və daha təkmil cihazlar ixtira olunmuş, nəzəriyyələr irəli sürülmüşdür. Məsələn, Əllamə Məclisinin ölümündən təqribən 160 il sonra, 1858-ci ildə göy cisimlərinin tərkibini öyrənmək üçün spektroskop adlı cihaz kəşf edildi. Spektroskopun astronomiya elmində kəşf edilib tətbiq edilməsi günəş, ulduzlar, planetlər və s. göy cisimlərinin tərkibində hansı maddələrin olduğunu öyrənməyə imkan verdi.

Əllamə Məclisinin "Biharül-ənvar" əsərində təbiətşünaslıq problemləri haqqında dediyi ayələr, hədislər və fikirlər kainat və onun quruluşu haqqında olan elmi məlumatlarla uyğun gəlir. O, dedikləri ilə ən azından sübut etmişdir ki, maddi olan aləmlərin hamısı İlahi qüdrətlə yaranıb və onunla da idarə olunur.

Əllamə Məclisinin "Biharül-ənvar" əsərində diqqəti çəkən məqamlardan biri də İslam fəlsəfəsi məsələsidir. O, bu əsərində bəzən fəlsəfi bəhslər açmış və materialistləri tənqid atəşinə tutmuş, Uca Allahın varlığının isbatı, ağılın mahiyyəti, ruhun ölməzliyi, peyğəmbərlik missiyasının hikməti, vəhyin mahiyyəti, əxlaqın tərifi, qəbir haqq-hesabı və s. bu kimi problemlərin çözülməsində hədislərə söykənən mühüm fəlsəfi fikirlər söyləmişdir. Həmçinin, yuxarıda izah etdiyimiz "dəhrilər", "təbiətçilər" və bu kimi İslam dünyasında ortalığa çıxmış materialist fikirlərə tutarlı fəlsəfi cavablar vermişdir. O, adı çəkilən əsərinin müxtəlif yerlərində "dəhrilərə" və

[76] Həmin mənbə. LIV c. s. 11-15.
[77] Həmin mənbə. LIV c. s. 225.
[78] Həmin mənbə. LIV c. s. 94.
[79] Həmin mənbə. LVI c. s. 1.
[80] Həmin mənbə. LVI c. s. 7.

“təbiətçilərə”,[81] Allahın birliyini inkar edənlərə,[82] “qəza və qədər” haqqında,[83] “cəbr və təfviz” (fatalizm və özbaşınalıq)[84] və digər İslam fəlsəfəsinə aid olan problemləri həll etməyə çalışmışdır. O, fəlsəfi dünyagörüşündə İbn Sinanın yolunu izləyənlərdəndir. Əllamə Məclisinin İbn Sina fəlsəfəsinin təsirində qalmasının başlıca səbəbi isə onun ustadı Molla Feyz Kaşaninin, onun da ustadı Molla Sədranın təsiri nəticəsində olmuşdur.

[81] Həmin mənbə. VI c. s. 331.
[82] Həmin mənbə. II c. s. 230.
[83] Həmin mənbə. XI c. s. 89.
[84] Həmin mənbə. V c. s. 82.

# II FƏSİL

# ƏLLAMƏ MƏHƏMMƏD BAĞIR MƏCLİSİNİN "BİHARÜL-ƏNVAR" ƏSƏRİNİN HƏDİS ELMİNDƏ YERİ

## 2.1."Biharül-ənvar" əsərinin mənbələri

Əvvəldə qeyd etdiyimiz kimi, Əllamə Məclisi "Biharül-ənvar"ı yazarkən yüzlərlə mənbədən istifadə etmişdir. İran tədqiqatçısı Hüseyn Dərgahi onun mənbələrinin altı yüzdən artıq olduğunu qeyd edir. [85] Müəllif istifadə etdiyi qaynaqlara kor-koranə yanaşmamış, araşdıraraq onlardan faydalanmışdır. O, özü bu haqda yazırdı: "Vaxtaşrı əsərlər haqqında ölkənin bütün yerlərində soruşmağa başladım. Gümanıma görə, bu haqda az da olsa, məlumatı olanlardan israrla istədim. Kitabları əldə etmək üçün diyarları dolaşmış qardaşlar bu işdə mənə kömək etmişdilər. Keçmiş zamanlarda fəzilət sahibləri və alimlərinin etina etdikləri mötəbər mənbələrin çoxu məndə toplanana qədər qardaşlar əsərləri müxtəlif ölkələrdə tez axtardılar. Tədavüldəki məşhur kitablarda olmayan bir çox faydaları orada gördüm. Çoxlarının etiraf etdiyinə görə məqbul sayılmayacaq bir çox hökmlərə orada rast gəldim. Onların səhihləşdirilməsi, səhvlərdən təmizlənməsi və toplanması üçün bütün səylərimi əsirgəmədim".[86]

"Biharül-ənvar" Küleyni (876-941), İbn Babaveyh əl-Qummi (915-991), Əbu Cəfər ət-Tusi (995-1067), İbn Şəhraşub (1095-1192), Əminüddin ət-Təbərsi (1073-1153), Məhəmməd bin Məkki, Şərif ər-Rəzi (968-1015) və Şərif əl-Mürtəza (965-1044), Əli bin Musa bin Tavus əl-Həsəni (öl. 1275), İbn Mütəhhər əl-Hilli (1250-1325), Məhəmməd bin Əli əl-Kərakçi, Cövhəri, Firuzabadi (1329-1414), Mütərrizi, Rağib əl-İsfahani, İbn Faris, İbn Düreyd və Zəməxşəri (1074-1143) kimi tanınmış alimlər başda olmaq üzrə çox sayda müəlliflərin əsərindən istifadə edilərək hazırlanmışdır. Əllamə Məclisi ayrıca əsərlərin müəlliflərinə nisbətini, yazılma tarixlərini, nüsxə üzərində təshih qeydi olub-olmadığını araşdırmış və mənbə tənqidi mövzusunda əhəmiyyətli dəyərləndirmələr də etmişdir.[87] İstifadə etdiyi əsərlər üçün təşkil etdiyi işarə və rəmzləri də açıqlayan müəllif, hədislərin sənədlərini "mürsəl" (natamam) olmayacaq dərəcədə qısaltdığını ifadə edir, ayrıca ravilərin ad, ləqəb və nəsəbləriylə əlaqədar qısaltmaları verərək[88] əsərin ana hissələrinə keçir.[89]

Müəllifin sözlərindən göründüyü kimi, o, heç bir qaynağı mütaliə edib araşdırmadan ondan istifadə etməmişdir. Beləliklə, onun istifadə etdiyi qaynaqlardan aşağıdakıları qeyd etmək olar:

### 1) Məhəmməd bin Yəqub əl-Küleyni (879-941) və "əl-Kafi" əsəri.

əl-Küleyni miladın 879-cu ilində Reylə Qəzvin şəhərləri arasında yerləşən Küleyn kəndində doğulmuşdur. Buna görə də həmin kəndə nisbətlə Küleyni adlanır.

---

[85] Hüseyn Dərgahi. Mənahilül-əbrar. I c. s. 51.
[86] Əllamə əl-Məclisi. Biharül-ənvar. I c. s. 3-4.
[87] Həmin mənbə. I c. s. 26-47.
[88] Həmin mənbə. I c. s. 46, 62.
[89] DİA. VI c. s. 139-141.

İlk təhsilini dövrünün tanınmış alimlərindən olan atası Yəqub Küleynidən almış, sonra isə öz elmini təkmilləşdirmək üçün Bağdad şəhərinə səfər etmişdir. Küleyni ömrünün axırınadək orada yaşamış və miladın 941-ci ilində Bağdad şəhərinin Kərx qəsəbəsində vəfat etmişdir. Hal-hazırda qəbri müsəlmanlar tərəfindən ziyarət edilməkdədir. Əllamə Məclisi onun haqqında yazır: "Siqətül-İslam Küleyni məzhəblərin etimad etdiyi şəxs idi".[90]

Şeyx Küleyninin yaradıcılığı çox zəngindir. Demək olar ki, ilahiyyat elmlərinin bütün sahələrinə aid dəyərli əsərlərin müəllifidir. Yazdığı əsərlərdən aşağıdakıları qeyd etmək olar:

"Kitabu təfsirir-rüya", "Kitabür-rical", "Kitabür-rədd ələl-Qəramitə", "Kitabür-rəsail", "Kitabu ma qilə fil-Əimmə (ə) minəş-şiri", "Kitabul-kafi".[91]

Küleyni İslam aləmində ilk dəfə olaraq "Siqətül-İslam" fəxri adına layiq görülmüşdür. O, İslam elmlərinin müxtəlif sahələrinə aid dəyərli əsərlər yazmışdır. Yazdığı əsərlər içərisində hədis ədəbiyyatı tarixinin şah əsərlərindən olan "əl-Kafi" 20 ilə yazılmışdır. Əsəri çox gözəl şəkildə tərtib edən alim onu fəsillərə ayırmış, hər fəslə uyğun ad vermiş və mövzu ilə əlaqədar hədisləri həmin fəsillərdə yerləşdirmişdir. Əsərdə 16199 hədis vardır. Bu əsər müxtəlif dövrlərdə ayrı-ayrı alimlər tərəfindən şərh edilmişdir. Onun ən məşhur şərhçilərindən biri Əllamə Məclisidir. Əllamə Məclisinin yazdığı şərhin adı "Miratül-üqul fi şərhi əxbari Alir-Rəsuldur"dur. Əsər 25 cilddə çap olunmuşdur.

**2) Şeyx Səduq Məhəmməd bin Əbilhəsən əl-Qummi (918-994).**

Miladi X əsrin ən görkəmli və ensiklopedik alimlərindən biri Şeyx Səduqdur. O, təxminən 918-ci ildə Qum şəhərində alim və şöhrətli bir ailədə dünyaya gəlmişdir. Hələ uşaq ikən elmə həvəs göstərən Məhəmməd ibtidai təhsilini ailə ocağında aldıqdan sonra o dövrün ən məşhur elm ocaqlarına, o cümlədən Xorasan, Nişapur, Səmərqənd, Kufə, Bəsrə, Bağdad, Məkkə və Mədinə şəhərlərinə gedib tanınmış alimlərindən dərs almışdır. Təhsilini başa vurub vətənə dönən Şeyx Səduq hələ gənc ikən müsəlman aləmində şöhrətli bir alim kimi tanınmış və "Rəisul-muhəddisin" ləqəbini almışdır. Şeyx Tusi onun haqqında yazır: "O, hədisləri əzbər bilməkdə ən ali, raviləri tanımaqda ən bilgili və xəbərləri incələməkdə ən görkəmli alim idi. Qum əhli onun kimi hafiz birini görməmişdir".[92]

Şeyx Səduq sözün həqiqi mənasında İslam mədəniyyətini öz qələmi və dühası ilə zənginləşdirən bir şəxsiyyət idi. Mənbələrin verdikləri məlumatlara görə, o, üç yüzdən artıq əsər yazmışdır.

Onun yazdığı əsərlərdən biri olan "Mən la yəhzuruhül-fəqih" hədis ədəbiyyatı tarixində "kutubi-ərbəə"nin ikinci pilləsini təşkil edir. Əllamə Məclisi "Biharül-ənvar" əsərində Şeyx Səduqun on altı əsərindən istifadə etmişdir. Həmin əsərlər aşağıdakılardır:

"Üyuni əxbarir-Rza (ə)", "İləlüş-şərai vəl-əhkam", "İkmalüddin və itmamün-nimət", "ət-Tövhid", "əl-Xisal", "əl-Amal vəl-məcalis", "Səvabül-amal və iqbalül-amal", "Məanil-əxbar", "Kitabül-hidayət", "Risalətül-əqaid", "Sifatüş-şiə",

---

[90] Əllamə əl-Məclisi. Miratül-üqul. I c. s. 231.
[91] İbrahim Quliyev. Hədisşünaslığın əsasları. Bakı, Elm, 2013. s. 258-260.
[92] Əllamə Möhsün əl-Əmin. Əyanüş-şiə. II c. s. 103.

“Fəzailüş-şiə”, “Musadiqatül-ixvan”, “Fəzailu əşhiris-səlasə”, “Kitabün-nüsus”, “Kitabül-müqni”.[93]

### 3) Məhəmməd bin Həsən ət-Tusi (997-1067).

Müsəlman aləmində miladın XI əsrini, doğru olaraq, Şeyx Tusi əsri adlandırırlar. Şeyx Tusi təxminən 997-ci ilin oktyabr ayında İranın ən qədim mədəniyyət ocaqlarından olan Tus şəhərində doğulmuşdur. İlk təhsilini bölgə alimlərindən alan Tusi biliklərini daha da təkmilləşdirmək üçün Bağdad şəhərinə getmiş və orada yaşayan iki nəhəng alimdən - Şeyx Müfid və Seyid Mürtəzadan dərs almışdır. Şeyx Müfidin vəfatından sonra (1022-ci il) Seyid Mürtəzanın təklifi ilə onun evinə köçən Şeyx Tusi ayda 12 dinar məvacib almaqla Seyid Mürtəzanın evində onun tələbəsi və xidmətçisi olmuşdur. O, 1055-ci ilədək Bağdadda yaşamış, lakin Səlcuqi hökmdarı Toğrul Bəyin Bağdadı tutmasından sonra (1055-ci il) oradan sürgün edilmişdir. Təzyiqə məruz qalan Şeyx Tusi Nəcəf şəhərinə getmiş və orada həzrət Əlinin (ə) məqbərəsinə sığınmışdır. Bir müddət burada yaşayan alimin ətrafına xeyli insan toplaşmış və nəticədə o, ilk dəfə olaraq universitet tipli mədrəsə bina etmişdir. Onun əsasını qoyduğu bu məktəbin adı “Camiətu Nəcəfil-Uzma”dır. Şeyx Tusi 300-dən artıq müctəhidlik dərəcəsinə yetişmiş alim yetişdirmişdir. Onun təsis etdiyi məktəb 1000 ilə yaxındır ki, fəaliyyət göstərir. Burada minlərlə alim, müctəhid və filosof dərs almışdır. Tusi demək olar ki, ilahiyyat elmlərinin bütün sahələrinə aid fundamental əsərlər yazmışdır. Onun “Təhzibül-əhkam” və “əl-İstibsar” əsərləri “Kütubi-ərbəə”nin üç və dördüncü pilləsini təşkil edir.

Əllamə Məclisi kitabında Şeyx Tusinin on altı əsərindən istifadə etmişdir. Həmin əsərlər aşağıdakılardır:

“Amal”, “əl-Qeybət”, “Misbahül-kəbir”, “Misbahüs-səğir”, “əl-Xilaf”, “əl-Məbsut”, “ən-Nihayə”, “əl-Fihrist”, “ər-Rical”, “Təfsirüt-tibyan”, “Təlxisüş-şafi”, “əl-Üddə fi üsulil-fiqh”, “əl-İqtisad”, “əl-İcaz fil-fəraiz”, “əl-Cüməl və əcvibətül-məsailil-Hairiyyə”, “ər-Rəsail”.

### 4) Şeyx Müfid Məhəmməd bin Məhəmməd ən-Numan (945-1022).

Şeyx Müfid adıyla tanınan bu alimin İslam elmlərinin müxtəlif sahələrinə aid əsərləri vardır. O, İslam aləmində ən çox əsərlər meydana gətirən alimlərdəndir. Miladın 1022-ci ilində Bağdad şəhərində vəfat etmişdir.

Əllamə Məclisi Şeyx Müfidin on beş əsərindən istifadə etmişdir. Onlar aşağıdakı əsərlərdir:

“əl-İrşad”, “əl-Məcalis”, “ən-Nüsus”, “əl-İxtisas vər-risalətül-kafiyə fi ibtali tövbətil-xatiə”, “Risalə məsarüş-şiə fi müxtəsərit-təvarixiş-şəriyyə”, “əl-Müqniə”, “əl-Üyun vəl-məhasinül-müştəhir bil-füsil”, “əl-Məqalat”, “əl-Məzar”, “İman fi talib və rəsail zəbahi əhlil-kitab vəl-mütə”, “Səhvün-nəbiyyi və nəvmihi fis-salat”, “Təzvicu Əmirilmuminin (ə) bintəhu min Ömər”, “Vucubul-məsh”, “Əcvibətül-məsailis-sərəviyyə vəl-Əkbəriyyə”, “Şərhu əqaidis-Səduq”.

[93] Həmin mənbə. s. 104.

**5) Cəfər bin Məhəmməd bin Quləveyh əl-Qummi (?-981).**

Hədis və fiqh elmlərində dövrünün öndər alimlərindən olan Cəfər hədis ədəbiyyatı tarixində daha çox İbn Quləveyh adı ilə tanınır. Onun doğum tarixi dəqiq olaraq bilinməsə də, ömrünün sonunadək Qum şəhərində yaşadığı və orada yazıb-yaratdığı haqqında məlumatlar vardır. Dövrümüzədək yalnız bircə əsəri gəlib çıxmışdır. Həmin əsərin adı "Kamilüz-ziyarət"dir. Əsər bütövlükdə Peyğəmbərin (s) və imamların (ə) qəbirlərinin ziyarət edilməsinə, ziyarətin qaydaları və savabına həsr olunmuşdur.[94] Əllamə Məclisi bu əsəri bütöv şəkildə, heç bir artırıb-azaltma olmadan "Biharül-ənvar" əsərində uyğun yerlərdə rəvayət etmişdir.

**6) Əllamə Məhəmməd bin Məkki Amili.**

Müsəlman dünyasının ən görkəmli alimlərindən biridir. Əllamə Məclisi onun on iki kitabından mənbə kimi istifadə etmişdir. Həmin kitablar aşağıdakılardır:

"Kitabüz-zikra", "Kitabüd-durus", "Kitabül-qəvaid", "Kitabül-bəyan", "Kitabül-əlfiyyə", "Kitabün-nəfliyyə", "Kitabu nükətil-irşad", "Kitabül-məzar", "Risalətül-icazat", "Kitabül-ləvami", "Kitabül-ərbəin", "Risalə fi təfsiril-bəqiyatis-salihat".

**7) Seyid Mürtəza Ələmulhuda (öl. 1044).**

Miladi XI əsrin görkəmli alimlərindən və müctəhidlərindən biri olmuşdur. Əllamə Məclisi onun aşağıdakı əsərlərindən istifadə etmişdir:

"Kitabüd-dürər vəl-ğürər", "Kitabu tənzihil-ənbiya", "Kitabüş-şafi", "Kitabu şərhi qəsidətil-Hümeyri", "Kitabu cümələil-ilmi vəl-əməl", "Kitabül-intisar", "Kitabüz-zəriə", "Kitabül-müğni fil-ğeybə", "Risalə təfzilil-ənbiya ələl-məlaikə", "Risalə möhkəm vəl-mütəşabih", "Kitabu münqizil-bəşər min əsraril-qəza vəl-qədər", "Əcvibətül-məsailil-müxtəlifə".

**8) Məhəmməd bin İsmayıl əl-Buxari (810-870).**

Hədis ədəbiyyatı tarixində ən uca və ən şərəfli yeri tutan mühəddislərdən biri əl-Buxaridir. Onun nəsəbi Məhəmməd bin İsmayıl bin İbrahim bin əl-Muğirə bin Bərdizbeh əl-Cufi əl-Buxari, künyəsi Əbu Abdulladır. İsmayıl miladın 810-cu ilində Buxarada doğulmuşdur. On yaşlarında hədis öyrənməyə başlamış, bölgəsində olan məşhur şeyxlərdən elm öyrəndikdən sonra Şam, Misir, əl-Cəzirə, Bəsrə, Hicaz, Kufə, Bağdad kimi məşhur elm mərkəzlərinə dəfələrlə səyahətlər etmişdir. Buxari öz fitri istedadı və müstəsna hafizəsi sayəsində hələ gənclik yaşlarını bitirməmiş dövrünün məşhur alimlərindən birinə çevrilmişdir. On altı yaşında ikən İbn əl-Mübarəkin və Vaqidinin kitablarını əzbərləmiş dövrünün məşhur elm mərkəzlərində olmuşdur.

Buxarinin qələmə aldığı əsərlər içərisində sübhəsiz ki, hədis toplusu olan "əl-Camiüs-səhih" əsəri xüsusi yer tutmaqdadır. Əsərin tam adı "əl-Camiüs-səhihül-müsnəd min hədisi Rəsulillahi və sünənihi və əyyamihidir", qısa olaraq "Səhihi-Buxari" adı ilə məşhurdur.

Mənbələrin məlumatına görə, Buxari bu əsərini İshaq bin Rahuyənin (öl. 852): "Rəsulullahın (s) səhih hədislərini müxtəsər bir kitabda toplasaydın..." deməsindən sonra yazmağa başlamışdır.

---

[94] İbrahim Quliyev. Hədisşünaslığın əsasları. Bakı, Elm, 2013. s. 304.

O, bu əsərini tamamladıqdan sonra dövrünün böyük hədisçilərindən olan Əhməd bin Hənbələ, Yəhya bin Mainə, Əli bin əl-Mədiniyə və digər ustadlara göstərmiş və onların müsbət rəyini öyrənmişdir. Zəhəbi Buxarinin bu əsəri haqqında bir az da ifratla demişdir: "Buxarinin "əl-Camiüs-səhih"i Allahın kitabından sonra İslam kitablarının ən üstünüdür".[95]

Buxari adı çəkilən əsərini Məkkə şəhərindəki Məscidülharamda yazmışdır.

Əsərdə yer alan hədislərin sayına gəldikdə, alimlər bu mövzuda ixtilaf etmişlər. Onların çoxunun gəldiyi qənaət budur ki, Buxarinin əsərində təkrarilə birlikdə 9082, təkrarsız isə 4000-ə yaxın hədis vardır.

Əllamə Məclisi "Səhihi-Buxari" əsərindən geniş istifadə etmiş, xüsusilə əsərin "Fəzilətlər fəsli"ndən bir çox hədis nəql etmişdir.

**9) Müslüm bin Həccac Nişapuri (820-874).**

Miladı IX əsrin ən böyük muhəddislərindən biri, heç şübhəsiz ki, Müslüm bin Həccac bin Müslüm əl-Qüşeyridir. O, miladın 820-ci ilində Nişapurda doğulmuşdur. Buna görə də ona döğuduğu yerə nisbətlə ən-Nişapuri də deyilməkdədir.

Dövrünün öndə gedən şəxsiyyətlərindən olan Müslüm kiçik yaşlarında elm öyrənməyə başlamış, Buxari, Əhməd bin Hənbəl, İshaq bin Rahuyə və digər nəhəng hədisşünaslardan dərs almışdır. O, hədis və digər elmləri öyrənmək üçün müxtəlif ölkələrə, o cümlədən Hicaz, Misir, Şam və İraq kimi məşhur elm ocaqları yerləşən bölgələrə səyahətlər etmişdir.

Müslüm bin Həccac istər öz dövründə, istərsə də özündən sonra gələn İslam alimlərinə qüvvətli təsir göstərmiş və onların diqqətini çəkmişdir. Ayrı-ayrı dövrlərdə yaşayan alimlər Müslümün şəxsiyyəti və yaradıcılığını yüksək qiymətləndirmiş və onun haqqında dəyərli fikirlər söyləmişlər. Onun haqqında məşhur şeyxlərdən biri Məhəmməd bin Əbdülvəhhab əl-Fərra demişdr: "Müslüm, xalqın alimlərindən və elm dağarcıqlarından biridir. Onun haqqında xeyirdən başqa bir şey bilmirəm".

Alimin qələmə aldığı əsərlərdən aşağıdakıları qeyd etmək olar:

"əl-Camiüs-səhih", "Kitabül-iləl", "Kitabu əvhamil-mühəddisin", "Kitabu mən leysə ləhu illa ravin vahid", "Kitabu təbəqatit-tabiin", "Kitabül-müxədrəmin", "Kitabül-müsnədil-kəbir əla əsmair-rical", "Kitabül-camiil-kəbir əlal-əbvab", "əl-Əfrad vəl-vühdan", "Kitabu əvlad vəs-səhabə", "Əfraduş-şamiyyin", "ət-Təmyiz", "Kitabu sualatihi Əhməd bin Hənbəl", "Kitabu məşayixi Malik" və s.

Şübhəsiz ki, Müslümün əsərləri içərisində ən məşhuru və önəmlisi "əl-Camiüs-səhih" əsəridir. O, bu əsərini "əl-Müsnədüs-səhih" adlandırmışdır. Müslümün qələmə aldığı bu mötəbər əsər müsəlman alimləri tərəfindən yüksək qiymətləndirilmiş və Buxarinin "əl-Camiüs-səhih" əsəri kimi Qurandan sonra ikinci ən səhih əsər hesab etmişlər.

Müslümün böyük zəhməti və qeyrəti hesabına meydana gətirilən bu əsər "Səhihi-Buxari"dən sonra "Kütubus-sittə"nin ikinci pilləsini təşkil etməkdədir. Çünki alimlər bu əsərdə yer alan hədislərin səhih olduğunu mütləq şəkildə ifadə etməkdədirlər.

[95] Əhməd əz-Zəhəbi. Mizanül-etidal. III c. Beyrut, Darül-mərifə, s. 234.

Hədisşünaslar Müslümün “Səhih” əsərində təkrarı ilə birlikdə 7275, təkrarsız isə 3033 hədis olduğunu deyirlər. Müslüm yazdığı bu mühüm əsərini bablara ayırmamışdır. Hazırda onun bu əsərində olan bab başlıqları isə məşhur alim ən-Nəvəvi (öl. 1277) tərəfindən qoyulmuşdur. Əsərə yüksək qiymət verən ən-Nişapuri: “Göy qübbəsinin altında Müslümün kitabından daha səhih heç bir kitab yoxdur”, - demişdir.

Əllamə Məclisi “Səhihi-Müslim” əsərindən istifadə etmiş, yeri gəldikcə onun bəzi hədislərini nəql etmişdir.

**10) Əbu İsa ət-Tirmizi (815-892).**

Miladın IX əsrində yaşayıb yaratmış məşhur mühəddislərdən biri də İsa bin Surə bin Musa bin əd-Dəhhak əs-Süləmi, Əbu İsa ət-Tirmizidir. O, miladın 815-ci ilində Orta Asiya şəhərlərindən olan Tirmiz şəhərində doğulmuşdur.

Tirmizi dövrünün bir çox böyük alimlərindən, o cümlədən Buxaridən, Məhəmməd bin Şakirdən və başqalarından hədis dinləmişdir. O, elm öyrənmək üçün kiçik yaşlarında səyahətlər etmiş, İraq, Xorasan, Hicaz kimi məşhur elm mərkəzlərinə səyahətlər etmişdir. Dövrünün sayılıb seçilən mühəddislərindən olan Tirmizi Bağdadda məskunlaşıb İslam elmlərinin tədrisi ilə məşğul olmuşdur.

Tirmizi istər öz dövründə, istərsə də sonrakı dövrlərdə İslam alimlərinin, xüsusilə də hədisçilərin həmişə diqqət mərkəzində olmuş və haqqında müxtəlif təqdirəlayiq sözlər deyilmişdir.

İbn Hibban onun haqqında demişdir: “O, hədis toplayan, təsnif edən, əzbərləyən və müzakirə edən biri idi”.

əl-Xəlili isə onun haqqında: “Siqə və mütəffəqun aleyhi” sözünü işlətmişdir. İslam alimləri onun haqqında siqə (çox etibar edilən ravi) təbirini işlətsələr də, İbn Hazm və onun davamçıları Tirmizi haqqında “məchul” sözünü işlətmişlər.

Onun şah əsəri hesab edilən “Sünən” (və ya “Səhih”) əsərinin hədis ədəbiyyatı tarixində mühüm yeri vardır. Bu əsərə bəzən “əl-Camiüs-səhih” də deyilməkdədir.

Böyük İslam alimləri Tirmizinin məşhur “Sünən” əsərinə böyük qiymət vermiş və onu “kütubüs-sittə”nin üçüncü pilləsində qərar vermişlər. Mənbələrin verdiyi məlumatlara görə, Tirmizi bu əsərini hicri 270-ci ildə (miladi 883) tamamladıqdan sonra onun haqqında demişdir: “Kimin evində bu kitab varsa, onun evində danışan bir peyğəmbər vardır”.

Tirmizi əsərini çox gözəl şəkildə tərtib etmiş, bütün ana babları (kitab) ehtiva etdiyinə görə “Cami” adlandırmışdır. Onun “Sünən” adlanması isə fiqhi babları əsas götürərək tərtib etdiyinə görədir. Əsərin fiqhi bablar əsasında tərtibinə görə alimlər onu bəzən “Səhihi-Buxari”yə bənzətmişlər. Burada da “Səhihi-Buxari”də olduğu kimi tərcümələr vardır.

Əllamə Məclisi “Sünəni-Tirmizi” əsərindən “Fəzilət” və “Təfsir” fəslindən bəzi hədisləri nəql etmişdir.

**11) Əbu Davud Süleyman bin Əşəs (817-888).**

Miladın IX əsrində “Sünən” adlı əsər meydana gətirən məşhur hədisşünaslardan biri Əbu Davud Süleyman bin əl-Əşəs bin İshaq əl-Əzdi əs-Sicistanidir. O, miladi 817-ci ildə Sicistanda doğulmuşdur. Kiçik yaşlarında İslam elmlərini öyrənməyə

başlamış və dövrünün məşhur elm ocaqlarını, o cümlədən Nişapur, Xorasan, Mesopotamiya, İran, Suriya, Kufə, Ərəbistan, Misir kimi bölgələrdə elm öyrənmiş, səyahətləri zamanı dövrünün nəhəng hədis alimlərindən, həmçinin Əhməd bin Hənbəl, Süleyman bin Hərb, Yəhya bin Məin, Qüteybə bin Səid və digər hədisşünaslardan hədis dinləmişdir.

Hədis ədəbiyyatı tarixinin görkəmli nümayəndələrindən olan Əbu Davud hədis elmi sahəsində məşhur tələbələr yetişdirmişdir. Bunlardan Tirmizi, Nəsai və digər hədisşünasları göstərmək olar.

Mənbələrin verdiyi məlumata görə, Əhməd bin Hənbəl hədisdə onun ustadı olsa da, ondan bir hədis rəvayət etmiş və bundan yüksək fəxr hissi keçirən Əbu Davud daima xatırlamışdı. Dövrünün böyük alimləri içərisində dindarlığı və elmi dünyagörüşü ilə sayılan Əbu Davud həmişə alimlər tərəfindən öyülmüş və haqqında dəyərli fikirlər səslənmişdir. əs-Səğani onun haqqında demişdir: "Həzrət Davuda dəmir yumşadıldığı kimi, Əbu Davuda da hədis yumşaldılmışdı".

Əbu Davud əs-Sicistaninin əsərlərinə gəldikdə, qeyd etmək lazımdır ki, onun yaradıcılığı çox zəngindir. Onun qələmə aldığı əsərlərdən aşağıdakıları sadalamaq olar:

"ər-Rəddu əla əhlil-Qədər", "Kitabün-nasix vəl-mənsux", "əl-Məsail", "Müsnədu-Malik", "əs-Sünən".

Şübhəsiz ki, onun yazdığı bu əsərlər içərisində ən məşhuru "Sünən" əsəridir. Müsəlman alimləri bu əsərə böyük önəm vermiş və onu hədis ədəbiyyatı içərisində yüksək qiymətləndirmişlər. Əsəri yüksək qiymətləndirən əl-Xəttabi demişdir: "O sənəd və fiqh baxımından "Səhiheyn"dən də yaxşı kitabdır". əl-Qəzali isə əsərin haqında: "Əhkam məsələlərində müctəhidə kifayətdir", - demişdir.

Hədisşünasların verdikləri məlumatlara görə, Əbu Davudun "Sünən" əsərində qırx kitab (ana bölüm) və 1889 bab vardır. Əsərdəki hədislərin sayına gəldikdə isə, mənbələr bunun 4800 olduğunu deyir.

### 12) Əhməd Şüeyb ən-Nəsai (830-915).

Əbu Əbdürrəhman Əhməd bin Şüeyb bin Əli bin Bəhr bin Sinan bin Dinar ən-Nəsai miladi IX əsrin ən məşhur hədisşünaslarından biridir. O, 830-cu ildə Nəsada doğulmuşdur. Nəsai dövrünün İshaq bin Rahuyə, Əbu Davud əs-Sicistani və digər məşhur hədis alimlərindən hədis öyrənmişdir. O, dövrün məşhur elm ocaqları yerləşən bölgələrə, o cümlədən Xorasan, Hicaz, İraq, Misir, Şam, Cəzirə kimi bölgələrə səyahət etmiş və böyük alimlərdən elm əldə etmiş, hədis elmində yüksək mərtəbəyə çatmış və zəmanəsində məşhur alim və dindar kimi tanınmışdır.

Tarixi mənbələr onun vəfatının səbələrini aşağıdakı kimi göstərir:

Nəsai uzun illər Misirdə yaşamış və orada fəaliyyət göstərmişdir. 915-ci ildə Şama gəlmiş, ondan Müaviyənin fəzilətləri barədə hədis rəvayət etməsini istəmişlər. O da "Allah onun qarnını doyurmasın" ("Səhihül-Müslüm", Birr-96) hədisindən başqa bir şey bilmədiyini demişdir. Buna görə də məsciddəkilər Nəsaini şiddətlə döymüşlər. Bu hadisədən dərhal sonra Məkkəyə getmək üçün yola çıxmış və 915-ci ildə Rəmlədə vəfat etmişdir.

Dövrünün nəhəng hədisşünaslarından və böyük elm xadimlərindən olan Nəsainin yaradıcılığı zəngindir. Onun qələmə aldığı əsərlər içərisində heç sübhəsiz ki,

“Sünən” əsərinin böyük önəmi vardır. Belə ki, Nəsai bu məşhur əsərini ilk olaraq “əs-Sünnənül-kəbir” adı altında yazmış, lakin burada səhihdən əlavə zəif hədislər də olduğundan Nəsai onu ixtisar etmiş və səhih hədisləri oradan çıxararaq bir kitaba toplamışdır. “Sünəni-kəbir”dən ixtisar etdiyi əsərinə də “əl-Müctəba” adını vermişdir.

Nəsainin tərtib etdiyi bu əsər “Kütubus-sittə” sıralarına daxil olmuş və bəzi alimlərə görə, Buxari və Müslümün “Səhih”indən sonra üçüncü yeri almışdır. Hətta bəzi hədisşünaslara görə, Nəsai rical tənqidində Müslümdən də sərt olmuşdur.

Mənbələrin verdiyi məlumata görə, Nəsainin bu əsərində o biri “Sünən”lərə nisbətən zəif hədislər daha azdır. O, hədisləri toplayarkən çox diqqətli olmuş və bacardığı qədər səhih hədisləri toplamışdır.

Nəsainin “əl-Müctəba” əsəri 5700-ə yaxın hədisi ehtiva etməkdədir.

### 13) Məhəmməd bin Yezid İbn Macə (824-886).

Hədis ədəbiyyatı tarixində ən görkəmli şəxsiyyətlərdən biri də Əbu Abdullah Məhəmməd bin Yəzid bin Macə əl-Qəzvinidir. O, 824-cü ildə Qəzvin şəhərində doğulmuş, Xorasan, Bəsrə, Kufə, Məkkə, Şam və Misir kimi məşhur bölgələrə səyahətlər edib oradakı alimlərdən elm əldə etmişdir. Malik bin Ənəs və Leys bin Səd kimi məşhur adamlardan hədis dinləmişdir.

İbn Macə 888-ci ildə vəfat etmişdir.

Müxtəlif bölgələri elm əldə etmək üçün dolaşan İbn Macənin də yaradıcılığı zəngin olmuşdur. Onun yazdığı əsərlər içərisində heç sübhəsiz ki, “Sünən” əsərinin böyük önəmi vardır. İbn Macənin qələmə aldığı “Sünən” əsəri əvvəllər “kütubüs-sittə” sıralarına deyil, “Kütubus-sittə” sıralarına daxil edilənədək “kütubul-xəmsə” (“Beş kitab”) adı ilə məşhurlaşmışdır. Mənbələr İbn Macənin “Sünən” əsərinin ilk dəfə “Kütubul-xəmsə” sıralarına daxil edən şəxsin Əbülfəzl Hafiz Məhəmməd bin Tahir əl-Məqdisi (öl. 1113) olduğunu qeyd edir. İbn Tahir əl-Məqdisi “Ətraful-kutubus-sittə”adlı kitab ilə “Şurutül-əimmətis-sittə” adlı risaləsində İbn Macəni altıncı kitab olaraq “Səhih”lər arasında qeyd etmiş, ona da əl-Hafiz Əbdülğəni əl-Məqdisi (öl. 1203) “əl-Kəmalu fi əsmair-rical” əsərində istinad etmişdi. Bu görüşü digər “ətraf” və “rical” müəllifləri davam etdirərək İbn Macənin “Sünən”ini XIII əsrdən etibarən “Kütubus-sittə”nin altıncı kitabı olaraq qəbul etmişlər.

Hazırda İbn Macənin “Kütubus-sittə”nin biri olan “Sünən” əsərini bəzi alimlər, o cümlədən İbn əs-Səlah və Nəvəvi “Kütubus-sittə”dən saymazlar. Buna görə də bu hədisşünaslar İbn Macənin “Sünən”indən bir o qədər də bəhs etməzlər. Bəzi alimlər isə Malik bin Ənəsin “əl-Müvətta” əsərini “kütubüs-sittə” sıralarına daxil edib, onu İbn Macənin “Sünən”indən daha səhih bilirlər. Bu görüşü isə Rəzin bin Müaviyə “ət-Təcrid”, İbn Əsir isə “Camiül-üsul” əsərində qeyd etmişlər. Digər hədisşünaslar isə əd-Dariminin “Sünən” əsərini İbn Məcənin “Sünən”indən daha səhih olduğu görüşünü irəli sürərək onu İbn Macənin əvəzinə “Kütubus-sittə” sıralarından bilirlər. Bu görüşü qəbul edənlər Dariminin “Sünən”indəki zəif ravilərin azlığını və oradakı hədislərin “münkər” və “şazz” olmadığını bildirirlər.

Hədisşünasların məlumatına görə, İbn Macənin “Sünən” əsərində 37 kitab (ana bölüm) vardır və bunlar içərisində də 4341 hədis mövcuddur. Bu hədislərdən də 1339-u zəvaiddir, yəni digər kitablarda yer almayanlardır.

İbn Macənin bu əsəri onda yer alan hədislərin təkrardan uzaq olması və tərtibinə görə İslam alimləri tərəfindən yüksək qiymətləndirilmişdir. Lakin bu əsərdəki hədislərin bir qisminin zəif olduğu etiraf edilmişdir. Belə ki, 4341 hədisdən 1339-u zəvaid, 428-i ricalı etibarlı (siqə), 199-unun isnadı həsən, 613-nün isnadı zəif, 99-nun isə isnadı yox hökmündədir.

### 14) Əhməd bin Hənbəl (778-855) və "Müsnəd" əsəri.

Miladi IX əsrin ən nəhəng hədisşünaslarından olan Əhməd bin Məhəmməd bin Hənbəl bin Hilal bin Əsəd əş-Şeybanidir. O, 778-ci miladi ilində Bağdadda doğulmuşdur. əş-Şeybani öz dövründə "İmamül-mühəddisin" ləqəbi ilə tanınmış, hədisdə haviz və höccət ünvanlarına sahib olmuşdur.

Mənbələrin verdiyi məlumata görə, Əhməd kiçik yaşlarında atasını itirmiş, lakin bu sıxıntıya baxmayaraq, uşaqlıq yaşlarından elm öyrənməyə başlamış və müstəsna hafizəsi sayəsində tez bir zamanda elmin son pillələrini əldə etmişdir. Əhməd bin Hənbəl ilk dəfə olaraq 802-ci ildən başlayaraq səyahətlər etmiş, Bəsrə, Kufə, Məkkə, Yəmən və digər bölgələri dolaşaraq qabaqcıl alimlərdən elm əldə etmişdir. İlk təhsilinə Bağdadda başlamış və dövrünün məşhur hənəfi fəqihi Əbu Yusifdən (öl. 798) fiqh dərsi almış, lakin onun daha artıq "rəy" və "qiyasa" üstünlük verdiyini görüb Əbu Yusifin dərslərini tərk etmişdir.

Əbu Yusifin dərslərindən ayrılan Əhməd dövrünün məhur hədisşünası Hüşeym bin Bəşir əl-Vasitinin (öl. 805) dərslərində iştirak etmişdir. Ömrünün qırx ilini elm əldə etməyə sərf edən bu şəxsiyyət sonda dövrünün ən böyük hədisşünas və fəqihi kimi tanınmışdır.

"Müsnəd" adlı əsərlər içərisində heç şübhəsiz ki, öndə gələni və ən məşhuru Əhməd bin Hənbəlin tərtib etdiyi "Müsnəd" əsəridir. Onun bu əsərinin digər "müsnəd"lərə nisbətən daha məşhur olmasını hədisçilər iki səbəbdə görmüşlər:

- Ehtiva etdiyi mövzuların zənginliyi.
- Hədislərinin səhhəti (səhihliyi).

Əhməd bin Hənbəlin "Müsnəd" əsərindəki hədislərin sayı qırx minə (40000) yaxındır. Burada yer alan hədislərin on mini (10000) təkrardır.

Əhməd bu məşhur əsərində səhabələri, öncə müsəlman olmalarına, sonra qəbilə durumlarına görə, daha sonra isə yerləşdikləri şəhərlərə görə sıralamışdır. Buradan "əl-əşərətul-mübəşşirə" (on müjdələnmiş səhabə) deyə tanınan on səhabə ilk öncə gəlməkdədir. Bundan sonra Əhli-beyt (ə) və Bəni-Haşim "Müsnəd"ləri gəlir. Bunları məkkəlilərin, mədinəlilərin, şamlıların, bəsrəlilərin, ummәhatül-muminin və digər qadın səhabələrin "Müsnəd"ləri təqib edir, ən sonda isə "adı mübhəm bəzi səhabələr" in "Müsnəd"ləri yer alır.

### 15) Məhəmməd bin Cərir ət-Təbəri (838-923).

İslam elm dünyasının tanınmış simalarından biri Cərir Təbəridir. O təxminən miladi tarixlə 838-cı ildə Təbəristanda doğulmuşdur.

Məhəmməd bin Cərir ət-Təbəri yaşı on iki olmadan doğum yeri olan Amul şəhərindən ayrılmış və müxtəlif bölgələrə səyahət edərək bir çox alimdən təhsil almışdır. Əvvəl Rey bölgəsinə getmiş, burada Əbu Müqatildən İraq fiqhini oxumuş, Əhməd bin Həmmad əs-Səqafidən qrammatikanı öyrənmiş, Sələm bin Fəzldən, İbni

İshaqın “Məğazi” adlı əsərini oxumuş daha sonra məşhur “Tarix” əsərini yazmışdır. İbn Hümeyd ər-Ruzi ilə uzun müddət birlikdə olmuşdur. Təbəri bu barədə yazırdı: “Biz, Məhəmməd bin Hümeyd ər-Razinin yanında kitablar yazardıq. O, bir gecədə bir neçə dəfə yanımıza gələr, nə yazdığımızı soruşar və yazdıqlarımızı oxuyardı. Biz Əhməd bin Həmmad əs-Səqafının yanına da gedərdik. O, Tehranın kəndlərindən birində yaşayırdı. Tehranla o kəndin arasında uzun bir məsafə vardı. Belə ki, oradan geri qayıdanda dəlilər kimi olurduq. Sonra da qalxıb Məhəmməd bin Hümeydin məclisinə gedirdik”.

Təbəri daha sonra Bağdada getmişdir. Oraya gedişinin əsl səbəbi Əhməd bin Hənbəlin orada çox məşhur olması, elmi söhbət və yığıncaqlarda adının xatırlanması idi. Təbəri Bağdada gedərək Əhməd bin Hənbəldən elm almağı və onu insanlara öyrətməyi düşünürdü. Təəssüflər ki, o, Bağdada çatmadan Əhmədin vəfat xəbərini almış, buna görə də orada qalmamışdır.

Təbəri Bağdaddan Bəsrəyə getmiş, orada olan Məhəmməd bin Musa, İmad bin Musa, Məhəmməd bin Abdüləla, Bişr bin Müaz və Məhəmməd bin Bəşşar kimi alimlərin dərslərini dinləmişdir.

Daha sonra Kufəyə getmiş, orada bir çox alimlərdən dərs almışdır.

Əllamə Məclisi onun bir çox əsərlərinə, xüsusilə də “Mənaqibu-Təbəri”, “Təhzibül-asar”, “Tarixül-üməm vəl-müluk” və “Təfsiri-Təbəri” əsərlərindən yeri gəldikcə faydalanmışdır.

**16) Əbu Abdullah Malik bin Ənəs bin Malik əl-Yəməni (712-795).**

Maliki məzhəbinin imamı, böyük müctəhid və hədisşünasdır. 712-ci ildə dünyaya gəlmişdir. Soy baxımından ərəblərin iki ana qolundan biri olan Qəhtanilərə (digəri Ədnanilərdir) mənsub olduğundan bu qəbilənin bəzi qollarına nisbətlə Əsbəhi, Yamuri, Himyəri və mənşələrinin Yəməndən olmasına görə Yəməni nisbətləriylə xatırlanmışdır. Atası Malik və onun atası Əbu Amir Yəməndən gələrək Mədinəyə yerləşmişdilər.

Malik bin Ənəs dövrünün əhəmiyyətli elm mərkəzlərinin başında gələn Mədinədə yetişmişdi. Əvvəllər elmə rəğbət etməyib göyərçinlərlə vaxt keçirərkən bir gün babasının soruşduğu bir suala qardaşı Nadirin doğru, özünün səhv cavab verməsi və atasının “Göyərçinlər səni əyləndirdi” - deməsindən sonra təhsilə qərar verdiyini və ilk olaraq Əbdürrəhman bin Hürmüzdən hədis dərsi almağa başladığını söyləyir. Qurani-Kərimi bu sırada əzbərləmişdir.

Həyatının bir hissəsini Əməvilər, yarısını Abbasilər dövründə keçirən Malikin öz dövründəki siyasi hadisələrdən uzaq durduğu, mövcud idarəçilərə də, əleyhdarlarına da açıq bir dəstək vermədiyi aydındır. Malik bin Ənəs keçirdiyi bir xəstəlikdən sonra 795-ci ildə Mədinədə vəfat etmişdir. Alimin cənazə namazını Mədinə valisi qılmış və Bəqi qəbiristanlığında dəfn edilmişdir.

Onun yazdığı ən məşhur əsər “əl-Müvətta” əsəridir. Burada o, 1700 ədəd hədis toplamışdır. Əsərdə səhih hədislərlə yanaşı, bir çox zəif hədislər də yer almışdır. Əllamə Məclisi “əl-Müvətta” əsərindən bir qaynaq kimi istifadə etmişdir.

Əllamə Məclisi “Mənaqib” adlı aşağıdakı kitablardan istifadə etmişdir

“Mənaqibu-Təbəri” (Cərir ət-Təbəri),[96] “Mənaqibu-Əli bin Məhəmməd Təbib əş-Şafii”,[97] “Mənaqibu-Xarəzmi”,[98] “Mənaqibu-Məhhəmməd bin Yusif əl-Qırra”,[99] “Mənaqibu-İbn Məğazili”,[100] “Mənaqibu-İbn Cövzi”,[101] “Mənaqibu-Əbu Abdulla əl-Bey”, “Təzkirətül-Xəvvas” (İbn Covzi), “Fədail (Əhməd bin Hənbəl)”,[102] “əş-Şəmail” (Tirmizi), “Mənaqib (Əbu Bəkir bin Hərdəveyh İsfəhani), “Şərəful-Mustafa” (Əbu Hamid əş-Şafii), “Səfvətüs-Səfvə” (İbn Cövzi). “Fəzailu-Əmirilmuminin (Əbu Bəkir Mərdəveyh), “Fəzailu-Bəni Haşim” (Cahiz), “Fəzailu-Fatimə” (İbn Şahin), “Fəzailüs-səhabə” (Beyhəqi), “Fəzailüs-səhabə” (Səmani), “Fəzailüs-səhabə” (Əbdürrəhman bin Rəzzaq), “Fəzailüs-səhabə” (Əbu Nəim İsfəhani), “Fəzailül-əşərə” (İbn Fərkah), “Fəzailül-əşərə” (İbn Muzən), “Ma nəzələ minəl-Quran fi Əliyyin” (Əbu Nəim İsfəhani), “əl-Mənaqib” (Kənci əş-Şafii), “Nihayətüt-tələb və ğayətis-sual fi mənaqibi Alir-Rəsul” (İbrahim bin Bəkrus əd-Dinuri), “Mətalibüs-sual fi mənaqibi Alir-Rəsul” (Kəmaləddin Məhəmməd bin Talha əl-Beyhəqi), “Zəxairul-uqba fi mənaqibi əvləl-qurba” (Cəlaluddin əs-Süyuti), “əl-Füsulil-mühimmə” (İbn Sabbağ Maliki), “əs-Səvaiqul-mühriqə” (İbn Həcər Heysəmi əş-Şafii).

Əllamə Məclisi “Amali” adlı aşağıdakı kitablardan istifadə etmişdir:

“Amali” (Əhməd bin Muni), “Amali” (Əbu İshaq Nəhvi),[103] “Amali” (Əbu Bəkir bin Şeybə),[104] “Amali” (Əbu Bəkir bin Əyyaş),[105] “Amali” (Əbu Bəkir Hərdəveyh), “Amali” (Hakim Nişaburi), “Amali” (İbn Həşiş Təmimi), “Amali” (İbn Dərid), “Amali” (Səhl əl-Mərvəzi), “Amali” (İbn Şərih), “Amali” (Əbu Abdullah Nişaburi), “Amali” (Əbulfəzl əş-Şeybani), “Amali” (Məhəmməd bin Həbib), “Amali” (Yəhya bin Muin), “əl-Bəyan vət-təbyin” (Cahiz), “Mühaziratil-üdəba” (Rağib İsfəhani), “Rəbiül-əbrar” (Carullah Zəməxşəri).[106]

Əllamə Məclisinin istifadə etdiyi hədis və hədis şərhi kitablarından aşağıdakıları qeyd etmək olar:

“Fəthül-bari fi səhihil-Buxari” (İbn Həcər əl-Əsqəlani), “Şərhül-Kirmani fi şərhi səhihil-Buxari” (Kirmani), “Şərhül-Qəstəlani”, “Şərhu-Nəvəvi” (“Şərhu Səhihil-Müslüm”), “Şərhu cameul-üsul” (İbn Əsir), “Şərhu-səhihil-Müslüm” (Abi), “Şərhüs-sünnə” (Hüseyn bin Məsud əl-Bəğəvi), “Şərhül-məqasid” (Təftəzani), “Müşkilül-hədis” (Təhavi), “Şərhu nəhcil-bəlağə” (İbn Əbilhədid), “Səhihül-Buxari” (Məhəmməd bin İsmail Buxari), “Səhihül-Müslüm” (Müslüm bin Həccac Nişaburi), “Camiüt-Tirmizi” (İbn İsa Tirmizi), “Sünəni-İbn Macə” (İbn Macə Qəzvini), “Sünəni-İbn Davud” (Əbu Davud Sicistani), “Sünəni-Nəsai (Əhməd bin Şüeyb ən-Nisai), “əl-Cami beynə sihahis-sittə” (Rəzi əl-Əbdi), “Müsnədi-Əhməd” (Əhməd bin Hənbəl), “Müsnədi-Əmirilmuminin” (Darqutni), “Müsnəd” (Yəqub bin Şeybə), “Müsnəd” (Ənəs bin Malik), “Müsnəd” (İbn Əbi Əvfa), “Müsnəd” (İbn Əbi Bey),

---

[96] Əllamə əl-Məclisi. Biharül-ənvar. XXXVIII c. s. 9; XXXIX c. s. 181; XLI c. s. 86.
[97] Həmin mənbə. XVIII c. s. 201; XXXVIII c. s. 355; LX c. səh. 24.
[98] Həmin mənbə. XVIII c. s. 384; XXV c. s. 339; LVIII c. s. 183.
[99] Həmin mənbə. XXXVIII c. s. 227.
[100] Həmin mənbə. XXIII c. s. 108; XXV c. s. 207; XXVII c. s. 283.
[101] Həmin mənbə. XXVIII c. s. 233; XLVI c. s. III; LXXIV c. s. 294.
[102] Həmin mənbə. VIII c. s. 25; XXI c. s. 343; XXII c. s. 73.
[103] Həmin mənbə. XXXVIII c. s. 308.
[104] Həmin mənbə. XXXIV c. s. 73.
[105] Həmin mənbə. XLI c. s. 14.
[106] Həmin mənbə. XIII c. s. 360; XIV c. s. 75.

“Müsnəd” (Cabir bin Səmrət), “Müsnəd” (Haris bin Əbi Üsamə), “Müsnəd” (Əbu Hənifə), “Müsnəd” (Darimi), “Müsnəd” (Əbi Dərda), “Müsnəd” (Zeyd bin Ərqəm), “Müsnəd” (Əbu Səid əl-Xudri), “Müsnədi-Fatimə” (Dəraqütni), “Müsnəd” (Əbu Amir), “Müsnəd” (Abdullah bin Əhməd), “Müsnəd” (Abdullah bin Musa), “Müsnəd” (Əbu Hüreyrə).[107]

Əllamə Məclisinin istifadə etdiyi tarix kitablarından aşağıdakıları göstərmək olar:

“Tarixu-Bağdad” (Xətib əl-Bəğdadi), “Vəfayatül-əyan” (İbn Xəllikan), “Tarixu-Təbəri” (Cərir ət-Təbəri), “Tarixu-Nisabur” (Hakim Nisaburi), “Məğazi” (əl-Vaqidi), “Tarixül-futuhat” (əl-Vaqidi), “Məğaziyi-Vaqidi” (əl-Vaqidi), “əl-Kamil fit-tarix” (İbn Əsir), “əs-Sirətün-Nəbəviyyə” (Məhəmməd bin İshaq), “əl-Əğani (Əbulfərəc İsfəhani).

Əllamə Məclisi Quran elmləri və təfsir kitablarından isə aşağıdakılardan istifadə etmişdir:

“əl-İtqan” (Cəlaləddin Süyuti), “Təfsiri-Təbəri” (Cərir ət-Təbəri), “Təfsiru-Beyzavi”, “Əsbabun-nüzul” (əl-Vaqidi), “Təfsirül-Kəşşaf” (Zəməxşəri), “Təfsirür-Razi” (Fəxrəddin Razi), “Fəzailül-Quran” (İbn Əbi Dunya), “Məanil-Quran” (Zəccac) və b.

Qeyd etdiyimiz kimi, Əllamə Məclisi dini elmlər sahəsində olduğu kimi, bir çox dünyəvi elmlər sahəsində də məlum qaynaqlardan istifadə etmişdir. O, kimya elmində Cabir bin Həyyanın (721-815) xidmətlərini qeyd etmiş və onun əsərlərinin əhəmiyyətindən danışmışdır. Müəllifə görə o, müsəlmanların altıncı imamı İmam Sadiqin (699-765) tələbəsidir. Mötəbər qaynaqlara görə, o, bu sahədə 150-ə yaxın əsər yazmışdır.

Cabir bin Həyyanın kitabları latıncaya tərcümə olunmuşdur. Bunların ən məşhuru “Nətaicüt-təkmil” 1672-ci ildə fransızcaya tərcümə edilmişdir. O, bu əsərində bəzi qazların xassələri haqqında məlumat vermişdir. Hazırda Paris Milli Kitabxanasında onun altı nüsxə əlyazma əsəri mövcuddur. Bunlardan “Dairəvi üçbucaqlar” əsərindən başqa digərləri nəşr edilmişdir.

Cabirin məşhur əsərlərindən biri də “Məcmuətu əl-kamil əsrari ət-təbiət” əsəridir. Bu əsər ilk dəfə 1672-ci ildə fransızcaya, 1668-ci ildə isə ingiliscəyə tərcümə edilmişdir.

Riyaziyyat elmlərinə aid əsərlərin yazılmasında Qüdamə bin Cəfərin rolu böyükdür. Belə ki, mənbələrə görə o, İslam aləmində ilk olaraq hesab elminə aid müstəqil əsər yazmışdır. Möhsün Əmin müxtəlif alimlərə istinadən yazır: “Hesab elminin əsasını ilk dəfə Qüdamə bin Cəfər qoymuşdur”.

Əllamə Məclisi əsərində fəlsəfi fikirlərə istinad edərkən ən çox İbn Sina və əl-Fərabiyə əsaslanıb onların əsərlərindən faydalanmışdır.

Əllamə Məclisi “Biharül-ənvar” əsərində tibbə aid müxtəlif hədislər nəql etmiş və yeri gəldikcə, onları açıqlamışdır. Onun həmin hədislərə verdiyi açıqlamalarından belə məlum olur ki, müəllif öz dövründə olan bəzi tibbi biliklərə də yiyələnibmiş. O, “Tibbun-Nəbi” və “Tibbül-Əimmə” adlı kitabları bütövlükdə “Biharül-ənvar” əsərində yerləşdirmişdir. Bundan əlavə adı çəkilən kitablarda mövcud olmayan bəzi

[107] Həmin mənbə. XXVIII c. s. 32.

tibbi hədisləri də rəvayət etmiş və onların sənəd və mətninə münasibət bildirmişdir. Müəllif əsərində Peyğəmbərimizin (s) buyurduğu "İki nemət vardır ki, insanların çoxu bu nemətlərin istifadəsində aldanmışdır: bunlar səhhət və boş vaxtdır" hədisi-şərifini rəvayət etmiş və sağlamlığın insan həyatı üçün mühüm amil olduğunu vurğulamışdır. Sonra o, sağlam bir həyat yaşamağın iki əsas yolu olduğunu açıqlamış və sağlamlığın Allah tərəfindən insanlara bir nemət olaraq verildiyini diqqətə çatdırmışdır. Müəllifə görə, birincisi, xəstələnmədən əvvəl sağlamlığı qoruma, ikincisi isə, xəstə olduğumuz zaman əvvəlki sağlamlığımıza dönə bilməyimiz üçün müalicə olunmaqdır. Buradan göründüyü kimi, Əllamə Məclisi tibb elmini yüksək qiymətləndirməklə onun elmi əhəmiyyətini önə çəkmiş və xəstələnən zaman bu elmin qanunlarından yararlanmağı zəruri bilmişdir. O, əsərində belə bir hədis rəvayət edir: "Bil ki, sağlamlıq axtarmaq kimi elm, qəlb sağlamlığı kimi sağlamlıq yoxdur".[108] Həmçinin o, ən önəmli işin sağlamlığın qorunması olduğunu da Peyğəmbərdən (s) belə rəvayət etmişdir: "Beş şey gəlmədən əvvəl qiymətini bilin: ölüm gəlmədən əvvəl həyatın, xəstəlik gəlmədən əvvəl sağlamlığın, məşğuliyyət gəlmədən əvvəl boş vaxtın, qocalıq gəlmədən əvvəl gəncliyin, kasıblıq gəlmədən əvvəl zənginliyin".[109] Əllamə Məclisi Peyğəmbərin (s) tibbin əhəmiyyəti haqqında söylədiyi: "Elm iki qismdir: din elmi və tibb elmi", "Dörd elm vardır: dinlər üçün fiqh, insanın sağlamlığı üçün tibb, dil üçün qrammatika və zamanı bilmək üçün astronomiya" hədislərini əsərində xüsusi qeyd etmişdir.[110]

## 2.2. Əllamə Məclisinin mənbələrdən istifadə metodu

Əllamə Məclisi "Biharül-ənvar"ın müqəddiməsində kiçik yaşlarından etibarən elmə böyük maraq duyduğunu, uzun iş və araşdırmalardan sonra doğru məlumatın Allahın kitabında və Onun vəhyinin açıqlayıcıları olan Peyğəmbərin (s) və imamların (ə) xəbərlərində olduğu qənaətinə gəldiyini, yaşadığı dövrdəki bir çox kimsənin əksinə, bütün səylərini həqiqətlərin təməli olan bu xəbərlərin araşdırılmasına yönəltdiyini ifadə edir. Beləcə o, əsərini müxtəlif mövzulardakı dağınıq rəvayətlərin bir yerə toplanılması və hər kəsin bunları asanca taparaq faydalanması arzusuyla yazdığını izah edir. Əsəri yazmağa başlayarkən ilk öncə ona müqəddimə yazmış və həmin müqəddimədə Allahı, Peyğəmbəri (s) və məsum İmamları (ə) vəsf etmişdir. Müəllif bu barədə yazır: "Allahın fəzilətindən umuram ki, İmam Mehdinin (ə) qiyamına qədər bu kitabımı fəzilətli insanlar üçün qaynaq, İmamların (ə) elmlərini istəyən hər kəs üçün bir mənbə, tənə vuranların danlaq və tənələrindən uzaq, mənim üçün isə qiyamət günü bir kölgəlik qərar versin..."[111]

Əllamə Məclisi mənbələrdən istifadə edərkən onların dəqiqləşdirilməsi üzərində çox çalışmışdır. Əsərin müqəddiməsində ikinci fəslə "istifadə olunmuş kitabların sağlam və güvənilən hala salınması" adı vermiş və burada istinad etdiyi mənbələri necə təshih etməsi haqda məlumat vermişdir.[112]

---

[108] Həmin mənbə. LXXVIII c. s. 164, hədis № 1.
[109] Həmin mənbə. LXXIV c. s. 164.
[110] Həmin mənbə. LXXIV c. s. 217, hədis № 42.
[111] Həmin mənbə. VI c. s. 6.
[112] Həmin mənbə. XVIII c. s. 26, 29.

**a) Təfsir kitablarından istifadə metodu.**

"Biharül-ənvar" əsərinin mənbələrinin öyrənilməsi göstərir ki, Əllamə Məclisi öz əsərini yazmaq üçün hansısa bir etiqada, məzhəbə və təriqətə istinad etməmiş, əksinə, müxtəlif dünyagörüşünə və məzhəblərə malik müfəssirlərin əsərlərini seçməklə, İslamdakı təfriqəni aradan qaldırmağa, ümumi bir məxrəcə gəlib, əsl həqiqətə çatmağa cəhd göstərmişdir. Göründüyü kimi, onun istinad etdiyi müəlliflər içərisində hənəfi, şafei, imamiyyə məzhəblərinə mənsub, əşəri, mötəzili, maturidi etiqadlı, sufi təriqətini və mütəsəvvifləri təmsil edən şəxsiyyətlər olmuşdur. Belə müxtəlif mənbələrdən düzgün faydalanmaq üçün isə İslam dininin əsaslarına dərindən vaqif olmaq, elmdə dəqiqliyi yanlış təsəvvürlərdən fərqləndirməyi bacarmaq lazım idi və bunun üçün də müəllifin düzgün metod seçməsi əsas məsələ idi.

"Biharül-ənvar" əsərində ülumi-Quran ilə dünyəvi elmlər bir-biri ilə uğurlu əlaqələndirilmişdir. Hədislərdən istifadə edərkən müəllif bir sıra mübahisəli məsələlərin həllinə öz münasibətini də bildirmiş, daha məqbul variantların üzərində dayanmışdır. Məsələn, əsbabi-nüzuldan məlumdur ki, Qurani-Kərimin ilk və son nazil olan ayələrinin hansılar olduğu haqqında təfsir elmində müxtəlif fikirlər mövcuddur. Bu barədə Şeyx Əbülhəsən Əli bin Əhməd əl-Vahidi ən-Nişapuri yazırdı:

"Ürvə mənə bildirmişdir ki, Aişə Peyğəmbərə (s) ilk vəhyin sübh çağı gələn «Fələq» olduğunu deyib. Peyğəmbər (s) Hira dağına gedib gecələr təkbaşına ibadət edirmiş. Hirada olarkən mələk peyda olub ona deyir: **«İqra!»** (**«Oxu!»**) Peyğəmbər (s) Xədicəyə deyib ki, mən ona: «Nəyi oxuyum?», - dedim. O məni cəhd edənə qədər suya batırıb çıxartdı, sonra mənə çatdırdı: **«İqra!»** Mən dedim ki, nəyi oxuyum? Məni ikinci dəfə suya batırıb çıxartdı və mənə çatdırdı ki: **«İqra!»** Mən dedim: «Nəyi oxuyum?» Məni üçüncü dəfə suya batırıb çıxartdı və dedi: **«İqra bismi-rəbbikəl-ləzi xələq…"**

İkrəmə əl-Həsən yazır ki, Qurani-Kərimdən ilk nazil olan ayə **«Bismillahir-rəhmanir-rəhim»**dir, Məkkədə ilk nazil olan odur. İlk surə isə **«İqra bismi-rəbbikə..."**

Bin Kəb qeyd edir ki, Rəsulullahın (s) dövründə nazil olan axırıncı ayə **«ləqəd caəküm rəsul min ənfusikum»**dir".

Bu barədə Əhməd Fərracın kitabında oxuyuruq:

"Cabir bin Abdullah əl-Ənsaridən soruşdular: «Ən əvvəl hansı ayə nazil olmuşdur?» O dedi: **«Ya əyyuhəl-müddəssir.»** Sual verən Əbu Sələmə bin Əbdürrəhman (mübahisə edərək) dedi: **«İqra bismi-rəbbikə».** Cabir dedi: Rəsulullahın (s) mənə danışdığını deyirəm. Rəsulullah (s) demişdir: "Bir ay Hiranın qonşuluğunda yaşadım, vadinin içinə endim, kimsə məni çağırdı. Önümə, arxama, sağa-sola baxdım. Sonra göyə baxdım, ərşdə havada Cəbrayılı gördüm. Qorxudan məni titrətmə tutdu, Xədicəni səslədim. Məni bürüdülər, sonra suya saldılar. İzzət və cəlal sahibi Allah taala mənə xəbər göndərdi: **«Ey bürünmüş, ayağa qalx...»** Dedim ki, Rəsulullahın (s) birinci dəfədən sonra vəhy gəlməsini nəql etdiyini eşitmişəm. Hədisdə də deyilir: "Gəzdiyim vaxt səmadan bir səs eşitdim, başımı qaldırdım, gördüm ki, mələk göylə yer arasında bir kürsüdə oturub. Ardımca gəlib məni

bürüdülər, Allah-taaladan nazil oldu: **«Ya əyyuhəl-müddəssir».**[113] Bunu əl-Buxari Abdullah bin Məhəmmədə istinadən söyləmişdir. Göründüyu kimi, bu mövzu ilə bağlı ilahiyyat elmlərində bir-birindən fərqlənən fikirlər, əks mövqelər mövcud olmuşdur. Bunun obyektiv səbəbləri vardır ki, ən başlıcası həmin fikirləri söyləyənlərin məsələnin təfsilatını, dəqiqliyini unutmaları ola bilər. Gətirdiyimiz sitatlardan da görünür ki, Cabir bin Abdullah əl-Ənsari Hira mağarasında Cəbrayılın (ə) ilk zühurunu unudaraq, onun ikinci gəlişinin məkanını da yanlış göstərir, digər mühəddisin söylədikləri də onun versiyasına əsaslanır. Bu alimlərin fikrincə, Cəbrayılın (ə) gətirdiyi ilk surə başqa, Allah taala tərəfindən birbaşa vəhylə göndərilən surə isə başqadır, yəni «ilk nazil olan surə / ayə» dedikdə, guya ki, Cəbrayılın (ə) gətirdiyi sayılmamalıdır, birbaşa nazil olan əsas götürülməlidir. Başqa bir variantda İkrimə və əl-Həsən "bəsmələ"ni ilk nazil olan ayə hesab edir, ilk nazil olan "Ələq" surəsinin ilk nazil olan ayəsi kimi qəbul edirlər. Bununla da məşhur tarixi hədis təhrif edilmiş olur ki, Əllamə Məclisi də bunu qəbul edə bilməzdi: o, ümmülmöminin Aişəyə istinad edilən ümumməqbul hədisdən çıxış edir və 92-cü cilddə Ələq surəsinin təfsirinə qeyd verərək yazır ki, bu surə Peyğəmbərə (s) nazil olan ilk surədir ki, Hira dağında nazil olmuşdur.[114]

Əllamə Məclisi əsərində işlədiyi mövzulara ayələri qeyd edərək başlayır. Lazımlı gördüyü yerlərdə bəzi təfsirçilərin fikirlərini nəql etdikdən sonra mövzu ilə əlaqəli bütün rəvayətləri yazır. Əgər qeyd etdiyi hədisin hamısı başqa bir yerdə keçirsə, bunu qısaca ifadə edərək əsl yerində qeyd edəcəyini söyləyir.

Əllamə Məclisi "Biharül-ənvar" əsərində çoxlu şərhlərə və izahlara baş vurmuşdur. O, bu əsərində mövzuya görə fəsillər açmış və orada ilk olaraq aidiyyatı ayələri qeyd etmiş, onların ardınca da həmin mövzuyla bağlı hədisləri göstərmişdir. Hətta müəllif kitabın fəslində bəzi ayələri qeyd edərkən həmin ayələrin o fəsildə olub-olmamasını şübhəli gördükdə, bəzən deyərdi: "Bu ayə bəzi təfsirlərə görə, bu fəsil üçün münasibdir. Lakin bəzi təfsirlərə görə isə qeyri-münasibdir". Onun bu sözündən belə başa düşmək olar ki, müəllif ayələrin mövzuya münasib olub-olmaması məsələsinə çox incə diqqət yetirmişdir.

Müəllf kitabın fəsillərində qeyd etdiyi ayələri təfsir etməkdən çəkinmişdir. Lakin əsərdə bu ayələrin bəzi yönlərdən təfsir edilməsinə rast gəlinir ki, bu da yalnız zəruri hallarda özünü göstərməkdədir. Bunu bariz şəkildə əsərin dördüncü cildinədək qeyd etdiyi heç bir ayəyə təfsir verməməsindən, yalnız beşinci cilddən sonra təfsirə zəruri halda girişdiyindən də görmək olur. O, Qurani-Kərimin "Hər şey məhv olacaq, yalnız ondan başqa" ayəsinin orjinalında keçən "Vəch" kəlməsini təfsir edərkən qədim alimlərdən Seyid Rəzinin fikirlərini əsas götürərək yazır: "Burada Allahın üzü (vəchullah) ifadəsi istiarə olub onda məqsəd Allahın zatı deməkdir. Çünki bu ayədəki vəch kəlməsi bir şeyin özü və ya zatı mənasındadır. Buna Quranın "ər-Rəhman" surəsindəki وَيَبْقَى وَجْهُ رَبِّكَ ذُو الْجَلَالِ وَالْإِكْرَامِ ayəsi dəlildir. Çünki bu ayənin mənası «Rəbbinin zatı əbədi qalacaqdır» kimi başa düşülür".[115]

---

[113] Həmin mənbə. XCIV c. s. 234.
[114] Həmin mənbə. XC c. s. 40.
[115] Həmin mənbə. V c. s. 6.

**b) Hədis kitablarından istifadə metodu.**

Əllamə Məclisinin əsərindəki metodlarından biri də hədislərin nəqlində təqti (kəsik) və cəm (toplum) yolunu tutmasıdır. Həmin xüsusiyyət yalnız bu əsərə məxsus olub digər əsərlərə xas deyil. Belə ki, müəllif bir hədisi sənədi kəsik halda münasib fəsildə yerləşdirmiş, sonra isə həmin hədisə qayıdaraq onu başqa bir yerdə tam şəkildə qeyd etmişdir.[116]

Müəllifin digər bir metodu da bəzi uzun hədisləri qısa olaraq mövzuya lazım olan şəkildə nəql etməsidir. Buna belə münasibət bildirir: "Hədis uzundur, ondan yalnız istədiyimiz miqdarı nəql etdik".[117]

Müəllif əsərdə qeyd etdiyi hədisi izah edəcəksə, aşağıdakı sözləri işlətmişdir: "Əqulu", "bəyan", "tənvir", "izah", "tibyan", "təvzih", "təfsir", "şərh", "təbyin".

"Biharül-ənvar" əsərini tədqiq edərkən məlum olur ki, müəllifin məqsədi heç də hədisləri kamil şəkildə şərh etmək olmamışdır. Bəlkə də onun hədislərə verdiyi bu qısa izahlarda əsas məqsədi hədisin mətnində keçən bəzi çətin anlaşılan kəlmələri və mənaları oxucunun diqqətinə sürətlə və rahatlıqla çatdırmaq olmuşdur. Bu məqsədə o, əsərinin bir çox yerinə toxunmuşdur. Belə ki, o, deyir: "Çətin anlaşılan xəbərlərin izahında deyilən təfsilatı söz başqa məqsədi istəməkdir, kitabda işarə etdiyimiz şərhlər oxucunu dərin təfəkkürə sövq etməkdir".[118]

Əllamə Məclisi əsərdə izah etdiyi hədislərin bəzi hissəsini atası Məhəmməd Tağının izahlarından götürmüşdür. Bundan əlavə, müəllif qeyd etdiyi hədisləri məlum fəsillər altında yerləşdirmək məqsədi güdmüş, hər hansı bir elmi bəhs açmaq, tədqiqat aparmaq və əqli mübahisələrə girişmək deyil. Amma bütün bunlara baxmayaraq, o, yeri gəldikdə və zərurət yarandıqda bəzi əqli və fəlsəfi, həmçinin digər yöndən olan mübahisələrə girişmişdir.[119]

Əsərdə diqqəti çəkəcək məsələlərdən biri budur ki, müəllif bəzən iki bir-birinə zidd olan hədisləri eyni fəsildə vermiş və bu hədislər arasındakı ziddiyyətlərə və hansının daha səhih olmasına münasibət göstərməmiş, bəlkə də bu problemi hədis alimlərinin öhdəsinə buraxmışdır.

Müəllif bacardığı qədər təhrif və təshifdən qaçmışdır. O, qeyd etdiyi hədislərdə belə halla qarşılaşdığı zaman həmin problemi dərhal həll edər: "Mən hədisdə hər hansı bir təhrif və təshif[120] gördümsə, onu başqa yerə götürmədən həll etdim" – deyərdi.

Diqqəti cəlb edən məsələlərdən biri də Əllamənin hədisləri şərh edərkən "Səhihi-Buxari", "Səhihi-Müslüm", "Sünəni-Nəsai", "Müsnədi-Əhməd" və s. mötəbər hədis kitablarına müraciət etməsidir. O, dilə aid iyirmi, hədis şərhinə aid isə on üç əsərdən istifadə etmişdir. Onun bu mövzularda müraciət etdiyi əsərlərin başında Sələbinin "Əraisül-bəyan", İbn Əsirin "Camiül-bəyan" əsəri gəlir. Əllamə bu əsərlərə daha çox etimad göstərmişdir.[121]

---

[116] Həmin mənbə. V c. s. 118.
[117] Həmin mənbə. XLVII c. s. 123.
[118] Həmin mənbə. III c. s. 53.
[119] Həmin mənbə. XI c. s. 203; XXV c. s. 108; LVII c. s. 233.
[120] Təhrif hədisin sənədində və yaxud da mətnindəki dəyişikliyiə deyilir. Təshif isə dəyişdirmək mənasındadır. Hədis elmindəki mənası isə mətn və ya sənədində bir kəlməsi və yaxud da ravilərindən birinin adı xətalı olaraq söylənmiş və bu xəta ilə rəvayət edilmiş hədisdir (Bax: İbrahim Quliyev. Hədisşünaslığın əsasları. Bakı, Elm, 2013. s. 629).
[121] Həmin mənbə. XIV c. s. 159.

Əsərin xüsusiyyətlərindən biri də müəllifin hədisləri izah edərkən fəqihlərin görüşlərinə yer verməsidir. Əlbəttə ki, onun məqsədi fiqh kitabı yazmaq olmamışdır. Lakin buna baxmayaraq, o, nəql etdiyi rəvayəti daha da dərindən açıqlamaq üçün fəqihlərin də görüşlərinə yer vermişdir.

“Biharül-ənvar” əsərini tədqiq etdikdə görürük ki, müəllif bu əsərində nəql etdiyi hədisləri mövzuya uyğun şəkildə tərtib etmiş və ardıcıllıqla düzmüşdür. O, müxtəlif, çoxlu və bir-birlərindən fərqli kitablara müraciət edərək dinin bütün mövzularını ehtiva edən hədisləri bir araya toplamışdır. Bu isə göstərir ki, həqiqətən alim uzun zaman çərçivəsində və dərin tədqiqatı nəticəsində belə bir fundamental və ensiklopedik xarakterli əsər meydana gətirmiş, əsəri tamamladıqdan sonra böyük əzm və iradə ilə çalışaraq ona fihrist də yazmışdı. İstifadə etdiyi mənbələri diqqətlə incələmiş, orada məqbul hesab etdiyi hədisləri və müəlliflərinin görüşlərini adı çəkilən əsərində toplamışdır.

Əllamə Məclisi tədqiq və istifadə etdiyi bütün mənbələrin rəvayət tərtibinə, yazılma üslubuna və s. diqqət yetirmiş və həmin əsərlərdə olan çətin metodları tərk edərək yeni bir üslubda kitab yazmışdır. O, rəvayətləri yeni bir üslubda və asan bir yolla hədisləri bir yerə toplamağa çalışmışdır. Əllamə Məclisinin istifadə etdiyi mənbələrə, o cümlədən Təbərisinin “əl-İhticacat”, Şeyx Səduqun “əl-Amal”, “əl-Xisal”, “Üyuni əxbarir-Rza (ə)”, “İləlüş-şərai”, “Məanil-əxbar”, “Tövhid”, Hümeyrinin “Qərbül-isnad”, Şeyx Tusinin “əl-Məcalis” və əl-Qumminin “Təfsirül-Qummi” əsərlərinə baxdıqda görürük ki, müəllif bu əsərlərdən istifadə etsə də, onların metodunu izləməmiş, əksinə öz əsərini tamamilə yeni bir üslubda yazmışdır. Əllamə bu və ya digər əsərləri bir araya toplamaqla sanki oxucunu eyni bir vaxtda onlarla əsərlə tanış etmiş olur. Beləliklə, “Biharül-ənvar” əsərinin yazılmasında aşağıdakı məqsədləri görmək mümkündür:

1. Dinin, elmin və ümumiyyətlə, insan həyatının, o cümlədən kəhkəşanlar aləminə, yerlərin və göylərin yaradılmasına və başqa mövzulara aid hədisləri bir araya toplamaq;
2. Özündən əvvəlki ədəbiyyatlardan istifadə edərək yeni bir üslubda əsər yazmaq;
3. İstifadə etdiyi mənbələrdə rast gəlmədiyi bəzi məqamlara toxunmaq;
4. Bütün növ təbəqə üçün əsər yazmaq;
5. Bəzi müşkül və mütəşabih hədisləri açıqlamaq.

**c) Dil kitablarından istifadə metodu**

Əllamə Məclisinin dil baxımından müraciət etdiyi kitablardan Cövhərinin “Sihah”, Firuzabadinin “əl-Qamus” əsərlərini göstərmək olar. Bunun səbəblərindən biri Cövhərinin dilçilərin örnəyi olması, Firuzabadinin də onun kimi bir şəxsiyyət olmasıdır. Bu barədə müəllif yazır: “O, dilçilərin ən böyüklərindəndir, onlara hamı etimad göstərməkdədir”.[122]

Bundan başqa, o, aşağıdakı dilçi alimlərin əsərlərdən də istifadə etmişdir.

[122] Həmin mənbə. LXX c. s. 245.

1. Əbülhəsən Əli bin Həmzə əl-Kisai. “İmamün-nəhviyyin” ləqəbi ilə tanınmış və öz dövründə nəhv elmi (qrammatika) sahəsində insanların əl biliklisi hesab edilmişdir.

2. Müaz bin Müslüm əl-Hərra əl-Kufi ən-Nəhvi nəhv elminin böyüklərindən hesab olunur. Onun bu elmə aid çoxlu əsərləri olmuşdur. ən-Nəhvi sərf (morfologiya) elminin banisidir. Çünki o, ilk dəfə sərf istilahını işlətmiş, onu nəhvdən ayıraraq müstəqil şəkildə öyrənmiş və hüdudlarını göstərmişdir.

3. Yəhya bin Ziyad əl-Əta əl-Fərra əl-Kufi. Kisainin tələbəsi olmuş və əl-Fərra ləqəbi ilə tanınmışdı. əs-Səmani onun haqqında deyir: “Fərraya nəhvdə əmirulmuminin deyilmişdir”. əl-Fərra kəlmələri çox incələmiş və dilə yeniliklər gətirmişdir. Sələbi onun haqqında deyir: “Əgər Fərra olmasaydı, ərəb dili olmazdı. Çünki o, ərəb dilini xilas etmiş, möhkəmləndirmişdir”.

4. Əhməd bin Fars əl-Lüğəvi “əl-Mücməl” adlı məşhur əsərin müəllifidir. “Büqyətül-Viat” kitabının müəllifi onun kufəlilərin yolu ilə getdiyini adı çəkilən əsərdə qeyd etmişdir. əl-Lüğəvinin “Müqəddimə fin-nəhv”, “Fiqhül-lüğə” və “İxtilafün-nəhviyyin” adlı əsərləri vardır.

5. Hüseyn bin Əhməd bin Xaləveyh ən-Nəhvi İbn Dəridin şagirdi olmuşdur. Onun haqqında “Büqyətül-Viat” əsərində yazılıb: “Onun lüğət, ərəb dili, ədəbiyyat və digər elmlər sahəsində əsərləri var. Öz dövründə görkəmli şəxsiyyət olmuş və dünyanın müxtəlif bölgələrini dolaşmışdır”. əd-Dani onun haqqında deyir: “O, ərəb dili elmində alim, lüğət elmində isə hafizdir”. Rical əsərlərində onun haqqında çoxlu məlumat olduğu və İmamlar (ə) haqqında dəyərli əsərlər yazdığı qeyd edilmişdir.[123] Onun “əl-Cüməl fin-nəhv”, “Kitab fil-lüğə”, “Şərhüd-Dəridiyyə” adlı əsərləri vardır.

Əllamə Məclisi ayə və hədislərdə keçən çətin başa düşülən kəlmələrin dilçilik baxımından izahını vermiş və bu zaman özündən əvvəlki qədim qaynaqlara və alimlərə istinad etmişdir. Məsələn o, İsa peyğəmbərin (ə) “Məsih” adlanmasından bəhs edərkən bu sözün hansı kökdən yarandığını və nə mənalarına gəldiyini belə açıqlayır: “Firuzabadinin “əl-Qamus” əsərində yazıldığına görə, “məsih” sözü “sahə-yəsihu-seyhanən” kökündən olub “suyun yerin üstündə axıb getməsinə” deyilir. Bu sözün məsdəri “siyahət” kökündən alınıbsa, onda “İsanın “əl-Məsih” adlanmasının səbəbi onun yer üzündə çox səyahət etməsinə və oruc tutmasına görədir. Çünki “məsih” kəlməsi “sahə” feilinin məsdərindən əmələ gəlmiş olsa, onun mənası yer üzündə çox səyahət edən demək olacaqdır”.[124]

Əllamə Məclisi “peyğəmbər” kəlməsini də dilçilik elminin prinsipləri əsasında izah etməyə çalışaraq yazır: “Bu söz nəbi kökündən alınmış və “yüksək olmaq”, “enmək”, “geri çəkilmək”, “diskinmək”, “öncədən olanları xəbər vermək”, “bildirmək”, “göstərmək”, “ucalmaq” mənalarında işlənir.

Məşhur ərəb leksikoqrafı Rağib əl-İsfəhani “nəbi” sözü haqqında yazır: “Nəbi həmzəsiz sözdür. Bəzi qrammatiklərə görə, əslində bu sözün həmzəsi olub, lakin sonadan atılıb. Digər alimlərə görə, isə bu söz “nübüvvət” kəlməsindən əmələ gəlib və mənası “ucalıq” deməkdir. Bu sözün bu mənanı daşımaqda məqsədi nəbilərin digər insanlardan uca məqamlarda dayanmaqlarına görədir. Necə ki, Quran buyurur:

---

[123] Həmin mənbə. LXXVI c. s. 164.
[124] Həmin mənbə. LXX c. s. 245.

**"Biz onu yüksək məqama qaldırdıq".**[125] Həmçinin bu sözün həmzəli olmamasının səbəbi hər bir şəxsin ali məqam sahibi olmamasına görədir. Bu, aşağıdakı hədisdə də öz əksini tapmışdır:

İbn Abbas rəvayət edir: "Bədəvi ərəb Peyğəmbərə (s) dedi: salam olsun sənə, ey Nəbiə Allah! Həzrət buyurdu: Mən Nəbiə Allah deyiləm! Nəbiyullaham!".[126] Nəbi sözü haqqında digər məşhur dilçi alim İbn Mənzur isə deyir: "Nəbi yüksəliş və bayraq-nişanə mənalarındadır. Bayraq və ya nişanə mənasını ona görə daşıyır ki, nəbilər insanları düz yola yönəldirlər. Həmçinin peyğəmərlərə nəbi ona görə deyilib ki, onların dərəcələrini Allah yuksəltmişdir".

Görkəmli ərəb qrammatiki əl-Kisaiyə görə, "nəbi" "yol" mənasındadır. Bu cözün cəmi "ənbiya"dır ki, bu da "hidayət yolları" mənasındadır.

Daha sonra Əllamə Məclisi nəbi kəlməsinin mənası haqqında fikirlərini belə yekunlaşdırır:

"Nəbi nubuvvət kəlməsindən əmələ gəlib və yerdən hündür olan şeylərə deyilir. Deməli, nübuvvət sözünün mənası "ucalıq" deməkdir. Nəbinin də mənası "uca olan" deməkdir".[127]

əl-Cəzəri bu söz haqqında demişdir: "Nəbi "nəbə" sözündəndir, fail vəzninin mubaliğə formasıdır və xəbər mənasındadır. Çünki o, Allahdan xəbər verir..".[128]

Həmçinin Əllamə Məclisi mövzunu fəlsəfi yöndən izah edərək peyğəmbərlərin və bu kimi müqəddəs varlıqların günahkar olmamaları barədə yazır: "Nəbilər, rəsullar, imamlar və mələklər barədə əqidəmiz budur ki, onlar böyük-kiçik hər bir pislikdən uzaq və məsumdurlar. Onlar heç bir günah etməmiş, Allaha qarşı üsyan etməmiş və onlara əmr olunan hər bir şeyə əməl etmişlər. Peyğəmbərlər haqqında etiqadımız budur ki, doğrudan da onlar kamil, tamam və elm sifətlərinə yiyələnmiş, işlərinin əvvəlindən tutmuş sonuna qədər hər bir şey barədə məlumatlı olmuşlar. Onların etdikləri işlərdə nə naqislik, nə də nadanlıq vardır və onlar bu kimi mınfi sifətlərlə tanına bilməzlər".[129]

Əllamə Məclisi, hədislərdə keçən bəzi kəlmələrin təkcə lüğəvi mənalarını deyil, eyni zamanda onların müqəddəslərin dilində hansı mənanı ifadə etməsi məsələsini də önə çəkmişdir. Bunu onun rəvayət etdiyi aşağıdakı hədisdə də bariz şəkildə görməkdəyik. Belə ki, o, İmam Sadiqin (ə) Peyğəmbərdən (s) nəql etdiyi hədisi belə qeyd edir:

"Allahın kitabında tapdıqlarınıza əməl etmək sizə vacibdir və onu tərk etsəniz, üzürlü sayılmazsınız. Allahın kitabında tapmadığınızı mənim sünnəmdə tapsanız, sünnənin tərki üçün üzürlü sayılmazsınız. Mənim sünnəmdə tapmadığınızı əshabımın dediklərində tapıb əməl edin. Çünki mənim əshabım sizin içərinizdə ulduzlar kimidir, hansını götürsəniz, sizi hidayət edər. Əshabımın dediklərinin hansını əldə etsəniz, hidayət olarsınız, əshabımın ixtilafı sizin üçün bir rəhmətdir".[130]

---

[125] Məryəm surəsi, ayə 57.
[126] Əllamə əl-Məclisi. Biharül-ənvar. XI c. s. 523.
[127] Həmin mənbə. XI c. s. 523.
[128] Həmin mənbə. XI c. s. 523.
[129] Həmin mənbə. XI c. s. 523.
[130] Həmin mənbə. VI c. s. 79.

Dedilər, ey Allahın Rəsulu! Sənin əshabın kimlərdir? Həzrət buyurdu: "Əhli-beytim".[131]

Göründüyü kimi, bu hədisdə keçən "əshab" sözünü Peyğəmbərin (s) səhabələri mənasında deyil, onun əhli-beyti mənasında olduğunu qeyd etmişdir.

Əllamə Məclisinin dilçilik baxımından izah etdiyi kəlmələrdən biri də Qurani-Kərimdə keçən və Fironun haqqında işlənən **"əvtad"** kəlməsi haqqındadır. O, Fironun belə adlanmasının səbəbləri haqqında yazır: "Bu haqda bir neçə görüş vardır. Birincisi, onun mismarlardan hazırlanmış çoxlu oyun alətləri vardır və buna görə də Quran onu "zul-əvtad" adlandırıb. İkincisi, o, insanlara dəmir mıxlar vasitəsi ilə əzab verirdi və buna görə də belə adlandırılıb. Üçüncüsü, onun çoxlu oğul-uşağı olduğundan belə adlandırılıb. Dördüncüsü, onun saysız-hesabsız qoşunu olduğundan belə adlanıbdır. Lakin Təbərsi "Məcməül-bəyan" əsərində Şeyx Müfiddən belə nəql edir ki, Fironun "zul-əvtad" adlanması bir istiarədir (metafora). Bu söz daimi və sabit hakimiyyət mənasındadır".[132]

**ç) Tarix və siyər kitablarından istifadə metodu.**

Əllamə Məclisinin "Biharül-ənvar" əsərində ən çox qaynaq olaraq istifadə etdiyi mənbələr sırasına tarix və siyər əsərləri daxildir. O, burada Təbərinin (838-923) "Tarixül-ümәm vəl-müluk", İbn Kəsirin (1301-1373) "Qisəsül-ənbiya", Beyzavinin (1189-1286) "Təfsirül-Beyzavi", Təbərisinin (1073-1153) "Məcməül-bəyan", Xətib əl-Bəğdadinin (1002-1071) "Tarixi-Bağdad", İbn Xəllikanın (1211-1282) "Vəfayatül-əyan", Hakim Nişapurinin (933-1014) "Tarixu-Nisabur" əl-Vaqidinin (748-822) "Məğazi" və "Tarixül-fütuhat", İbn Əsirin (1160-1233) "əl-Kamil fit-tarix", Məhəmməd bin İshaqın (699-768) "əs-Sirətün-Nəbəviyyə" və Əbülfərəc İsfəhaninin (897-967) "əl-Əğani" əsərlərindən istifadə etmişdir.

Müəllif özündən əvvəlki əksər qaynaqlara müraciət etmiş, onlardan iqtibaslar gətirmiş və bəzən də həmin əsərlərdə keçən tarixi xətaları və uydurma rəvayətləri düzəltmişdir. Əsərdə tarixə aid mühüm xəbərlər "Qasəsül-ənbiya" (Peyğəmbərlər tarixi) fəslində toplanmışdır. Əllamə Məclisinin "Biharül-ənvar" əsərində dinlər tarixinə aid xəbərlər, xüsusilə də peyğəmbərlər haqqındakı geniş məlumat din tarixşünaslığı baxımından çox qiymətlidir. Ayələr və səhih xəbərlərə istinad edən müəllif bu məlumatların faydalı olacağını düşünərək, bəzən əfsanəyə bənzər rəvayətləri də nəql etmişdir.

**"Biharül-ənvar"da olan işarələr:**

Əllamə Məclisi "Biharül-ənvar"da istifadə etdiyi mənbələri qısa şəkildə bildirmək üçün bəzi işarələrdən istifadə etmişdir. Onun tərtib etdiyi bu işarələr vasitəsi ilə hansı mənbədən istifadə etdiyini bilmək mümkündür. Həmin işarələr aşağıdakılardır:

ن – "Üyuni əxbarir-Rza (ə)", ع- "İləlüş-şərai", ك – "İkmalüddin və təmamün-nimət", يد – "ət-Tövhid", ل – "əl-Xisal", لي – "Amali-Səduq", ثو – "Səvabül-əmal", مع – "Məanil-əxbar", هد – "əl-Hidayə", عد – "Əqaid", ب– "Qəribül-isnad", ير – "Bəsairüd-dərəcat", ما – "Amali-Tusi", غط – "Ğeybətüş-Şeyx Tusi", مصبا – "əl-

[131] Həmin mənbə. I c. s. 472.

[132] Həmin mənbə. XI c. s. 6.

Məsabih", شا – "əl-İrşad", جا – "Məcalis", ختص – "Kitabül-ixtisas", مل – "Kamilüz-ziyarət", سن – "əl-Məhasin", فس – "Təfsiri-Əli bin İbrahim", شي – "Təfsiru-Əyyaşi", م – "Təfsiri-İmam", ضه – "Rövzətül-vaizin", عم – "İlamül-vəra", مكا – "Məkarimül-əxlaq", ج – "əl-İhticac", قب – "Mənaqib İbn Şəhr Aşub", كشب – "Kəşfül-ğimmə", ف – "Tühəfül-üqul", نبه – "Tənbihül-xatir", نهج – "Nəhcül-bəlağə", مد – "əl-Ümdə", نص – "əl-Kifayə", طب – "Tibbül-Əimmə", صح – "Səhifətür-Rza (ə)", ضا – "Fiqhür-Rza (ə)", يج – "əl-Xərac", ص – "Qisəsül-ənbiya", ضوء – "Zəvüş-Şihab", طا – "Əmanül-ixtar", سف – "Kəşfül-yəqin", يف – "ət-Təarif", قيه – "əd-Duri", فتح – "Fəthül-əbvab", نجم – "Kitabün-nücum", جم – "əl-Cəmalül-usbu", قل – "əl-İqbalül-əmal", تم – "Fəlahüs-sail li kəvnihi min tətimmatil-misbah", مهج – "Məhcud-dəvat", صبا – "Məsabihüz-zair", حه – "Fərəhətül-Ğəriyy", كنز – "Kənzu camiil-fəvaid", غو – "Ğəvalil-lali", جع – "Camiül-əxbar", ني – "Ğeybətün-Nimani", فص – "Kitabür-rövzə", مص – "Misbahüş-şəriyyə", قبص – "Qibsül-misbah", ط – "Siratül-müstəqim", خص – "Müntəxəbül-bəsair", سر – "əs-Sərair", ق – "Kitabül-ətiq", كش – "Ricalu-Kəşşi", جش – "Fihrist-Nəcaşi", بشا – "Bəşairül-Mustafa (s)", ين – "Kitabi-Həsən bin Səid", عين – "əl-Üyun vəl-məhasin", غر – "Ğürər və dürər", كف – "Misbahu-Kəfəmi", فضا – "Qəzaül-hüquq", محص – "əl-Mütməhis", عده – "əl-Üddə", جنة – "əl-Cənnət", منها – "əl-Minhac", د – "əl-Ədəd", يل – "əl-Fəzail", فر – "Təfsiru-Firat bin İbrahim", عا – "Dəaimül-İslam", كا – "əl-Kafi", صا – "əl-İstibsar", يه – "Mən la yəhzuruhül-fəqih", يب - "Təhzibül-əhkam".

## 2.3. "Biharül-ənvar" əsərinin təhlili

Əvvəldə qeyd etdiyimiz kimi, "Biharül-ənvar" əsəri iri həcmli bir əsər olub bir çox elmləri ehtiva etməkdədir. O, iyirmi beş iri cilddən ibarətdir. Bu cildlər böyük cildlər hesab edilir. Böyük cildin hər biri kiçik və orta həcmli cilddən ibarətdir. Belə olduğu halda, böyük cildlər normal cildləmə üsulu əsasında cildləndikdə, əsər yüz on cilddən ibarət olur. Müəllif əsəri çox gözəl şəkildə tərtib etmiş və onu ana fəsillərə (kitab), sonra isə onları kiçik fəsillərə (bab) ayırmışdır. Əsər son dəfə 1403/1983-cü ildə iyirmi beş iri cilddə nəşr edilmişdir.

Müəllif əsərin birinci cildində "Müqəddimə" bölümündə beş fəsil açmışdır. Birinci fəsildə istifadə etdiyi əsərlərin siyahısını, ikinci fəsildə həmin əsərlərin etibarlı olub-olmaması (təshihi) məsələsini, üçüncü fəsildə həmin əsərlər üzərində qoyduğu işarələri (rəmzləri), dördüncü fəsildə əsərin bütün qaynaqlarını külliyyat şəkildə göstərməsini, beşinci fəsildə isə istifadə etdiyi mənbələrin sənədlərini qeyd etmişdir.

Müəllif əsərin birinci cildinə "Kitabül-əql vəl-ilmi vəl-cəhl" adı vermiş, burada elmin və alimin fəzilətlərindən, onların qruplarından bəhs etmişdir. Bu cilddə qırx kiçik fəsil (bab) vardır. Əsərin müəllifi bu bölümə aid ilk olaraq Qurani-Kərimin mövzu ilə əlaqəli ayələrini, sonra Peyğəmbərin (s) və İmamların (ə) hədislərini qeyd etmişdir.

Əsərin I cildində "Ağılın fəziləti, cəhalətin tənqidi" babında 53 hədis, "Ağılın həqiqəti, keyfiyyəti və yaradılması" babında 14 hədis, "Allah insanları ağıllarına görə hesaba çəkər" babında 5 hədis, "Ağılın əlamətləri və köməkçiləri" babında 52 hədis, "Nəvadir" babında isə 2 hədis qeyd etmişdir. Beləliklə, müəllif əsərin birinci cildində "Kitabül-əql vəl-ilmi vəl-cəhl" adlı iri fəsildə beş babda 126 hədis toplamışdır. Sonra

isə “Kitabül-ilm” fəslində birinci babda 112, ikinci babda 20, üçüncü babda 7, dördüncü babda 38, beşinci babda 12, altıncı babda 62, yeddinci babda 19, səkkizinci babda 92, doqquzuncu babda 71, onuncu babda 20, on birinci babda 42, on ikinci babda 15, on üçüncü babda 84, on dördüncü babda 68, on beşinci babda 25, on altıncı babda 50, on yeddinci babda 61, on səkkizinci babda 9, on doqquzuncu babda 47, iyirminci babda 10, iyirmi birinci babda 25, iyirmi ikinci babda 13, iyirmi üçüncü babda 28, iyirmi dördüncü babda 2, iyirmi beşinci babda 4, iyirmi altıncı babda 116, iyirmi yeddinci babda 7, iyirmi səkkizinci babda 14, iyirmi doqquzuncu babda 72, otuzuncu babda 4, otuz birinci babda 18, otuz ikinci babda 28, otuz üçüncü babda 62, otuz dördüncü babda 84 və nəhayət otuz beşinci babda 6 hədis toplamışdır. Bu da birinci böyük cilddəki hədislərin ümumi sayının 1345 olduğunu göstərir.

I cild hicri 1248-ci ildə (miladi 1831) Hindistanda və hicri 1301-ci ildə (miladi 1884) Təbrizdə nəşr edilmişdir.

Əsərin ikinci böyük cildində yer alan mövzular “Kitabüt-tövhid vəs-sifati vəl-əsmail-hüsna” başlığı altındadır. Burada İmam Cəfər Sadiqin (ə) tələbəsi Müfəzzələ nisbət edilən “Tövhidül-Müfəzzəl”in birinci qismi, “ər-Risalətül-İhliciyyə” ilə şərhi və bəzi xütbələri ilə açıqlamaları vardır. Bu cild otuz bir kiçik fəsildən (babdan) ibarətdir. Müəllif burada Allahın vəhdaniyyətinə, Onun feli və zati sifətlərinə aid ayə və hədisləri toplamışdır. Həmçinin burada o, Allahın gözəl adlarına aid məsələlər, o cümlədən adların mənaları, onları zikr etməyin səvabı və s. haqqında məlumatlar vermişdir.

Bu cildin “Səvabül-müvəhiddin vəl-arifin” fəslinin birinci babında 39, ikinci babında 2, üçüncü babında 29, dördüncü babında “Tövhidül-Müfəzzəl” əsəri, beçinci babında “əl-İhliciyyə” əsəri yerləşdirilib, altıncı babında 25, yeddinci babında 12, səkkizinci babında 3, doqquzuncu babında 32, onuncu babında 9, on birinci babında 22, on ikinci babında 7, on üçüncü babında 47, on dördüncü babında 47 hədis vardır.

Əsərin II cildində “Təvilül-ayat və əxbaruha” fəslində birinci babda 20, ikinci babda 14, üçüncü babda 7, dördüncü babda 4, beşinci babda 33 hədis; “Əbvabüs-sifat” fəslində birinci babda 19, ikinci babda 44, üçüncü babda 70, dördüncü babda 20, beşinci babda 5, altıncı babda 4 hədis; “Əbvabi əsmaihi” fəslində birinci babda 8, ikinci babda 12, üçüncü babda 6, dördüncü babda 45, beşinci babda 4, altıncı babda isə 1 hədis; “Əbvabül-Ədl” fəslində birinci babda 112, ikinci babda 1, üçüncü babda 79, dördüncü babda 14, beşinci babda 13, altıncı babda 23, yeddinci babda 50, səkkizinci babda 18, doqquzuncu babda 13, onuncu babda 67, on birinci babda 15, on ikinci babda 14, on üçüncü babda 22, on dördüncü babda 29, on beşinci babda 18, on altıncı babda 3, on yeddinci babda 35, on səkkizinci babda isə 2 hədis vardır. Deməli, əsərin bu cildi 1116 hədisi özündə toplamışdır.

Otuz bir kiçik fəsildən meydana gələn bu cild “Camiul-məarif” adıyla farscaya çevrilmiş və İranda nəşr edilmişdir.

Əllamə Məclisi əsərinin III cildində “Kitabül-ədli vəl-məad” adlı fəsil açmış, burada insanın iradə azadlığına, qəzavü-qədərə, hidayət olunmasına və ya zəlalətə düşməsinə, həmçinin onun imtahan olunmasına, tövbə və şərtlərinə, yarandığı maddəyə (torpağa), onun Allahla olan əhdinə (misaq), şəriət qanunlarının səbəbinə (iləlüş-şərai), ölüm, bərzəx (ölümdən sonrakı) həyatına, qiyamətə, şəfaət və vəsilə anlayışlarına, Cənnətə və Cəhənnəmə aid hədisləri qeyd etmişdir. Həmçinin müəllif

burada ölümdən sonrakı həyata (məad) aid ayə və hədisləri toplamış və məadın nəqli dəlillərdən əlavə, əqli yöndən də mümkünlüyünü isbat etməyə çalışmışdır. Əsərin bu cildi əlli doqquz kiçik fəsildən (bab) ibarətdir.

III cilddə "Əbvabül-ədl" fəslinin I hissəsinin on doqquzuncu babında 17, iyirminci babında 78, iyirmi birinci babında 2, iyirmi ikinci babında 9, iyirmi üçüncü babında "İləlüş-şərai" və Fəzl bin Şazanın "əl-İləl" əsərləri, II hissəsində birinci babda 5, ikinci babda 9, üçüncü babda 10, dördüncü babda 46, beşinci babda 18, altıncı babda 52, yeddinci babda 56, səkkizinci babda 128, doqquzuncu babda 18, onuncu babda 5, "Əbvabül-məad" başlığında isə birinci babda 32, ikinci babda 16 hədis, üçüncü babda 32, dördüncü babda 15, beşinci babda 63, altıncı babda 11, yeddinci babda 6, səkkizinci babda 147, doqquzuncu babda 9, onuncu babda 12, on birinci babda 51, on ikinci babda 9, on üçüncü babda 3, on dördüncü babda 9, on beşinci babda 79, on altıncı babda 22, on yeddinci babda isə 35 hədis vardır. Burada on səkkizinci babda 12, on doqquzuncu babda 20, iyirminci babda 33, iyirmi birinci babda 86, iyirmi ikinci babda 19, iyirmi üçüncü babda 20, iyirmi dördüncü babda 102, iyirmi beşinci babda 23, iyirmi altıncı babda 12, iyirmi yeddinci babda 41, iyirmi səkkizinci babda 4 hədis vardır.

Beləliklə, əsərin III cildində ümumilikdə 1328 hədis vardır.

IV cilddə yer alan mövzular "Kitabül-ihticacat vəl-münazirat" adı altında yazılmışdır. Müəllif əsərinin bu cildində İslamda mübahisə doğuran bəzi dini, elmi və fəlsəfi mövzulara aid xəbərləri vermişdir. Əsərin bu cildində səhabələr haqqında mübahisələr və imamların günahsız olmasına dair münazərələr yer alır. Şeyx Müfid və Şərif əl-Mürtaza kimi alimlərin mövzu ilə əlaqəli əsərlərini də əhatə edən və səksən üç babdan meydana gələn bu cild hicri 1301-ci (miladi 1884) ildə Təbrizdə nəşr edilmişdir.

Əsərin IV cildinin birinci babında "Allahın insanları müxtəlif millətlərə bölməsi" fəsli yer almışdır. İkinci babda isə 161 hədis verilib. Bundan sonra müəllif "Peyğəmbərin (s) dəlilləri" fəsli açmış burada birinci babda 6, ikinci babda isə 20 hədis vermişdir.

IV cildin ikinci hissəsinin birinci babında 13, ikinci babında 1, üçüncü babında 5, dördüncü babına 1, beşinci babında 1, altıncı babında 9, yeddinci babında 1, səkkizinci babında 7, doqquzuncu babında 5, onuncu babında 3, on birinci babında 1, on ikinci babında 14, on üçüncü babında 23, on dördüncü babında 1, on beşinci babında 3, on altıncı babında 17, on yeddinci babında 1, on səkkizinci babında 6, on doqquzuncu babında 13, iyirminci babında 24, iyirmi birinci babında 10, iyirmi ikinci babında 2, iyirmi üçüncü babında 4, iyirmi dördüncü babında 1 hədis var. Müəllif əsərin bu cildinin iyirmi beşinci babında Şeyx Səduqun bir məclisdə ustadlarına imla etdirdiyi bir əsəri yerləşdirmişdir. İyirmi altıncı babda isə şiə alimlərinin İmamlar (ə) haqqında olan görüşlərindən bəhs edilir.

IV cildin üçüncü hissəsində birinci babda 70, ikinci babda 29, üçüncü babda 2, dördüncü babda 16 hədis vardır. Sonra müəllif "Qisəsül-ənbiya" fəsli açmış və "Adəm (ə)" bölümündə birinci babda 57, ikinci babda 31, üçüncü babda 52, dördüncü babda 31, beşinci babda 44, altıncı babda 4, yeddinci babda 3, səkkizinci babda 19, doqquzuncu babda 13 hədis qeyd etmişdir.

Bu cildin "Nuh (ə)" bölümündə birinci babda 57, ikinci babda 31, üçüncü babda 52, dördüncü babda 31, beşinci babda 44, altıncı babda 4, yeddinci babda 3, səkkizinci babda 19, doqquzuncu babda 13 hədis vardır.

Dördüncü cilddə ümumilikdə isə 872 hədis vardır.

Əsərin V cildi Peyğəmbərin (s) əhvalına aiddir. Bu cilddə müəllif Adəmdən (ə) başlayaraq Məhəmməd peyğəmbərə (s) qədər adları məlum olan peyğəmbərlər və onların tarixi haqqında məlumatları və bunlarla əlaqədar hadisələri qeyd etmişdir. Bu cild səksən üç kiçik fəsildən (babdan) ibarətdir. Müəllif burada İslam fəlsəfəsinin mühüm problemlərindən biri olan peyğəmbərlərin günahsızlığı və onların mənəvi əhvalını, bu xüsuslarda edilən çeşidli etirazlar və onlara verilən cavabları toplamışdır.

Əsərin V cildində "İbrahim peyğəmbər (ə)" fəslində birinci babda 43, ikinci babda 38, üçüncü babda 29, dördüncü babda 12, beşinci babda 59, altıncı babda 17, yeddinci babda 35, səkkizinci babda 34, doqquzuncu babda 148, onuncu babda 25, on birinci babda 14 hədis; "Musa peyğəmbər (ə)" fəslində birinci babda 20, ikinci babda 21, üçüncü babda 5, dördüncü babda 61, beşinci babda 6, altıncı babda 21, yeddinci babda 51, səkkizinci babda 5, doqquzuncu babda 7, onuncu babda 55, on birinci babda 80, on ikinci babda 22, on üçüncü babda 3, on dördüncü babda 9, on beşinci babda 7, on altıncı babda 10, on yeddinci babda 2, on səkkizinci babda 28, on doqquzuncu babda isə 22 hədis; "Davud (ə)" fəslində birinci babda 29, ikinci babda 8, üçüncü babda 33, dördüncü babda 15, beşinci babda "Süleyman (ə)" fəslində 29, altıncı babda 2, yeddinci babda 4, səkkizinci babda 1, doqquzuncu babda 14, onuncu babda 9, on birinci babda 9, on ikinci babda "Səba qövmü" fəslində 3, on üçüncü babda "əshabür-Rəss" fəslində 7, on dördüncü babda "Şeya və Heyquq qissəsi" fəslində 3, on beşinci babda "Zəkəriyya (ə)" fəslində 42, on altıncı babda "Məryəm (ə)" fəslində 23, on yeddinci babda "İsa (ə)" fəslində 32, on səkkizinci babda 56, on doqquzuncu babda 4, iyirminci babda "Nəsranilərin belə adlanması səbəbləri" fəslində 12, iyirmi birinci babda 72, iyirmi ikinci babda "Naqusun təfsiri" fəsli, iyirmi üçüncü babda "İsanın göyə yüksəlməsi" fəslində 15, iyirmi dördüncü babda "İsanın (ə) Şəmun bin Həmuna vəsiyyəti" fəsli, iyirmi beşinci babda "İrmiya" fəslində 13, iyirmi altıncı babda "Yunis (ə)" fəslində 17, iyirmi yeddinci babda "əshabi-Kəhfi vər-Rəqim" fəslində 15, iyirmi səkkizinci babda "əshabül-üxdud" fəslində 5, iyirmi doqquzuncu babda "Cərcis (ə)" fəslində 1, otuzuncu babda "Xalid bin Sinan əl-Əbəsi" fəsli, otuz birinci babda bəzi peyğəmbərlərin adları haqqında məlumatlar və 39 hədis, otuz ikinci babda "Bəni İsrail" fəslində 39 və nəhayət, otuz üçüncü babda "Yer üzünün padşahları" fəslində 6 hədis vardır.

Beləliklə, ümumilikdə beşinci cilddə 1479 hədis vardır.

Müəllif əsərinin VI cildini bütünlüklə Peyğəmbərimizə (s) həsr etmişdir. Belə ki, o, Peyğəmbərin (s) doğumundan tutmuş vəfatınadək olan bütün məqamlara diqqət yetirmişdir. Peyğəmbərin (s) ata-babaları, onun möcüzələri, Quranın ecazkarlığının keyfiyyəti, Peyğəmbərin (s) Salman, Əbuzər, Əmmar, Miqdad və bəzi səhabələrinin tərcümeyi-halları da bu cilddə qeyd edilmişdir. Həmçinin burada o, Zəmzəm quyusunun qazılması, Fil hadisəsi kimi qədim tarixi mövzuları da təhlil etmişdir. Bu cild yetmiş iki kiçik fəsildən ibarətdir və müstəqil halda hicri 1323-cü (miladi 1906-cı il) ildə Tehranda nəşr edilmişdir.

VI cilddə I babda Peyğəmbərin (s) yaranışı, əsil-nəsəbi, cahiliyyə ərəblərinin vəziyyəti, fil hadisəsi mövzuları vardır. Burada müəllif 100 hədis rəvayət etmişdir. II babda qədim peyğəmbərlərin (ə) həzrət Məhəmməd (s) haqqında verdikləri xəbərlər yer alır. Burada 60 hədis vardır. Peyğəmbərin (s) döğum tarixi, möcüzələri və s. məsələlərin əks olunduğu III babda 38 hədis vardır. 29 hədisi əhatə edən IV babda Peyğəmbərlə (s) əlaqəli müxtəlif rəvayətlər yer alıb.

V babda Peyğəmbərin (s) Xədicə (ə) ilə evlənməsi, Xədicənin (ə) fəzilət və üstünlüklərinə aid hədislər öz əksini tapmışdır. Burada 20 hədis var. VI babda Peyğəməbrin (s) adları, onların mənaları, o həzrətin "ümmi" adlanmasının səbəbləri, bütün dilləri bilməsi, zinət əşyaları, silahları və s. mövzular yer almışdır. Buradakı hədislərin sayı 75-dir. VII babda Peyğəmbər (s) haqqında Quranın "yetim", "azğın" və "yoxsul" deməsinin səbəb və mənaları verilmişdir. Burada 10 hədis vardır. VIII babda Peyğəmbərin (s) vəsf edilməsi, onun şəmaili və s. mövzular öz əksini tapmışdır. Burada 33 hədis vardır. IX babda Peyğəmbərin (s) əxlaqı, sirəsi, adət-ənənəsi və s. mövzular şərh edilir. Bu babdakı hədislərin sayı 162-dir. X babda Peyğəmbərin (s) zarafatları və gülməsi haqqında 4 hədis vardır. XI babda Peyğəmbərin (s) fəzilətləri, xasiyyət və xarakteri haqqında 96 hədis vardır. XII babda Peyğəmbərin (s) digər peyğəmbərlər üzərindəki möcüzələrindən bəhs edən 2 hədis vardır.

Əsərin bu cildində XIII babda Peyəmbərə (s) tabe olmağın zərurəti, onu sevmək və ona ehtiramın vacibliyi mövzuları öz əksini tapmışdır. Burada 29 hədis vardır. XIV babda Peyğəmbərin (s) vəfatından sonrakı işlərə dair 16 hədis yer alır. XV babda Peyğəmbərin günahsızlığı (məsumluğu) haqqında 21 hədis, XVI babda Peyğəmbərin (s) səhvi və namazda yatması haqqında 17, XVII babda Peyğəmbərin (s) elmi haqqında 62, XVIII babda Peyğəmbərin (s) fəsahət və bəlağəti haqqında 2 hədis vardır.

Əsərin bu cildinin "Möcüzələr" fəslində I babda Quranın Peyğəmbərin (s) möcüzəsi olması haqqında 24, II babda Peyğəmbərin (s) bütün digər möcüzələri haqqında 18, III babda ayın parçalanması, günəşin geriyə qaytarılması, göydən süfrələrin enməsi və s. mövzular haqqında 19, IV babda cansız təbiət və bitkilər aləminin ona itaət etməsi möcüzələri haqqında 59 hədis vardır.

Bütövlükdə altıncı cilddə 896 hədis vardır.

VII cildi müəllif bütövlükdə "imamət"ə həsr etmişdir. O, burada imamətin zərurət və şəraiti, imamların doğulma halları, işlərində və elmlərində olan bəzi qəribəliklər, onların fəzilətləri, onları sevməyin səvabı, imamların övladlarının fəzilətləri haqqında olan xəbərləri qeyd etmişdir. Müəllif burada Şərif əl-Mürtəzanın, Şeyx Müfidin və Təbərisinin mövzu ilə əlaqəli əsərlərini bütövlükdə qeyd etmişdir.

Əsərin bu cildi yüz əlli fəsli əhatə edir və hicri 1294-cü ildə (miladi 1877-ci il) Təbrizdə çap edilmişdir.

VII cilddə VI babda 50, VII babda 31, VIII babda 30, IX babda 8, X babda 4, XI babda 41, XII babda 8 hədis vardır.

"Peyğəmbərin (s) Mədinəyə hicrətinədək fəsli"ndə I babda 89, II babda vəhyin keyfiyyəti haqqında 38, III babda meracın sübutu haqqında 122, IV babda Efiopiyaya (Həbəşistana ) hicrət haqqında isə 10 hədis vardır.

VII cildin V babında Ənsarın beyəti, Əbu Talib və Xədicənin (ə) vəfatları və s. haqqında 15, VI babda hicrət, həzrət Əlinin (ə) Peyğəmbərin (s) yerində yatması (“leylətül-məbit” hadisəsi) haqqında 51, VII babda müsəlmanların Peyğəmbər (s) başda olmaqla Mədinəyə çatmaları, orada məscid tikməsi və cihadın qanuniləşdirilməsi haqqında 9, VIII babda qəzvələr haqqında 45, IX babda qiblənin dəyişdirilməsi haqqında 6 və X babda böyük Bədr qəzvəsi haqqında 83 hədis vardır.

VII cilddə XI babda Bədr qəzvəsindən Ühüd qəzvəsinədək olan hadisələr haqqında 9, XII babda Ühüd və Həmrau-Əsəd qəzvəsində 53, XIII babda Rəci və Məunə qəzvəsində 3, XIV babda Bəni-Nəzir qəzvəsində 6, XV babda Zatür-Riqa və Əsfan qəzvəsində 6, XVI babda kiçik Bədr və Xəndək qəzvəsinədək olan hadisələr haqqında 2, XVII babda Əhzab və Bəni-Qüreyzə qəzvələri haqqında 29, XVIII babda Bəni-Müstəliq qəzvəsində 8, XIX babda İfk hadisəsinə aid 2, XX babda Hüdeybiyyə qəzvəsi və Rizvan beyəti haqqında 16, XXI babda qonşu dövlət başçılarına Peyğəmbərin (s) məktub göndərməsi haqqında 10 hədis vardır.

Beləliklə, VII cilddə ümumilikdə 784 hədis vardır.

Müəllif əsərinin səkkizinci cildini Peyğəmbərdən (s) sonra ortalığa çıxan fitnələrə, xəlifələrin vəziyyətlərinə və onların hakimiyyəti illərindəki vaqiələrinə, Cəməl, Siffin, Nəhrivan döyüşlərinə həsr etmişdir. Həmçinin burada müəllif Müaviyə bin Əbi Süfyanın İraq ətrafındakı qarət və qətliamına, İmam Əlinin (ə) bəzi tərəfdarlarının vəziyyətlərinə aid məsələlərə və o Həzrətin qəzavətləri və kitablarına aid rəvayətləri qeyd etmişdir. Əsərin bu cildi altmış iki fəsildən (bab) ibarətdir və hicri 1275-ci ildə (miladi 1858-59) Təbrizdə çap edilmiş və Aga Razi tərəfindən farscaya çevrilən bu cildin həmin dildə “Məcaril-ənhar” adlı farsça tərcümə variantı da vardır.

Əsərin VIII cildində XXII babda Xeybər və Fədək hadisəsi haqqında 35, XXIII babda Xeybərdən sonrakı hadisələr haqqında 3, XXIV babda Mütə qəzvəsi və sonrakı hadisələr haqqında 12, XXV babda Zatüs-səlasil qəzvəsi haqqında 9, XXVI babda Məkkənin fəthi haqqında 34, XXVII babda Məkkənin fəthindən sonrakı hadisələr haqqında 7, XXVIII babda Hüneyn, Taif və Ovtas qəzvələri haqqında 23, XXIX babda Təbuk qəzvəsi və Əqəbə hadisəsi haqqında 28, XXX babda Əbu Amir ər-Rahib, Məscidi-zirar və s. hadisələr haqqında 7, XXXI babda Bəraət surəsinin nazil olması, İmam Əlinin (ə) həmin surəni Məkkə müşriklərinə oxuması haqqında 10, XXXII babda Mübahilə hadisəsi haqqında 20, XXXIII babda Ömər bin Mədi qəzvəsi haqqında 2, XXXIV babda İmam Əlinin (ə) Yəmənə göndərilməsi haqqında 6, XXXV babda Vida həccinədək olan hadisələr haqqında 5, XXXVI babda Vida həcci və Mədinəyə qayıdış, Peyğəmbərin (s) həcc və ümrəsinin sayı və vəfatınadək olan hadisələr haqqında 41 hədis vardır.

VIII cilddə XXXVIII babda hicrətdən sonra əhli-kitabla Peyğəmbərin (s) arasında olan hadisələr və səhabələrin əhvalı haqqında 142 hədis vardır.

Bu cildin “Peyğəmbərin (s) övlad və zövcələrinin sayı” fəslində I babda övladlarının sayı haqqında 26, II babda zövcələrinin sayı haqqında 55, III babda Ümmü-Sələmənin həyatı haqqında 10, IV babda Aişə və Həfsənin həyatı haqqında 17, V babda Peyğəmbərin (s) əşirəti, qohum-əqrəbası və xidmətçiləri haqqında 65, VI babda Səqifə əhvalatı haqqında 5, VII babda Peyğəmbərin (s) sədəqələri və vəqfləri haqqında 6, VIII babda Mühacir, Ənsar, səhabə və tabeinlərin fəzilətləri və

əhvalatları haqqında 19, IX babda Qüreyş və digər qəbilələr haqqında 4, X babda Salman, Əbuzər, Miqdad və Əmmarın fəzilətləri haqqında 74, XI babda Salmanın müsəlman olması və əxlaqı haqqında 30, XII babda Əbuzər haqqında 51, XIII babda Miqdad və digərləri haqqında 9, XIV babda Peyğəmbərin (s) ümmətinin fəzilətləri haqqında 11 hədis vardır.

Bu cildin "Peyğəmbərin (s) vəfatı ərəfəsində Üsamə bin Zeydin ordusunu təchiz edib Bizansa tərəf göndərməsi" fəslində I babda vəfatı zamanı etdiyi vəsiyyət haqqında 48, II babda vəfatı, qüslü və cənazə namazı haqqında 70, III babda vəfatından sonra baş vermiş qəribə hadisələr haqqında isə 12 hədis vardır.

Əsərin VIII cildində I babda yer üzünün ilahi höccətsiz qalmaması haqqında 117, II babda həzrət Adəmdən (ə) bəri olan vəsilər haqqında 3, III babda imamətin nəsslə (Allahdan gələn hökmlə) olması haqqında 25, IV babda imamı tanımağın zərurəti haqqında 40, V babda imamın birinin inkar olunması hamısının inkar olunmasıdır haqqında 6, VI babda imamsız insanlar hidayət olmazlar haqqında 11, VII babda əhli-beytin fəzilətləri haqqında 118, VIII babda Qurandakı "Ali Yasin" sözündə məqsədin Məhəmməd peyğəmbərin (s) ailəsi olması haqqında 12, IX babda Quranın "Zikr əhli" sözündəki məqsədin əhli-beyt olması haqqında 64, X babda 55, XI babda 20, XII babda 51, XIII babda 32, XIV babda 12, XV babda 23, XVI babda 30, XVII babda imamlara tabe olmağın zərurəti haqqında 65, XVIII babda 42, XIX babda 19, XX babda 75, XXI babda 100, XXII babda 3 hədis vardır.

Beləliklə, VIII cilddə ümumilikdə 1818 hədis vardır.

Əsərin IX cildini müəllif İmam Əlinin (ə) əhvalına həsr etmişdir. O, burada İmamın (ə) doğumundan tutmuş vəfatınadək olan hadisələri izləmiş, onun atasının imanı və İslamdakı yeri haqqında məlumat vermiş və həmçinin onun yaxın tərəfdarlarının bəzilərinin həyatlarına da ötəri nəzər salmışdır. Bundan əlavə o, əsərin bu cildində İmam Əlinin (ə) soyundan gələn on iki imamın (ə) haqqında nəql olunmuş rəvayətlərə də yer vermişdir. Əsərin bu cildi yüz iyirmi səkkiz fəsildən (bab) ibarətdir.

IX cilddə 13-cü babda 25, 14-cü babda 56, 15-ci babda 8, 16-cı babda 17, 17-ci babda 4, 18-ci babda 4, 19-cu babda 53, 20-ci babda 32, 21-ci babda 9, 22-ci babda 4, 23-cü babda 11, 24-cü babda 6, 25-ci babda 3, 26-cı babda 7, 27-ci babda 21, 28-ci babda 6, 29-cu babda 10, 30-cu babda 1, 31-ci babda 12, 32-ci babda 21, 33-cü babda 11, 34-cü babda 13, 35-ci babda 36, 37-ci babda 24, 38-ci babda 14, 39-cu babda 14, 40-cı babda 13, 41-ci babda 26, 42-ci babda 6, 43-ci babda 13, 44-ci babda 45, 45-ci babda 9, 46-cı babda 8, 47-cı babda 6, 48-ci babda 22, 49-cu babda 37, 50-ci babda 6, 51-ci babda 4, 52-ci babda 12, 53-ci babda 20, 54-cü babda 55, 55-ci babda 9, 56-cı babda 13, 57-ci babda 17, 58-ci babda 132 hədis vardır.

"İmamətin əlamətləri" fəslində I babda 3, II babda 8, III babda 18, IV babda 38, V babda 4, VI babda 24, VII babda 25, VIII babda 9, IX babda 25, X babda 25, XI babda 3, XII babda 23, XIII babda 44 hədis vardır.

Əsərin "İmamların elmləri" fəslində I babda 150, II babda 47, III babda 36, IV babda 6, V babda 14, VI babda 22, VII babda 40, VIII babda 16, IX babda 43, X babda 6, XI babda 5, XII babda 63, XIII babda 27, XIV babda 7, XV babda 13, XVI babda 48, XVII babda 5 hədis vardır. "İmamların digər fəzilətləri və mənqəbələri"

fəslində I babda 11, II babda 8, III babda 2, IV babda 1, V babda 54, VI babda 88, VII babda 16, VIII babda 64, IX babda 26 hədis vardır.

Əsərin IX cildində bütövlükdə 2169 hədis vardır.

Təbrizdə və daha başqa yerlərdə çap olunan əsər, Mir Məhəmməd Abbas və Mirzə Məhəmməd Əli əl-Mazandarani tərəfindən farscaya çevrilmişdir. Əsərin bu cildi hicri 1297-ci (miladi 1880) ildə çapdan çıxmışdır. Məhəmməd Həsən bin Abdulla əl-Həştərudinin "Mihənül-əbrar" adlı farsca tərcüməsi isə hicri 1295-ci ildə (miladi 1878-ci il) Tehranda nəşr edilmişdir.[133]

Əsərin X cildini müəllif bütövlükdə Peyğəmbərin (s) qızı Fatimə əz-Zəhraya (ə) və onun iki oğlu-Həsən (ə) və Hüseynə (ə) həsr etmiş, onlar haqqında varid olmuş hədisləri burada vermişdir. O, bu cilddə tarixi hadisələri işıqlandırmağa çalışmışdır. Müəllifin burada daha çox diqqət yetirdiyi məqam Kərbəla hadisəsidir.

Həmçinin müəllif burada Muxtar əs-Səqəfinin və onun qiyamı haqqında olan tarixi hadisəyə də münasibət bildirmişdir. Əsərin bu cildi əlli fəsildən (bab) ibarətdir və ürdu dilinə tərcümə olunub çap edilmişdir. Bu cild təkrar olaraq Mirməhəmməd Abbas tərəfindən tərcümə olunaraq Təbrizdə də nəşr edilmişdir.

Əsərin X cildinin X babında "İmamların (ə) adlarının ərş və kürsü üzərində yazılması" haqqında 28 hədis rəvayət etmişdir. Sonra XI babda "Cinlərin onların xidmətçiləri olması, öz dini işlərinin gəlib onlardan soruşmaları və onların gözlərinə görünmələri" haqqında 17 hədis, XII babda 10, XIII babda 4, XIV babda 5, XV babda 10, XVI babda 1, XVII babda 1, XVIII babda 1 hədis nəql etmişdir.

Müəllif "İmamların dostlarını sevmək və düşmənləri ilə düşmən olmaq" fəslində I babda 22, II babda 6, III babda 9, IV babda 155, V babda 31, VI babda 22, VII babda 71, VIII babda 16, IX babda 19, X babda 62, XI babda 8, XII babda 1, XIII babda 15, XIV babda 15, XVI babda 26, XVII babda 8 hədis rəvayət etmişdir.

Müəllif "İmamlar nə vaxt öləcəklər" fəslində I babda 6, II babda 7, III babda 6, IV babda 3, V babda 10, VI babda 5, VII babda 13, VIII babda 6, IX babda 15 hədis rəvayət etmişdir. Sonra "İmamətin dəlilləri" fəslində I babda 5, II babda 1, III babda 1, IV babda 1 hədis rəvayət etmişdir.

X cildin ikinci hissəsində I babda 37, II badba 43, III babda 23, IV babda 61 hədis vardır.

Əsərin X cildində I babda "Həzrət Əliyə (ə) beyət" fəslində 123, II babda 2, III babda 40, IV babda 27, V babda 22, VI babda 15, VII babda 47, VIII babda 15, IX babda 6, X babda 6, XI babda 17 hədis vardır. Müəllif XII babı Cəməl və Siffin müharibələrinə həsr etmiş və burada İmam Əli (ə) ilə ümmulmöminin Aişənin və Müaviyənin müharibələrindən bəhs etmişdir. Hadisəni bütün təfərrüatı ilə izah edən müəllif bu babda 83 hədis rəvayət etmişdir.

Əsərin XI cildi İmam Hüseyndən (ə) sonra müsəlmanların imamı olmuş Əli bin Hüseyn (ə), Məhəmməd Baqir bin Əli bin Hüseyn (ə), Cəfər Sadiq bin Məhəmməd Baqir (ə) və Musa Kazım bin Cəfər Sadiq (ə) haqqında xəbərləri ehtiva edir. Müəllif burada hər bir imam haqqında mükəmməl məlumatları qeyd etmişdir.

XI cilddə fitnəkar və azğınların Əmmar bin Yasiri öldürələcəyinin Peyğəmbər (s) tərəfindən xəbər verilməsi, Siffin döyüşündə İmam Əlinin (ə) möcüzələr

---

[133] Əllamə əl-Məclisi. Biharül-ənvar. XX c. s. 16.

göstərməsi, Müaviyə bin Əbi Süfyanla vəziri Əmr bin As arsaında olan söhbətlər, İmam Əlinin (ə) Müaviyəyə məktublar yazması, xaricilər (xəvaric) firqəsinin meydana çıxması haqqında Peyğəmbərin (s) qabaqcadan xəbər verməsi, xaricilərlə İmam Əli (ə) arasında ortaya çıxan problemlər, xaricilərin batil əqidəli olmaları haqqında Peyğəmbər (s) və İmamlardan (ə) nəql olunmuş hədislər, İmam Əlinin (ə) hərbi səfərləri, İmam Əlinin (ə) zəkat yığanlara və valilərə məktubları və s. hadisələr yer almışdır. Müəllif sonra "İmam Əlinin (ə) haqqında nazil olmuş Quran ayələri" fəsli açmış və burada yüzdən artıq ayənin İmamın (ə) haqqında nazil olunduğunu sübut etməyə çalışmışdır. Bu fəsli daha da geniş şəkildə tədqiq edən müəllif ən mötəbər qaynaqlar əsasında fikirlərini əsaslandırmağa çalışmışdır. O, bu haqda yazır: "İmam Əlinin (ə) kimliyini, İslamdakı yerini və bir sözlə, fəzilətlərini öyrənmək üçün ən döğru qaynaq Quran və hədislərdir. Çünki bu iki qaynaq İslamın əsas qaynaqlarıdır və heç bir müsəlman firqəsi bu barədə fikir ayrılığına düçar olmayıbdır. İmam Əlinin (ə) fəzilətləri haqqında hər iki qaynaqda kifayət qədər məlumat vardır. Hətta bəzi müsəlman müəllifləri bu haqqda müstəqil əsərlər də yazmışlar. Biz də bu və ya digər əsərlərdən istifadə edərək İmam Əlinin (ə) haqqında nazil olmuş ayələrin və Peyğəmbərin (ə) onun haqqında söylədiyi hədislərin bir hissəsini burada qeyd edəcəyik. Onu da xatırladaq ki, İslamda heç bir kəsin haqqında bu qədər ayə və hədis deyilməmişdir.[134]

Əsərin XII cildi yerdə qalan digər imamlara – İmam Rza (ə), İmam Cavad (ə), İmam Həsən Əskəriyə (ə) həsr olunmuşdur. Müəllif adı çəkilən İmamlar (ə) haqqında müfəssəl məlumat vermiş, onların həyat yollarını geniş şəkildə izləmiş İmamların (ə) bir çox səhabələri və onlardan rəvayət edənlər haqqında bəhs etmişdir. O, İmam Rzanın (ə) həyatına aid hədisləri daha geniş və təfərrüatlı şəkildə izah etməyə çalışmış və İmamın (ə) siyasi fəaliyyətinə aid olan məqamlara da aydınlıq gətirmişdir. Əllamə Məclisi İmamın (ə) əsil adının Əli olmasına baxmayaraq, daha çox Rza ləqəbi ilə tanındığını yazır. Onun Rza adlanması haqqında belə nəql edir: "Bir nəfər İmam Məhəmməd Cavaddan (ə) soruşur: nəyə görə sənin atan Rza addlandırılıb? Məgər sənin keçmiş babalarından Allah razı deyilmi? İmam (ə) buyurdu: Çünki onun düşmənlərindən olan müxaliflər də, dostlarından olan münafiqlər də ondan razı idilər. Amma onun ata-babalarından heç kəs belə deyildi".[135] Lakin Əllamə Məclisi bəzi rəvayətlərdə İmamın (ə) Rza adlanmasının səbəbinin münafiqlərin bəzisinin onun dostlarına çevrilməsi olduğunu da qeyd etmişdir.[136]

Əllamə Məclisi daha sonra İmam Rzanın (ə) fəzilətləri haqqında məlumatlar vermişdir. O, bu haqda yazır: "İmam Rzanın (ə) fəzilət və üstünlüklərinə aid hədis, tarix, təfsir və digər kitablarda çoxlu sayda rəvayətlər vardır. Onun müasirlərindən olan İbn Abbas əs-Suli deyir: "Mən heç vaxt görmədim ki, İmam Rzadan (ə) hər hansı bir məsələ soruşula, lakin o, bunun qarşısında aciz qala. Onun zamanında ondan üstün və elmli bir şəxsin olduğunu görmədim. Xəlifə Məmun ondan hər bir şey barəsində soruşub onu imtahan etdi. Lakin İmam (ə) onun bütün suallarına cavab verdi. Onun cavablarının hamısı Qurandan idi. O, Quranı üç gün içərisində xətm edər

[134] Əllamə əl-Məclisi. Biharül-ənvar. XL c. s. 67.
[135] Həmin mənbə. XII c. s. 10.
[136] Həmin mənbə. XLIX c. s. 2.

və «bunu daha da az müddətə xətm etmək istəyirəm, amma elə bir ayə yoxdur ki, mən onun haqqında düşünmədən onu ötüb keçim», deyərdi. Mən heç vaxt görmədim, nə də heç kimsədən eşitmədim ki, Əbülhəsən Rzadan (ə) üstün olsun. Mən heç vaxt onda müşahidə etdiklərimi bir kimsədə müşahidə etmədim”.[137]

Əsərin bu cildi otuz doqquz fəsildən ibarətdir.

Əsərin XIII cildi İmam Mehdinin (ə) şəxsiyyətinə həsr olunmuşdur. Burada müəllif imamın doğumundan tutmuş qeyb olmasınadək, qeyb olmasının səbəbləri, onun zühur etməsinin nişanələri və “Rəcət”in isbatına aid xəbərləri qeyd etmişdir. Müəllif burada Peyğəmbərin (s) belə buyurduğunu deyir: “Mən sizin aranızda iki ağır əmanət (səqəleyn) qoyub gedirəm. Onlara arxalanıb diqqət mərkəzində saxlasanız, heç vaxt yolunuzu azmayıb zəlalətə düşməyəcəksiniz. Bu iki şey Kövsər hovuzunun kənarında mənə qovuşana qədər heç vaxt bir-birindən ayrılmayacaqdır. Bu iki şey Allahın kitabı və mənim Əhli-beytim, itrətimdir”.

Mənim canişinim və vəsilərim - məndən sonra Allahın insanlara olan höccəti – on iki nəfərdən ibarətdir ki, birincisi qardaşım, axırıncısı isə oğlumdur”.

Sual olundu: Ya Rəsuləllah, qardaşın kimdir?

Buyurdu: Əli bin Əbu Talib.

Soruşdular: Oğlun kimdir?

Buyurdu: Mehdi. O, yer üzünü haqq-ədalətlə dolduracaqdır. Məni haqq olaraq peyğəmbərliyə seçən şəxsə and olsun, əgər dünyanın ömründən hətta bir gün də qalmış olsa belə, Allah o günü o qədər uzun edəcəkdir ki, oğlum Mehdi qiyam etsin. (O zühur etdikdən sonra) İsa bin Məryəm Ruhulullah onun arxasında namaz qılacaq, yer üzü Allahın nuru ilə işıqlanacaq. İmam Mehdinin (ə) rəhbərlik və səltənətinin həddi-hüdudu məşriqlə məğribin arasını dolduracaqdır”.[138]

Əsərin bu cildi otuz dörd fəsli əhatə edir. Bu cild üç dəfə fars dilinə müstəqil halda tərcümə edilib çap olunmuşdur. Birinci tərcümə adı məlum olmayan hindistanlı bir alimə, ikinci tərcümə Mirzə Əli Əkbər əl-Urməvi, üçüncü tərcümə isə Həsən bin Məhəmməd Vəli əl-Urməviyə məxsusdur. Son tərcümə hicri 1329-cu ildə (miladi 1911-ci ildə) Tehranda nəşr olunmuşdur.

Əsərin on dördüncü cildini müəllif təbiətşünaslığa həsr etmişdir. Burada o, yer və göy, onların yaranması və təbəqələri, fələklər aləmi, mələklər və cinlər, insanlar və heyvanlar, həmçinin ünsürlər haqqında məlumat vermişdir. Əllamə Məclisi əsərdə yerin və göyün yaradılması haqqında böyük fəsillər açaraq təbiətşünaslıq problemlərini geniş izah etmişdir. O, yerin və göyün yaradılmasını mütləq İlahi qüdrətə bağlayaraq, Onun izni olmadan heç bir varlığın yarana bilməyəcəyini qeyd etmişdir. Həmçinin o, elmin insanlara Allah tərəfindən verildiyini və onun İlahi xarakterə malik olduğunu bildirmişdir. O, hər bir səmavi dinin elm üzərində qurulduğunu, elmsiz heç bir ibadətin fayda verməyəcəyini qeyd etmişdir. Müəllif elmin təbiət və cəmiyyətin inkişaf qanunlarını üzə çıxardığını, insanı maarifləndirdiyini və onun mənəvi görüş dairəsini genişlətdiyini yazır. Elmlə yanaşı, dinin də insanlara müsbət biliklər verdiyini, din vasitəsilə cəhalət və nadanlığın aradan götürüləcəyini və nəhayət, elmsiz insanın əşyadan da dəyərsiz bir varlıq olduğunu vurğulayan müəllif insanlara elm öyrənməyin zərurətini anlatmışdır.

---

137 Həmin mənbə. XLIX c. s. 67.

138 Həmin mənbə. LIII c.

Müəllif bundan başqa, ov etməyin hökmləri, heyvan kəsmək, yemək-içmək, "Tibbün-Nəbi" və "Tibbür-Rza" əsərləri kimi təbabətə aid əsərlərin kamil formasını vermişdir. Əsərin bu cildi iki yüz fəsildən ibarətdir və Ağa Nəcəfi İsfahani onu fars dilinə tərcümə etmişdir.

Müəllif on beşinci cildi "İman" və "Küfr" mövzusuna həsr etmişdir. Bu mövzu əsərdə üç hissədə işıqlandırılır: a) İman və onun şərtləri, möminlərin sifətləri və fəzilətləri, şiələrin fəzilət və əlamətləri, b) Gözəl və ali-əxlaqi keyfiyyətlər, c) Küfr və onun şöbələri, mənfi əxlaqi keyfiyyətlər.

Əsərin bu cildi yüz səksən fəsildən ibarətdir.

XVI cild "Adab vəs-sünən vən-nəvahi, vəl-kəbair vəl-üsyan" başlıqlarını ehtiva edir ki, burada müəllif ardıcıllıqla müxtəlif fəsillər açaraq təmizlik, gözə sürmə çəkmək (iktihal), yağlanmaq (təbəhhün), oyaq qalmaq, yuxu, səfər etmək, böyük günahlar, şəri cəzalar (hüdud) və s. haqqında məlumat vermiş, mövzu ilə əlaqəli hədisləri qeyd etmişdir.

Əsərin bu cildi yüz otuz bir fəsildən ibarətdir.

Müəllif XVII cildi "əl-Məvaiz vəl-hikəm" mövzusuna həsr etmişdir. Burada o, moizə etmək, nəsihət vermək və bu kimi işlər haqqında xəbərləri toplamışdır. XVII cild altmış dörd fəsildən ibarətdir və Əllamə Nurinin "Mustədrək" adlı əsəri ilə birlikdə hicri 1297-ci ildə (miladi 1880-cı il) Təbrizdə nəşr olunmuşdur.

XVIII cild iki hissədən ibarətdir. Birinci hissədə "Təharət" mövzusu yer almaqdadır ki, burada altmış fəsil vardır. İkinci hissədə isə "Salat" mövzusu yer almış və yüz altmış bir fəsili əhatə etmişdir. Həmçinin müəllif burada məşhur alim Şazan bin Cəbrayılın "İzahətül-illə" əsərini tam olaraq vermişdir.

XIX cild də iki hissədən ibarətdir. Müəllif birinci hissədə Qurani-Kərimin fəzilətləri, onun adabı, Quran oxumağın savabı və onun ecazkarlığı haqqında məlumat vermişdir. Bundan sonra o, təfsirçi Nömanın "Təfsirün-Numan" əsərinin hamısını qeyd etmişdir. Cildin bu hissəsi yüz otuz fəsildən ibarətdir. Əsərin ikinci hissəsində isə müəllif zikr və onun növləri, dua etməyin adabı və onun şərtləri haqqında xəbərləri qeyd etmişdir. Bu cild yüz otuz bir fəsildən ibarətdir.

Əsərin XX cildi zəkat, xums, sədəqə, bundan sonra orucluq, etikaf və sünnəti əməllər haqqında hədisləri əhatə edir. Müəllif bu cilddə İslam iqtisadiyyatının əsaslarını gözəl şəkildə izah etmiş və mövzu ilə əlaqəli hədisləri rəvayət etmişdir.

Burada yüz iyirmi iki fəsil vardır.

XXI cilddə həcc, ümrə, Mədinənin əhvalı, cihad, yaxşılığa dəvət, pisliklərdən çəkindirmə kimi mövzular yer almışdır.

Əsərin bu cildi səksən dörd fəsildən ibarətdir.

Əsərin XXII cildi bütövlükdə "əl-Məzar" fəslini əhatə edir. Burada müəllif Peyğəmbər (s) və onun əhli beytinin (ə) qəbirlərini ziyarət etməyin savabı, ziyarətin qaydaları, ziyarət duaları və s. mövzulara aid hədisləri vermişdir.

Altmış dörd fəsildən ibarət olan bu cild hicri 1301-ci ildə (miladi 1884-cü il) Təbrizdə nəşr olunmuşdur.

XXIII cilddə yer alan mövzular "əl-Üqud vəl-iqaat" adı altında incələnir. Bu cilddə yüz otuz fəsil vardır.

Əsərin XXIV cildi şəri hökmləri əhatə etməkdədir. Burada qırx səkkiz fəsil vardır.

XXVcild bütövlükdə “İcazələr”i ehtiva edir.

Əllamə Məclisi əsərin sonuncu cildində “İcazələr” bölümündə hansı hədis alimlərindən rəvayət etmək üçün icazə aldığını və özünün icazə verdiyi alimlərin adlarını qeyd etmişdir.

Əllamə Məclisindən icazə təsdiqnaməsini alanlardan aşağıdakıları qeyd etmək olar:

1) Mövlana Əli Əkbər. O, Əllamə Məclisiyə Küleyninin “əl-Üsul minəl-kafi” əsərini oxumuş və ondan həmin hədis əsərini rəvayət etməsi üçün hicri 1080-cı ildə icazə almışdır.[139] Bu haqda Əllamə Məclisi yazır: “Mövlana Əli Əkbər hicri 1080-cı ilin rəbiül-əvvəl ayında hədisləri mənə oxudu. Mən ona ondan eşitdiyim hədisləri rəvayət etməsi haqqında icazə verdim”.[140]

2) Seyid Hüseyni əl-Qummi. Onun haqqında yazır: “O, hicri 1091-ci ilin rəbiüs-sani ayında mənə Şeyx Tusinin “Təhzibül-əhkam” əsərini oxudu. Mən ona hədis rəvayət etməsi haqqında icazə verdim”.[141]

“Biharül-ənvar” əsərinin cildlərinin miladi XIX (hicri XIII) əsrin əvvəllərindən etibarən edilən tək-tək nəşrlərindən sonra bütün cildləri ehtiva edən ilk daş nəşri Tehran və Təbrizdə hicri 1303-1315 (miladi 1885-1897) illər arasında reallaşdırılmışdır. Mirzə Məhəmməd Xəlil tərəfindən hazırlanan bu nəşrin bütün xərcləri o dövrün iki zəngin taciri tərəfindən ödənmiş və əsərin nüsxələri alimlərə ödənişsiz olaraq paylanmışdır. “Biharül-ənvar” üzərində aparılan əhəmiyyətli işlərdən biri Abbas bin Məhəmməd Rza əl-Qumminin təşkil etdiyi “Biharül-ənvar”da olmayan rəvayətləri də ehtiva edən “Səfinətül-Bihar” adlı indeksidir. Əli bin İsmayıl əş-Şahrudi isə bu indeks üzərinə yazdığı bir “müstədrək”lə onun naqis tərəflərini tamamlamağa çalışmışdır. “Biharül-ənvar”ın ikinci nəşri 110 cild olaraq hicri 1376-1394 (miladi 1956-1974) illər arasında Tehranda edilmiş, bu nəşr bəzi tərtib dəyişiklikləriylə Beyrutda (1403/1983-cü ildə) təkrarlanmışdır.

“Biharül-ənvar”ın nəşrindən sonra bir çox alimlər onu bir mənbə olaraq əsas götürüb onun tərtibatı əsasında nəzirələr də yazmışlar. Yazılmış bu əsərlərdən “Camiül-ənvar”, “Camiül-məarif”, “Camiül-hüquq”, “Cənnətül-məva”, “Həqaiqül-əsrar”, “Dürərül-bihar”, “Səfinətül-bihar” “əş-Şifa fi əxbari Ali-Mustafa (ə) minəl-Bihar” (buna “əş-Şafi fil-cəmi beynəl-bihar vəl-vafi” də deyilir), “əl-Əvalim”i qeyd etmək olar.

Əllamə Məclisinin “Biharül-ənvar” əsərində özündən əvvəl yaşamış alimlərin və həmçinin bəzi İmamların (ə) əsərləri və traktatları vardır. Müəllif bu traktatları bəzən bütöv şəkildə əsərində yerləşdirmişdir. Həmin traktatlardan aşağıdakıları qeyd etmək olar:

“Risalə Əbilhəsən əs-Salis (ə)”. Bu əsər İmam Rzaya (ə) məxsus olub cəbr və təfviz (fatalizm və özbaşınalıq) haqqındadır. Bu əsərdə insanların tam olaraq özbaşına olmamaları, hər şeyin qabaqcadan yazılı olduğu və heç bir şeyin insan iradəsindən asılı olmaması problemi çözülmüşdür. Həmçinin burada Allahın ədalət sifətinə aid fəlsəfi problemlər də öz əksini tapmışdır.[142] “Risalə Əli bin Cəfər (ə)”[143] “Risalə

---

[139] Əllamə əl-Məclisi. İcazətül-hədis. s. 82.
[140] Həmin mənbə. s. 82.
[141] Həmin mənbə. s. 82.
[142] Əllamə əl-Məclisi. Biharül-ənvar. XXXIII c. s. 228.

şərhis-sar”,[144] “Qıissətu cəzirətil-Xəzra”,[145] “Risalə babil-məftuh ila ma qilə fin-nəfsi vər-ruh”, [146] “Kitabu tibbir-Rza (ə)”, [147] “Risalə İmamis-Sadiq (ə)”, [148] “Risalətül-hüquq (İmam Zeynülabidinin (ə) əsəri)”, [149] “Risalə izahətil-illə fi mərifətil-qiblə. (Əbülfəz Əli bin Şazan əl-Qumminin traktatı)”, [150] “Kitabu tibbin-Nəbi” (Şeyx Əbülabbas əl-Müstəğfəri)” [151] “Təfsirun-Nömani” (Seyid Mürtəza Ələmülhüdanın traktatı). Müəllif bu əsəri bütöv şəkildə öz əsərində yerləşdirmiş və əsər “Risalə mühkəm vəl-mütəşabih” adı ilə çap edilmişdir). “Risalə İdris ən-Nəbi”. (Müəllif yazır ki, bu əsər Allahın İdris peyğəmbərə (ə) vəhy etdiyi xəbərlərdəndir. Mən bu əsəri süryani dilindən ərəb dilinə çevirən İbn Mətviyyənin nəqlindən tapdım və burada yerləşdirdim.[152] “əl-Ədədül-qəviyyə”,[153] “Fihris”. (Bu əsər Şeyx Müntəcəb əd-Dinin əsəridir).[154] “Risalətül-Xuliyyə”. (Bu əsər görkəmli filosof Mirdamadın əsəridir).[155] “Kitabu tovhidil-Müfəzzəl”,[156] “ər-Risalətuü-İhliciyyə”.[157]

Müəllif əsər boyu yeri gəldikcə bir sıra mövzulara konkret və ya geniş şəkildə diqqət yetirmişdir. Əgər onların hamısını sayası olsaq, böyük bir siyahı alınar. Həmin mövzulardan aşağıdakıları göstərmək olar:

1) Əqlin mahiyyəti və onun haqqında olan müxtəlif fəlsəfi görüşlər.[158]
2) Dualist (sənəviyyə) məzhəbinin əsl təhqiqəti haqqında.[159]
3) Tövhidin mahiyyəti və dəlilləri haqqında.[160]
4) Bəda haqqındakı şəkk və şübhənin aradan qaldırılması.[161]
5) Cəbr və təfvizin (fatalizm və özbaşınalığın) inkar edilməsi haqqında.[162]
6) Qəza və qədər haqqında.[163]
7) Bərzəx, qəbir, qəbir əzabı və sualı haqqında.[164]
8) Dünyanın sonu və məxluqatın məhv olması haqqında.[165]
9) Kafirlərin Cəhənnəmdə əbədi qalması haqqında.[166]
10) Peyğəmbərin (s) isməti haqqında.[167]
11) Sehr haqqında.[168]

---

[143] Həmin mənbə. X c. s. 149, 291.
[144] Həmin mənbə. XVII c. s. 222.
[145] Həmin mənbə. XLV c. s. 246.
[146] Həmin mənbə. LXI c. s. 91.
[147] Həmin mənbə. LXII c. s. 306.
[148] Həmin mənbə. LXXVIII c. s. 210.
[149] Həmin mənbə. LXXIV c. s. 10, 24.
[150] Həmin mənbə. LXXXIV c. s. 74.
[151] Həmin mənbə. LXII c. s. 290.
[152] Həmin mənbə. XCV c. s. 453.
[153] Həmin mənbə. XCVII c. s. 324, 334.
[154] Həmin mənbə. CV c. s. 200, 297.
[155] Həmin mənbə. CIX c. s. 125.
[156] Həmin mənbə. II c. s. 57, 151.
[157] Həmin mənbə. II c. s. 198.
[158] Həmin mənbə. I c. s. 99.
[159] Həmin mənbə. I c. s. 211.
[160] Həmin mənbə. II c. s. 230.
[161] Həmin mənbə. V c. s. 122.
[162] Həmin mənbə. V c. s. 82.
[163] Həmin mənbə. V c. s. 127.
[164] Həmin mənbə. VI c. s. 270.
[165] Həmin mənbə. VI c. s. 331.
[166] Həmin mənbə. VIII c. s. 363.
[167] Həmin mənbə. XI c. s. 89.

12) İblisin həqiqəti haqqında.[169]
13) İslam və iman azadlığı haqqında.[170]
14) İmanın artıb çoxalmağa qabil olması[171] və sair mövzular haqqında.
15) Ədəbiyyat və dilçiliyə aid problemlər.[172]
16) Riyaziyyat və astronomiya aid bəhslər.[173]

"Biharül-ənvar"ın mövzuları baxımından tədqiqi onu göstərir ki, əsərin ilkin cildləri daha çox üsuluddinə, sonrakı cildlər füruüddinə və elmi-fəlsəfi mövzulara həsr edilmişdir. Bundan əlavə, əsərin tədqiqi onu göstərir ki, müəllif özündən əvvəlki alimlərin heç birinin toxunmadığı mövzuya - peyğəmbərimizin (s) ictihadı məsələsinə toxunmuşdur. İslamda məzhəblər arası ixtilaflardan biri olan Peyğəmbərin (s) ictihadı məsələsində müəllif otuzdan artıq dəlil irəli sürərək, Peyğəmbərin (s) ictihadının olmamasını isbat etməyə çalışmışdır.[174]

"Biharül-ənvar" əsəri müxtəlif yönümlü və ensiklopedik bir əsər olmasına baxmayaraq, yenə də bir hədis əsəridir. Şübhəsiz ki, o bir hədis əsəri olduğundan müəllifin burada hədis elmlərinin prinsiplərinə uyğun bir metodu olmalıdır. Əllamə Məclisi əsəri yazarkən hədis üsulu və rical məsələlərinə böyük önəm vermiş və yeri gəldikcə üsul və rical problemlərinə aid nöqtələrə aydınlıq gətirmişdir. Bu problemlərə alimin münasibətini aşağıdakı kimi tədqiq edə bilərik:

Hədis elmləri ilə məşğul olan və bu sahədə araşdırma aparan hər bir şəxsi belə bir sual maraqlandıra bilər ki, görəsən Əllamə Məclisi Məsumlardan (ə) gələn bütün hədisləri bu əsərdə toplayıbmı?

Bu sualın cavabını öyrənmək üçün müxtəlif mənbələrə müraciət etmək və alimlərin bu suallara necə cavab verdiyini bilmək lazımdır. "Biharül-ənvar" əsərinin ən güclü tədqiqatçılarından olmuş Hüseyn Dərgahi yazır: "Həqiqətən "Biharül-ənvar" bütün xəbərləri ehtiva etmir. Bunun bariz dəlilini onun üzərinə yazılmış müstədrəklərdən görmək olar".[175]

Əllamə Nuri də "Biharül-ənvar"da bütün hədislərin olmadığı və heç müəllifin də qarşısına belə bir məqsəd qoymadığı qənaətindədir. Bu haqda o, yazır: "Əllamə Məclisi istifadə etdiyi mənbələrin ehtiva etdiyi bütün hədislərini toplamamışdı. Əgər bunları bilmək istəyirsənsə, onda Kəfəminin "əl-Bələdül-əmin" və "Biharül-ənvarın" "Məzar" fəslinə bax. Burada ziyarət haqqında bəzi hədisləri Əllamə Məclisi kitabına salmamışdır".

Əlbəttə ki, müəllifin belə bir məqsədinin olmamasının aşağıdakı səbəbləri ola bilər:

1. Uzunçuluqdan çəkinmək;
2. Tənqidçilərin və tənə vuranların tənəsindən ehtiyat etmək;
3. Vaxtın çoxunu yalnız bu işə sərf etməmək;
4. Digər işlərlə də məşğul olması;

---

[168] Həmin mənbə. LXIII c. s. 28.
[169] Həmin mənbə. LXIII c. s. 139.
[170] Həmin mənbə. LXIX c. s. 126.
[171] Həmin mənbə. LXIX c. s. 201.
[172] Həmin mənbə. LXX c. s. 242; 14 c. s. 95.
[173] Həmin mənbə. LXXIV c. s. 76.
[174] Həmin mənbə. VIII c. s. 686.
[175] Hüseyn Dərgahi. Mənahilül-əbrar. I c. s. 25.

5. Bəzi rəvayətlərin sənədinin olmaması və digər səbəblər.

Məlum olduğu kimi, Qurani-Kərim istisna tutularsa, yerdə qalan və insan əli ilə ərsəyə gətirilən hər bir əsərdə kifayət qədər nöqsanlar vardır. Buna görə də "Biharül-ənvar" kimi irihəcmli bir əsərdə heç bir zəif hədisin olmadığını iddia etmək ən azı obyektivlikdən uzaqlaşmaq olardı. Deməli, bu əsər diqqətlə tədqiq edilərsə, orada səhih hədislərlə yanaşı, digər qrupdan və hətta uydurma hədislərin də olması şübhəsizdir. Bu haqqda Hüseyn Dərgahi yazır: "Heç kəsə gizli deyildir ki, "Biharül-ənvar" səhih, zəif və digər qrupdan olan hədisləri ehtiva etmişdir".[176]

Burada qısaca olaraq İslam alimlərinin və tədqiqatçılarının əsər barəsində dedikləri tənqidi fikirləri qeyd edək. Belə ki, Əllamə Seyid Möhsün əl-Əmin yazırdı: "Heç kəsə gizli deyildir ki, onun əsərləri düzəliş və tərtibə ehtiyaclıdır. Əllamə Məclisinin izahları tələskənlik üzündəndir. Buna görə də onun faydası az, şübhələri isə çoxdur".[177]

Lakin oradakı hədislərin hamısının zəif olduğunu söyləmək və ya "Biharül-ənvar" əsərinə etibar göstərməmək, bizcə, elmi baxımdan doğru deyildir. Fikrimizcə, oradakı hədislərin əksəriyyətinin səhih olması və onların səhhəti haqqında şübhəyə düşmək yersizdir. Çünki:

1. Əllamə Məclisinin elmi şəxsiyyəti və hədisləri dərindən bilməsi onun zəif xəbərlərdən qaçmasına bir dəlildir;

2. Əllamə Məclisi özündən əvvəl yaşamış böyük alimlərin əsərlərindən istifadə etmiş və nəticədə onların buraxdığı səhvləri təkrarlamamışdır;

3. Böyük İslam alimlərinin əsərə yüksək qiymət verməsi onun səhihliyini möhkəmlədir;

4. "Biharül-ənvar"ın qaynaqları səhih kitablar hesab olunur.

Bu və ya digər dəlillər bir araya toplanarsa, həqiqətən belə bir nəticəyə gəlmək olar ki, "Biharül-ənvar" əsəri İslam alimlərinin nəzərində mötəbər, hədislərinin bir çoxu isə etimadlıdır. Onun əsərində olan əksər hədislərin səhih olmasını isbat edən dəlillərdən biri də müəllifin bütün hədisləri deyil, yalnız özünə görə mötəbər bildiyi hədisləri toplamasıdır. Bundan əlavə, "Biharül-ənvar"dakı əksər hədislərin mötəbərliyini qeyd edən İslam alimlərinin fikirləri də vardır. Bu fikirlər bizim əsərə olan etibarımızı bir az da artırmaqdadır. Onun tələbələrindən biri əsər haqqında demişdir: "Biharül-ənvar"ın xüsusiyyətlərindən biri budur ki, onun şöhrəti getdikcə artır, etibarı möhkəmlənir, qüdrət və əzəməti isə göz önündə canlanmaqdadır. Əgər Ali-Məhəmməddən (s) bir nəfər qalxıb ona baxsa, onun əvvəldən axıradək hədislərinin səhih olması barədə hökm verəcəkdir".[178] Amma fikrimizcə, bu qənaət ifrat görüşün nəticəsidir. Çünki əvvəldə də qeyd edildiyi kimi, "Biharül-ənvar" əsərində səhhəti zəif olan hədislərin olması şübhəsizdir.

Böyük və irihəcmli əsərlərə şərh yazmağın tarixi çox qədimdir. Belə ki, həmişə böyük İslam alimləri İslam mədəniyyətinin incilərindən olan bəzi əsərlərə böyük maraq göstərmiş və onları şərh etməyə çalışmışlar. Sözsüz ki, "Biharül-ənvar" kimi digər əsərlər içərisində funksional yeri olan bir əsərin alimlərin nəzərindən qaçması mümkünsüzdür. Bəlkə də bu səbəbdəndir ki, məşhur alimlər "Biharül-ənvar" ilə

---

[176] Həmin mənbə. I c. s. 128.
[177] Əyanüş-şiə. IX c. s. 183.
[178] Hüseyn Dərgahi. Mənahilül-əbrar. I c. s. 30

dərindən maraqlanmış, bütovlükdə olmasa da, orada olan bəzi mövzuları, yaxud da onun hansısa bir cildini müstəqil şəkildə şərh etmişlər.

Əlbəttə ki, "Biharül-ənvar"ın müəllifi, yeri gəldikcə, əsərdə yer alan və çətin başa düşülən problemlərin izahına qısa şəkildə toxunmuşdur. Lakin buna baxmayaraq, alimlər əsərin şərh və təshih edilməsinə böyük önəm vermişlər. Əsərə yazılmış şərhlər içərisində Cənubi Azərbaycan alimi Əllamə Təbətəbainin şərhi daha çox diqqəti cəlb etməkdədir. Belə ki, o, əsərin I cildindən tutmuş VII cildin əvvəllərinədək olan hissəsini şərh etmiş, həmin hissədə yer alan ayələri, Məclisinin rəvayət etmə metodunu, əsərdən necə istifadə etmə yollarını və həmçinin müəllifə olan bəzi iradlarını göstərmişdir. Onun yazdığı bu şərhin adı "Şərhu Biharil-ənvar"dır.

Bundan başqa "Biharül-ənvar" əsərinin 74-cü cildindəki Peyğəmbərimizin (s) öz səhabəsi Əbuzərrə olan nəsihətini dövrümüzün məşhur alimlərindən olan Misbah Yəzdi şərh etmişdir. Onun bu şərhi doğma dilimizə tərcümə olunmuş və iki cild halında nəşr edilmişdir.

Başqa əsərlərdə olduğu kimi, "Biharül-ənvar" əsərini də təshih və tədqiq edənlər olmuşdur. Əsərin təshih və tədqiq işləri ilə aşağıdakı alimlər məşğul olmuşlar.

1) Əbdürrəhim Rəbbani, Şeyx Yəhya Abidi və Əli Əkbər Qəffari. Bu alimlər "Biharül-ənvar"ın birinci cildindən onuncu cildinədək olan hissəsni təshih etmişlər;

2) Əbdürrəhim Rəbbani, Şirazi, Şeyx Yəhya Abidi və Seyid Kazım əl-Musəvi. Bunlar əsərin on birinci cildindən on altıncı cildinədək olan hissəni təshih etmişlər;

3) Əbdürrəhim Rəbbani, Şirazi və Məhəmməd Bağır Behbudi. Bu alimlər əsərin on yeddinci cildindən iyirmi yeddinci cildinədək olan hissəni təshih etmişlər;

4) Məhəmməd Bağır Behbudi iyirmi səkkizinci, otuz ikinci və otuz üçüncü cildləri təshih etmişdir;

5) Məhəmməd Bağır Behbudi, Musəvi və Abidi otuz beşinci cilddən qırx beşinci cildədək olan hissəni təshih etmişlər;

6) Seyid Məhəmməd Mehdi əl-Xorasani, Məhəmməd Bağır Behbudi və Seyid İbrahim əl-Miyanəçi qırx altı və qırx səkkizinci cildləri təshih etmişlər;

7) Məhəmməd Bağır Behbudi, Seyid İbrahim əl-Miyanəçi qırx doqquz və əlli üçüncü cildləri təshih etmişlər;

8) Ustad Məhəmməd Tağı Misbah Yəzdi və Məhəmməd Bağır Behbudi əlli yeddinci və altmış ikinci cildləri təshih etmişlər;

9) Əbdürrəhim Rəbbani və Məhəmməd Bağır Behbudi altmış üçüncü və altmış beşinci cildləri təshih etmişlər;

10) Məhəmməd Bağır Behbudi və Seyid İbrahim əl-Miyanəçi altmış altıncı, yetmiş altıncı cildləri təshih etmişlər;

11) Ustad Əli Əkbər əl-Qiffari yetmiş yeddi və yetmiş səkkizinci cildləri təshih etmişdir;

12) Məhəmməd Bağır Behbudi və Seyid İbrahim əl-Miyanəçi səksən doqquz və doxsan səkkizinci cildləri təshih etmişlər;

13) Seyid Məhəmməd Mehdi əl-Xorasani, Məhəmməd Bağır Behbudi və Seyid İbrahim əl-Miyanəçi doxsan və yüz dördüncü cildləri təshih etmişlər;

14) Məhəmməd Bağır Behbudi, Seyid İbrahim əl-Miyanəçi və Məhəmməd bin Əli bin Hüseyn ər-Razi yüz beşinci cildi təshih etmişlər;

15) Məhəmməd Bağır Behbudi yüz altıncı cildi təshih etmişdir;

16) Məhəmməd Bağır Behbudi, əl-Miyanəçi və Məhəmməd bin Əli bin Hüseyn ər-Razi yüz yeddi və yüz onuncu cildləri təshih etmişlər.

# III FƏSİL

# ƏLLAMƏ MƏCLİSİNİN "BİHARÜL-ƏNVAR" ƏSƏRİNDƏ KAİNATIN YARADILIŞI

## 3.1. Kainatın yaradılması din və təbiətşünaslıq baxımından

Bizim üzərində yeridiyimiz yer kürəsinin necə yaranmasını, yuxarı baxarkən gördüyümüz səma hadisələrinin düzgün başa düşülməsinin yollarını, onların necə meydana çıxmasını və s. bilmək və bu məlumatlara malik olmaq əsrlərlə insanları düşündürmüş və bu haqdakı məlumatlar yüzillər öncədən üzü bəri yaranmışdır. Qədim Çində və Misirdə astronomiya elminin meydana gəlməsi və qədim yunan alimlərinin sonrakı nailiyyətləri ilə yanaşı, müsəlman alimlərinin də bu sahədəki kəşfləri səma hadisələri haqqında insanlarda dolğun bilgi yarada bilmişdir. İnsanların məlumatı artıqca onlar belə bir aləmin öz-özünə və boş yerə yaradılmadığını, mütləq qüdrət və iradə sahibi olan Allah taala tərəfindən yaradılıb idarə oldunduğu qənaətinə gəlmişlər.

Materialist fəlsəfənin əksinə olaraq dinşünaslar bu əqidədədirlər ki, kainatın başlanğıcı olduğu kimi, bir gün onun sonu da olacaqdır.

Qurani-Kərim insanın yaradıcısı ilə olan münasibətləri xüsusunda geniş izahlar verdiyi və qanunlar qoyduğu kimi, onun kainat və əşya ilə olan münasibətləri üçün ümumi prinsiplər də qoymuşdur. Müqəddəs kitabımız bir çox ayələrdə təbiət aləminin yaradılışından bəhs etmiş, kainatın necə əmələ gəlməsi, nədən əmələ gəlməsi və onun sonluğunun nə ilə bitəcəyini də açıqlamışdır. Bu məqama diqqəti yönəldən Abdulla Nəsri yazır: "Qurani-Kərim bir çox ayələrdə təbiət aləminin yaradılışından bəhs etmişdir. Bu ayələrdə kainatın necə əmələ gəlməsi və onun sonluğunun nə sayaq bitməsi açıqlanır..."[179]

Quran insana ağlını elm yolunda istifadə etmə fürsətini vermiş, onun yer üzünün, hətta aləmlərin ən üstünü olduğunu bildirmişdir. Ancaq bunu yaddan çıxartmamaq lazımdır ki, Qurani-Kərim əsas mövzu olan bu elmi həqiqətləri və ümumi əsasları, nazil olduğu əsrin anlayışına xitab edərək açıqlamayıb, hər əsrin fikirlərinə uyğun gələcək tərzdə ifadə etmişdir. Çünki Qurani-Kərimin qayəsi çoxnövlü elmləri özünə əsas mövzu etmək deyil, haqq yoldan çıxmış insanları hidayətə qovuşdurmaqdır. Bu baxımdan o sözü keçən uca qayəsini gerçəkləşdirərkən bir tərəfdən insanların diqqətini çəkmək, ibrət almalarını həyata keçirmək, digər tərəfdən də imanlarını qüvvətləndirmək məqsədi ilə zaman-zaman müxtəlif elmlərə işarə etmişdir. Bu məsələyə diqqəti yönəldən azərbaycanlı alim Əhmədağa Əhmədov yazır: "Quranın elmi ayələrində çoxlu əsrarəngiz nöqtələr var. Onlar ayələrin müəmmalı tərzdə ifadə olunması və məzmunun elmi cəhətdən mübhəmliyi ilə əlaqədardır. Belə mübhəm ayələrin məzmunu müxtəlif elmi məsələlərlə doludur. Lakin müasir elmin onlar haqqında ya təsəvvürü çox azdır, ya da heç yoxdur. Bu səbəbə bu cür ayələrin tam izahı mümkün deyil..."[180]

[179] Abdulla Nəsri. Quranda dünyaşünaslığın əsasları. Tərc: Nəsib Göyüşov. Bakı, Qələm nəşriyyatı, 2003. s. 5.
[180] Əhmədağa Əhmədov. Əsrarül-Quran (II kitab). Bakı, Təbib nəşriyyatı, 1994. s. 3.

Bildiyimiz kimi, Qurani-Kərimin izahı və şərhi ilə məşğul olan elmə təfsir elmi deyilir. Təfsir elmi özü də müxtəlif növlərə bölünür. Qurani-Kərimin bəzi elmi ayələri isə “elmi təfsir” kitablarında açıqlanır. Elmi təfsirə alimlər aşağıdakı tərifi verirlər: “Elmi təfsir - Quran mətnindəki elmi fikirləri açıqlamağa, onlardan çeşidli elmləri və fəlsəfi görüşləri çıxarmağa çalışan bir təfsir şəklidir”.[181]

Bu da məlumdur ki, ilk təfsir dirayət (elmi) təfsirinin ortaya çıxışı ilə başlamışdır.[182] Ancaq dəqiq bir tarix müəyyən etmək lazım gələrsə, bunu Abbasilər (750-1258) dövründəki elm və tərcümə hərəkatlarının başlanğıcına qədər götürmək mümkün ola bilər. Sözü gedən tərcümə hərəkatı nəticəsində İslam alimlərinin də bir hissəsi bu yolla gələn çeşidli fikir, düşüncə və məlumatları eynilə alıb qəbul etmiş və onları dini əqidələrlə uyğunlaşdırmağa çalışmış, bəziləri də dini inanclarla ziddiyyət təşkil edən hissələrini tənqid edərək İslamı müdafiə şəklində görüşlər bəyan etmişlər. Bəzi tədqiqatçılara görə, elmi təfsirin Qəzali (öl. 1111) ilə sistemləşməyə başladığı deyilə bilər. O, “Ehyai-ulumiddin” adlı əsərində “Qurani-Kərimin hər kəlməsinin bir zahiri, bir batini, bir həddi (halal və haram) vardır” rəvayətinə dayanaraq və bir sıra əvvəlki alimlərin sözlərini əsas qəbul edərək Qurandakı hər bir kəlmənin yüzminlərcə mənasının olduğunu qəbul etmişdir.[183] Bilavasitə bütün elmlərin Allahın fel və sifətlərinə daxil olduğunu, bunların Qurani-Kərimdə açıqlandığını və bu səbəblə nə qədər elm varsa, Quranda buna bir işarə olduğunu irəli sürmüşdür.[184]

Qəzali “Cəvahirül-Quran” adlı əsərində bu görüşünə açıqlıq gətirir və gəlmiş-keçmiş bütün elmlərin, hətta keçmişdə var olub bu gün insanlığın bilmədiyi və bu anda insanlığın bilməyib gələcəkdə biləcəyi bütün elmlərin təməllərinin Quranda mövcud olduğunu bildirir. Ona görə bütün elmlər Uca Allahın sifətlərinin bir əsəridir. Allah taalanı tanımaq üçün bütün bu elmlərin bilinməsi lazımdır. Məsələn, Allah şəfa verir. Allahın şəfa verdiyini bilmək üçün tibb elminin öyrənilməsi vacibdir.[185]

Qurani-Kərim öz elmi mahiyyətini aşağıdakı ayələrində belə açıqlayır:

**“Qiyamət günü hər ümmətə özlərindən bir şahid** (hər ümmətin öz peyğəmbərini) **göndərəcəyik** (tutacağıq). (Ya Rəsulum!) **Səni də bunlara** (öz ümmətinə) **şahid gətirəcəyik. Biz Quranı sənə hər şeyi** (dini hökmləri, halal-haramı, günahı və savabı) **izah etmək üçün, müsəlmanlara** (və ya Allahın vəhdaniyyətini qəbul edən bütün insanlara) **da bir hidayət, mərhəmət və müjdə olaraq nazil etdik!”**[186]

**“Yerdə gəzən elə bir heyvan, iki qanadı ilə uçan elə bir quş yoxdur ki, sizin kimi ümmətlər olmasın.** (Onlar da sizin kimi bir zümrədir. Allah onlara da ruzi vermiş, əcəllərini əvvəlcədən müəyyənləşdirmişdir. Onlar da öz qabiliyyətlərinə görə Allahın vəhdaniyyətini mədh edib, şəninə tariflər deyirlər). **Biz kitabda** (Quranda) **heç bir şeyi nəzərdən qaçırmadıq** (əskiltmədik). **Sonra onlar** (bütün məxluqat) **Rəbbinin hüzuruna cəm ediləcəkdir”.**[187]

---

[181] Muhsin Dəmirçi. Təfsir üsulu və tarixi. İstanbul, 1998. s. 277.
[182] Həmin mənbə. s. 277.
[183] əl-Qəzali. Ehyai-ulumiddin. Tərc. Əhməd Sərdaroğlu. I c. İstanbul, 1974. s. 822.
[184] Geniş məlumat üçün bax: Vasim Məmmədəliyev. Quran və elm. Bakı, Qismət, 2006. s. 17-20.
[185] Said Şimşək. Günümüz təfsir problemləri. Konya, 2004. s. 101.
[186] Nəhl surəsi, ayə 89.
[187] Ənam surəsi, ayə 38.

Göründüyü kimi, bu ayələr yuxarıdakı fikirlərə dəstək olaraq irəli sürülmüşdür.[188]

Mənbələrdə qeyd olunduğuna görə, Qəzalidən sonra bu fikir istiqamətində təfsir qələmə alan və elmi təfsiri ən gözəl şəkildə tətbiq edən böyük dirayət müfəssiri Fəxrəddin ər-Razi (öl. 1209), daha sonra isə Əbülfəzl əl-Mursi (öl. 1257), əz-Zərkəşi (öl. 1391) ilə əs-Süyuti (öl. 1505) olmuşdur. Xüsusilə Süyuti Quranı elmlərin qaynağı olaraq görmüş və Allahın hər şeyin elmini onda bəyan etdiyini vurğulamışdır.

Son əsrlərdə isə bu fikirlərlə maraqlanan bir çox alim vardır. "əl-Cəvahir fi-təfsiril-Quranil-kərim" adlı təfsirin müəllifi Tantavi Cövhəri, "Kəşfül-əsrarin-nuraniyyə" adlı əsərin müəllifi Məhəmməd bin Əhməd əl-İskəndərani (öl. 1888), Qazi Əhməd Muxtar, Əbdürrəhman əl-Kəvakibi (öl. 1900), Əbdürrəzzaq Novhəl, Əllamə Məhəmmədhüseyn Təbatəbai Təbrizi (1903-1983), Məkarim Şirazi (doğ. 1924), Əllamə Cəfər Sübhani Təbrizi (doğ. 1928) və adını qeyd edə bilmədiyimiz bir çoxları bu fikrin müdafiəçiləridir. İskəndəraninin əsəri bu mövzuda müstəqil olaraq yazılan əsərlərin ilkini təşkil edir.

Cövhəri "əl-Cəvahir fi təfsiril-Quran" adlı 25 cildlik əsəri ilə elmi təfsirə yeni bir canlılıq qazandırmış və İslam aləminin oyanmasına kömək etmişdir. Müəllif sözü gedən əsərində müsəlmanların ehtiyacı olan əxlaq, əhkam, təbiət qanunları və yaradılış üstünlüklərini ortaya qoyduqdan sonra müasir İslam alimlərini yer, səma, heyvanlar və bitkilərə dair kəşflər etməyə təşviq üçün belə demişdir: "Qurani-Kərimdə fiqhə aid 150, buna əlavə olaraq elm və fənlə əlaqədar 750-yə qədər ayə vardır.[189] Vəziyyət belə ikən müsəlman alimləri fiqh elminə aid minlərlə əsər yazmışlar. Ancaq kosmik ayələr üzərində sanki heç durmamışlar. Sayı az olan ayələrdə müsəlmanların dərinləşib, çox saydakı ayələrlə əlaqədar sahədə cahil qalmaları düzgündürmü? Əcdadlarımız fiqhdə alim idilər. Bizlərə də kainat elmlərində elm sahibi olmaq yaraşır. Əgər bu fikir üzərində dayansaq, o zaman İslam ümməti yüksələ biləcəkdir".[190]

Elmi təfsiri müdafiə edən müəlliflərdən "əl-Quran vəl-kövn" kitabının müəllifi Məhəmməd Abdullah əş-Şərkavinin dediyinə görə, kosmik ayələrin Qurani-Kərimdə yer almasının iki əsas səbəbi vardır:

1) İnsanları düşüncəyə yönəldib onlara Allahın həqiqi və tək yaradan olduğunu başa salmaq.

2) İnsanın kainatda hakim olan qanunları öyrənib onlar sayəsində mədəniyyətlərini inkişaf etdirməsinə şərait yaratmaq. O halda Qurani-Kərimin bu tərifini rədd etmək əsla doğru deyildir.[191]

Qurani-Kərim insanları doğru və haqq yola aparan bir hidayət kitabıdır. O rəhbər və yol göstərmək üçün gəlmişdir. Qaynağı İlahidir və bunun üçün də möcüzəvi bir kitabdır. Quranın həmsöhbəti isə insandır.[192]

---

[188] Said Şimşək. Günümüz təfsir problemləri. s. 101.
[189] Muhsin Dəmirçi. Təfsir üsulu və tarixi. s. 280.
[190] Həmin mənbə. s. 280.
[191] Said Şimşək. Günümüz təfsir problemləri. s. 226.
[192] Cəlal Kırca. Kurani-Kerimde fenn bilimleri. İstanbul, 1989. s. 15.

Beləliklə, Rəbbimiz biz insanlardan Allaha ibadət, Qurandan və kainatdan elmi bilikləri əldə etməyi, təmiz olmaq və günah olan işlərdən uzaqlaşmağı istəyir və müsəlmanların quracaqları mədəniyyəti bu dörd əsas üzərində qurmasını tələb edir.

Elmə arxa çevirən bir din olmayacağı kimi, elmsiz bir mədəniyyəti də yaşatmaq və inkişaf etdirmək mümkün deyildir. Elm də tədqiqat və mütaliəyə dayanır. Burada diqqət çəkən bir xüsus da bu yeni dinin öz kitabını, oxuyub öyrənmə və məlumatları bir yerə toplama kimi mənalara gələn Quran adı ilə adlandırmasıdır. Bu, yer üzünə ilk endirilən söz olan **"iqra – oxu!"**dan törəmədir.

İslam məfkurəsində insandan oxuması və araşdırması istənilən iki cür ayə vardır. Bunlar Qurani-Kərimdəki ayələrlə onun xaricindəki varlıq ayələridir. Bunlardan birincilər oxuyub fikirləşmə, digərləri də araşdırma ilə öyrənilib başa düşülür. Hər iki növ ayə də insanı Allahın varlıq, birlik və ucalığına etiqad etməsinə bağlıdır.[193]

Araşdırılıb incələndiyində kainatla əlaqədar Quran ayələrinin bir kristala oxşadığı və hansı tərəfdən baxılırsa, o tərəfdən ayrı bir məna və ya yeni bir kəşfə işarə etdiyi görünməkdədir. Bu o deməkdir ki, insan kainat münasibətinə aid hər bir ayənin hər əsrə baxan bir üzü və tərəfi vardır. Yəni VII əsrin insanına baxan bir üzü və tərəfi olduğu kimi, XXI əsr insanına baxan bir üzü və tərəfi də vardır. İfadə və üslubundakı bu xüsusiyyətə görədir ki, hər əsrin insanı Quran ayələrində öz əsrindəki düşüncə və mədəniyyət səviyyəsinə uyğun bir məna tapa bilmiş və insan-əşya münasibətinə dair ayələri, əsrinə uyğun bir şəkildə izah etmişlər.[194] Məna olaraq ayə bir şeyin varlığını və xüsusiyyətlərini ortaya qoyan şey deməkdir. Qurani-Kərimdə xüsusilə Allahın varlığını və Onun uca qüdrətini ortaya qoyan nəsnələr və onlara bağlı hadisələr bu adı almışlar. Bu cür ayələr tədqiq edilib izah olunmadan Uca Allahın varlığını lazımi şəkildə bilinməyəcəyindən ötrü insan bu kitabda onları araşdırıb öyrənməyə dəvət edilmişdir. Qurani-Kərimdəki bu ayələr bu mövqedən həqiqətən maraqlıdır:

"**Həqiqətən, göylərdə və yerdə möminlər üçün ibrətlər vardır! Sizin yaradılışınızda və** (Allahın yer üzünə) **yayıb səpələdiyi canlılarda tam yəqinliklə inananlar üçün** (Allahın birliyinə, qüdrət və əzəmətinə, qiyamət gününün haqq olmasına dəlalət edən) **əlamətlər vardır. Gecə və gündüzün bir-birinin ardınca gəlib-getməsində, Allahın ruzi vermək üçün göydən yağış yağdırmasında, onun vasitəsilə yeri ölümündən** (quruduqdan) **sonra diriltmısində və külələri** (müxtəlif tərəflərə) **yönəltməsində ağıllı düşünənlər üçün** (Allahın hər şeyə qadir olmasını sübut edən) **dəlillər vardır.** (Ya Peyğəmbər!) **Bunlar Allahın ayələridir** (qüdrət nişanələridir). **Biz onları** (Cəbrayıl vasitəsilə) **sənə doğru oxuyub bildiririk.** (Qurana) **inanmadıqdan sonra hansı kəlama inanırlar?**"[195]

**"Göyün və yerin Onun əmrində durması, sonra sizi bircə dəfə** (İsrafilin suru bir dəfə üfürməsi ilə) **çağıran kimi dərhal yerdən** (qəbirlərinizdən dirilib) **çıxmanız da Onun qüdrət əlamətlərindəndir. Göylərdə və yerdə kim** (nə) **varsa, Onundur.** (Mələklər, cinlər və insanlar Allahın bəndələridir). **Hamısı Ona boyun əyər! Məxluqa əvvəlcə yoxdan var edən, sonra da** (qiyamət günü) **yenidən dirildəcək**

---

[193] Celal Yeniçeri. Uzay ayələrin təfsiri. s. 24.
[194] Cəlal Kırca. Kurani-Kerimde fenn bilimleri. s. 16.
[195] Casiyə surəsi, ayə 3-6.

**Odur. Bu** (iş) **Onun üçün çox asandır. Göylərdə və yerdə olan ən yüksək sifət** (Allahdan başqa heç bir tanrı olmaması, vəhdaniyyət sifəti) **yalnız Ona məxsusdur. O, yenilməz qüvvət sahibi, hikmət sahibidir!** (Allahın sifətləri nə göydəkilərin, nə də yerdəkilərin sifətlərinə bənzəyər. Allah onların hamısından ucadır)”.[196]

Qurani-Kərim yer kürəsi haqqında bəzi əsas məlumatlar verib onun altını və üstünü də araşdırmağa dəvət etdiyi kimi, bizi əhatə edən hava təbəqəsi və onun içindəki buludlar haqqında da məlumatlar vermiş və bu məlumatlar əsasında araşdırmalarımızı bütün kainata yönəltməyimizi istəmişdir.

Qurani-Kərimin endiyi yeri fikirləşək. Ora dağları olduğu qədər düzənlikləri də olan bir yerdir. İnsan orada vasitə olaraq çox vaxt dəvə üstündədir. Göy üzü aydındır və buludlar həmişə süzüb keçməkdədir. Təfsirçi və filosof Fəxrəddin Razi (1150-1210) kitabında bu insanların halını belə təsvir edir:

“Ərəb çox vaxt dəvəsi üstündə gəzir. Fikrə getdiyi vaxt gözünə ilk görünən mindiyi dəvəsidir. Onu qəribə bir yaradılışda görür. Yuxarı baxanda göydən başqa bir şey görmür. Sağına soluna baxır, dağları görür, aşağı baxdıqda da yeri görür. Bax Uca Allah bütün bunlar üzərində ona fikirləşməsini nəsihət edir. Bəli, Allah bu şəraitdə dəvələrin üstündə yol alan insanlara belə səslənir:

**“Məgər dəvəyə baxmırlar ki, necə yaradılmışdır? Göyə** (baxmırlar ki) **necə ucaldılmışdır? Dağlara** (baxmırla ki) **necə dikəldilmişdir? Və yerə** (baxmırlar ki) **necə döşədilmişdir?** (Ya Peyğəmbər! Mənim bəndələrimə) **öyüd-nəsihət ver. Sən ancaq öyüd-nəsihət verənsən! Sən onların üzərində hakim deyilsən! Lakin kim** (imandan) **üz döndərib** (Quranı) **inkar etsə, Allah onu ən böyük əzaba** (axirət əzabına) **düçar edər! Şübhəsiz ki, onların** (axır) **dönüşü Bizədir! Onlarla haqq-hesab çəkmək də Bizə aiddir!”**[197]

**“Məgər Rəbbinin kölgəni** (günçıxandan günbatanadək) **necə uzatdığını görmürsənmi? Əgər istəsəydi, onu daim öz yerində saxlayardı. Sonra Biz günəşi** (kölgəyə) **bir əlamət etdik.** (Əgər günəş olmasaydı, kölgə bilinməzdi). **Sonra onu** (o kölgəni günəşin yüksəlməsi ilə) **yavaş-yavaş Özümüzə tərəf çəkdik.** (Əgər kölgəni yerə birdən salıb, birdən çəksəydik, insanlar vahiməyə düşərdilər)**”.**[198]

Yuxarıdakı ayələrin çoxunda **“nəzərə”** (nəzər etmək) feli istifadə edilmişdir ki, bu sadəcə baxmaq olmayıb, fikirləşmə, araşdırma kimi mənaları da ifadə edir. Bəzi ayələrdə isə **“ruyə”** (görmə) feli istifadə olunmuşdur. Görmə araşdırmadan sonra əldə edilən nəticədir və bilmə mənasına da gəlir.

Qurani-Kərimdə bəzən bütövlikdə yaradılışa, bəzən də yuxarıda göründüyü kimi, tək-tək hadisələrə işarə edilmişdir. Məsələn, şimşəyin çaxması və kölgənin hərəkətlərindən başqa, quşların necə uçduqlarına diqqət yetirilməsi xüsusunda ayələr vardır:

“**Məgər** (müşriklər) **yerlə göy arasında** (uçaraq Allaha) **ram olmuş quşları görmürlərmi?! Onları** (havada) **yalnız Allah saxlayır** (bütün hərəkətlrini ancaq Allah idarə edir). **Həqiqətən, bunda möminlər üçün ibrətlər vardır!”**[199]

**أَوَلَمْ يَرَوْا إِلَى الطَّيْرِ فَوْقَهُمْ صَافَّاتٍ وَيَقْبِضْنَ مَا يُمْسِكُهُنَّ إِلَّا الرَّحْمَنُ إِنَّهُ بِكُلِّ شَيْءٍ بَصِيرٌ.**

---

[196] Rum surəsi, ayə 19-22, 25-27.
[197] Ğaşiyə surəsi, ayə 17-26.
[198] Furqan surəsi, ayə 45-46.
[199] Nəhl surəsi, ayə 79.

“**Məgər onlar başları üstündə qanadlarını açıb-yuman** (qanad çalıb uçan) **quşları görmürlərmi? Onları** (göydə) **ancaq Rəhman** (olan Allah) **saxlayır. Həqiqətən, O, hər şeyi görəndir!**”[200]

İnsanlar və heyvanlarda olduğu kimi, bitkilərin və hətta cansız varlıqların erkəkli-dişili və bir-birinin ziddi olmaq üzrə iki cüt olduqlarını yenə biz Qurandan öyrənmə imkanına sahib ola bilirik:

“**Məgər onlar yer üzünə baxıb orada növbənöv gözəl bitkilər** (meyvələr) **yetişdirdiyimizi görmürlərmi?”**[201]

Göydəki genişləmə hadisəsi və yerin yayılmasındakı gözəllik dilə gətirildikdən sonra isə orada belə deyilir:

“**Göyü qüdrətimizlə** (qüdrət əlimizlə) **Biz yaratdıq və Biz** (onu) **genişləndirməkdəyik.** (Və ya: Göyü qüdrətimizlə Biz yaratdıq və Biz (istədiyimiz hər şeyi yaratmağa) qadirik). **Yeri də Biz döşədik.** (Onu) **döşəyənlər necə də gözəldir!** (Biz necə də gözəl döşəyənlərik!) **Biz hər şeydən** (erkək və dişi, bir-birinin əksi olmaqla) **cüt-cüt yaratdıq. Bəlkə, bir düşünüb ibrət alasınız!**”[202]

Bu ayə də yuxarıdakından fərqli olaraq daha ümumi görünür və yəqin ki, canlı-cansız hər şeyin erkək-dişi və mənfi-müsbət güc olaraq cüt yaradıldıqlarını ifadə edir. Baxmaq mənasına gələn **“nəzər”** və görmə-bilmə mənalarına gələn **“ruyə”**dən fərqli olaraq bu ayədə fikirləşib bilmə mənalarında **“təzəkkür”** felindən istifadə olunmuşdur. Əslində, araşdırma hadisəsi fikirləşib bilmə və dərs alma hadisəsini də əhatə edir və Qurani-Kərimdə fikirləşib bilmə və dərs alma işinə çox yer verilir. Lazımlı məlumat və nəsihətlərə çatmaq üçün fikirləşmək lazımdır. Fikirləşmə də insanı başqa canlılardan ayıran ağlın çalışmasıdır və Quranda insan bədəni tənbəlliyindən daha çox, ağlından istifadə edib fikirləşməməkdən, yəni zehni fəaliyyətləri və təfəkkür sahəsində göstərdiyi tənbəlliyindən ötrü xəbərdar edilmişdir. Çünki bədən üzvlərinin fəal hala gəlməsi də buraya aiddir. Bu yeni dində savadsız və məlumatsız qulluq, məqbul dindarlıq olaraq görünməmişdir.

Fəxrəddin Razinin dediyi kimi, Qurani-Kərim həqiqətən İlahi bir kitab olaraq yaradılış, kainat və göylərlə əlaqəli hadisə və mövzulara ən çox yer verən xüsusiyyətə sahib olmuşdur. Bu kitabda göy kəlməsi 310, yer (ərz) kəlməsi də 451-dən artıq yerdə keçməkdədir. Qurandakı bütün surələrin 1/6-ni yaradılış, ulduzlar, kainatla əlaqədar hadisə və mövzulardan ad almış olması da onun bu tərəfini göstərməsi baxımından diqqət cəlb edir.

İslam dini, İslam məfkurəsi və İslam mədəniyyəti bütün həyat gücünü Qurandan almış və almağa da davam etməkdədir. Müsəlmanların ilk elmi qaynağı da Qurani-Kərim olmuşdur.

İnslanlar qədimdən bəri haradan gəldiyini, haraya gedəcəyini fikirləşmişdir. Hətta insanlar həmişə göylərə baxaraq bu möhtəşəm kainatı və ulduzları kimin yaratdığını fikirləşmişlər. Bəzi elm adamları fikirlərində küfrə düşərək kainatın heç nədən, yəni özü özlüyündən yaradıldığını deyiblər. Lakin Uca Allah Qurani-Kərimdə hər şeyin böyük Yaradan tərəfindən yaradıldığını bildirir.

---

[200] Mülk surəsi, ayə 19.
[201] Şüəra surəsi, ayə 7.
[202] əz-Zariyat surəsi, ayə 47-49.

Xatırladaq ki, kainatın yaradılması və yaradılmasının əsas səbəbləri qədimdən bəri elm adamlarının daima marağına səbəb olmuş, açılması lazım olan bir problem olaraq zehnlərdə canlılığını qorumuşdur. Bu problem müasir insanı daha da dərindən düşündürdüyündən bunu xüsusi elm vasitəsilə öyrənməyə çalışır. Bu elmə kosmologiya elmi deyilir ki, bunun da vasitəsilə bütün kainat, onun mənşəyi, meydana gəlməsi və s. öyrənilir. Bütün astro-fizika alimləri təbiət qanunlarından və bu qanunların nəticələrindən əldə etdikləri bəzi yeni-yeni məlumatlarla kainatın yaradılması mövzusunda öz fikir və görüşlərini açıqlamış və bəzi fərqli elmi nəzəriyyə və fərziyyələr ortaya qoymuşlar. Bunlar arasında Dekard, Kant (1724-1804), Qraf de Buffon (1707-1788), Laplas (1749-1827), Faye, Georgi Qamov (1904-1968), Ser Ceyms Censin nəzəriyyələri və fərziyyələri ən çox diqqəti cəlb edən fərziyyələr olmuş və üzərində xüsusi olaraq dayanılmışdır. Lakin bu fərziyələrdən bəzisi yaranmadan məhv olmuş, bəzisi isə canlılığını müəyyən qədər qorumuşdur.

Bu nəzəriyyələr bəzən ictimai həyat fəlsəfəsinin və ya sosial, iqtisadi quruluşun elmi sahədəki təzahürləri olduğundan, zaman-zaman dini və ideoloji sistemlərin müdafiəsində də istifadə olunmuş və bəlkə də bu nəzəriyyələr canlılığını qoruya bilmək üçün böyük ölçüdə bu istifadəyə bağlı qalmışdır. Məsələn, Laplas, Georgi Qamov və Ceyms Censının nəzəriyyələri inananlar tərəfindən Uca Allahın varlığını və yaradıcılığına sübut olaraq, Buffon, Hoyle və Velyaminovun nəzəriyyəsi isə materialistlər və ateistlər tərəfindən Allah deyə bir yaradanın olmadığına sübut olaraq istifadə edilmişdir.

Xatırladaq ki, elm dünyası kainatın yaradılması ilə əlaqədar iki əsas fərziyyə üzərində dayanır. Bunlardan birincisi, Laplas və G.Qamov fərziyəsi, digəri isə Hoylevin fərziyyəsidir. Birincisi iman əhli, ikincisi isə inkar edənlər və materialistlər tərəfindən istifadə olunmaqdadır.

Qurani-Kərimdə də kainatın yaradılması mövzusuna toxunulmuş və bu mövzu ilə bağlı ayələrdə hər dövrün anlayışına xitab edəcək şəkildə bir üslubdan istifadə edilmişdir. Buna görə də əsrlərdən bəri tilavət olunan bu ayələrin mahiyyətlərinin başa düşülməsi, qismən də olsa, zamanımızdakı bəzi elmi kəşflərin köməyi ilə mümkün olmuşdur. Bu mövzudakı bəzi fərziyyələr kainatın yaradılması ilə əlaqədar ayələrin daha yaxşı başa düşülməsinə kömək etmişdir. Bu fərziyyələrdən ən lazımlısı Laplas və G.Qamovun fərziyyələridir.

G.Qamovun bu fərziyəsinə görə, "əvvəlcə qazlardan mütəşəkkil çox böyük buludlar var idi. Qaz buludları sabit durmayıb hərəkət etdiklərindən cazibə qüvvəsinin təsiri ilə parçalanmışdır. Parçalanan hissələr də yenə cazibənin təsiri ilə get-gedə həcmi kiçilərək sıxışmağa başlamış, sıxışan və dövr edən cisimlər, kürəyə yaxın şəkillər almışdır. Sıxlığın artması ilə içdəki hərarət də artmış, buna görə də mərkəzdə olan hidrogen heliuma çevrilmiş və işıq, isti yayılmağa başlamışdır. Bu bölünən, parçalanan qaz kürələri ulduzları, qalaktikaları meydana gətirmişdir".[203] Həmçinin o, kainatın yaranışı ilə əlaqədar belə demişdir: "Əgər indiki çağda zaman ardıcıllığı baxımından keçmişə qayıtsaq və dünyanın inkişaf prosesini geriyə qayıdış kimi təsəvvür etsək, istər-istəməz bu nəticəyə gələ bilərik ki, çox-çox uzaq dövrlərdə, hələ kəhkəşanlar və hətta ulduzlar bir-birindən ayrılmaz olduğu bir vaxtda ilkin qaz

[203] Celal Kırca. Kurani-Kerimde fenn bilimleri. s. 61.

maddəsinin həm qatılığı, həm də istilik dərəcəsi çox yüksək olmuşdur. Sonrakı genişlənmə prosesində bu qatılıq və istilik o qədər dəyişərək aşağı düşmüşdür ki, bunun nəticəsi olaraq göy cisimlərinin bir-birindən ayrılması mümkün olmuşdur”.[204] Xatırladaq ki, bu hadisəyə “Biq-bənq” (“Böyük partlayış” nəzəriyyəsi) hadisəsi deyilir. 1948-ci ildə G.Qamov “Big-bang”a aid yeni bir qayda ortaya qoydu. Buna görə, kainatın böyük partlayışla meydana gəlməsi halında, kainatda bu partlayışdan meydana gələnlərdən əlavə, geridə qalan müəyyən ölçüdə bir radiasiyanın olması lazım idi. Həm də bu radiasiya kainatın hər yanında bərabər olmalı idi.[205] Hətta alimlər bu partlayış nəticəsində kainatın 13,8 milyard yaşı olduğu fərziyyəsini də irəli sürmüşlər.[206]

Qurani-Kərim isə kainatın yaradılmasını belə bəyan edir:

**أَوَلَمْ يَرَ الَّذِينَ كَفَرُواأَنَّ السَّمَاوَاتِ وَالْأَرْضَ كَانَتَا رَتْقاً فَفَتَقْنَاهُمَا وَجَعَلْنَا مِنَ الْمَاء كُلَّ شَيْءٍ حَيٍّ أَفَلَا يُؤْمِنُونَ.**

“**Məgər kafir olanlar göylə yer bitişik ikən Bizim onları ayırdığımızı, hər bir canlını sudan yaratdığımızı bilmirlərmi?! Yenə də iman gətirməzlər?** (Göylər ilk yaradılışda bir-birinə bitişik bir təbəqə olduğu halda, onların arası hava ilə açılıb yeddi təbəqəyə ayrılmış, yer də bir təbəqə ikən sonra yeddi təbəqəyə bölünmüşdür. Bu, Allahın qüdrətini, əzəmətini sübut edən ən tutarlı dəlillərdəndir)**”**.[207]

Yuxarıda da deyildiyi kimi, Qamova görə kainatın indiki halı davamlı bir təkamülün əsəridir. İnkişafa davam edən ilk hərəkət isə, bir neçə milyard il davam edən tək vücud bir halda olan maddədə, yüksək bir təzyiqlə başlamışdır. Qamov bu görüşünü kainatın içindən alıb laboratoriyalarda təhlil etdiyi müxtəlif maddələrin təxmini yaşlarını araşdıraraq sübut etməyə çalışmışdır.

Bu açıqlama və izahlardan da başa düşürük ki, kainat əzəli və əbədi deyildir. Onun bir başlanğıcı vardır və şübhəsiz bir sonu da olacaqdır. İslam inancına görə, Uca Allah əşyanı və kainatı heç bir varlıq yox ikən yaratmışdır. Quran bu həqiqəti bizə belə bəyan edir:

**إِنَّمَا أَمْرُهُ إِذَا أَرَادَ شَيْئاً أَنْ يَقُولَ لَهُ كُنْ فَيَكُونُ.**

“**Bir şeyi** (yaratmaq) **istədiyi zaman** (Allahın) **buyurduğu ona ancaq: “Ol!” deməkdir. O da dərhal olar”.**[208]

İslam alimləri ilk kainat maddəsinin yoxdan xəlq edildiyinə, yəni Allah taalanın ilk kainat maddəsini heç bir maddədən yaratmadığına və sadəcə, ilk kainat maddəsinə **“ol!”** dediyini və maddənin də olduğuna inanırlar.

Bu alimlərdən biri olan Fəzlürrəhmana görə, “Kainatın yaradılış elminə (kosmologiya) Quranda çox az yer verilir. Kainatın yaradılışı haqqında Qurani-Kərim, sadəcə, Allahın kainat və içindıkilərini yaratmaq istədiyində yalnız **“ol!”** əmri ilə hər şeyin var olduğunu deyir. Elə isə Uca Allah, kainatın mütləq sahibidir və idarə edicisidir”.[209]

Qurani-Kərimdə Uca Allahın təkliyi, ortağı və oxşarının olmadığını, bu kainat və içindəki varlıqlar yox olduqdan sonra yenidən yarada biləcək böyük bir gücə sahib

---

204 Abdulla Nəsri. Quranda dünyaşünaslığın əsasları. Bakı, Qələm nəşriyyatı, 2003. s. 6.
205 Harun Yəhya. Evrenin yaratılışı. İstanbul, 1999.
206 Geniş məlumat üçün bax: Vasim Məmmədəliyev. Quran və elm. Bakı, Qismət, 2006. s. 27-31.
207 Ənbiya surəsi, ayə 30.
208 Yasin surəsi, ayə 82.
209 Fəzlurrəhman. Ana konularıyla Kuran. Ankara, 2000. s. 113.

olduğunu göstərən sübutlara yer verilmişdir. Quran ayələrini elmi kəşf və qanunlarla açıqlamaq hər vaxt və hər ayə üçün münasib bir metod olmamaqla bərabər, kainatın yaradılışı mövzusundakı qaydalar və təbiət elmlərindəki inkişafın bu ayələrin daha yaxşı başa düşülməsinə köməkçi olduğunu demək mümkündür.

Bu ayədəki "Göylərin və yerin bitişik olub ayrılması və hər canlının sudan yaradılması" ifadəsini müfəssirlər fərqli şəkillərdə izah etmişlər:

**I. Keçmiş müfəssirlərin fikirləri belədir:**

a) Göylərlə yer bir-birinə bitişik idi, Allah onları ayırdı və aralarına havanı yerləşdirdi.

b) Göylər bir-birinə bitişik idi, Allah onu yeddi qat göy halına gətirdi, yer də bir-birinə bitişik idi, onu da eyni şəkildə yeddi qat yer halına gətirdi.

c) Uca Allah əvvəlcə gecəni yaratdığı üçün hər şey qaranlıq idi, sonra gündüzü yaradaraq qaranlığı yardı.

d) Göylər bir-birinə bitişik idi, yağış yağdırmırdı, yer də bitişik idi, bitki bitirmirdi. Allah göyləri yağışla, yeri də bitki ilə yarıb ayırdı.

**II. Müasir dövrdə yazılmış bəzi təfsirlərdə isə ayə belə izah olunur:**

a) Ayədə kainatın başlanğıcda bir bütün, yəni tək kütlə olduğu, bu kütlənin sonradan bölünüb parçalara ayrıldığı açıq bir şəkildə ifadə edilməkdədir. Qurani-Kərimin bu ifadəsi günümüzdə xüsusu ilə astrofiziklərin kainatın meydana gəlməsi haqqında qəbul etdikləri qaydaya uyğun gəlir. Bu elm adamlarına görə, kainatdakı cisimlər vaxtilə bir qaz və toz kütləsi halında idi. Mərkəzi cazibə qüvvəsi səbəbilə büzüşüb müxtəlif nöqtələrdə sıxlaşan bu qaz kütləsindən müəyyən vaxtla kürələr halında parçalar qoparaq kainat boşluğuna girmış, mərkəzi cazibə qüvvəsinin təsiri ilə dönməyə, kainat soyuqluğu səbəbilə soyumağa başlamışdır. Bu dönüş anında sıxlaşan ana kütlələrdən də bəzi parçalar qopmuş və ana kütlələrin ətrafında dönməyə davam etmişdir. Beləcə, tək bir kütlə qalaktika və günəş sistemlərinə, bunlardan da gedərək ulduzlara, planetlərə və bunların peyklərinə çevrilmiş, nəhayət, günəşin peyki olan dünyamızın da içində yer aldığı planetlər yaxşıca soyuyaraq bugünkü vəziyyətini almışdır.

b) Göylər və yer ayrı-ayrı bir cəm halında idi, Allah göy kütləsini ayıraraq bugünkü sistemi meydana gətirdi, yeri də dağları, dərələri, düzənləri, bitkiləri, dənizləri və adaları olan qitələrə ayırdı.

c) Göydən yağış yağmır, yer də bitki bitirmirdi. Allah yağışı yağdırdı, bitkini bitirdi.

Ayədə həyatın əsasının suya əsaslandığına işarə edilir, canlı olan hər şeyin sudan yaradıldığı bildirilir. Mövcud məlumatlarımıza görə də, dünyamızdan qalxan qaz və buxarlar sıxlaşaraq yağış şəklində təkrar dünyaya tökülmüş, beləcə dənizlər və okeanlar meydana gəlmişdir. Suda yosunlaşma ilə başlayan canlılar aləmi, ilahi qanunlara görə inkişaf edərək bugünkü halını almışdır. Elmin əsaslarına görə, canlıların növlərinin yarıdan çoxunu suda yaşayan canlılar təşkil etməkdədir. Başqa bir ayədə Allahın hər canlını sudan yaratdığı bildirilir.

Məhəmməd Əsədə görə **"Hər canlını sudan yaratdıq"**[210] ayəsi üç mənaya gəlir: 1) Su bütün canlı növlərinin ilk misalının ortaya çıxdığı şəraitidir. 2) Var olan bütün mayelər içində təkcə su həyatın ortaya çıxıb inkişaf etməsi üçün uyğun və lazımlı xüsusiyyətlərə sahibdir. 3) Heyvani bitkiyə aid canlı hər hüceyrənin fiziki əsasını meydana gətirən və içində həyat faktlarının görünə biləcəyi yeganə maddə şəraiti olan protoplazma böyük ölçüdə sudan ibarətdir və bütünlüklə suya dayanmaqdadır. Kainatın başlanğıcdakı fiziki birliyinə işarə edən əvvəlki ifadə ilə canlı aləmin elementar birliyinə işarə edən bu ifadənin bir yerdə ələ alınması, bütün yaradılış faktlarının dayandığı tək bir planın, tək və tutarlı bir yarma hadisəsinin və buna bağlı olaraq da tək bir yaradanın varlığına götürməkdədir.[211]

Məşhur İslam alimlərindən olan Təbərsi (öl. 1153) ayəni belə təfsir edir: "Yerlə göy bitişik idi və biz onların arasını haça ilə ayırdıq. Göylər bitişik mərtəbə halında idi, yer də belə idi və yeddi qata ayırdıq".[212]

Rəvayət edilən hədislərin birində bir adamın Peyğəmbərin (s) yanına gələrək "mənə hər şeyi xəbər ver" deməsinə cavab olaraq belə deyilir:

"Əziz və Uca Allah hər şeyi sudan yaratmışdır".

Görəsən Peyğəmbər (s) bu yuxarıdakı sözləri ilə sadəcə canlı olan şeylərimi nəzərdə tutmuşdur, yoxsa canlı-cansız fərqinə varmadan hər cür əşyanın ilk maddəsinin su olduğunumu? Qürtubinin (öl. 1272) verdiyi məlumata görə, bəzi alimlər atəş və havanın da sudan yaradıldığı görüşündədir. Onlara görə, Allahın aləmdə ilk yaratdığı sudur və sonra da hər şey sudan yaradılmışdır.[213]

İmam Əli (ə) və Abdullah bin Abbasdan gələn bir rəvayətdə isə, ilk olaraq qələm və sonra da ona aid "nun" deyilən mürəkkəb qabı yaradıldığı deyilir. İbn Abbas yenə burada ərzin "nun" üzərinə döşəndiyini söyləyir. İlk əvvəl qələmin yaradılması ancaq məcazi məna ifadə edə bilər.

## 3.2. Yer və göylərin yaradılma mərhələləri

Yerlərin və göylərin yaradılması qədimdən bəri bütün insanları düşündürmüş mühüm elmi problemlərdəndir. Bu məqama diqqəti yönəldən Əhmədağa Əhmədov yazırdı: "İnsanlar qədim zamanlardan yerdən daha çox asimanlarla maraqlanmışlar. Gündüzlər günəş, gecələr ay və ulduzlar onların nəzəri-diqqətini səmaya cəlb etmişdir... Bu əcaib kainatın yaradılmasından və onun sirlərindən agah olmaq istəyənlər ömürlərini səmanın müşahidəsinə, orada baş verən əsrarəngiz hadisələrin kəşfinə və şərhinə sərf etmişlər. Beləliklə, astronomiya elmi yaranmışdır. Odur ki, elmlər içərisində astronomiya ən qədim elm hesab olunur".[214]

Yer və göylərin tək kütlədən yaradıldığını söyləyən ayənin dərhal ardından yer üzünün və ona aid göyün düzəldilməsindən, günəşin, ayın yaradılışındakı, gecə və gündüzün yaradılmasından bəhs edən ayələr gəlir.

---

[210] Ənbiya surəsi, ayə 30.
[211] Məhəmməd Əsəd. Kuran Mesajı. Tərc: Cahid Koytak. İstanbul, 2001. s. 651.
[212] ət-Təbərisi. Məcməül-bəyan fi təfsiril-Quran. VIII c. Beyrut, s. 16.
[213] Celal Yeniçeri. Uzay ayetlerinin tefsiri. s. 50.
[214] Əhmədağa Əhmədov. Əsrarül-Quran (II kitab). Bakı, Təbib nəşriyyatı, 1994. s. 12.

“**Yer onları silkələməsin** (atıb-tutmasın) **deyə, orada möhkəm** (durmuş) **dağlar yaratdıq; onlar** (istədikləri yerə) **rahat gedib çata bilsinlər deyə, orada geniş yollar əmələ gətirdik. Göyü** (yerdən ötrü və onun üstünə düşməsin deyə) **qorunub saxlanılan bir tavan etdik. Halbuki** (kafirlər) **ayələrimizdən** (vəhdaniyyətimizi, qüdrətimizi sübut edən bu dəlillərdən) **üz döndərirlər. Gecəni və gündüzü də, Günəşi və Ayı da yaradan Odur. Onların** (həmçinin ulduzların) **hər biri bir göydə üzür** (hərəsi öz hədəqəsində, öz dairəsində hərəkət edir)**”.**[215]

“**Sonra Allah tüstü** (duman, yerdən qalxan buxar) **halında olan göyə üz tutdu** (göyü yaratmaq qərarına gəldi). **Ona** (göyə) **və yerə belə buyurdu: “İstər-istəməz vücuda gəlin!” Onlar da: “İstəyərək** (Allahın əmrinə itaət edərək) **vücuda gəldik!” – deyə cavab verdilər. Allah onları** (səmaları) **yeddi** (qat) **göy olaraq iki gündə əmələ gətirdi.** (Beləliklə, iki gün ərzində yer, sonra iki gün ərzində yer üstündə olanlar, daha sonra iki gün ərzində göylər xəlq edildi. Kainatın yaradılması altı gün – altı dövr ərzində başa çatdı). **O, hər bir göyün işini özünə vəhy edib bildirdi. Biz aşağı göyü** (dünya səmasını) **qəndillərlə** (ulduzlarla) **bəzədik və** (onu şeytanlardan, hər cür fəsaddan) **qoruduq. Bu, yenilməz qüvvət sahibi olan,** (hər şeyi) **bilən Allahın təqdiridir** (əzəli hökmü, qanunudur)**!”**[216]

Burada qeyd etdiyimiz ayələrdən başa düşüldüyünə görə, Allah buludlu kütlə halında olan göyə və hələ onun içindəki yer kürəsinə varlıq dünyasında mövcud olması üçün “**kun**” (**“ol”**) əmrini vermişdir. Və yaxud bu əmr partlayıb bölünmədən sonra ortaya çıxan çox saydakı buludlu kütləyə eyni anda verilmişdir. “Göylərə və yer üzünə, ikiniz də istəyərək vücuda gəlin buyurdu. Onlar da istəyərək gəldik dedilər”. Ayənin bu ifadəsindən belə başa düşülür ki, partlayıb ayrılmadan (fətq) əvvəl, varlıq maddəsi yer və göylərin yaradılması üçün yönləndirilmişdir. Buna görə olmalıdır ki, onlar **“istəyərək gəldik”** demişlər. Çünki yer və göylərə aid olan maddə belə hədəfləndirilmişdir. Necə ki, burada yeddi göyün yaradılış üçün “**qəza**” feli işlədilmişdir ki, bu, əslində əvvəlcədən təqdir edilən bir şeyin zaman gəldikdə o təqdir və plana uyğun şəkildə yaradılışını ifadə edir.

Əhmədağa Əhmədov isə ayənin təfsirini belə izah etmişdir: “Yeri yaratdıqdan sonra Allah asimanları yaratmağa qəsd edir. Bu vaxt asimanlar tüstü halında idi.

Buradan məlum olur ki, Allah taala kainatda əvvəlcə yer kürəsini iki gündə yaradıb, sonrakı iki gün ərzində isə onun üzərində dağları icad edib. Beləliklə, dörd gündən sonra asimanların yaranışına başlayıb.

Ayədən məlum olur ki, bu vaxt asimanlar hazırkı şəkildə yox imiş, lakin onların yerində tüstü kimi bir şey var imiş. Ola bilsin ki, bu tüstü asimanları təşkil edən şəkilsiz maddə imiş ki, buna hikmət elmində “həyula” deyilir. Sonralar asimanlar bu “həyula”dan təşəkkül tapıblar.

...Bu ayələrdən belə nəticə çıxır ki, asimanlar yerin yaranmasından dörd gün sonra icad olunub. Ancaq bu “dörd gün” müddəti bir mübhəm məsələ olaraq qalır”.[217]

Yer kürəsi də daxil olmaq üzrə bütün göylər, heç şübhəsiz, varlıq aləminə bəzi mərhələlərdən keçərək çıxmışdılar. Təkamül qanunlarına tabe tutulan aləmlər keçdikləri hər mərhələdə uzun dövrlər qalmışlar. Qurani-Kərimdə hər bir dövr və

[215] Ənbiya surəsi, ayə 31-33.
[216] Fussilət surəsi, ayə 11-12.
[217] Əhmədağa Əhmədov. Əsrarül-Quran (II kitab). Bakı, Təbib nəşriyyatı, 1994. s. 126-127.

mərhələ “**gün**” sözü ilə ifadə edilməkdə və yer ilə göylərin altı gündə (mərhələdə) yaradıldıqları bildirilməkdədir.

Yəhudilərin Allahın kainatı yaradarkən günün sonunda yorulub yeddinci gün istirahət etdiyinə dair inancları şiddətlə rədd edilir.[218] Uca Allah belə buyurur: **“And olsun ki, Biz göyləri, yeri və onların arasında olanları altı gündə yaratdıq və Bizə heç bir yorğunluq da üz vermədi”.**[219] Buradan bir daha məlum olur ki, Qurani-Kərimdən fərqli olaraq Tövrat müasir elmi fikirlərlə ziddiyyət təşkil edir.

Burada bildirmək lazımdır ki, ayədə keçən “gün” sözü günəşin bir batması ilə ertəsi batması arasındakı zaman müddətindən başqa, gündüz aydınlığını da ifadə edir. Sözün cəm forması olan “əyyam” isə “günlər” mənasına gəlir və uzun müddət, müəyyən olunmamış zaman müddəti mənasında da istifadə oluna bilər. Sözün ifadə edə biləcəyi “zaman mərhələsi” mənasına Quranın başqa yerində də rast gəlinir.[220] Misal olaraq bu ayə verilə bilər:

وَيَسْتَعْجِلُونَكَ بِالْعَذَابِ وَلَن يُخْلِفَ اللَّهُ وَعْدَهُ وَإِنَّ يَوْماً عِندَ رَبِّكَ كَأَلْفِ سَنَةٍ مِّمَّا تَعُدُّونَ.

“(Ya Rəsulum!) **Onlar səni tələsdirib əzabın tez gəlməsini istəyərlər. Allah öz vədinə əsla xilaf çıxmaz! Rəbbinin dərgahında bir gün sizin saydığınızın** (hesabladığınız vaxtın) **min ili kimidir!**”[221]

Başqa bir ayədə isə bizim saya biləcəyimiz günlərdən olduğu qeyd edilmədən, mələklərin və ruhun Allaha min ildə çatdığı bildirilir. Ayənin təfsirini qısaca açıqlayan Əhmədağa Əhmədov yazırdı: “Bu, Quranın rəmzi ayələrindəndir. Zahiri məzmunu budur ki, Allah taala yer kürəsi üzərindəki bütün işlər üçün tədbir görür və bu məqsədlə yerə mələklər nazil edir. Bu mələklər işləri icra edəndən sonra asimana tərəf qalxırlar. Onların bir günü yer əhlinin min ili qədərdir. Yaxud onların bir gündə getdiyi yol yer əhlinin min ildə getdiyi yol qədərdir, yəni onlar o qədər sürətlə gedirlər ki, bu sürətlə bir gündə gedilən yolu, yer əhlinin hesabı ilə min ilə getmək olar...”[222]

Sözü gedən ayənin elmi təfsirini verən Abdulla Nəsri yazır: “Şübhəsiz ki, yuxarıdakı ayələrdə bəhs edilən altı gün məfhumu kainatın yaranmasının altı gecə-gündüzdə deyil, altı mərhələdə başa çatdığını nəzərdə tutur. Belə ki, ərəb dilində “yəum” sözü cəmdə “əyyam” kimi işlədilir və iki mənaya malikdir:

1.Yerin öz oxu ətrafında fırlanma müddəti (yəni bir gecə-gündüz).

2. Dövr və mərhələ.

Həzrət Əli (ə) belə buyurmuşdur: “Bu gün əməl günüdür, hesab günü deyil və sabah hesab günüdür, əməl günü deyil”.

Yuxarıdakı hədisdə “bir gün” dedikdə dünyəvi işlər, “sabah” dedikdə isə qiyamət nəzərdə tutulur...”[223]

تَعْرُجُ الْمَلَائِكَةُ وَالرُّوحُ إِلَيْهِ فِي يَوْمٍ كَانَ مِقْدَارُهُ خَمْسِينَ أَلْفَ سَنَةٍ.

**“Mələklər və ruh** (Cəbrayıl) **Onun dərgahına** (dünya ilə müqayisədə) **müddəti** (miqdarı) **əlli min il olan bir gündə qalxarlar”.**[224]

---

[218] Celal Kırca. Uzay ayələrin təfsiri. s. 83-87.
[219] Qaf surəsi, ayə 38.
[220] Maurice Becaulle. Kitabi mukaddes, Kuran ve bilim. s. 44-51; 200-202.
[221] Həcc surəsi, ayə 47.
[222] Əhmədağa Əhmədov. Əsrarül-Quran (II kitab). Bakı, Təbib nəşriyyatı, 1994. s. 103-104.
[223] Abdulla Nəsri. Quranda dünyaşünaslığın əsasları. Bakı, Qələm nəşriyyatı, 2003. s. 7.
[224] Məaric surəsi, ayə 4.

Bilindiyi kimi, gün sözü izafidir. Hər bir göy cisminin günü dəyişikdir. Məsələn, bizim günümüz 24 saat olarkən, Pluton planetinin 150, Venera planetinin isə 5400 saatdır. Elə isə hansı ulduzun gününə görə yer və göylər altı gündə yaradılmışdır? Bunu Qurani-Kərim açıqca bildirmir. Bizim araşdırmamıza buraxır.[225]

Fəxrəddin Razinin də bildirdiyi kimi, "gün" günəşin doğması və batması ilə ortaya çıxan bir hal olduğundan günəşdən əvvəl gün hadisəsinin meydana gəlməsi düşünülə bilməz.

"Altı gün" ifadəsini, keçmiş müfəssirlərdən bəziləri altı dünya günü olaraq başa düşmüşlərsə də, göylər və yer yaradılmadan əvvəl gündən söz edilməyəcəyi üçün, bilavasitə bəzi müasir təfsirlərdə kainatın yaradılışı ilə əlaqədar yeni qanunlar diqqətə alınaraq bu altı günü hər birinin nə qədər müddət davam etdiyini ancaq Allahın bildiyi "altı dövr" deyə başa düşməyin daha münasib olduğu bildirilir.

Zəkəriyyə Qəzviniyə görə, ayədə keçən **"altı gün"**dən məqsəd, yaradılışın altı mərtəbəsidir. Baxmayaraq ki, zamandan əvvəl zamanın məhdudlaşdırılması mümkün deyildir.[226]

Yuxarıdakı ayələrdə olduğu kimi, "Yunus" surəsində də yer və göylərin altı gündə yaradılışı dilə gətirilir:

**"Rəbbiniz göyləri və yeri altı gündə xəlq edən, sonra ərşi yaradıb hökmü altına alan** (ərşə istiva edən), **hər işi yoluna qoyan** (sahmana salan) **Allahdır. Onun izni olmadan heç bir şəfaət edən ola bilməz. Bu, Rəbbiniz olan Allahdır. Ona ibadət edin. Məgər öyüd-nəsihət qəbul etməyəcəksiniz?"**[227]

Sözü gedən ayənin təfsirində Əhmədağa Əhmədov yazırdı: "Bu ayədə yerin və asimanların altı gündə yaradılmasından söhbət gedir. Allah taala hər şeyi bir anda yaratmağa qadirdir. Bundan ötrü onun **"ol"** deməsi kifayətdir, bu əmr ilə onun iradə etdiyi hər şey həmən olur. Lakin asimanların və yerin altı gündə yaranması onun qüdrəti, hikməti və məsləhəti nəticəsindədir. Təfsirçilərə görə, bunun səbəbi odur ki, Allah taala hər bir işi tələsmədən, təmkinlə, aramla edir və bunu insanlara nümunə göstərib, onların da öz işlərində tələsməməsini istəyib..."[228]

İslam alimləri yer və göylərin yaradılma müddətləri haqqında üç görüşə ayrılırlar:

a) Yer kütlə olaraq göylərdən əvvəl yaradıldı, lakin yayılıb döşənməsi və həyat üçün lazım olaraq qidaların yaradılışı göylərin yaradılışından sonra olmuşdur.

b) Yerlə göylər eyni zaman müddəti içində yaradıldılar.

c) Göy yer üzündən əvvəl yaradıldı.

Yer üzü və göy üzündən hansının daha əvvəl yaradılmış olduğu mübahisəsi qədim müfəssirlərdən bu yana sürüb getməkdədir. Bir qrup "Bəqərə" surəsinin 29-cu ayəsinə istinad edərək yer üzünün əvvəl yaradıldığını irəli sürmüş, başqa bir qrup "Naziat" surəsinin 27-30-cu ayələrini əsas götürüb göy üzünün yer üzündən əvvəl yaradıldığını qəbul etmişlər. Çünki bu ayələrdə göy üzü yer üzündən əvvəl qeyd edilmişdir. Lakin Qurani-Kərimin bu təbiət elmləri kitabı olmadığı, bundan ötrü də nazil edilmədiyi bir həqiqətdir. Bu kitab insanları tövhid və axirət əqidəsinə dəvət

---

[225] Şaban Doğan. Kurandan kainata. İstanbul, 1985. s. 15.
[226] Celal Kırca. Kurani-Kerimde fenn bilimleri. s. 72.
[227] Yunus surəsi, ayə 3.
[228] Əhmədağa Əhmədov. Əsrarül-Quran (II kitab). Bakı, Təbib nəşriyyatı, 1994. s. 44.

edərkən, təbiətin saysız gizliliklərinə diqqət çəkir və kainatın, yer üzü və göy üzünün yaradılışını düşünməyə çağırır. Bilavasitə burada tərtibi zamanın heç bir yeri yoxdur. Allah bunu, sadəcə, birliyinə və təkliyinə bir dəlil olaraq irəli sürmüşdür. Hansının əvvəl və ya sonra yaradıldığı əsas deyildir. Ancaq bunların əyləncə olsun deyə deyil, ciddi bir məqsəd üçün yaradıldıqlarını vurğulanmışdır. Buna görə də Qurani-Kərimdə bəzi yerlərdə yer üzü, bəzi yerlərdə göy üzü əvvəl qeyd edilir. Allah insanların diqqətini yer üzünün nemətlərinə çəkmək istədiyi vaxt yer üzünü əvvəl qeyd etməkdədir. Çünki insan yer üzünə daha yaxındır. Allahın ucalıq və qüdrətinə diqqət çəkiləcəksə, bu səfər ümumilikdə göy üzü əvvəl qeyd edilir. Çünki göy üzünün mənzərəsi, insanoğlunu həmişə heyrətlər içində qoymuşdur.[229] Bu sözlərin eynilə Əllamə Məclisinin qeyd edilmiş ayələr haqqında yazdığı fikirlərə tam uyğun olduğunu görürük. Müəllif də kainatın yaradılması haqqında qeyd eilən bu ayələrdə əsas məqsədin insanlara Uca Allahın qüdrətini, yeganəliyini və hər şeyə qadir olmasını bildirməsi üçün nazil olduğunu qeyd etmişdir.[230]

## 3.3. Yerin yaradılması

Dünyamızı meydana gətirən kütlə göyləri meydana gətirən ana kütlədən və ya günəşdən ayrıldığı sırada ya çox sıxlaşmış buludlu bir qaz kütləsi və ya çox axıcı bir kütlə, ya da bir atəş kütləsi halında olmuşdur. Bundan sonra isə yerin sıxlığı bütünlüklə artmış, səthi hissə yavaş-yavaş soyuyub torpağa çevrilmişdir. Bəzi Quran müfəssirləri Peyğəmbərin (s) adını vermədən, ilk torpağın meydana gəlməsini Məkkənin olduğu yerdən başladığını deyirlər ki, bunların ən başında təfsirçilərin piri sayılan Abdullah bin Abbas gəlməkdədir. Peyğəmbərimizin Əhli-beytindən (ə) də bu mövzuda hədislər vardır. İmam Məhəmməd Baqir (ə) buyurur: "Allah yer üzünü yaratmaq istədikdə küləklərə əmr etdi. Onlar suya toxundular. Sular dalğalanmağa başladı. Beləcə suyun üzərində bir qaymaq kimi köpük təbəqəsi oldu. Uca Allah bunu Kəbənin yerləşdiyi yerdə topladı. Onu bir köpük dağı halına gətirdi. Yeri onun altına yaydı, **"insanlar üçün ilk qurulan ev Bəkkədəki evdir"** ayəsi də buna işarə edir". Bir sözlə yer üzünün ilk yaradılan parçası Kəbədir. Yer üzünün geri qalan qismi ondan dartılıb yayıldı".[231]

Üzərində yaşadığımız bu üst hissənin meydana gəlməsi haqqında Qurani-Kərimdə bir çox ayə yer almaqdadır. Məsələn, göyün yaradılıb ona yüksəklik və dərinlik (səmk) verilməsini izah edən ayələrdən sonra belə deyilir:

وَأَغْطَشَ لَيْلَهَا وَأَخْرَجَ ضُحَاهَا. وَالْأَرْضَ بَعْدَ ذَلِكَ دَحَاهَا. أَخْرَجَ مِنْهَا مَاءهَا وَمَرْعَاهَا. وَالْجِبَالَ أَرْسَاهَا.

**"Gecəsini qaranlıq, gündüzünü işıqlı etdi! Bundan sonra da yeri döşəyib** (yayıb) **düzəltdi** (üstündə gəzmək və yaşamaq üçün onu yararlı hala saldı). **Ondan suyunu və otlağını çıxartdı.** (Orada) **dağları yerləşdirdi".**[232]

Burada yerin yayılıb döşənməsi mənasında olan **"dəhv"** felindən, oxşar mövzuların dilə gətirildiyi başqa bir surədə isə **"təhv"** felindən istifadə olunmuşdur:

---

[229] Mevdudi. Tefhimul-Kuran. V c. s. 182.
[230] Əllamə əl-Məclisi. Biharül-ənvar. LIV c. s. 2-5.
[231] əl-Küleyni. Üsulül-kafi. IV c. s. 403; Əllamə Təbatəbai. Təfsirül-mizan. III c. s. 519; Əllamə Hairi Ələmi. Dairətül-məarif. VI c. s. 364.
[232] Naziat surəsi, ayə 29-32.

وَالْأَرْضِ وَمَا طَحَاهَا.

**“And olsun yerə və onu döşəyənə”.**[233]

Əlbəttə ki, yer üzü yaşayış üçün bütün əlverişli xüsusiyyətlərlə təchiz edilmişdir. Üstündə gəzdiyimiz və hər cür ehtiyacımızı təmin etdiyimiz bu səth təbəqəsinə müəyyən şəkillər verilə bilməsi üçün şübhəsiz onun bu şəkilləri qəbul edə biləcək bir gücə çatması lazımdır. Bu baxımdan döşəyib düzənləmə hadisəsi eyni zamanda müəyyən qalınlıqda torpaq və qayaların meydana gəlməsini də əhatə edən bir müddətdir.

İbn Abbas, İbn Qüteybə və Təbəri kimi ilk müəlliflərlə yanaşı, Əllamə Təbatəbai kimi müasir müfəssirlərin də demək olar ki, hamısı **“dəhv”** və **“təhv”** fellərini eyni mənada, yerin yayılıb döşənməsi və düzlənməsi olaraq açıqlayıblar.

Mövzu ilə əlaqədar diqqəti çəkən məsələlərdən biri də, yerin göylərdən əvvəl yaradılmasıdır. Uca Rəbbimiz bu məsələni belə bəyan edir:

قُلْ أَئِنَّكُمْ لَتَكْفُرُونَ بِالَّذِي خَلَقَ الْأَرْضَ فِي يَوْمَيْنِ وَتَجْعَلُونَ لَهُ أَنْدَادًا...

“(Ya Peyğəmbər!) **De: “Doğrudanmı siz yeri iki gündə yaradanı inkar edir və Ona şəriklər qoşursunuz? O ki, aləmlərin Rəbbidir!”**[234]

Bunu İmam Məhəmməd Baqir (ə) belə bəyan etmişdir: “Allah Cəhənnəm odundan əvvəl Cənnəti, günahdan əvvəl itaəti, qəzəbdən əvvəl mərhəməti, şərdən əvvəl xeyiri, səmadan əvvəl yeri, ölümdən əvvəl həyatı, aydan əvvəl günəşi, qaranlıqdan əvvəl aydınlığı yaratmışdır”.[235]

Böyük təfsir alimlərindən olan Əllamə Təbatəbai yazır: “Müasir dövrün təbiət elmləri sahəsindəki tədqiqatlar da bu fikrə üstünlük verir ki, yer kürəsi günəşin bir parçası olmuş, sonra ondan ayrılmışdır. Ay da yerin bir parçası olub ondan ayrılmışdır”.[236]

Müasir elm inkişaf etdikcə, Qurani-Kərimin və hədisi-şəriflərin mənaları daha da dərin və elmi şəkildə insanlara aydın olur. Məkkənin yer kurəsinin mərkəzi olması ayə və hədislərdə varid olmuş elmi həqiqətlərdəndir. Muasir elmi kəşflər də bunu təsdiq etməkdədir. [237] Allah “Şura” surəsində buyurur: **“Şəhərlərin anası olan Məkkə əhlini və onun ətrafındakıları qopacağına heç bir şübhə olmayan qiyamət günü ilə qorxutmağın üçün beləcə sənə ərəb dilində Quran vəhy etdik”.**[238] Bu ayəni alimlər Məkkənin yer üzünün mərkəzi olmasına dəlil göstərirlər. Bundan başqa, hədislərdə də Məkkə şəhərinin yer üzünün mərkəzi olması haqqında məlumatlar vardır. Belə ki, hədislərdə nəql olunur ki, bir yəhudi Peyğəmbərin (s) yanına gəlib soruşur:

- Nə üçün Kəbə Kəbə adlanır? Peyğəmbər (s) buyurdu:

- Çünki o yer üzünün ortasıdır.[239]

Əllamə Məclisi bu növdən olan hədisləri səhih bildiyindən adı çəkilən əsərində Məkkənin yer üzünün mərkəzi olması fikrini təsdiq etmişdir.[240]

---

[233] Şəms surəsi, ayə 6.
[234] Füssilət surəsi, ayə 9.
[235] əl-Küleyni. Üsulül-kafi. VIII c. s. 127, hədis № 16.
[236] Əllamə Məhəmmədhüseyn Təbatəbai. əl-Mizan təfsiri. Tərc: M.Yaqub, E.Mustafaoğlu. VII c. Bakı, 2014. s. 17.
[237] Əhməd Cad. Vəsfül-Kəbətil-müşərrəfəti və tarixüha. s. 27-29.
[238] ayə, 8.
[239] Əllamə əl-Məclisi. Biharül-ənvar. XCVI c. s. 285, hədis № 8.
[240] Həmin mənbə. VI c. s. 97.

## 3.4. Dağların yaradılması

Qurani-Kərimdə dağlar haqqında çoxlu ayələr vardır. Dağlar düzənlik hissələrə nisbətlə insanda daha çox "Uca bir Allah" düşüncəsini meydana gətirir. Digər tərəfdən dağlar yer kürəsinin meydana gəlməsi haqqında bizə daha çox məlumat verir.[241]

Dağlar mənasında Qurani-Kərimin bəzi ayələrində "cibal" yerinə "rəvasi" kəlməsi istifadə olunmuşdur ki, bu, dərinə bərkidilmiş və yerində möhkəm dayanan mənasını ifadə edir.

Gəminin lövbər salması mənasında olaraq da ərəbcədə yenə eyni kökdən "irsa" feli istifadə olunur. Biz "Naziat" surəsində yer üzünün düzləşdirilməsi ilə əlaqədar işlər arasında dağların dərinlərə keçib tikilməsindən də söz edildiyini görürük ki, orada bunun üçün məsələn, "irsa" felindən istifadə olunmuşdur.

وَالْجِبَالَ أَرْسَاهَا.

"(Orada) **dağları yerləşdirdi".**[242] Buna görə dağlar bir gəmini yerində saxlamaq üçün lövbər saldığı kimi, dərinliklərdə bir yerə oturdularaq yerlərində möhkəmləndirilmiş olmaqdadırlar.

Dağların meydana gəlməsininin bəzi ayələrdə belə bir fellə dilə gətirilməsi və onların bundan meydana gəlmə mənası verməsi bu həqiqəti anlatmaq üçündür. Buna görə nə qədər böyük olursa olsun, bəzi dağ silsilələrinin dəniz dibindən yuxarıya doğru ucaldıqlarını və nəticədə dənizi doldurub əhatə etdiklərini fikirləşə bilərik. Dərindən yuxarıya ucaltmaq mənasındakı **"irsa"**ya qarşılıq bəzi ayələrdə, atıb yerinə qoyma mənasındakı **"ilqa"** felindən istifadə edilmişdir.

وَالأَرْضَ مَدَدْنَاهَا وَأَلْقَيْنَا فِيهَا رَوَاسِيَ وَأَنبَتْنَا فِيهَا مِن كُلِّ شَيْءٍ مَّوْزُونٍ.

"**Biz yer üzünü döşədik** (orada hər şeyi bərabər etdik), **orada möhkəm dayanan dağlar yerləşdirdik, hər şeydən** (bütün meyvələrdən) **müəyyən ölçüdə** (lazım olan qədər) **yetişdirdik".**[243]

Başqa bir ayədə də dağları meydana gətirən kütlələrin yerin dərinliklərinə bərkidilmiş olduğu və bunların köməyi ilə düz hissələrin sallantısız və rahat hala gətirildikləri də belə bəyan olunur:

أَلَمْ نَجْعَلِ الْأَرْضَ مِهَاداً. وَالْجِبَالَ أَوْتَاداً.

"**Məgər Biz yeri döşək etmədikmi?! Dağları da dirək?!**"[244]

Əlbəttə ki, dağlar kütlə ağırlıqları ilə dərinliklərə doğru təzyiq edərək səth təbəqədəki müvazinəti saxlamaqdadır. Deməli, dağın özünün belə göydən etibarən yuxarıya doğru formalı bir vəziyyətdə tikilmiş olması lazımdır. Elə-belə tikilmə şübhəsiz ki, forma pozuntularına və çoxnövlü çöküntü və titrəməyə yol aça bilər. Buna görə də Qurani-Kərimdə göylərin çatdığı yüksəklik ölçüsünə diqqət çəkildiyi sırada dağların təməldən tikilişlərinə də diqqət çəkilərək belə deyilir:

وَإِلَى الْجِبَالِ كَيْفَ نُصِبَتْ.

"**Dağlara** (baxmırlar ki) **necə dikəldilmişdir?**"[245]

---

[241] Geniş məlumat üçün bax: Vasim Məmmədəliyev. Quran və elm. Bakı, Qismət, 2006. s. 53-55.

[242] Naziat surəsi, ayə 29.

[243] Hicr surəsi, ayə 19.

[244] Nəbə surəsi, ayə 6-7.

Dünya sadəcə, bir düzənlik olsaydı, ondan əlbəttə bugünkü qədər faydalanmazdıq. Qoca dağlar yalnız iqlim dəyişikliyi ilə bitki örtüyü və canlıların müxtəlifləşməsinə yol açmadılar. Onlar, Qurani-Kərimdə bildirildiyi kimi, yer üzünün əsaslı bərabərlik forması oldular.

Əllamə Məclisi dağların yaradılması haqqında "Biharül-ənvar" əsərinin 57-ci cildinin 32-ci fəsildə məlumatlar vermiş, burada zəlzələlərin baş verməsi və s. təbiət hadisələrinə də toxunmuşdur.[246] O, dağların yaradılmasına əsas səbəb kimi yerin çalxalanmamasını göstərmişdir.

## 3.5. Göylərin yaradılması

Göy şübhəsiz ki, çoxlu qalaktikalardan meydana gəlmişdir və hər qalaktika içində də çoxlu bürclər vardır. Dünyamızın içində olduğu qalaktikaya "kəhkəşan" deyilir. Bir qalaktikanın isə planet və peyklərdən başqa yüz milyard ulduzdan meydana gəldiyi təxmin edilir və kainatda bu şəkildə 200 milyard qalaktika olduğu güman edilir. Bu rəqəmlər hər vaxt dəyişikliyə uğraya bilər. Hər ulduzun bizim günəşimiz kimi çox sayda planet və quyruqlu ulduza sahib olduğu və planetlərin də ay kimi peyklərə malik olduğu fikirləşilərsə, bir qalaktika içindəki cisimlərin sayını yüz dəfə çoxaltmaq lazımdır. Bunlara kiçik planetlər, böyük qayalar və müxtəlif ara maddələr də əlavə olunarsa, bir qalaktika insanı dəli edəcək dərəcədə böyüklüyə çatmış olur. Amma qalaktika tək bir göyün, sadəcə, kiçik bir parçası kimidir. Bəzən bir ulduz belə, insanı çaşdıracaq böyüklüyə sahibdir. Qurani-Kərimdə "**Sonra gözünü qaldırıb iki dəfə bax. Göz orada** (axtardığını tapmayıb) **zəif, yorğun düşərək yenə də sənə tərəf qayıdacaqdır!**"[247] deyilərək, insanın o böyüklük və o ehtişam qarşısında məğlub olacağı dilə gətirilir.

Qalaktikalar kainat boşluğunda bir ada və onların aid olduqları göyün bir növ qitələrini meydana gətirməkdədir. Bir qalaktika içərisində müəyyən ulduzlardan meydana gələn qruplar da bürcləri meydana gətirirlər ki, bunlara Qurani-Kərimdə yer verilmişdir. Bir göyün qitəsi halındakı qalaktikalar bütün göyə nisbətlə onun bürcləri kimidirlər. Bu səbəblə Qurani-Kərimdə "buruc" sözü bizim bu gün başa düşdüyümüz bürclərdən başqa qalaktikaları da ifadə etmək üçün istifadə edilmiş ola bilər. Çünki hər ikisi də ulduz qruplarından meydana gəlir. Belə ki, biz gözümüzlə ancaq öz qalaktikamız olan kəhkəşanın bir hissəsini görə bilirik.

Buruc sözü Qurani-Kərimdə dörd ayrı yerdə və hamısında da "buruc" şəklində cəm olaraq keçməkdədir.

Qurani-Kərimdə "buruc" adını alan surənin ilk ayəsində

وَالسَّمَاء ذَاتِ الْبُرُوجِ.

"**And olsun bürclər sahibi olan göyə**"[248] deyilərək müəyyən ulduz qruplarına diqqət çəkilmişdir.

Bürclər, əslində, bizə nisbətlə var görünən şeylərdir və göydə toplu olaraq gördüyümüz hər hansı bir ulduz qrupunu ifadə edirlər. Həqiqətdə isə cəm formada

---

[245] Ğaşiyə surəsi, ayə 19.
[246] Əllamə əl-Məclisi. Biharül-ənvar. LVII c. s. 101.
[247] Mülk surəsi, ayə 4.
[248] Buruc surəsi, ayə 1.

görünən ulduzlar arasında çox böyük məsafələr var. Qədimdən indiyə bu şəkildə dünyamızdan görünən on iki bürc müəyyən edilmişdir ki, kainatın dərinliklərinə doğru gedildikcə, dəyişən məsafələrə görə, bu görünüşlərin sayının artması və bəzi nöqtələrdə də azalması təbiidir.

Bürclərin insan qədəri və təbiəti üzərindəki təsirlərinə gəldikdə, Qurani-Kərimdə belə bir haldan söz edilmir. Ulduzlardan və bürclərdən falçılıq yolu ilə hökmlər çıxarmaq isə Peyğəmbər (s) tərəfindən qəti şəkildə rədd edilmişdir.

Müasir alimlərin dediklərinə görə, qalaktikaların və göylərin dərinliklərində bir futbol topu boyda, yaxud da daha kiçik, qara və bunun kimi də ağ və qara nöqtələr vardır.[249]

## 3.6. Əllamə Məclisiyə görə kainatın yaradılması

Əvvəlki fəsillərdə də qeyd etdiyimiz kimi, Əllamə Məclisi "Biharül-ənvar" əsərinin 54-cü cildində kainatın xəlq edilməsi haqqında xüsusi fəsillər açmış və burada yerlərin, göylərin və digər varlıqların yaradılışı haqqında Quran-Kərim və hədisi-şəriflər çərçivəsində məlumatlar vermişdir.[250] O, mövzunun elmi təhlilini verməmişdən qabaq bu haqda ayələri, daha sonra isə hədisi-şərifləri qeyd etmişdir. Bundan sonra isə ayə və hədislərdə keçən bəzi sözləri lüğətşünaslıq baxımından izah etmiş və daha sonra isə mövzunun elmi təhlilinə başlamışdır. Əlbbətə, burada xüsusi şəkildə qeyd etmək lazımdır ki, artıq Əllamə Məclisinin vəfatından 300 ildən artıq vaxt ötmüşdür. Son üç yüz il ərzində təbiətşünaslıq elmlərində olan inkişaf hər kəsə bəllidir. Buna görə də Əllamə Məclisinin adı çəkilən əsərindəki bəzi elmi görüşlər öz əhəmiyyətini itirmişdir. Lakin buna baxmayaraq alimin dövrünə qədər olan bəzi elmi məlumatlarla da tanış olmağın əhəmiyyəti ola bilər.

Qeyd olunduğu kimi, müəllifimiz adı çəkilən əsərinin 54-cü cildindən 63-cü cildinə kimi olan məlumatları, daha doğrusu topladığı ayə və hədisləri sırf təbiətşünaslıq elmlərinə həsr etmişdir. O, əsərin 54-cü cildində I fəslə "Aləmin xəlq edilməsi" adını vermiş və buraya ilk olaraq Qurani-Kərimin "əl-Bəqərə" (ayə 29), "əl-Ənam" (ayə 1), "əl-Əraf" (ayə 4), "Yunus" (ayə 3), "Hud" (ayə 7), "əl-Fürqan" (ayə 59) və digər surələrin müvafiq ayələrini toplamışdır. Ayələri qeyd etdikdən sonra onlara qısa təfsir vermiş və təfsirində daha çox bu ayələrin insanlara Allahın qüdrətini xatırlatdığını, hər bir varlığın yalnız və yalnız onun qüdrəti sayəsində yaradıldığını önə çəkmişdir. Həmçinin müəllif qeyd olunmuş ayələrə verdiyi təfsirində insanların dünyaya çox meyil etməməsi, dünya ləzzətləri müqabilində axirət dünyalarını puç etməmələrini vurğulamışdır. Müəllifin ilkin olaraq bu qənaətə gəlməsi qeyd olunmuş ayələrin məntiqi mənaları ilə də üst-üstə düşməkdədir. Çünki Uca Rəbbimizin bu ayələri endirməsində əsas məqsədlərindən biri, yuxarıda da qeyd etdiyimiz kimi, insanları düşünməyə vadar etməsidir, yoxsa Qurani-Kərim bir təbiətşünaslıq kitabı deyildir.

Əllamə Məclisi adı çəkilən əsərində Allah tərəfindən ilk öncə nəyin yaradılması üzərində dayanmış və bu haqda müxtəlif hədisləri qeyd etmişdir. O, Cəlaləddin Süyutinin (öl. 1505) "əd-Dürrul-mənsur" əsərinə (VI c. səh. 13) istinadən Allah

---

[249] Celal Yeniçəri. Uzay ayelerin tefsiri. s. 127.
[250] Əllamə əl-Məclisi. Biharül-ənvar. LIV c. s. 2-5.

tərəfindən ilk yaradılan varlığın qələm olduğunu bildirmişdir. İbn Abbasdan gələn həmin hədisdə deyilir:

وعن ابن عباس قال: إن أول ما خلق الله من شئ القلم، فأمره أن يكتب ما هو كائن إلى يوم القيامة والكتاب عنده قرأ (وإنه في ام الكتاب لدينا لعلي حكيم).

"Allahın ilk yaratdığı şey qələmdir. Çünki onun vasitəsilə qiyamətədək olacaqları yazmışdır".[251]

Müəllif kainatın yaradılması haqqında danışarkən, ayədə keçən "**səma**" sözünü lüğətşünaslıq baxımından təhlil etmiş və bunun üçün görkəmli ərəb leksikoqrafı Rağib əl-İsfahaninin (öl. 1108) "Müfrədatu əlfazil-Quran" əsərinə istinadən yazmışdır: "Səma" sözü "sümuvv" kökündən alınmış və lüğətdə "ucaldılmış" mənasını ifadə edir. Daha sonra isə o, bu sözü ərəb qrammatikası nöqteyi-nəzərindən izah edərək onun qadın cinsində olduğunu qeyd etmişdir.[252]

Müəllifin burada qeyd etdiyi maraqlı məqamlardan biri budur ki, o qədim astronomiyada məşhur olan göyün doqquz təbəqədən ibarət olması fərziyyəsini də mənasız saymışdır. O, ayədə qeyd olunmuş **"yeddi qat göy"** ifadəsini dəlil gətirərək, qədim astronomların bu barədəki fikirlərini əsassız adlandırmışdır. Həmçinin o, bu fərziyyələrin Bətlyəmusa (Ptolomeyə) aid olduğunu da vurğulamışdır.[253] Əlbəttə ki, müəllif bu fərziyyələri puç adlandırarkən bir neçə dəlil də irəli sürmüşdür.

Yuxarıda qeyd edilmiş ayələrdə yerlərin və göylərin altı gündə xəlq edildiyini görürük. Burada keçən "gün" kəlməsi haqqında təfsir və hədis kitablarında müxtəlif fərqli görüşlərin və hədislərin olmasına baxmayaraq, Əllamə Məclisi qətiyyətlə bu fikrin üzərində dayanır ki, burada məqsəd dünya vaxtı ilə ölçülən zaman ölçüsüdür. O, İbn Abbasın ayəyə verdiyi təfsirlərin birində "altı gün axirət vaxtı ilədir və hər bir gün axirət ölçüsü ilə min ilə bərabərdir" sözünün əsassız olduğunu, bu hədisin ayənin zahiri mənası ilə də uyğun gəlmədiyini vurğulamışdır.[254] Onun yerlərin və göylərin altı gündə xəlq edilməsinə olan münasibətindən biri də budur ki, Allah istəsəydi, bir göz qırpımında da bunları yaradardı. Lakin o, bununla insanlara ibrət verir ki, öz işlərində tədrici olsunlar.

Əllamə Məclisi ayədə keçən **"altı gün"** ifadəsini Fəxrəddin Razinin "Məfatihül-qeyb" əsərində "əs-Səcdə" surəsinə verdiyi təfsirə istinadən yazırdı: "Allah taala peyğəmbərlikdən bəhs etdikdə, Peyğəmbərin (s) tövhidə çağırma və dəlil gətirmə barəsində üzərinə düşən vəzifələri də bəyan etmək üçün **"Allah göyləri və yeri yaradandır",** – deyə buyurmuşdur. Ayədəki **"alt gündə"** ifadəsinin düşünən kəslərə görə, altı vəziyyətə işarə olduğunu daha əvvəl ("Əraf" surəsində də) söyləmişdik. Bu belədir. Çünki **"göylər"**, **"yerlər"** və **"bunların arasında"** ifadələri üç ayrı şeydir. Bunların hər biri üçün şəxs və sifətlərdən söz gedir. O halda Allahın göyləri yaratması bir hal, onun əlamətlərini yaratması başqa bir haldır. Yenə yeri yaratması bir hal, əlamətlərini yaratması başqa bir haldır. Həmçinin Allahın bunların arasında olan şeyləri yaratması bir hal, onların əlamətlərini yaratması başqa bir haldır. Beləcə, bu üç şey, altı hal üzrə olan altı şey olmuş olur. Allah burada **"gün"** sözündən istifadə etmişdir. Çünki insan Allahın yaratmasına baxıb onu düşündüyündə bunu bir hərəkət

---

[251] Həmin mənbə. LIV c. s. 372.
[252] Həmin mənbə. LIV c. s. 5.
[253] Həmin mənbə. LIV c. s. 6.
[254] Həmin mənbə. LIV c. s. 7.

olaraq görür. Hərəkətin zərfi isə zamandır. Günlər də zamanların ən məşhurudur. Əgər ayənin mənası belə qəbul edilməzsə, onun mənası da aydın olmayacaqdır. Çünki göylər yaradılmamışdan əvvəl gecə və gündüz deyə bir şey yox idi. Bu eynilə birinin bir başqasına “Sənin doğulduğun gün mübarək bir gün idi” deməsinə bənzəyir. O kimsənin gecə doğulması da mümkündür. Onun gecə doğulması bu sözlə nəzərdə tutulan mənadan xaric deyil. Çünki bu kimsənin nəzərdə tutduğu xüsus, o kimsənin doğumunu içinə alan zaman kəsiyidir”.[255]

Əllamə Məclisi “dünya” sözü haqqında da maraqlı açıqlamalar etmiş, sözün etimoloji mənalarını izah etməyə çalışmışdır. O, adı çəkilən əsərində Şeyx Səduqun “əl-İləl” əsərinə (I c. səh. 2) istinadən belə bir hədis nəql etmişdir:

عن علي بن أحمد بنمحمد، عن محمد بن يعقوب، عن علي بن محمد، بإسناده رفعه قال: أتى علي بن أبي طالب عليه السلام يهودي فسأله عن مسائل، فكان فيما يسأله لم سميت الدنيا دنيا؟ ولم سميت الآخرة آخرة، فقال عليه السلام: إنما سميت الدنيا دنيا لانها أدنى من كل شئ، وسميت الآخره آخرة لان فيها الجزاء والثواب.

“Bir yəhudi İmam Əlinin (ə) yanına gəlib ondan bir neçə məsələ haqqında sual soruşdu. Soruşduğu suallardan biri bu idi ki, nə üçün dünya dünya, axirət də axirət adlanır? İmam (ə) onun sualının cavabında buyurdu: “Dünya hər bir şeydən aşağı olduğu üçün dünya, axirət də orada savab və cəzaların veriləcəyi üçün axirət adlanmışdır”.[256]

Bundan başqa o, dünya sözünün “dünv” kökündən yarandığını və lüğətdə “yaxın” mənasını bildirdiyini, həmçinin Qurani-Kərimin ayəsində[257] də bu mənada istifadə edildiyini qeyd etmişdir. Müəllif dünya sözünün “alçaq” mənasında olduğunu və bunun da təhqiramiz bir söz olduğunu, yəni dünyaya bağlı olanların dünya tərəfindən həmişə rəzil edildiklərini də önə çəkmək istəmişdir.[258]

Müəllif adı çəkilən əsərinin 55-ci cildində “Səmalar, onların keyfiyyəti və sayları” adlı xüsusi fəsildə (8-ci fəsil) səma ilə əlaqəli bütün ayələri, sonra da mövzuya aid hədisləri bir araya toplamışdır. Onun burada toxunduğu incə məqamlardan biri də göylərin sütunsuz halda ucaldılması məsələsidir ki, buna da müəllif hədislər vasitəsilə aydınlıq gətirmişdir. O, Uca Allahın “Qurani-Kərimin “Rəd” surəsində (ayə 2) buyurduğu: **“Göyləri, gördüyünüz kimi dayaqsız olaraq yüksəldən, sonra ərşi yaradıb hökmü altına alan müəyyən vaxtda** (qiyamətə) **qədər** (səmada) **dolanan Günəşi və Ayı** (iradəsinə) **tabe edən, bütün işləri yoluna qoyan, ayələri müfəssəl izah edən məhz Allahdır.** (Bütün bu dəlillərdən sonra), **Rəbbinizlə qarşılaşacağınıza** (qiyamət günü dirilib haqq-hesab üçün hüzurunda duracağınıza), **bəlkə, inanasınız!**” - ayəsinə verdiyi izahda arada sütunların olduğunu, lakin bizim onları adi gözümüzlə görmədiyimizi aşkar şəkildə bəyan edir”.[259] Yəqin ki, müəllif bu şərhi İmam Rzadan (öl. 818) nəql olunan bir hədisə istinad vermişdir. Çünki bu ayənin şərhi barədə İmam Rzadan (ə) soruşdular. İmam (ə) onlara dedi: “Allah taala **“Göyləri dayaqsız olaraq yüksəldən”,** – deyə buyururmu?

Dedilər:

---

[255] Həmin mənbə. LIV c. s. 9. Fəxrəddin Razinin “Məfatihül-qeyb” (VI c. s. 751. “əs-Səcdə” surəsi) əsərinə istinadən.
[256] Əllamə əl-Məclisi. Biharül-ənvar. LIV c. s. 356.
[257] Rəd surəsi, ayə 21.
[258] Əllamə əl-Məclisi. Biharül-ənvar. LIV c. s. 357.
[259] Həmin mənbə. LV c. s. 67.

- Bəli.

İmam (ə) buyurdu:

- Sütunlar var, lakin siz onları görmürsüz”.

İmamın (ə) cavabından məlum olur ki, **“gözə görünməz sütun”** dedikdə, məhz cazibə güvvəsi nəzərdə tutulmuşdur. Çünki bu qanunu o vaxtkı camaata açıq şəkildə bəyan etmək mümkün deyildi. Qurani-Kərim isə bu qanunu sadə yolla insanlara çatdırmışdır.

## IV FƏSİL

## ƏLLAMƏ MƏCLİSİNİN "BİHARÜL-ƏNVAR" ƏSƏRİNDƏ CANLILARIN YARADILMASI

### 4.1. Mələklər və cinlərin yardaılması

Mələk sözü etimoloji cəhətdən sami sözü olub "xəbər verən" mənasına gəlir.[260] Terminoloji mənada isə mələklər "Allah tərəfindən yaradılmış, müxtəlif şəkillərdə görünə bilən, çətin işlərə gücü çatan, cinsiyyəti olmayan və Allaha itaətdən ayrılmayan lətif varlıqlardır"[261] kimi tərif olunur. Mələk sözü Qurani-Kərimdə yüz dəfə təkrarlanıb.[262] Mələklərin bəzilərinə Allah tərəfindən kainatda işlər verilmişdir. Məsələn, Cəbrayıla (ə) vəhyin çatdırılması, Əzrayıla (ə) canların alınması və s.

Biz Qurani-Kərimdən və Peyğəmbərin (s) sözlərindən mələklər, cinlər və insanlar olmaq üzrə ağıllı yaradılan üç cür varlıq olduğunu başa düşürük. Bunlardan mələklər "nurdan", cinlər "oddan", insanlar isə torpaqdan yaradılmışdır. Mələklər ağıllarından həmişə doğru istifadə edən və kainatda böyük işlər görən varlıqlar olmuşlar. Cinlər isə insanlar kimi həmişə ağıllarından düzgün istifadə etməyə bilərlər. Cinlərdən bir növ olan şeytan isə ağlını səhv işlədən və Allaha itaətdən çıxan bir məxluqu təmsil etməkdədir. Qurani-Kərimdə insanların onun kimi olmaması üçün həmişə xəbərdarlıq edilmişdir. Bir çoxlarının zənn etdiyi kimi, şeytan üsyankar bir mələk deyil, o itaətdən çıxan bir cindir ki, bu hal Qurani-Kərimdə açıq şəkildə bildirilmişdir.

**وَإِذْ قُلْنَا لِلْمَلَائِكَةِ اسْجُدُوالِآدَمَ فَسَجَدُوا إِلَّا إِبْلِيسَ كَانَ مِنَ الْجِنِّ فَفَسَقَ عَنْ أَمْرِ رَبِّهِأَ فَتَتَّخِذُونَهُ وَذُرِّيَّتَهُ أَوْلِيَاء مِن دُونِي وَهُمْ لَكُمْ عَدُوٌّ بِئْسَ لِلظَّالِمِينَ بَدَلاً.**

"(Ya Rəsulum!) **Xatırla ki, bir zaman mələklərə: "Adəmə** (təzim məqsədilə) **səcdə edin!"–demişdik. İblisdən başqa hamısı səcdə etdi. O, cinlərdən** (cin tayfasından) **idi. O öz Rəbbinin əmrindən çıxdı. Onlar sizin düşməniniz olduğu halda, siz Məni qoyub onu və nəslini** (övladını özünüzə) **dostmu tutursunuz? Bu, zalimlər üçün necə də pis dəyiş-düyüşdür!"**[263]

Qurani-Kərimin ayələrinə görə mələklərin iki əsas xüsusiyyətləri vardır. Bunlardan birincisi, Allahın əmrinə qeyd-şərtsiz itaət göstərməkdir. Bu haqda ayələrin birində belə bəyan edilir:

**يَا أَيُّهَا الَّذِينَ آمَنُوا قُوا أَنْفُسَكُمْ وَأَهْلِيكُمْ نَارًا وَقُودُهَا النَّاسُ وَالْحِجَارَةُ عَلَيْهَا مَلَائِكَةٌ غِلَاظٌ شِدَادٌ لَا يَعْصُونَ اللَّهَ مَا أَمَرَهُمْ وَيَفْعَلُونَ مَا يُؤْمَرُونَ.**

**"Ey iman gətirənlər! Özünüzü və əhli-əyalınızı elə bir oddan qoruyun ki, onun yanacağı insanlar və daşlar** (daşdan düzəlmiş bütlər), **xidmətçiləri isə Allahın onlara verdiyi əmrlərə asi olmayan, buyurduqlarını yerinə yetirən daş qəlbli** (heç kəsə zərrəcə rəhm etməyən) **və çox sərt təbiətli mələklərdir** (zəbanilərdir)**".**[264]

---

[260] İslam Ensiklopediyası. VII c. İstanbul, 1988. s. 661.
[261] B.Topaloğlu. Y.Ş.Yavuz. İ.Çelebi. İslamda inanç esasları. İstanbul, 1999. s. 232.
[262] Abdulla Nəsri. Quranda dünyaşünaslığın əsasları. Bakı, Qələm nəşriyyatı, 2003. s. 159.
[263] Kəhf surəsi, ayə 50.
[264] Təhrim surəsi, ayə 6.

Mələklərin ikinci əsas xüsusiyyəti isə onların Allahın xalis bəndələri olmasıdır. Buna işarə edən bir çox ayələrin birində belə bəyan edilir:

شَهِدَ اللَّهُ أَنَّهُ لَا إِلَٰهَ إِلَّا هُوَ وَالْمَلَائِكَةُ وَأُولُو الْعِلْمِ قَائِمًا بِالْقِسْطِ ۚ لَا إِلَٰهَ إِلَّا هُوَ الْعَزِيزُ الْحَكِيمُ.

**“Allah Özündən başqa heç bir tanrı olmadığına şahiddir. Mələklər və elm sahibləri də haqqa-ədalətə boyun qoyaraq** (haqqa tapınaraq) **o qüvvət, hikmət sahibindən başqa ibadətə layiq heç bir varlıq olmadığına şəhadət verdilər”.**[265]

Qurani-Kərimdə mələklərin mərtəbələri, onların görünüşcə hansı formada olması haqqında da məlumatlara rast gəlinir. Belə ki, Uca Rəbbimiz onların qanadlarının sayı haqqında belə bəyan edir:

الْحَمْدُ لِلَّهِ فَاطِرِ السَّمَاوَاتِ وَالْأَرْضِ جَاعِلِ الْمَلَائِكَةِ رُسُلًا أُولِي أَجْنِحَةٍ مَثْنَىٰ وَثُلَاثَ وَرُبَاعَ ۚ يَزِيدُ فِي الْخَلْقِ مَا يَشَاءُ ۚ إِنَّ اللَّهَ عَلَىٰ كُلِّ شَيْءٍ قَدِيرٌ.

**“Göyləri və yeri yoxdan yaradan, ikiqanadlı, üçqanadlı və dördqanadlı mələkləri** (peyğəmbərlərə) **elçi edən Allaha həmd olsun!** (Allah) **məxluqatda istədiyini artırar. Həqiqətən, Allah hər şeyə qadirdir!”**[266]

Əllamə Məclisi “Biharül-ənvar” əsərində (56 c. 23-cü fəsil) mələklər haqqında geniş bəhs etmişdir. O, mələklərin təsnifatı haqqında yazırdı: “Mələklər aşağıdakı qruplara bölünürlər:

**1. Kəribiyyun və ya aliyyun dəstəsinə aid mələklər.**

Bu dəstəyə aid olan mələklər Haqqın zatına vurğun olar, Onun cəlal və camal sifətlərinin seyrinə qərq olarlar. Onlar nə özlərinə, nə də başqalarına diqqət yetirər, yalnız Uca Allahı anarlar. İmam Cəfər Sadiq (ə) bu mələklər haqqında belə buyurur: “Kəribiyyun dəstəsinə aid mələklər Allahın yaratdığı ilkin varlıqlardandır. Onlar ərşin arxasında yerləşirlər. Bu mələklərdən bircəsinin işığı yer üzərindəki varlıq aləmi arasında paylanarsa, onların hamısına bəs edər”.

İmam Sadiq (ə) sonra belə davam edir:

“Musa (ə) öz istədiyini Allahdan xahiş etdikdə, Allah bu mələklərdən birinə əmr etdi ki, təcəlli etsin. Həmin mələk Tur dağına təcəlli etdi və dağ parçalandı”.

Bu hədis Quran ayəsində Musanın (ə) Tur dağında Allaha müraciətini və təcəlli məqamını izah edir”.[267]

Bu məqama sahib olan mələklər qeyd etdiyimiz kimi, Allahdan başqa heç bir varlıq haqqında düşünməz və hətta Allahın Adəmi (ə) və kainatı yaratdığını belə bilməzlər. Bunu Əllamə Məclisi belə nəql edir: “Aliyyun dəstəsindən olan mələklər Allahdan savayı başqa şeylərə diqqət yetirməzlər. Onlar Adəmə (ə) səcdə etməyə göndərilməmişlər. Onlar Allahın Adəmi (ə) və dünyanı yaratdığını da bilmirlər”.[268]

**2. İbadət edən mələklər.**

**3. İşgüzar mələklər.**

Biz Qurani-Kərimdən şeytanın və bilavasitə cinlərin atəşdən, insanın da torpaqdan yaradıldığını öyrənirik. Amma mələklərin nədən yaradıldıqlarını dəqiq öyrənə bilmirik. Onların nurdan yaradıldıqları ancaq hədislərdə və bəzi təfsir kitablarında qeyd edilmişdir. Bu haqda Əllamə Məclisi İmam Cəfər Sadiqin (ə) belə

---

[265] Ali-İmran surəsi, ayə 18.
[266] Fatir surəsi, ayə 1.
[267] Əllamə əl-Məclisi. Biharül-ənvar. LVI c. s. 184.
[268] Həmin mənbə. LVI c. s. 184.

buyurduğunu nəql edir: “إن الله عزوجل خلق الملائكة من نور – Allah mələkləri nurdan yaratmışdır”.[269]

Daha sonra müəllif mələklərin bir qisminin adlarını və vəzifələrini, Cəbrayılın (ə) vəhyə, İsrafilin (ə) suru üfürməyə, Əzrayılın (ə) can almağa, Mikayılın (ə) təbiət hadisələrinə, Malikin (ə) Cəhənnəmin, Rizvanın (ə) isə Cənnətin gözətçisi olduqlarını, bunlardan başqa Ərşi daşıyan mələklərin, qəbirdəki sorğu-suala Nəkir (ə) və Münkir (ə) adlı iki mələyin, insanların əməllərini yazmaq üçün sağ və sol çiyinlərdə oturan mələklərin olduğunu da əsərində qeyd etmişdir.[270]

Mələklərin insan və cindən fərqləri budur ki, yeyib-içmək, nəsil vermək, cins növünə malik olmaq xüsusiyyətləri yoxdur. Onlar mükəmməl yaradılmış varlıqlardır. Biz mələklərin maddə və kainatın hansı mərhələsində yaradıldıqlarını bilmirik. Mələklər ilk varlıqdırlar. İnsanlar isə yaranış baxımından cinlərin ardından sonrakı mərhələni təşkil edirlər. Mahiyyətini bilmədiyimiz mələklər və cinlər haqqında Qurani-Kərimdə bir çox ayə vardır ki, bunların da bir hissəsini yuxarıda qeyd etdik.

Cinlərin bizim dünyamızın içərisində yaradılmalarına baxmayaraq, mələklər yer kürəsinin maddələrindən yaradılmamışlar.

Əllamə Məclisi mələklərin sayının yalnız və yalnız Allah tərəfindən bilindiyini, onların sayının son dərəcə çox olduğunu, hər bir mələyin özünəməxsus şəkildə işinin olduğunu da qeyd etmişdir.[271] O, bir şəxsin İmam Əlidən (ə) “Allahın yer üzündə Adəmdən (ə) qabaq ona ibadət edəcək varlıqlar yaratmışdırmı?” - sualına, İmamın (ə) belə cavab verdiyini yazır: “Bəli. Yer üzünü yaratmamışdan əvvəl göyləri yaratmış, sonra mələkləri yaratmışdır. Mələklər qanadlı məxluqlardır. Onlar göyün müxtəlif təbəqələrində məskunlaşmışlar və gecə-gündüz Allahı zikr etməklə məşğuldurlar. Onların içindən İsrafili, Mikayılı və Cəbrayılı seçmişdir. Allah bundan sonra yeri yaratmışdır. Orada cinləri xəlq etmiş və onlara da qanadlar vermişdir. Amma onlar mələklərin yaradıldığı maddədən yaradılmamışlar. Allah cinləri yerin müxtəlif təbəqələrində məskunlaşdırmışdır. Onlar da orada Allaha zikrlər deməklə məşğuldurlar. Bundan sonra isə bunlara bənzəməyən, bədənləri, ruhları, qanadsız və yeyib-içən cinlər yaratmışdır.. Sonra bunların bəziləri Allahın əmrindən çıxmış, bir-birlərinin qanlarını tökmüş və fəsad yaratmışlar...”[272]

Müəllif “Mələklərin həqiqəti, onların əlamətləri və işləri” haqqında xüsusi fəsildə mövzu ilə əlaqəli bütün problemləri incələməyə çalışmışdır. İlk öncə mələklər haqqında olan “əl-Bəqərə” (30-34, 97-98, 234), “Ali-İmran” (18, 39, 42, 45), “əl-Ənam” (61, 93, 98, 158), “ər-Rəd” (11, 13) və digər surələrin müvafiq ayələrini bir araya toplayan müəllif, daha sonra onları öz adəti üzrə təhlil etmişdir. O, mələklərin adi insanlar tərəfindən görünməsinin qeyri-mümkün olduğunu, lakin Allahın izni ilə onların istədikləri zaman insan şəklində və ya öz həqiqi surətlərində görünə biləcəklərini də əsərində qeyd etmişdir. Buna misal olaraq Cəbrayılın (ə) Peyğəmbərimizə (s) Dihyə əl-Kəlbinin surətində göründüyünü, İbrahim (ə) və Lut (ə) peyğəmbərin mələklərdən ibarət qonaqlarını dəlil olaraq göstərmişdir.[273] Bundan

[269] Həmin mənbə. LVI c. s. 191.
[270] Həmin mənbə. LVI c. s. 193.
[271] Həmin mənbə. LIV c. s. 319.
[272] Həmin mənbə. LIV c. 322-323.
[273] Həmin mənbə. LVI c. səh. 149.

başqa, qəbirdə möminlərdən Bəşir və Mübəşşir, kafir və günahkarlardan isə Nəkir və Münkir adlı iki mələyin sorğu-sual edəcəklərini və bu zaman onların insana görünəcəklərini də qeyd etmişdir.[274]

Mələklərlə bağlı məlumatlardan biri də onların Allahın əmrlərinə tam itaətkar olmaları, heç vaxt günaha, Allaha qarşı üsyana qalxmayacaqlarıdır. Həmçinin mələklərin bir-birlərini əvəz etdikləri, gecə və gündüz mələklərinin olduğunu, növbə ilə insanların əməllərinə nəzarət etdikləri də əsərdə vurğulanmışdır.[275]

Müəllif qoruyucu (mühafizə) mələklərinin olduğunu, onların insanların həm əməllərini, həm də onların özlərini cinlərdən və digər məxluqlardan qoruduqlarını da hədislərə əsasən əsərində qeyd etmişdir. O, Kəbə istinadən yazırdı: "Əgər mühafizə mələkləri olmasaydı, cinlər sizin yemək-içməklərinizə ... sahib olardılar".[276]

Mövzu ilə əlaqəli diqqəti çəkən məsələlərdən biri də insanların sağ və sol çiyinlərində mələklərin oturması, insanların gün ərzində etdikləri savab və ya günahların onlar tərəfindən yazılmasıdır. Bu haqda müəllif Fəxrədin Raziyə istinadən yazırdı:

"Peyğəmbərə (s) deyildi:

- Bizə bəndəyə neçə mələyin təyin olunması haqqında xəbər ver. Peyğəmbər (s) buyurdu:

- Sağ çiynində olan mələk savab işləri yazır. Bir savab etsən, o, on savab yazacaq. Günah iş görsən, sol tərəfində əyləşən mələyə deyər: "Hələ yazma, ola bilsin ki, tövbə edəcək" deyər..."[277]

Müəllif mələklərin nurdan yaradıldığını İmam Cəfər Sadiqdən (ə) nəql olunmuş hədisə əsasən qeyd edib. Həmin hədisdə deyilir: "Allah mələkləri nurdan xəlq etmişdir".[278]

Daha sonra o, mələklərin yeyib-içməmələri və evlənməmələri haqqında aşağıdakı hədisi nəql etməkdədir. Hədisdə deyilir: "İmam Cəfər Sadiqdən (ə) soruşuldu:

- Mələklər necə yeyib-içir və evlənirlər? İmam (ə) buyurdu:

- Xeyr! Onlar Ərşin nəsim (küləyi) ilə yaşayırlar. Dedilər:

- Onların yuxusu haqqında nə deyə bilərsiniz? İmam (ə) buyurdu:

- Onlarla Allah arasında fərq vardır. Allah nə mürgüləyər, nə də yuxulayar".[279]

Müəllif əsərində Cəhənnəm mələyinin adının Malik, Cənnət mələyinin adının isə Rizvan olduğunu da qeyd etmişdir.[280]

Mələklərin mahiyyətini dinşünaslıq baxımından ayə və hədislər çərçivəsində izah edən Əllamə Məclisi daha sonra mövzunu filosofların baxışları əsasında da izah etməyə çalışmışdır. O, filosofların mələklər haqqında olan fikirlərini belə yekunlaşdırmışdır: "Mələklər ağıl sahibi olan və kainatın mücərrəd varlıqlardır..."[281]

---

[274] Həmin mənbə. LVI c. s. 212.
[275] Həmin mənbə. LVI c. s. 150-151.
[276] Həmin mənbə LVI c. s. 151.
[277] Həmin mənbə. LVI c. s. 151-152.
[278] Həmin mənbə. LVI c. s. 191.
[279] Həmin mənbə. LVI c. s. 193.
[280] Həmin mənbə. LVI c. s. 193.
[281] Həmin mənbə. LVI c. s. 204.

Əllamə Məclisinin mələklər haqqında verdiyi maraqlı məlumatlardan biri də adları məlum olan bəzi mələklərin adlarının yazılış forması və mənalarıdır. Belə ki, o, Cəbrayıl (ə) adının ona yaxın (جبراعل جبراعيل جبرائيل جبرال جبريل جبرئل جبرئيل) yazılış formasının olduğunu və "Allahın qulu" mənasını verdiyini də əsərində qeyd etmişdir.[282]

Cin sözünün mənası "gizli, örtülü" deməkdir. Onların yarandığı maddə haqqında Qurani-Kərim belə bəyan edir: **"وَخَلَقَ الْجَانَّ مِنْ مَارِجٍ مِنْ نَارٍ** - (Cinlərin əcdadı) **Cannı da tüstüsüz** (təmiz) **oddan O xəlq etdi".**[283] Burada xüsusi şəkildə xatırlatmaq istəyirik ki, ayədə nəzərdə tutulmuş **"od"** ifadəsi adi bizim başa düşdüyümüz od mənasında deyil. Burada söhbət xüsusi oddadn gedir ki, onun da mahiyyətini yalnız Allah taala bilir.[284]

Cinlərin insanlarla olan münasibətlərinə gəldikdə, qeyd etmək lazımdır ki, onların insanlara zərəri yoxdur. Cinlər dünyanın imkanlarını insanlarla paylaşmadıqlarından onlarla insanlar arasında keçmişdə bir döyüş olmadığı kimi, gələcəkdə də belə bir şeydən söz gedə bilməz.[285] Bununla bərabər Qurani-Kərimdə onlardan gələ biləcək pis fikir və zərərli xəyallara qarşı insanların bundan Allaha sığınmaları istənmişdir.

Qurandan başa düşüldüyünə görə, cinlər kainatın təhlükəsiz yerlərində gəzib otura bilirlər. Bunu Qurani-Kərim belə bəyan edir:

**وَأَنَّا لَمَسْنَا السَّمَاء فَوَجَدْنَاهَا مُلِئَتْ حَرَساً شَدِيداً وَشُهُباً. وَأَنَّا كُنَّا نَقْعُدُ مِنْهَا مَقَاعِدَ لِلسَّمْعِ فَمَنيَسْتَمِعِ الْآنَ يَجِدْ لَهُ شِهَاباً رَّصَداً.**

"**Biz** (cinlər yuxarı aləm əhlinin söhbətinə oğrun-oğrun qulaq asmaq üçün) **göyə qalxmaq istədik** (səmanı yoxladıq), **amma onun** (mələklərdən ibarət) **güclü gözətçilər və yandırıb-yaxan** (axan) **ulduzlarla dolu olduğunu görürük. Biz** (Məhəmməd əleyhissəlamın peyğəmbər göndərilməsindən əvvəl mələklərin söhbətinə) **qulaq asmaq üçün** (göyün) **bəzi yerlərində otururduq. Lakin indi kim** (onların söhbətinə) **qulaq asmış olsa, yandırıb-yaxan bir ulduzun onu gözlədiyini görər".**[286]

Lakin, əslində, bizim dünyamızın səssiz və zərərsiz sakinləri olan cinlər haqqında çox şey demək imkanına sahib deyilik. Yalnız bunu deyə bilərik ki, biz cinlərlə və hətta bəzi mələklərlə bir yerdə yaşayırıq.

## 4.2. Bitki və heyvanların yaranması və yayılıb inkişaf etməsi

Müasir bioloji məlumatlara görə, yer üzərində 2 milyon heyvan və 0,5 milyona qədər bitki növü vardır. Növlərin belə müxtəlifliyi, onların necə yaranması qədim zamanlardan bəri insanları düşündürmüşdür. Bu suala cavab vermək üçün alimlər,

---

[282] Həmin mənbə. LVI c. s. 222.
[283] Rəhman surəsi, ayə 15.
[284] Bax: Abdulla Nəsri. Quranda dünyaşünaslığın əsasları. Bakı, Qələm nəşriyyatı, 2003. s. 188.
[285] Lakin burada qeyd etmək lazımdır ki, Peyğəmbərin (s) əmri ilə İmam Əlinin (ə) cinlərlə döyüşməsi hadisəsi səhih hədislərlə sübut olunmuşdur. Əllamə Məclisinin özünün də bildirdiyinə görə, İmam (ə) "Nəsibeyn" cinləri ilə döyüşmüşdür. O, bu haqda olan hədisləri "Biharül-ənvar" əsərində (X c. s. 44, hədis № 1; XVII c. s. 289, hədis № 7; s. 77, hədis № 30 və s.) rəvayət etmişdir. Xatırladaq ki, böyük Azərbaycan alimi Əllamə Məhəmmədhüseyn Təbatəbai Təbrizi də bu hədisləri səhih bilmiş və İmamın (ə) cinlərlə döyüşməsi hadisəsinin doğru olduğunu bildirmişdir (Bax: Əllamə Təbatəbainin hüzurunda 727 sual-cavab. Tərc: Micəfər Əyyubzadə. s. 55).
[286] Cin surəsi, ayə 8-9.

filosoflar müxtəlif fərziyyələr irəli sürmüşlər. Hələ qədim dövrlərdə idealist filosoflar yer üzərində həyatın əmələ gəlməsini və aləmin mənşəyini metafizik aləmə, İlahi mənşəyə bağlayırdılar. Lakin zaman keçdikcə, insanlarda materialist düşüncə formalaşdıqca yer üzərində həyatın əmələ gəlməsi və inkişafı haqqındakı idealist baxışlara əks olan baxışlar və fərziyyələr meydana çıxdı. XV əsrin əvvəllərində Avropda kapitalizmin yaranması, sənayenin və ticarətin inkişafı və s. amillər səbəbindən canlı və cansız təbiət haqqında elmlərin inkişafına təkan və yeni istiqamət verdi. Artıq XVII-XVIII əsrlərdə bitki və heyvanların külli miqdarda təsvirləri toplanmış və onların sistemə salınması işləri gedirdi. Bu sistematik işi ilk həyata keçirən şəxs XVIII əsrin məşhur İsveç alimi Karl Linney (1707-1778) oldu. Onun bu sahədə gördüyü ən ümdə işləri belə qruplaşdırmaq olar: 1) o, bitki və heyvanların sistemini təklif etdi; 2) aydın və qoşa adlar prinsipindən istifadə etdi; 3) bitkilərin 1200-ə yaxın cinsinin və 8000-dən artıq növünün təsvirini verdi; 4) botanika dilini təkmilləşdirdi, 1000-ə yaxın termin müəyyənləşdirdi və bunların çoxu elmə ilk dəfə gətirilmişdi.

Linney və onun ardıcılları özlərindən əvvəlki alimlər tərəfindən toplanmış, dağınıq halda olan faktik materialı öyrənmək və sistemə salmaq sahəsində işlər görmüşlər. Onların gördükləri bu işlər təbiətin gələcək tədqiqi üçün əsas baza olmuşdur.

Bir az əvvəl də qeyd etdiyimiz kimi, artıq XVIII əsrin axırlarında kapitalizmin sürətlə inkişafı materialist düşüncəni daha da qabarıq və kütləvi hala gətirdi. Belə düşüncədə olan bəzi avropalı tədqiqatçılar bitki və heyvan növlərinin mənşəyi və əmələ gəlməsi haqqında idealist düşüncəyə zidd olan fərziyyələri ortaya atıb inkişaf etdirdilər. XIX əsrin əvvəllərində fransız alimi Jan-Batist Lamark (1744-1829) tərəfindən canlı təbiətin təkamülü haqqında ilk təlim yarandı və o, bunu "Zoologiyanın fəlsəfəsi" (1809) əsərində şərh etdi. O, adı çəkilən əsərində həyatın mənşəyi haqqında olan idealist baxışlara qarşı çıxdı, öz fərziyyələri ilə bu baxışı tənqid etdi. Növlərin sabitliyi və dəyişilməzliyi haqqındakı fikri rədd etməklə materialist düşüncəsini ortaya qoydu və guya sübuta yetirdi ki, növlərin yaranması çox yavaş gedir və buna görə də gözə çarpmır. O, canlı varlıqların quruluşunun təkamül prosesində aşağı pillədən yuxarıya yüksəlməsini qaradasiya (zirvəyəyüksəlmə) adlandırdı. Bununla da canlı təbiətin sadədən mürəkkəbə, ibtidaidən aliyə doğru inkişaf etdiyini deməklə bu haqdakı idealist düşüncəyə qarşı öz mövqeyini ortaya qoymuş oldu. Həmçinin canlı təbiətin təkamülü haqqında ilk təlimi yaratmaqla canlı varlıqların vahid mənşəyi fərziyyəsini ortaya atmış oldu. Onun bu təlimində canlı varlıqların bir-birlərinə "qohum" olduqları göstərilirdi.

Beləliklə, ilk rüşeymləri Lamark tərəfindən qoyulan təkamül məsələsi artıq XVIII əsrdə Lomonosov və Radişşev tərəfindən müsbət qəbul edildi və Rusiyada yavaş-yavaş yayılmağa başladı. Onlar təbiəti sadədən daha mürəkkəbə, dağ suxurlarından bitkilərə, heyvanlardan insana doğru, insan şüuru da daxil olmaqla, vəhdətdə və inkişafda görürdülər. Lomonosov və Radişşevdən sonra Rusiyada bir çox alim, filosof və şairlər təkamül ideyasının carçılarından və təbliğçilərindən oldular. Rusiyalı zooloq Rulye (1814-1858) Lamarkın təkamül haqqındakı görüşlərinin ən güclü təbliğatçısı və tərəfdarlarından idi. O, insanın heyvanla olan "qohumluğunu" qeyd edirdi.

Digər bir rusiyalı materialist düşüncəli alim Gertsen (1812-1870) "Təbiətin öyrənilməsi haqqında məktublar" əsərində qeyd etmişdir ki, alimlər dinlə mübarizəyə fəal şəkildə girişmir və diqqətlərini yalnız faktları toplamağa yönəldirlər. O, adı çəkilən əsərində aləmin heç kim tərəfindən yaradılmadığını və heç kim tərəfindən məhv edilməyəcəyini qeyd etmişdi.

XIX əsrdə ingilis alimi Çarlz Darvin (1809-1882) canlı təbiətin təkamülünün "elmi nəzəriyyəsi"ni verdi. Onun bu fərziyyəsi darvinizm adını aldı. O, öz fərziyyəsini "Təbii seçmə yolu ilə növlərin əmələ gəlməsi və ya yaşamaq uğrunda mübarizədə əlverişli cinslərin saxlanması" (1859) əsərində irəli sürdü. Həmçinin o, "Ev heyvanları və mədəni bitkilərin dəyişilməsi" və digər bir çox əsərlərində təkamül nəzəriyyəsinin ayr-ayrı məsələlərini işləyib hazırladı. Onun təliminin əsas məğzi bundan ibarətdir ki, yer üzərində həyatın əmələ gəlməsi, bitkilərin, heyvanların və insanların yaranışı hər hansı bir qüvvənin vasitəsilə deyil, yalnız təbii qanunların təsiri altında yaranmışdır. O, belə düşünməklə həyatın Allah tərəfindən yaradılması həqiqətini və növlərin sabitliyi məsələsini materialistcəsinə inkar etmiş oldu.

Karl Marks (1818-1883) və Fridrix Engels (1820-1895) materialist dünyagörüşünün formalaşması üçün Darvinin nəzəriyyəsinin "əhəmiyyətini" dəfələrlə qeyd etmiş, onun "Növlərin mənşəyi" əsərinin dinə zərbə vurduğunu qeyd etmişlər. Adı çəkilən əsər haqqında Karl Marks yazırdı: "Bu kitab bizim baxışlarımız üçün təbii-tarixi əsas verir".

Fridrix Engels və Vladimir Lenin (1870-1924) Darvinin biologiya sahəsindəki işlərini Karl Marksın ictimai elmlərdəki xidmətləri ilə müqayisə etmişlər. Lenin onun haqqında yazırdı: "Darvin ilk dəfə olaraq, biologiyanı tam elmi zəmin üzərində qoydu, bununla da bitki və heyvan növlərinin heç nə ilə əlaqəsi olmayan, təsadüfi, Allah tərəfindən yaradılan və dəyişməz olması haqqındakı baxışlara son qoydu".

Keçmiş sovetlər ölkəsində darvinizm nəzəriyyəsinin ən görkəmli və alovlu təbliğatçısı Kliment Timiryazev (1843-1920) olmuşdur. Onun yazdığı "Çarlz Darvin və onun təlimi" kitabında Darvin təliminin təhlili verilmişdir. Kitab o dövrlərdə dəfələrlə çap olunmuşdur.

Bura qədər qeyd etdiyimiz məlumatlar yer üzərində həyatın əmələ gəlməsi haqqında materialist baxışın nəticəsi idi. Artıq elmlər inkişaf etdikcə, yeni-yeni kəşflər ortaya çıxdıqca darvinizm fərziyyəsinin əsassız və çürük olduğu, heç bir elmi əhəmiyyət daşımadığı, əksinə, o dövr üçün yalnız və yalnız siyasi və ideoloji əhəmiyyətə malik olduğu üzə çıxır.[287]

Həqiqət budur ki, yer üzünün təxmin edilən 4,6 milyard illik yaşı içərisində bitkilər və heyvanların inkişafı çox uzun vaxtı əhatə etmişdir. Milyonlarca il qədimdən gələn canlıların həyatı eyni vaxt içərisində olmamışdır. Ən son meydana çıxan insan təəssüflər ki, bu gün hər canlının "taleyini" öz əlində saxlamağa başlamışdır. Bu nöqtədə insan öz mədəniyyət və yaşayışını gözdən keçirməlidir. Qurani-Kərimdən və Peyğəmbərin (s) bəzi sözlərindən başa düşüldüyünə görə, yer üzü canlı həyatı bir çox təkamül mərhələlərindən keçərək müxtəlifləşmişdir. İmam Əlidən (ə) gələn bir hədisdə belə deyilir:

[287] Geniş məlumat üçün bax: Vasim Məmmədəliyev. Quran və elm. Bakı, Qismət, 2006. s. 43-48.

“Allah dünyanı yeddi vaxt üzrə yaratmışdır. Bunlardan hər dövr miqdarını Allahdan başqa heç kimsənin bilməyəcəyi uzun bir mərhələdir. İnsanın yaradılışından əvvəl dünya üzərindən altı dövr keçmişdir. Adəmin (ə) yaradılışından qiyamətə qədər olan müddət isə tək dövrdür”.

Şübhəsiz dünya ayrı-ayrı xüsusiyyətləri olan müxtəlif mərhələlərdən keçmiş və hər mərhələ ayrı canlı növlərin yaradılışına səhnə olmuşdur. Bir mərhələdən başqasına keçidlə əlbəttə ki, növlər də çeşidlənib çoxalmışdır. Peyğəmbər (s) bir hədisində dünyada canlı və cansız növlərin həyat və varlıq səhnəsinə çıxış müddətləri haqqında belə demişdir:

“Uca Allah torpağı şənbə günü, ondakı dağları da bazar günü yaratmışdır. Ot və ağacları isə bazar ertəsi günü yaratdı. Məkruhu (sevilməyən şeyləri) çərşənbə axşamı, nuru isə çərşənbə günü yaratdı. Heyvanları yer üzünə cümə axşamı günü yayıb dağıtdı. Adəmi bütün yaradılanların ardından, cümə günü əsrdən sonra, cümə günü saatların sonunda, əsr ilə axşam arasındakı bir vaxt içində yaratdı”.[288]

İmam Əlidən (ə) gələn yuxarıdakı xəbər Peyğəmbərin (s) bu açıqlamasının bir icmalı kimi görünür. Hər ikisində də yeddi ayrı mərhələ var.

Qurani-Kərimdə bitki və heyvanların ortaya çıxış mərhələləri ilə əlaqəli ayələr də vardır. Göylərə yüksəklik və dərinlik ölçüsünün (səmk) qazandırıldığını açıqlayan ayələrdən dərhal sonra yer kürəsinin vəziyyətinə yer verən ayələrdə belə deyilir:

وَأَغْطَشَ لَيْلَهَا وَأَخْرَجَ ضُحَاهَا. وَالْأَرْضَ بَعْدَ ذَلِكَ دَحَاهَا. أَخْرَجَ مِنْهَا مَاءهَا وَمَرْعَاهَا. وَالْجِبَالَ أَرْسَاهَا. مَتَاعاً لَّكُمْ وَلِأَنْعَامِكُمْ.

“**Gecəsini qaranlıq, gündüzünü işıqlı etdi?! Bundan sonra da yeri döşəyib** (yayıb) **düzəltdi** (üstündə gəzmək və yaşamaq üçün onu yararlı hala saldı). **Ondan suyunu və otlağını çıxartdı.** (Orada) **dağları yerləşdirdi.** (Bütün bunlar) **sizin və heyvanlarınızın istifadəsi üçündür”.**[289]

Göründüyü kimi, burada əvvəl gecə və gündüz hadisəsinə toxunulur, sonra da yer üzünün döşənməsi izah edilir. Döşənən səthdə bundan sonra su və ardından da otlaqlar ortaya çıxmış və beləcə, heyvanlar və insanlara qidalar hazırlanmışdır. Heyvanlar içindən insanlar üçün son dərəcə faydalı, qoyun, keçi, dəvə və inəkdən ibarət erkəkli-dişili səkkiz baş heyvan yaradılıb ortaya çıxarılmışdır.

Canlıların nədən yaradıldıqlarına baxdıqda, Qurani-Kərim buna cinlər üçün atəş, insanlar üçün torpaq və ümumi olaraq da “su”dan cavabını vermişdir. Yer və göyün bitişik olub bunların sonra bir-birlərindən ayrıldıqlarını deyən ayə, sonda yer kürəsində hər canlı şeyin sudan yaradıldığını bildirmişdir. Göylərin yaradılması ilə əlaqədar ayədə belə deyilir:

أَوَلَمْ يَرَ الَّذِينَ كَفَرُوا أَنَّ السَّمَاوَاتِ وَالْأَرْضَ كَانَتَا رَتْقاً فَفَتَقْنَاهُمَا وَجَعَلْنَا مِنَ الْمَاء كُلَّ شَيْءٍ حَيٍّ أَفَلَا يُؤْمِنُونَ.

“**Məgər kafir olanlar göylə yer bitişik ikən Bizim onları ayırdığımızı, hər bir canlını sudan yaratdığımızı bilmirlərmi?! Yenə də iman gətirməzlər?** (Göylər ilk yaradılışda bir-birinə bitişik bir təbəqə olduğu halda, onların arası hava ilə açılıb yeddi təbəqəyə ayrılmış, yer də bir təbəqə ikən sonra yeddi təbəqəyə bölünmüşdür. Bu, Allahın qüdrətini, əzəmətini sübut edən ən tutarlı dəlillərdəndir)”.[290]

---

[288] Səhihül-Müslim. Sifatül-münafiqin. 1/27.
[289] Naziat surəsi, ayə 29-33.
[290] Ənbiya surəsi, ayə 30.

Bu ayə mələklər, cin və insanlar da daxil olmaqla digər bütün heyvan və bitkilərin başlanğıcda sudan yaradıldığını ifadə edən bir ümumiliyə sahibdir.

Qurani-Kərimdə insanların bir şəxsdən yaradılıb çoxaldıqları qeyd edilmişdir. Amma buna baxmayaraq Quranda heyvan və bitkilərin nədən çoxalıb inkişaf etdikləri qeyd edilməmişdir. Quranda istər bitki növündən, istərsə də heyvan və insan növündən olsun, canlıların mayalanıb meydana gəlməsi və çoxalmaları hadisəsi üçün **"zər"** sözündən istifadə olunmuşdur. Ərəbcədə ilk əkin üçün "əz-zəri" deyildiyi kimi, bu söz əraziyə toxum səpmək mənasını da verir. Mayalanma, yayılma tərzində bir yaradılışdan söz gedincə, orada bir növün erkək və dişi cinsinə ehtiyacı vardır. Bu səbəblə yayılıb çoxalma mənasındakı **"zər"** hadisəsində bir növün ilkindən o növü çoxaltma işi vardır. Vəziyyət belə olduqda, ilk mərhələdə eyni növün erkək və dişisini yaratmaq lazım olacaqdır. Necə ki, Qurani-Kərimdə adı keçən sözün istifadə olunduğu bir ayədə belə deyilir:

**فَاطِرُ السَّمَاوَاتِ وَالْأَرْضِ جَعَلَ لَكُم مِّنْ أَنفُسِكُمْ أَزْوَاجاً وَمِنَ الْأَنْعَامِ أَزْوَاجاً يَذْرَؤُكُمْ فِيهِ لَيْسَ كَمِثْلِهِ شَيْءٌ وَهُوَ السَّمِيعُ الْبَصِيرُ.**

"**Göyləri və yeri yoxdan yaradan** (Allah) **sizin üçün özünüzdən** (öz cinsinizdən) **zövcələr, heyvanlardan da** (erkək və dişi olmaqla) **cütlər yaratmışdır. O sizi bu minvalla çoxaldır. Ona bənzər heç bir şey yoxdur. O,** (hər şeyi) **eşidəndir,** (hər şeyi) **görəndir!**"[291]

İstər canlı olsun, istərsə də cansız, bir maddənin başqası ilə birləşib yeni bir məxluq meydana gətirə bilməsi üçün onların erkəkli-dişili olmaları və ya mənfi-müsbət enerji yüklərinə sahib olmaları lazımdır. Qurani-Kərimdə hər şeyin erkək və dişi olaraq cüt yaradıldığı bildirilir. Bu hal həm bitki, heyvan və insan kimi canlılar üçün və həm də bunlardan başqa cansız maddələr üçün qeyd edilmişdir. Bu kitabda erkəkli-dişili və ya mənfi-müsbət, yaxud biri digərinin əksi olan cütlü yaradılışlara diqqət çəkilmişdir. Məsələn, aşağıdakı ayədə bunu açıq şəkildə görmək mümkündür:

**سُبْحَانَ الَّذِي خَلَقَ الْأَزْوَاجَ كُلَّهَا مِمَّا تُنبِتُ الْأَرْضُ وَمِنْ أَنفُسِهِمْ وَمِمَّا لَا يَعْلَمُونَ.**

"**Yerin yetişdirdiklərindən, onların** (insanların) **özlərindən və bilmədiklərindən** (erkək və dişi olmaqla) **cütlər yaradan Allah pakdır** (müqəddəsdir)! (Eyibsiz və nöqsansızdır!)"[292]

Elmin indiki inkişafından əvvəl də Quranın varlıq və həyatla əlaqədar əsas qanunları ortaya qoyması və o heyvanlardan başqa bitkilərdə də erkəkli-dişiliyə yer verməsi, bunu mənfi-müsbət enerji olaraq cansız maddələrə də şamil etməsi əlbəttə çox maraqlıdır. Məsələn, xüsusilə bitkilərdə bu iki növ cinsiyyətə yer verən bir ayədə də belə deyilir:

**أَوَلَمْ يَرَوْا إِلَى الْأَرْضِ كَمْ أَنبَتْنَا فِيهَا مِن كُلِّ زَوْجٍكَرِيمٍ. إِنَّ فِي ذَلِكَ لَآيَةً وَمَا كَانَ أَكْثَرُهُم مُّؤْمِنِينَ.**

"**Məgər onlar yer üzünə baxıb orada növbənöv gözəl bitkilər** (meyvələr) **yetişdirdiyimizi görmürlərmi? Şübhəsiz ki, bunda** (Quranı və Peyğəmbəri təkzib edənlər üçün Allahın vəhdaniyyətinə, qüdrətinə dəlalət edən) **bir əlamət vardır. Lakin onların əksəriyyəti iman gətirməzlər".**[293]

Əllamə Məclisi yer üzündə həyatın əmələ gəlməsi və inkişaf etməsi haqqında "Biharül-ənvar" əsərində dolğun məlumat vermişdir. O, adı çəkilən əsərinin 57-ci

---

[291] Şura surəsi, ayə 11.
[292] Yasin surəsi, ayə 36.
[293] Şuəra surəsi, ayə 7-8.

cildinin 31-ci fəslində “Yer üzü onun keyfiyyəti, orada insanlar üçün nəzərdə tutulmuş varlıqlar...” adlı fəsil açmış və burada mövzuya uyğun məlumatları qeyd etmişdir. O, yer üzündə həyatın əmələ gəlməsini yerlərin və göylərin, həmçinin digər məxluqların yaranmasından sonra olduğunu vurğulamışdır. Çünki yer üzündə lazımi həyat şəraiti olmasaydı, göydən yağışlar yağmasaydı və s. o zaman həyatın əmələ gəlməsi də mümkün olmazdı. Müəllif bu məqama xüsusi şəkildə diqqəti yönəltmişdir.[294]

Bütün bu dediklərimiz təsadüfən deyil, hər biri İlahi qüdrət və iradə ilə meydana gəlmişdir. İlk meydana gəlmələrdə olduğu kimi, ondan sonrakı inkişafların hamısında və hər bir növün ortaya çıxdığı mərhələlərdə də yenə İlahi iradə və Onun təsir gücü vardır. Qurani-Kərim əlaqədar ayələri ilə bu halı xüsusilə vurğulamaqdadır. Həyat bütün növləri ilə Uca Allahın təqdirinə görə və Onun əlindən meydana gəlmişdir.

[294] Əllamə əl-Məclisi. Biharül-ənvar. LVII c. s. 56.

# V FƏSİL

# ƏLLAMƏ MƏCLİSİNİN “BİHARÜL-ƏNVAR” ƏSƏRİNDƏ İLK İNSANIN YARADILMASI

## 5.1. Həzrət Adəmin (ə) yaradılışı

Əvvəlki paraqrafda da qeyd etdiyimiz kimi, XVII əsrdə elmin müxtəlif sahələrinin sürətlə inkişaf etməsi qeyri-üzvi təbiət hadisələri və onların qanunauyğunluqlarının öyrənilməsinə və əsl səbəblərinin izah edilməsinə böyük təkan verdi. Lakin dünyanın elmi mənzərəsinin izahında daha çətin və daha mürəkkəb məsələ canlılar aləminin, üzvi aləm hadisələrinin öyrənilməsi və izah edilməsi məsələsi idi. Elm inkişaf etdikcə yer üzərində həyatın əmələ gəlməsində mütləq bir İlahi qüdrətin olduğu daha elmi şəkildə sübut olunurdu. Həmçinin, elm sübut edirdi ki, bitkilər, heyvanlar və digər canlıların hamısı müstəqil təşkil olunmuş orqanizmlərdir.

Beləliklə, yer üzərində həyatın əmələ gəlməsi haqqında ən düzgün və ən dolğun məlumatı müqəddəs dinimiz olan İslamın əsas mənbələrindən öyrənirik ki, bu öyrəndiklərimiz də heç şübhəsiz ki, irəlidə izah edəcəyimiz müasir elmi nailiyyətlərlə tam uyğundur.

İslama görə, Allah ilk insan olan həzrət Adəmi (ə) torpaqdan yaratmış və ona öz ruhundan üfürərək can vermişdir.[295] Beləcə, insan fiziki varlığı ilə dünya həyatına, ruhi varlığı ilə də mənəvi aləmə uyğun bir formaya sahib edilmişdir. Ona verilən ağıl, iradə, hafizə, səbir, qəzəb kimi duyğu və bacarıqlarla Uca Allahın dəyər verdiyi bir varlıq - insan olmuşdur. İnsana, eyni zamanda, “Allahın  xəlifəsi” adı da ona məhz Uca Rəbbimiz tərəfindən verilmişdir. İnsan gözəl bir şəkildə yaradılmış və ona insanlıq dəyəri verilərək, eyni zamanda, məsuliyyət əmanəti ilə də cavabdeh qılınmışdır. Bu mənada insanın yaradılması, yaşadılması, xəlifə qılınması məsələsi və s. kimi insan mahiyyətinin müəyyənləşdirilməsi, mövzumuz üçün əhəmiyyət kəsb etməkdədir.

İnsan dəyərli varlıqdır və onun yaradılışı haqqında çoxlu fikirlər mövcuddur. Əllamə Məclisi Qurani-Kərimə və hədisi-şəriflərə, həmçinin özündən əvvəlki alim və filosofların fikirlərinə istinadən ilk insanın Allah taala tərəfindən torpaqdan yaradıldığı qənaətinə gəlmişdir. O, insanın nə üçün insan adlanması haqqında adı çəkilən əsərinin 57-ci cildində “İnsan nə üçün insan adlanır?” adlı fəsil açmış (38-ci fəsil) və burada mövzu ilə bağlı bir neçə hədisi-şərif nəql etmişdir. İnsanın insan adlanması haqqında İmam Cəfər Sadiqdən (ə) aşağıdakı hədisi nəql etmişdir:

عن علي بن أحمد بن محمد بن جعفر الاسدي، عن معاوية بن حكيم عن ابن أبي عمير، عن بعض أصحابنا، عن أبي عبدالله عليه السلام قال: سمي الانسان إنسانا لانه ينسى، وقال الله عزوجل: **ولقد عهدنا إلى آدم من قبل فنسي.**

“İnsan unutqan olduğu üçün insan adlanmışdır. Necə ki, Allah taala buyurmuşdur: **“Doğrusu, bundan əvvəl Adəmə də** (Şeytana uymamağı) **tövsiyə etmişdik. Lakin o** (tövsiyəmizi) **unutdu”** (Taha surəsi, ayə 115).[296]

---

[295] Geniş məlumat üçün bax: Vasim Məmmədəliyev. Quran və elm. Bakı, Qismət, 2006. s. 42-49.

[296] Əllamə əl-Məclisi. Biharül-ənvar. LVII c. s. 265.

Müəllif bundan sonra insan sözünün etimoloji təhlilini vermiş, onun qrammatik baxımdan hansı kökdən yarandığını və s. izah etməyə çalışmışdır. O, Bəsrə qrammatika alimlərinə görə, insan sözünün "üns" kökündən yarandığını, Kufə qrammatiklərinə görə isə "nisyan" kökündən əmələ gəldiyini, birincilərə görə "ünsiyyət qurmaq", ikincilərə görə isə "unutmaq" mənasını daşıdığını da qeyd etmişdir. Müəllif bu fikirləri Xəlil bin Əhməd əl-Fərahidinin (718-791) "Kitabül-eyn" və Şeyx Tusinin (998-1067) "ət-Tibyan" əsərlərinə istinadən işıqlandırmışdır.

Müəllifin əsərində yer verdiyi, lakin bütün alimlər tərəfindən heç də doğru qəbul edilməyən fikirlərindən biri də qadının kişinin qabırğasından yaradılmasıdır. O, qadının (المرأة) adlanmasının səbəbini İmam Cəfər Sadiqdən (ə) nəql olunmuş "Qadın ona görə qadın (mərətun) adlanır ki, o kişinin qabırğasından xəlq edilmişdir" hədisinə bağlayır.[297] Doğrudur, müəllif əsərinin başqa yerində Həvvanın (ə) Adəmin (ə) yarandığı palçığın qalığından yaranması fikrini təsdiqləmişdir. Onun maraqlı açıqlamalarından biri də qadınların "nisa" adlanmasının səbəbidir. O, bu səbəbi "nisa" sözünün "nisyan" (unutqanlıq) sözündən törədiyini bildirmişdir.[298]

Həvvanın (ə) "Həvva" adlanması haqqında müəllifin gəldiyi qənaət budur ki, Allah Adəmi (ə) yaratdıqdan sonra ona qısa müddətli yuxu vermiş, Adəm (ə) oyandıqdan sonra yanında bir şəxsin olduğunu görmüş, onun kimliyini soruşduqda Allahın Adəmin (ə) onunla ünsiyyətdə olacağını və adının da Həvva olduğunu bildirməsidir. Onun Həvva adlanması isə canlıdan yaranmasına və ya hər bir canlının anası olmasına görədir.[299]

Müəllifin insanla əlaqədar yazdıqları içində diqqəti çəkən məqamlardan biri də insanın bütün məxluqatdan və hətta mələklərdən də fəzilətli və üstün olmasını qeyd etməsidir. O, bu haqda xüsusi paraqraf açaraq ayə və hədislər vasitəsilə sübut etməyə çalışmışdır ki, insan öz insanlıq vəzifəsini yerinə yetirdiyi müddətcə bütün məxluqatdan daha üstün və daha şərəflidir.

O, "Biharül-ənvar" əsərində insanın dəyəri və yaradılış hekayəsini izah edərkən ilk olaraq Qurani-Kərimdəki bu ayəni yazır:

"(Ya Rəsulum) **Sənin Rəbbin mələklərə: Mən yer üzündə bir xəlifə** (canişin) **yaradacağam dedikdə** (Mələklər)**: Biz Sənə şükr etdiyimiz, şəninə tariflər dediyimiz və Səni müqəddəs tutduğumuz halda, Sən orada** (yer üzündə) **fəsad törədəcək və qan tökəcək bir kəsmi yaratmaq istəyirsən? – söylədilər.** (Allah onlara:) **Mən bildiyim şeyi siz bilmirsiniz! - buyurdu.** (Allah Adəmi yaratdıqdan sonra) **Adəmə bütün şeylərin adlarını öyrətdi. Sonra onları** (həmin şeyləri) **mələklərə göstərərək:** (iddianızda) **doğrusunuzsa, bunların adlarını Mənə bildirin! - dedi. Onlar: Sən paksan, müqəddəssən!** (Bütün eyib və nöqsanlardan kənarsan) **Sənin bizə öyrətdiklərindən başqa biz heç bir şey bilmirik.** (Hər şeyi) **bilən Sən, hikmət sahibi Sənsən, - dedilər.** (Sonra) **O: Ey Adəm, bunların** (kainatda mövcud olan əşyanın) **adlarını onlara bildir! - dedi.** (Adəm) **onlara** (mələklərə) **onların adlarını xəbər verdikdə** (Allah)**: Mən sizə, göylərin və yerin gözə görünməyən sirlərini və sizin gizlində - aşkarda nə etdiyinizi bilirəm, söyləmədimmi? – buyurdu.** (Ya Peyğəmbər) **biz mələklərə: Adəmə səcdə edin! –**

[297] Həmin mənbə. LVII c. s. 265.
[298] Həmin mənbə. LVII c. səh. 265.
[299] Həmin mənbə. LVII c. səh. 265-266.

**dedikdə İblisdən başqa** (hamısı) **səcdə etdi.** (Yalnız) **o, lovğalanaraq** (səcdə etməkdən) **imtina etdi və kafirlərdən oldu.** (Sonra) **Biz** (Adəmə) **dedik: Ey Adəm, sən zövcənlə** (Həvva ilə) **Cənnətdə qal və hər ikiniz oradakı meyvələrdən istədiyiniz kimi, bol-bol yeyin, yalnız bu ağaca** (buğdaya) **yaxın gəlməyin. Yoxsa** (özünüzə) **zülm edənlərdən olarsınız.** (Lakin) **Şeytan onları azdırıb** (buğdadan yedizdirməklə nemətlər içində) **olduqları yerdən uzaqlaşdırdı. Biz də** (Adəmə, Həvvaya və şeytana)**: bir-birinizə düşmən kəsilərək** (buradan kənar olub yer üzünə) **enin! Yerdə sizin üçün müəyyən vaxta qədər** (ömrünüzün axırınadək) **sığınacaq və yaşayış** (dolanacaq) **vasitələri var, - dedik".**[300]

İnsan oğlunun nə qədər şərəfli olduğunu Quran ayələrindən açıq bir şəkildə görürük. O, hər şeydən öncə Allahın xəlifəsidir. Əllamə Məclisi bu ayəni təfsir edərkən Qazı Beyzavinin (öl. 1286) təfsirinə istinad edərək yazırdı: "Ayədə işlədilən xəlifə kəlməsi başqasının ardınca gəlmək mənasındadır və bu sözdəki **"ة-tə"** hərfi isə mübaliğə üçün istifadə olunub. "Xəlifə" isə yer üzünü abadlaşdıranların ardınca getmək və beləliklə, oranı abadlaşdırıb düzəltmək mənasında ola bilər. Həmçinin mələklərin Allaha qarşı ünvanladıqları sual - etiraz və Adəm övladını pisləmək deyildir. Onlar Allahın onlara əvvəlcə verdiyi xəbərdən, yaxud da lövhi-məhfuz vasitəsilə onlara Adəm övladının yer üzündə fitnə-fəsad törədəcəyini bilirdilər".[301] Uca Allah ona yer üzündə öz adına bəzi vəzifələri icra etməsi üçün güc və səlahiyyət vermişdir. Bu səlahiyyət, sadəcə, Adəmə (ə) deyil, qiyamətə qədər gəlib gedəcək bütün insanlara verilmişdir. Belə ki, başqa bir ayədə belə buyurulur: **"Sizi yer üzünün varisləri edən** (bir-birinizin yerinə gətirən) **Odur".**[302]

Xəlifənin xilafət məqamına layiq sifətlərlə hazırlanmış olması lazımdır. Ayrıca ona xilafəti bəxş edənin nurundan daşıması, hökm edəcəyi varlıqlardan üstün olması lazımdır. İnsanın üstünlüyü, ilk öncə bilikli və ağıllı olmasından qaynaqlanır. Allah insana mələklərin belə, bilmədiklərini öyrətmişdir. İnsanın digər əsas xüsusiyyətlərindən biri də iradə sahibi olmasıdır. Sadəcə, insana verilən bu sərbəst iradə onu cavabdeh bir varlıq halına gətirmişdir. Allahdan insana yönəlmiş əmr və qadağalar onun azad olduğuna dəlalət edir. Çünki iradəsi və azadlığı olmayan kimsəyə əmr və qadağanın söylənməsi düşünülə biməz. Mələklərdə və digər canlılarda insanların sahib olduğu iradə və hürriyyət olmadığına görə onlar insan qədər cavabdehlik daşımırlar.[303]

İnsanın palçıqdan yaradılmasını elm də dəstəkləyir. Çünki insan bədənini təşkil edən elementlər torpağın məhsuludur. İnsan yer üzündən götürülmüş bir ovuc palçıq və Uca Allahın ruhundan üfürülmüş bir nəfəsdən ibarətdir. Palçıq bədəni, İlahi nəfəs isə ruhu təmsil edir. İnsana ruhun üfürülməsi İlahi bir sirdir və bunun keyfiyyətini heç kəs dərk edə bilməz. Ancaq bunu söyləmək olar ki, Yaradanına iman gətirməsi, şükr edərək Ona yönəlməsi, dünyada Allahın iradəsinə uyğun hərəkət etməsi, xeyir və haqq sevgisi, doğruluq və ədalət kimi əxlaqi xüsusiyyətlərlə bəzənməsi üçün Allah insanı bu İlahi ruhla dəstəkləmişdir. Bu ruhdan ilk düşünülən məqsəd canlılıq deyildir. Çünki heyvanlar da insanlar kimi canlılıq dəyərini daşıyırlar. Əgər ruhdakı

---

[300] Bəqərə surəsi, ayə 30, 36.
[301] Əllamə əl-Məclisi. Biharül-ənvar. XI c. s. 97.
[302] əl-Fatir surəsi, ayə 39.
[303] Əllamə əl-Məclisi. Biharül-ənvar. XI c. s. 98.

məqsəd canlılıq olsaydı, insanın digər canlılardan fərqi olmazdı və Allah mələklərə Adəmə (ə) səcdə etmə əmrini verməzdi. İslama görə, insan yaradılmışların ən şərəflisi olmaqla yanaşı, eyni zamanda istər ruhi, istərsə də fiziki xüsusiyyətlərilə digər canlılardan fərqlənir. **"Biz insanı ən gözəl biçimdə yaratdıq!"**[304] İnsan iki ayaq üzərində dik dura bilən, ağıllı və şüurlu bir varlıqdır. Baş, beyin quruluşu, orqanlarının ahəngi və səs sistemindəki zənginlik onun gözəl bir şəkildə yaradılmasından xəbər verir. Yüksək zəkası səbəbilə hadisələrə cəld və ən uyğun şəkildə reaksiya vermək qabiliyyəti vardır. İnsan yüksək zəkası hesabına ona faydalı olan şeyləri götürür, zərərli şeylərdən isə uzaqlaşır. Qavraması digər canlılardan çox yüksək olduğundan, onların edə bilmədiklərini edir. Yəni daha konkret desək, insan dil, düşüncə, mədəniyyət, əxlaq, vicdan, duyğu və dini vəzifələrə sahibdir. Lakin bütün bunların eynisini heyvanlar və digər canlılar üçün düşünmək olmaz. **"Biz, Adəm övladını şərəfli və hörmətli etdik, onları suda və quruda** (gəmilərə, heyvanlara və başqa nəqliyyat vasitələrinə) **mindirib sahib etdik, özlərinə** (cürbəcür nemətlərdən) **təmiz ruzi verdik və onları yaratdığımız məxluqatın çoxundan xeyli üstün etdik".**[305]

İnsan şüur, nitq qabiliyyəti, gözəl surət, boy-buxun, əllə yemək, və s. bu kimi məziyyətlərinə görə həmişə Allaha şükür edib yalnız Ona tapınmalıdır. Rəbbinə heç bir şərik qoşmamalıdır.

Adəmin (ə) yaradıldığı maddə, müxtəlif ayələrdə dəyişik terminlərlə ifadə edilmişdir. Fəxrəddin ər-Razi (1149-1209) bu ayələrdə Adəmin (ə) yaradılış keyfiyyətinin müxtəlif şəkillərdə təsvir edildiyini bildirmiş və onları: torpaq (**turab**) ("Ali-imran", ayə 59), su (**mau**), palçıq (**tin**), tərtəmiz süzülmüş palçıq (**sulalə min tin**) ("əl-Muminun", ayə 12), yapışqan palçıq (**tini-ləzib**) ("əs-Səffat", ayə 11) və qurumuş palçıq (**salsal**) ("ər-Rəhman", ayə 14) şəklində sıralamışdır.[306]

Übey bin Kəbın rəvayətinə görə, Peyğəmbər (s) belə buyurmuşdur: "Allah Adəmi uzun budaqlı xurma ağacı kimi başında çox saçı olan və uzun boylu şəkildə yaratmışdır".[307]

Quran, səhih hədislər və digər etimad edilən İslam qaynaqlarının Adəm (ə) haqqında verdiyi məlumatlardan bu qənaətə gəlirik ki, Adəm (ə) torpaqdan yaradılmışdır. Ancaq bu inkişaf mərhələsi heç bir vaxt, İlahi iradə və qüdrətin təsiri olmadan kor-təbii bir təkamül şəklində başa düşülməməlidir. Mövzu ilə əlaqəli bütün ayələrdə Adəmin (ə) yaradılması hadisəsində Allahın iradə və qüdrətinin təsirinə və roluna insanların diqqətləri xüsusilə cəlb edilməkdədir. Bununla yanaşı, Adəmin (ə) hər hansı bir başqa canlıdan təkamül sürətilə deyil, torpaqdan və tamamilə ayrı və müstəqil bir canlı növünün ilk atası, yer üzündə özündən başqa bütün canlı və cansız vaqlıqlardan fərqli olaraq vəzifə və məsuliyyətlər verilən və bunun üçün zəruri mənəvi, əxlaqi, zehni və psixoloji qabiliyyətlərlə təchiz edilmiş bir varlıq olaraq yaradıldığı mübahisə mövzusu olmayacaq şəkildə açıqlanmışdır. Bu səbəblədir ki, insanın yaradılışının digər canlılardan ayrılan xüsusi və ayrı bir cəhəti olaraq bilinən

---

[304] Tin surəsi, ayə 4.
[305] əl-İsra surəsi, ayə 70.
[306] Bax: Fəxrəddin ər-Razinin "Təfsirül-Kəbir" əsərinə. Sözü gedən ayənin təfsiri.
[307] İbn Kəsir. Təfsirül-Quranil-Əzim. Çevirən: Bekir Karlığa, Bedrettin Çetiner, II c. İstanbul, Çağrı Yayınları, 1993. s. 293.

mənəvi yönünü tamamilə rədd edərək heyvanlar səviyyəsinə endirən nəzəriyyələri İslam etiqadı ilə bağlamaq heç bir şəkildə mümkün deyildir.[308]

İslam qaynaqlarında Adəmin (ə) yaradıldığı torpağın haradan alındığına və mahiyyətinə dair rəvayətlər vardır. Bu rəvayətlərə görə, Allah Adəmin (ə) yaradılacağı torpağı gətirməsi üçün yer üzünə əvvəlcə Cəbrayılı (ə) göndərmiş, ancaq yer üzü ondan torpaq alınmasına icazə verməmişdir. Bundan sonra yer üzünə bu iş üçün Mikayıl (ə) vəzifələndirilmiş, o da yer üzündən torpaq ala bilmədiyi üçün axırıncı dəfə "ölüm mələyi" deyilən Əzrayıl (ə) bu iş üçün təyin edilmişdir. Ölüm mələyi yer üzünün etiraz etməsinə məhəl qoymayaraq oradan torpaq ala bilmişdir. Bu mələk yer üzünün müxtəlif məkanlarından aldığı qırmızı, ağ və qara torpaq nümunələrini bir-birinə qarışdırmış, bundan sonra göyə çıxaraq torpağa su qatmış və onu yapışqan palçıq halına gətirmişdir. Palçıq qaralıb iylənməyə başladıqda isə Allah bu palçıqdan Adəmi (ə) yaratmışdır.[309] Xatırladım ki, bu hədisi Əllamə Məclisi Seyid bin Tavusun (1193-1265) "Səd əs-süud" əsərinə istinadən nəql etmişdir.[310]

Adəmin (ə) boyunun altmış dirsək olduğunu bildirən rəvayətlər səhih deyil. Əllamə Məclisi bu rəvayətləri "müşkilat" qismindən saymışdır.

Adəmin (ə) hansı Cənnətdə məskunlaşması da İslam alimləri arasında ixtilaflı məsələlərdəndir. Məşhur görüş isə onun məskunlaşdığı Cənnətin dünya cənnəti olduğu fikridir. Belə ki, bu haqda Əllamə Məclisi İmam Cəfər Sadiqdən (ə) belə nəql edir:

سئل الصادق عليه‌السلام عن جنة آدم أمن جنان الدنيا كانت أم من جنان الآخرة؟ فقال: كانت من جنان الدنيا تطلع فيها الشمس والقمر، ولو كانت من جنان الآخرة ما خرج منها أبدا.

"İmamdan (ə) Adəmin (ə) cənnəti haqqında soruşulan zaman buyurdu: "dünya cənnətlərindən idi və orada günəş və ay vardı. Əgər axirət cənnəti olsaydı, Adəm (ə) heç vaxt oradan çıxmazdı. Çünki oradan çıxış yoxdur (əbədidir)".[311]

Sonra müəllif bu mövzunun ixtilaflı olduğunu və alimlərin mövzu ilə əlaqədar vahid bir fikirdə olmadıqlarını qeyd etmiş və hər bir alimin mülahizələrini geniş şəkildə izah etmişdir.[312] Bundan başqa, Əllamə Məclisi "Biharül-ənvar" əsərinin XI cildində Adəmin (ə) cənnətdən endirilməsi mövzusunu xüsusi fəsil içində incələmiş və bu haqda çoxlu sayda hədislər nəql etmişdir. Müəllif bu haqda olan ziddiyyətli hədisləri bir araya toplamış və sonda onlara aydınlıq gətirməyə çalışmışdır. O, İmam Cəfər Sadiqdən (ə) nəql olunan bir hədisi belə rəvayət edir:

أبي، عن سعد، عن البرقي، عن أبيه، عن محمد بن سنان، عن إسماعيل بن جابر وعبدالكريم بن عمرو، عن عبدالحميد بن أبي الديلم، عن أبي عبدالله عليه السلام قال: سمي الصفا صفا لان المصطفى آدم هبط عليه، فقطع للجبل اسم من اسم آدم على نبينا وآله وعليه السلام، يقول الله عزوجل: «**إن الله اصطفى آدم ونوحا**» وهبطت حواء على المروة، وإنما سميت المروة مروة لان المرأة هبطت عليها، فقطع للجبل اسم من اسم المرأة.

"Səfa dağı ona görə belə adlanır ki, Adəm (ə) həmin dağa enmişdir. Buna görə də dağ adını oradan götürüb. Necə ki, Allah buyurur: **"Allah Adəmi, Nuhu seçmişdir".** Həvva (ə) isə Mərvə dağına enmişdir və buna görə də dağ onun adına (qadın) adlanıb".[313]

---

[308] Hamdi Döndüren. Delilleriyle İslam İlmihali. İstanbul, Erkam Yayınları, 2001. s. 13-14.
[309] İbn Kəsir. Təfsiri-Quranil-əzim. II c. s. 286-287.
[310] Əllamə əl-Məclisi. Biharül-ənvar. XI c. s. 121.
[311] Həmin mənbə. XI c. s. 143.
[312] Geniş məlumat üçün bax: həmin mənbə. XI c. s. 143-144.
[313] Həmin mənbə. XI c. s. 205.

Adəm (ə) böyük bir ehtimalla Ərəbistan yarımadası və ətrafında yaşamışdır. Dünyada ilk bəşər övladının və nəslinin məskunlaşdığı yerlər Ərəbistan yarımadası olduğu üçün peyğəmbərlər də bu bölgələrə göndərilmişdir.[314]

Əllamə Məclisi Adəmin (ə) belə adlanması haqqında yazır: "Adəm sözü yer üzünün üst torpağı mənasındakı "ədimül-ərz" sözündəndir. Həvva (ə) sözü isə "hey" sözündən əmələ gəlib və canlı mənasındadır..."[315]

Bundan başqa o, Adəm sözünün digər mənaları haqqında da müxtəlif alimlərin görüşlərini qeyd etmişdir.

İlk insanın yaranması ilə əlaqədar diqqəti çəkən xüsuslardan biri də elm və mədəniyyətin məhz ilk insana verilməsidir. Bunu Allah Qurani-Kərimdə belə bəyan edir: **وعلم آدم الأسماء كلها ثم عرضهم على الملائكة فقال أنبئوني بأسماء هؤلاء إن كنتم صادقين -** (Allah Adəmi yaratdıqdan sonra) **Adəmə bütün şeylərin adlarını** (isimlərini) **öyrətdi. Sonra onları** (həmin şeyləri) **mələklərə göstərərək: "**(İddianızda) **doğrusunuzsa, bunların adlarını Mənə bildirin!**" **- dedi".**[316]

Ayəyə təfsir verən alimlər qiyamətə qədər olacaq hər bir şeyin Adəmə (ə) öyrədildiyini yazırlar.[317] Əllamə Məclisi belə nəql edir:

**عن الفضل بن عباس، عن أبي عبدالله عليه السلام قال: سألته عن قول الله عزوجل: «وعلم آدم الاسماء كلها» ماهي؟ قال: أسماء الاودية والنبات والشجر والجبال من الارض.**

Fəzl bin Abbas İmam Cəfər Sadiqdən (ə) soruşur: **"Allah Adəmə (ə) bütün isimlərin adlarını öyrətdi"** ayəsinin mənası nədir? İmam (ə) buyurdu:

"Yer üzündə olan vadilərin, bitkilərin, ağacların, dağların adlarını".[318]

## 5.2. Həzrət Həvvanın (ə) yaradılışı

Əllamə Məclisi "Biharül-ənvar" əsərində Həvvanın (ə) yaradılması haqqındakı xəbərlərə geniş yer vermiş[319] və bu haqda Qurani-Kərimin: "**Ey insanlar! Sizi tək bir kəsdən** (Adəmdən) **xəlq edən, ondan zövcəsini** (Həvvanı) **yaradan və onlardan da bir çox kişi və qadınlar törədən Rəbbinizdən qorxun!"**[320] ayəsini təfsir etmişdir. O, Təbərisiyə (1073-1153) istinadən yazırdı:

قوله: **«من نفس واحدة»** قال الطبرسي رحمه الله: المراد بالنفس هنا آدم **« وخلق منها زوجها»** ذهب أكثر المفسرين إلى أنها خلقت من ضلع من أضلاع آدم، ورووا عن النبي صلىاللهعليه وآله أنه قال: «خلقت المرأة من ضلع إن أقمتها كسرتها، وإن تركتها وفيها عوج استمتعت بها».

Təbərisi Allahın **"...Sizi tək bir kəsdən"** ayəsi haqqında deyir: " ayədəki **"nəfs"** sözündə məqsəd Adəmdir (ə). **"Ondan zövcəsini yaratdı"** ayəsində məqsəd bəzi təfsirçilərə görə, Adəmin (ə) aşağı qabırğasıdır. Peyğəmbərdən (s) belə rəvayət olunur: "Qadın qabırğadan yaradılıb. Əgər onu düzəltmək istəsən sınacaqdır".[321]

Sonra müəllif İmam Baqirdən (ə) bunun əksini bildirən bir hədis nəql etmişdir. Həmin hədisdə deyilir:

---

314 Mahmud Şakir. Adəmdən bu günə İslam Tarixi. I c. Kahraman yayınları. s. 46.
315 Əllamə əl-Məclisi. Biharül-ənvar. XI c. s. 99.
316 Bəqərə surəsi, ayə 34.
317 Bax: Təfsiri-Bəğəvi. Qeyd olunan ayənin təfsiri.
318 Əllamə əl-Məclisi. Biharül-ənvar. XI c. s. 147.
319 Həmin mənbə. XI c. s. 99.
320 Nisa surəsi, ayə 1.
321 Əllamə əl-Məclisi. Biharül-ənvar. XI c. s. 99.

.وروي عن أبي جعفر الباقر(ع): أن الله خلق حواء من فضل الطينة التي خلق منها آدم

"Allah Həvvanı (ə) Adəmin (ə) yaradıldığı torpağın qalığından yaradıb".[322]

Hədisi-şəriflərə nəzər salarkən görürük ki, Məsumlar (ə) bizə qadının yaradılışına dair bioloji biliklər vermişdir. Yəni Həvvanın (ə) Adəmin (ə) qabırğasından deyil, Adəmin (ə) xəlq edildiyi torpağın qalığından yaradilmasına dair məlumat vermişdir. Belə ki, mötəbər hədislərin birində Peyğəmbərdən (s) "Həvva nədən yaradılmışdır?" – deyə soruşularkən buyurmuşdur: "Allah bir miqdar torpağı öz qüdrət əli ilə bir-birinə qarışdırdı və ondan Adəmi yaratdı. Sonra o torpaqdan bir miqdar artıq qaldı ki, ondan da Həvvanı yaratdı".[323]

Qurani-Kərimin başqa-başqa yerlərində insanın yaradılması haqda keçən ayələr müxtəlif şəkildə açıqlanmışdır. Məsələn, insanın tək bir nəfsdən[324] yaradılması, bir tərəfdən ilk insan nümunəsinin yaradılmasına işarə edərkən, digər cəhətdən isə bununla bütün insanlığın ortaq ana-atadan gəldiyi xatırladılaraq insanların qardaşca yaşamalarının zəruriliyi bildirilməkdədir. Buradan məlum olur ki, eyni nəsil və kökdən gələn insanların nəsil və nəsəblə öyünmələrinin bir mənası yoxdur. Ümumiyyətlə, yuxarıdakı ayədə keçən **"nəfs"** kəlməsindən məqsəd Adəmdir (ə). Ancaq eyni ayənin davamında **"zövcəsini də ondan yaratdıq"**[325] cümləsini **"onun cinsindən"** şəklində məna verənlər olmuşdur. Bu təfsirə görə, Həvva (ə) ilk insanın bədənindən deyil, onun da əsli olan torpaqdan yaradılmasıdır. Bu görüş haqqında Əllamə Məclisi İmam Məhəmməd Baqirdən (ə) belə bir hədis rəvayət edir: "Allah Adəmi (ə) onu yaratdığı torpağın qalığından yaratdı".[326] Həmçinin Allah taalanın Adəmi (ə) torpaqdan yaratmağa qadir olduğuna görə, Həvvanı (ə) da torpaqdan yaratmağa qadirdir. Belə olduqda Həvvanın (ə) Adəmin (ə) qabırğa sümüyündən yaradıldığını deməyin bir mənası yoxdur.[327] Əllamə Məclisi ayədə keçən **"min"** ön qoşmasının səbəb mənasında işləndiyini və belə olduğu halda ayənin "Həvvanın (ə) Adəmə (ə) görə yaradıldığı" mənasında izah edilə biləcəyi ehtimalını da irəli sürmüşdür.[328] Beləliklə də o, Həvvanın (ə) Adəmin (ə) yaradıldığı palçığın qalığından yaradıldığı fikrinin mümkün olduğunu qeyd etmişdir.

Həvvanın (ə) Adəmin (ə) qabırğasından yaradılması hədisi hərfi mənada izah edilmiş və Tövrata uyğun olan bu görüşü bəzi alimlər qəbul etməmişlər.[329]

Qurani-Kərimdə Həvvanın (ə) yaradılışından bəhs edilmir, yalnız Adəmlə (ə) birlikdə Cənnətdə yerləşdirilmələri və oradan çıxarılmalarından danışılır.[330]

Beləlikə, qeyd etmək lazımdır ki, Qurani-Kərimdə Həvvanın (ə) Adəmin (ə) qabırğa sümüyündən yaradılması fikrini təsdiqləyəcək heç bir ayə və səhih hədis yoxdur. Həmçinin, Allah taalanın buyurduğu **"zövcəsini də ondan yaratdıq"** ayəsini bu görüş əsasında izah etmək də düzgün deyildir. **"Zövcəsini də ondan yaratdıq"**

---

[322] Həmin mənbə. XI c. s. 99.
[323] Əllamə Hüveyzi. Təfsiru nuris-Səqəleyn. 5 cilddə. I c. s. 430.
[324] Nisa surəsi, ayə 1.
[325] Nisa surəsi, ayə 1.
[326] Əllamə əl-Məclisi. Biharül-ənvar. XI c. s. 99.
[327] Fəxrəddin ər-Razi. Təfsirül-kəbir. VII c. s. 311.
[328] Əllamə əl-Məclisi. Biharül-ənvar. XI c. s. 103.
[329] DİA. XVI c. "Havva" maddəsi. s. 544.
[330] Bax: əl-Bəqərə surəsi, ayə 35, 38; əl-Əraf surəsi, ayə 19; Taha surəsi, ayə 117, 123.

ayəsini izah edənlərin məqsədi Quranı Tövratın təkvin kitabı ilə uyğunlaşdırmaqdır.[331]

Atamız Adəm (ə) və anamız Həvva (ə) ilə başlayan insanlıq tarixi o ikisindən çoxalan nəsillər günümüzə qədər gəlmiş, qiyamətə qədər də davam edəcəkdir. Çünki bu aləm Uca Allahın xəlifəsi olan insanla mənalı və dəyərlidir.

İnsanı insan olaraq göstərən, ona şərəf qazandıran ağıldır. Qəzaliyə (öl. 1111) görə, ağıl elmin qaynağı, əsası və bünövrəsidir.[332] Ağıl həm də insana dünya və axirət səadətinə vəsilə qazandırır. Ağıl insanları iri cüssəli heyvanlardan belə güclü edir. O, azğın və qüvvəli heyvanı ağıl işlədərək ya tələyə salır, ya da məhv edir. Əllamə Məclisinin "Biharül-ənvar" əsərinin birinci hissəsini[333] məhz ağıl mövzusuna həsr etməsi və bu haqda ayələrlə birlikdə hədisləri qeyd etməsi bütün bu deyilənlərə bir dəlildir.[334]

## 5.3. Həzrət Adəmin (ə) yaradıldığı gün

Qurani-Kərimdə Adəmin (ə) hansı gündə yaradıldığı bildirilmir. Ancaq hədislərdə Adəmin (ə) cümə günü yaradıldığı, o gündə Cənnətə qoyulduğu, həmçinin cümə günü Cənətdən çıxarıldığı, eyni gündə tövbəsinin qəbul edldiyi, bununla bərabər yenə bir cümə günü vəfat etdiyi xəbər verilməkdədir.[335] Bir rəvayətə görə də, Allah mələkləri çərşənbə, cinləri cümə axşamı, Adəmi (ə) də cümə günü yaratmışdır.[336] Əllamə Məclisi də bu növdən olan rəvayətlərə üstünlük vermişdir. O, Peyğəmbərdən (s) rəvayət edir: "Allah Adəmi cümə günü yaratdı".[337]

## 5.4. Həzrət Adəmdən (ə) əvvəl dünyada insanların varlığı məsələsi

İslam qaynaqlarında Adəmin (ə) yaradılmasından əvvəl yer üzündə insan və ya ona oxşayan ağıllı və şüurlu bir varlığın olub-olmadığı mövzusu mübahisəli fikirlərdə əksini tapmışdır. Bu mübahisənin səbəbi Adəmin (ə) yaradılışı ilə əlaqəli "Bəqərə" surəsində keçən **خَلِيفَةً** **"xəlifə"** kəlməsi və mələklərin Allaha verdikləri sualdır. Ayədə belə bəyan edilir:

**أَتَجْعَلُ فِيهَا مَن يُفْسِدُ فِيهَا وَيَسْفِكُ الدِّمَاء وَنَحْنُ نُسَبِّحُ بِحَمْدِكَ وَنُقَدِّسُ لَكَ قَالَ إِنِّي أَعْلَمُ مَا لاَ تَعْلَمُونَ**

**"Biz Sənə şükür etdiyimiz, şəninə tariflər dediyimiz və Səni müqəddəs tutduğumuz halda, Sən orada** (yer üzündə) **fəsad törədəcək və qan tökəcək bir kəsmi yaratmaq istəyirsən?"**[338]

Bir görüşə görə, Qurani-Kərimdə Adəmə (ə) və onun nəslinə xəlifə deyildiyi üçün yer üzündə Adəmdən (ə) əvvəl başqa bir insan növü yaşamışdır. Bunlar orada

---

331 İbn Kəsir. Təfsirül-Quranil-əzim. II c. s. 297.

332 Qazzali. İhyau ulumid-din. Tərc: Ali Arslan, Merve Basım, Yayın Dağıtım, Çağaloğlu. İstanbul, Baskı Eko Ofset, 1993. s. 271.

333 Əllamə əl-Məclisi. Biharül-ənvar. I c. "Ağıl" fəsli.

334 Geniş məlumat üçün bax: İbrahim Quliyev. Suallara cavablar (Hədisi-şəriflər kontekstində). Bakı, Elm və Təhsil. 2016. s. 516-525.

335 Əbu İsa ət-Tirmizi. Sünəni-Tirmizi. Cümə-1.

336 İbn Kəsir. Təfsirül-Quranil-əzim. II c. s. 258.

337 Əllamə əl-Məclisi. Biharül-ənvar. XI c. s. 109.

338 Bəqərə surəsi, ayə 30.

fəsad törətdikləri və qan tökdükləri üçün həlak edilmişlər. Bu səbəblə Adəm (ə) və nəsli xəlifə, yəni özündən əvvəlki insanların xələfi olmuş, onların yerinə keçmişdir.[339]

Həmçinin rəvayətlərdə işarə edilir ki, Adəmdən (ə) əvvəl insanlar olmuşlar. Böyük Quran təfsirçisi Əllamə Təbatəbai (1904-1981) yazırdı: "İmam Əlidən (ə) nəql olunan bir hədisdə yer üzərində insandan əvvəl canlıların olduğuna işarə edilir. İmam (ə) buyurur: "Allah taala yer üzərində cin və nəsnas tayfalarının yaşayışından yeddi min il keçəndən sonra Adəmi yaratmaq istədi... Allah taala göy təbəqələrini yararaq mələklərə dedi: "Mənim yer üzərində yaratdığım cin və nəsnaslara baxın!" Mələklər yer üzünə baxan zaman onların yer üzündə günah, fəsad etdiklərini və qan tökdüklərini gördülər".[340]

Əllamə Təbatəbai bu hədisi qeyd etdikdən sonra yazırdı: "Hədisdən də göründüyü kimi, Adəmdən (ə) əvvəl yer üzərində cin və nəsnas kimi canlılar yaşamışdır. Nəsnas tayfaları insana oxşar, cinlərdən də fərqli bir quruluşda olmuşlar. Onların da yaşayış tərzi insanların yaşayış tərzinə bənzər olub. Müəyyən vaxtdan sonra onlar məhv olaraq aradan getmişlər. Başqa bir hədisdə İmam Sadiq (ə) səhabələrindən birinə belə buyurur: "Ola bilsin elə güman edirsiniz ki, Allah taala sizdən başqa bir bəşər yaratmamışdır? Xeyr, bu belə deyil! Allah taala sizdən başqa min-min adəmlər yaratmışdır. Siz o adəmlərin ən sonunda qərar tapmısınız".[341]

Digər bir hədisdə İmam Baqir (ə) buyurur:

"Allah taala yerdə onu yaratmamışdan əvvəl yeddi başqa aləm yaratmışdır. Bu aləmlərin əhalisinin heç biri Adəmin nəslindən deyildi. Allah onları yer qabığından xəlq etdi. O, onları öz aləmləri ilə növbə ilə yer üzərində sakin etdi. (Sonda növbə insanların atası Adəmə yetişdi) Allah taala onu və onun nəslini yaratdı".

Bu hədislər insanın yaradılmış məxluqlardan biri olduğunu bəyan edir".[342]

Həmçinin, digər bir hədisdə də İmam Baqir (ə) Cabir bin Yezidə deyir: "Sən elə güman edirsən ki, Allah yalnız bu aləmi yaratdı və güman edirsən ki, sizdən başqa bəşər yaratmadı. Allaha and olsun ki, Allah minlərlə aləm və minlərlə adəm yaratdı. Sən bu aləmlərin və adəmlərin sonuncususan".

Bu rəvayətlərdən məlum olur ki, Adəmdən (ə) əvvəl insanlar yaşamışlar. Son illərdə tapılmışdır ki, milyonlarlarla il əvvəl yer kürəsində 7,8 min il yaşayan bəşər növü mövcud olmuşdur.[343] Göründüyü kimi, bu məlumatlar rəvayətlərdə də öz təsdiqini tapmışdır. İslam alimlərindən bəziləri əmindilər ki, Adəm (ə) yer üzərinə ayaq basan ilk insan olmayıb.

Əllamə Təbatəbai "Nisa" surəsinin 1-ci ayəsinin təfsirində yazırdı: **"Ey insanlar, sizi tək bir şəxsdən, Adəmdən xəlq edən, ondan zövcəsini yaradan və onlardan da bir çox kişi və qadınlar törədən Rəbbinizdən qorxun. Bir-birinizdən cürbəcür şeylər istədiyiniz Allahdan, həmçinin qohumluq əlaqələrini kəsməkdən həzər edin. Şübhəsiz ki, Allah sizin üzərinizdə gözətçidir" -** ayəsinin zahirindən aydın olur ki, "vahid nəfs"də məqsəd Adəm (ə) və **"zəvcuha"**da məqsəd Həvvadır

---

339 Süleyman Hayri Bolay. "Adem", Diyanet İslam Ansiklopedisi, I c. İstanbul, 1987. s. 359.

340 Əllamə Təbatəbai. İnsan dünyadan əvvəl. II nəşri, şərh və əlavələr: Rövşən Abdullaoğlu. Bakı, Qədim qala, 2013. s. 16-17 (Şeyx Səduqun "İləlüş-şərae" əsərinə istinadən (I c. s. 105).

341 Şeyx Səduqun "Tövhid" əsərinə (s. 277) istinadən.

342 Əllamə Təbatəbai. İnsan dünyadan əvvəl. II nəşri, şərh və əlavələr: Rövşən Abdullaoğlu. Bakı, Qədim qala, 2013. s. 17 (Şeyx Səduqun "Xisal" əsərinə istinadən (II c. s. 358).

343 Əllamə əl-Məclisi. Baharül-ənvar. XXV c. s. 25 və VIII c. s. 384.

(ə). Onlar insan nəslinin ata və analarıdır. Biz də onun nəslindənik. Qurani-Kərimin zahirindən başa düşürük ki, bütün insan növlərinin fərdləri bu iki vücudda birləşir. Bu iki nəfərdən başqa heç kəsin bu nəslə müdaxiləsi yoxdur. Yəhudi tarixində qeyd olunmuşdur ki, bəşər növü yer üzərində xəlq olunduğu vaxtdan indiyə kimi 7 min il keçir. Əqli dəlillər də bunu sübut edir. Lakin geologiya alimləri əmindirlər ki, bəşər növünün ömrü milyon illərdir və öz dediklərini əsaslandırmaq üçün daşlaşmış insan sümüklərini misal göstərirlər ki, onların hər birinin ömrü 500 min ildir. Bu, onların etiqadıdır, amma göstərdikləri dəlillər qaneedici deyil. Bu daşlaşmış sümüklərin indiki insanların əcdadı olduqlarını göstərən heç bir dəlil yoxdur. Bu skeletlər insanların yer üzərində yaşadığı müəyyən dövrə aiddir. Yəqin ki, yer üzərində Adəmdən (ə) əvvəl insanlar yaşamışlar. Sonra məhv olmuşlar. Qurani-Kərim aşkar surətdə insanın yer üzərində nə vaxt yarandığını bəyan etməmişdir. Bizim dövrümüz axırıncı dövrdür. Qurani-Kərimin bəzi ayələrindən istifadə edərək demək mümkündür ki, Adəmdən (ə) öncə başqa insanlar yaşamışlar. Məsələn, "Bəqərə" surəsinin 30-cu ayəsindən aydın olur ki, Adəmdən (ə) əvvəl insanlıq olmuşdur".[344]

Etimad edilən təfsirlərə görə, mələklərin Adəm (ə) və nəsli haqqındakı məlumatı ya Allahın daha əvvəl bu mövzuda onlara məlumat verməsindən və ya lövhi-məhfuzda yazılanları öyrənmələrindən qaynaqlanmaqdadır və yaxud da günahsız olduqları üçün onlar kimi olmayan varlıqların günah işləyəcək bir təbiətdə yaradılmış olacaqlarını düşünməkdən qaynaqlanır.[345]

Bəzi təfsir əhlinə görə isə, Adəm (ə) və nəslinin xəlifə olaraq adlandırılması da Adəmdən (ə) əvvəl bir insan növünün yaşamış olduğu qənaətinə gətirib çıxarmır. Çünki daha tutarlı və ümumi olaraq qəbul edilən görüşə görə, bu kəlmə, "daha əvvəlki bir insan toplumunun xələfi, onların yerini alan" mənasında deyil, "Allahın vəkili, yer üzündə onun hökmlərini yaşadan, həyata keçirən, dünyanı inşa edən, insanları idarə və tərbiyə edən, dünyadakı digər bütün canlılardan üstün olan, onları əmri altına alan" mənasında işlədilmişdir. Eyni zamanda, "xəlifə" sözü insanı digər canlılardan ayıran hər şeyi əhatə edir.[346] Bu kəlmədən Adəm (ə) və nəslinin daha əvvəl yer üzündə yaşayan cinlərin və ya mələklərin xələfləri olduğu mənasını çıxaranlar da olmuşdur.[347] Bir rəvayətə görə, Allah mələkləri çərşənbə, cinləri cümə axşamı, Adəmi (ə) də cümə günü yaratmışdır. Cinlərdən bir qrupu küfrə girmişlər, bu səbəblə də mələklər yer üzünə enir və onlarla vuruşurdular. Beləliklə, də aralarında qan axıdılmış və yer üzündə fəsad çıxmışdı. Mələklər də "**Yer üzündə** (cinlər kimi) **fəsad törədəcək və qan tökəcək bir kəsmi yaradmaq istəyirsən?"**[348] demişdilər.[349]

Eyni zamanda, ayədə bildirildiyi kimi, "xəlifə" səmada yaradılmamışdır. Çünki fəsad çıxarma və qan tökmə hadisələri səmada deyil, yer üzündə olmuşdur. Yaradılacaq olan xəlifə, yəni Adəm (ə) cinlərin xələfi idi. Çünki dünyada Adəmdən (ə) əvvəl onlar var idi.

---

[344] Əllamə Təbatəbai. əl-Mizan təfsiri. I c. s. 190-200; IV c. s. 207-229; İbrahim Quliyev. Suallara cavablar (Hədisi-şəriflər kontekstində). s. 516-525.
[345] Süleyman Hayri Bolay. Adem. Diyanet İslam Ansiklopedisi. I c. İstanbul, 1987. s. 359.
[346] İbn Kəsir. Təfsirül-Quranil-əzim. II c. s. 256, 273.
[347] Fəxrəddin ər-Razi. Təfsirül-kəbir. II c. s. 244; İbn Kəsir. Təfsirül-Quranil-əzim. II c. s. 290.
[348] Bəqərə surəsi, ayə 30.
[349] İbn Kəsir. Təfsirül-Quranil-əzim. II c. s. 258.

İbn Abbasdan nəql edilən bir rəvayətə görə də, yer üzündə daha əvvəl cinlər yaşamaqda idi. Allah bunları oradan uzaqlaşdırdı və yerlərinə Adəm (ə) və nəslini yaratdı. Həsən Bəsri isə "Ənam" surəsinin 165-ci ayəsini dəlil göstərərək insanların tarixin axışı içində bir-birlərinin yerlərinə keçdikləri üçün "xəlifə" deyə adlandırıldıqlarını söyləmişdir.[350]

Bütün bu deyilənlərə baxmayaraq həzrət Adəmdən (ə) əvvəl insanların olub olmaması yenə də müsəlman alimləri arasında şübhəli məsələ kimi qalmaqdadır. Həm mədəniyyətə malik olub, həm də formaca Adəmə (ə) oxşayan bir dəstənin olması zahirən mümkündür. Hər halda Adəmin (ə) nəslinin tarixi aydın və dəqiq şəkildə məlum deyil və bu barədə əminliklə heç bir söz söyləmək olmaz.

Göründüyü kimi, həzrət Adəmin (ə) yaradılışı barəsində müxtəlif nəzəriyyələr mövcuddur. Əllamə Məclisinin bu mövzuda nəql etdikləri bir araya toplanarsa, belə bir bölgünün şahidi ola bilərik:

1. Həzrət Adəmdən (ə) öncə onun kimi və ya ona oxşar heç bir varlıq mövcud olmamışdır. Həzrət Adəm (ə) bir dəfəyə müstəqil şəkildə yaradılıb.

2. Həzrət Adəmdən (ə) öncə ona və cinə oxşar varlıq olub, sonralar ya aradan gedib, ya da hələ də mövcuddur.

3. Həzrət Adəmdən (ə) öncə insan mövcud olub, lakin təkamül tapmamışdır. Aradan gedib yox olmuşdur. Həzrət Adəm (ə) keçmiş insanlarla ünsiyyətdə olmadan müstəqil şəkildə yaradılmışdır.

4. Həzrət Adəmdən (ə) əvvəl insan mövcud olub və təkamül tapmayıb. Amma aradan da getməyib. Həzrət Adəm (ə) bütün insan nəsli arasından ilk insan, ilk peyğəmbər olub bir dəfəyə yaradılmayıb.

Keçmişdə insana oxşar məxluqun olması barəsində hətta dəqiq xəbərlərin olmasının indiki insanların Adəm (ə) və Həvvadan (ə) törədiyi ilə heç bir ziddiyyəti yoxdur. Adəm (ə) və Həvva (ə) keçmiş insan nəslindən deyil. Bugünkü elm belə, bunu isbat etməmişdir. Bioloqlar tərəfindən yalnız bəzi fərziyyələr irəli sürülmüşdür.[351]

## 5.5. Həzrət Adəmin (ə) peyğəmbərliyi

Qurani-Kərimdə Adəmin (ə) peyğəmbər olması haqqında heç bir məlumat yoxdur. Qurani-Kərimin xəbər verdiyinə görə, Adəm (ə) Rəbbindən (bəzi xüsusi) kəlmələr almışdır.[352] Allah ona xitab etmiş, vəzifə və məsuliyətini bildirmişdir.[353] Başqa bir ayədə də Allahın Nuh (ə), İbrahim (ə) xanədanı və İmran xanədanı ilə birlikdə Adəmi (ə) də aləmlər (məxluqat, insanlar, bəşər övladı) üzərində seçilmiş (üstün) etmişdir.[354] Beləliklə, yuxarıdakı ayələr əsasında Adəmin (ə) peyğəmbər olduğuna işarə edilmişdir.[355]

Bu mövzudakı bir rəvayətdə də Peyğəmbərimizə (s) ilk peyğəmbərin kim olduğu soruşulmuş, Peyğəmbərimiz də (s) bu suala: "Adəmdir", – deyə cavab

[350] Fəxrəddin ər-Razi. Təfsirül-kəbir. II c. s. 244.
[351] İbrahim Quliyev. Suallara cavablar (Hədisi-şəriflər kontekstində). s. 516-525.
[352] Bəqərə surəsiş, ayə 37.
[353] Bəqərə surəsi, ayə 33, 35; Əraf surəsi, ayə 19; Taha surəsi, ayə 117.
[354] Ali-İmran surəsi, ayə 33.
[355] Süleyman Hayri Bolay. DİA. I c. "Adem" maddəsi. s. 359.

vermişdir. Əllamə Məclisi bu haqda məşhur səhabə Əbuzər əl-Qiffaridən belə rəvayət edir: "Əbuzər deyir: Peyğəmbərə (s) dedim:

- Ey Allahın Rəsulu! Peyğəmbərlər nə qədərdir? Həzrət (s) buyurdu:
- Yüz iyirmi dörd min nəfər.
- Onlardan neçə nəfər mürsəldir?
- Üç yüz on üç nəfər.
- İlk peyğəmbər kimdir?
- Adəm.
- O, mürsəl peyğəmbərlərdən idimi?
- Bəli, Allah onu öz qüdrət əli ilə yaratmış və ona öz ruhundan üfürmüşdür..."[356]

## 5.6. Mələklərin həzrət Adəmə (ə) səcdə etmələri

Qurani-Kərimdə ilk insan olan Adəmin (ə) necə, hansı şəkildə və nədən yaradıldığı haqqında bəhs edilməklə birlikdə bir xüsus da vardır ki, o da bu yaratma hadisəsindən sonra Allahın mələklərə Adəmə səcdə etmələrini əmr etməsidir. Əllamə Məclisi bu mövzunu bütün təfərrüatı ilə "Biharül-ənvar" əsərində işıqlandırmışdır.[357]

Müəllifə görə, Allah taala Adəmi (ə) yaratdığı və ona ruh verdiyi zaman mələklərə اسْجُدُوا لآدَمَ **"Adəmə səcdə edin!"** əmrini vermiş və bütün mələklər də bu əmrə tabe olmuşdur. O, bu haqda Qurani-Kərimdəki bütün ayələri[358] bir araya toplamışdır.[359] Beləliklə, müəllifin də gəldiyi qənaət budur ki, Allah Adəmi (ə) mələklərdən daha üstün və onların hörmətinə layiq bir mərtəbədə yaratmışdır. Burada müraciət bütün mələklərədir, yoxsa onların bəzilərinə sualı haqqında Əllamə Məclisi İbn Abbas vasitəsilə nəql edir: "Burada müraciət cinləri öldürən mələklərədir..".[360]. Lakin müəllif müraciətin bütün mələklərə olduğu qənaətindədir.[361] Adəmin (ə) mələklərdən üstün olduğunu deyənlərə görə, Allah taala mələklərə Adəmin (ə) bilinməyən xüsusiyyətləri və fəzilətlərini açıqlamışdır. Necə ki, Allah taala Adəmə (ə) bütün əşyaların adlarını və sirlərini öyrətmiş, sonra isə mələklərə bunları demələrini əmr etmişdir. Mələklər də bu tələb qarşısında Adəmin (ə) üstünlüyünü qəbul etmiş və özlərindəki bilgilərin əksikliyini başa düşmüşlər. Bu üstünlük təkcə Adəmə (ə) xas olmayıb, eyni zamanda, bütün insanlığı əhatə edən bir şərəfdir. Quranda başqa səbəblərlə də insan oğlunun üstün olduğuna[362] işarə edilmişdir.[363]

Ayədə keçən **"Mələklər səcdə etdilər"** فَسَجَدُوا feilinin başında gələn "fə" (**فَ**) hərfi mələklərin Allahın əmrinə dərhal tabe olduqlarını bildirməkdədir.

Ancaq İblis Adəmə (ə) səcdə etməsi əmri qarşısında özünün oddan, Adəmin (ə) isə torpaqdan yaradıldığını, beləliklə də ondan üstün olduğunu iddia edərək, Allahın

---

[356] Əllamə əl-Məclisi. Biharül-ənvar. XI c. s. 525.
[357] Həmin mənbə XI c. s. 525.
[358] Bəqərə surəsi, ayə 34; Əraf surəsi, ayə 11; Hicr surəsi, ayə 29-31; İsra surəsi, ayə 61; Kəhf surəsi, ayə 50; Taha surəsi, ayə 116; Sad surəsi, ayə 72-74.
[359] Əllamə əl-Məclisi. Biharül-ənvar. XI c. s. 130-131.
[360] Həmin mənbə. XI c. s. 130.
[361] Həmin mənbə. XI c. s. 142.
[362] İsra surəsi, ayə 70; Tin surəsi, ayə 4.
[363] Əllamə əl-Məclisi. Biharül-ənvar. XI c. s. 131.

əmrinə qarşı çıxmış [364] və bu səbəblə də lənətlənərək Allahın rəhmətindən uzaqlaşdırılmışdır.[365]

İlk insan olan Adəmin (ə) yaradılışında cərəyan edən, bu günümüzlə, həmçinin qiyamətə qədər bütün insanlarla bilavasitə sıx əlaqəsi olan hadisələrdən biri də şeytanın Allahdan qiyamətə qədər, düşməni olan Adəmin (ə) nəslini doğru yoldan ayırması üçün möhlət istəməsidir[366] ki, Allah taala da şeytana istədiyi bu möhlət və fürsəti vermişdir.

İslamda Allahdan başqasına ibadət məqsədilə səcdə etmək küfr olduğu üçün mələklərin Adəmə (ə) səcdə etmələri İslam alimlərinə görə, ibadət səcdəsi deyil, "hörmət" səcdəsi və bir növ "beyət" olaraq açıqlanmşdır.[367]

Təbəriyə görə, mələklərin Adəmə (ə) etdikləri səcdə ona edilən hörmət və Allaha edilən bir itaət səcdəsi idi. Yəni mələklər Adəmin (ə) şəxsinə ibadət məqsədilə səcdə etməmişlər.[368]

## 5.7. Həzrət Adəmin (ə) yerləşdirildiyi Cənnət

Qurani-Kərimdə Allahın Adəm (ə) və Həvvaya (ə) Cənnətdə yerləşmələrini əmr etdiyi bildirilməkdədir. [369] Ancaq bu cənnətin axirətdə yaxşı əməl sahiblərinin qalacaqları "əbədilik yurdu" (darül-xuld) olaraq bilinən cənnət olub olmadığı mövzusunda açıq bir ifadəyə yer verilməmişdir. Bu səbəblə İslam alimlərinin bir qismi mövzu ilə əlaqəli ayələrdəki **"cənnət"** kəlməsinin lüğəvi mənası ilə "bağça" demək olduğunu, bunun da yer üzündə bir məkan olduğunu iddia etmişlər. Əllamə Məclisi mövzu ilə əlaqəli çoxlu sayda, lakin bəzən bir-birlərinə zidd hədislər rəvayət etmişdir.[370]

Müəllif alimlərin dəlillərini aşağıdakı kimi sıralayır.[371]

Ayələrdə Adəmin (ə) yer üzündə yaradıldıqdan sonra göyə çıxarıldığından bəhs edilmir. Əgər həqiqətən Adəm (ə) burada yaradıldıqdan sonra göydəki cənnətə çıxarılmış olsaydı, bu xüsus şübhəsiz ki, qeyd edilərdi. Vəd edilən cənnət pisliklərdən uzaq duran möminlərin girəcəyi cənnətdir və lənətlənmiş şeytan heç bir vaxt oraya girə bilməz.[372]

Əgər Adəm (ə) və Həvvanın (ə) yerləşdirildiyi cənnət axirətdə yaxşı əməl sahiblərinin mükafatlandırılacaqları cənət olsaydı, Adəm (ə) və Həvvaya (ə) hər hansı bir qadağanın qoyulmaması lazım idi. Çünki əsl cənnətdə hər hansı bir qadağa yoxdur.

Cənnətdə günah işləmək və üsyan etmək mümkün deyildir. Ancaq Adəm (ə) və Həvva (ə) tərki-övla, yəni əlanı qoyub yaxşını etmişlər. Əllamə Məclisi adı çəkilən

---

[364] Əraf surəsi, ayə 12; Hicr surəsi, ayə 33; İsra surəsi, ayə 61; Sad surəsi, ayə 76.
[365] Sad surəsi, ayə 74-75; Əllamə əl-Məclisi. Biharül-ənvar. XI c. s. 132.
[366] Əraf surəsi, ayə 13-18; Hicr surəsi, ayə 34-43; İsra surəsi, ayə 61, 65; Sad surəsi, ayə 75-83.
[367] Süleyman Hayri Bolay. DİA. I c. "Adem" maddəsi. s. 360.
[368] Cərir ət-Təbəri. Təfsir. I c. s. 39.
[369] Bəqərə surəsi, ayə 35.
[370] Əllamə əl-Məclisi. Biharül-ənvar. XI c. s. 143, hədis № 12 və s.
[371] Həmin mənbə. XI c. s. 143.
[372] Fəxrəddin ər-Razi. Məfatihül-qeyb (Təfsiri-kəbir). II c. s. 390.

əsərində “tərki-övla” məsələsini geniş şəkildə təhlil etmiş və mövzu ilə əlaqəli ayələri bir-bir nəzərdən keçirərək geniş təhlil etmişdir.[373]

Quranda xəbər verildiyinə görə, cənnət əbədilik yurdudur, oraya girənlər heç vaxt geriyə çıxarılmazlar.[374] Halbuki Adəm (ə) və Həvva (ə) yerləşdirildikləri cənnətdən çıxarılmışlar.[375]

Bəzi müsəlman alimləri Peyğəmbərin (s) merac əsnasında cənnəti müşahidə etdiyini bildirən hədisləri nəzərə alaraq, Adəm və Həvvanın yerləşdirildiyi cənnətin göydə olduğunu bildirmişlər, həmçinin onların cənnətdən çıxarılmasından bəhs edən ayələrdə “enin!” (اهْبِطُواْ) kəlməsinin işlədilməsini də buna dəlil olaraq göstərmişlər.[376] Əllamə Məclisi də bu haqda bir neçə hədis nəql etmişdir.[377] Təbəriyə (838-923) görə, Allahın **“cənnətdən enin”** əmrinə Adəm (ə), Həvva (ə) və İblis daxildir. Bunu Əllamə Məclisi də nəql etmişdir.[378] Adəmin (ə) və İblisin zürriyyətinin arasındakı düşmənliq isə, iman və küfr düşmənliyidir.[379]

Adəmin (ə) həqiqi cənnətdə olduğu fikrini qəbul etməyənlər isə, Adəmin (ə) yaradıldığı cənnətin yer üzündəki cənnətdir, yoxsa əbədi olan cənnətdir sualları üzərində ixtilaf edərək, Adəmin (ə) yaradıldığı cənnətin Fələstin, yaxud da Fars ilə Girman arasında bir yer olduğunu iddia etmişlər. Həmçinin Adəmin (ə) cənnətdən enişinin Hindistanda[380] Sərəndəb bölgəsində olduğunu da nəql etmişlər. Bundan başqa, Əllamə Məclisi Adəmin (ə) Məkkədəki Səfa dağına endiyini və buna görə də Səfa dağının adının Adəmin (ə) ləqəbi olan “Səfi”dən aldığını, Həvvanın (ə) isə Mərvə dağına endiyini və buna görə də Mərvənin “Mərvə” adlandığını da əsərində qeyd etmişdir.[381]

Ayədəki “اهْبِطُواْ” **“enin!”** felinin kökü olan (hubut) “هُبُوط” kəlməsinin yüksək bir yerdən aşağıya enmək, yamacdan aşağıya tərəf getmək mənaları vardır. Necə ki, “Bəqərə” surəsində İsrail oğullarına xitabən “اهْبِطُواْ مِصْراً” “şəhərlərdən birinə gedin”[382] buyurulmuşdur.[383] Beləliklə də, Adəmin (ə) yaradıldığı cənnətin bir təpə üstündə olması və Adəmin (ə) oradan bir düzlüyə enməsinə (hubut) “هُبُوط” deyilməsi tamamilə uyğun bir haldır.[384] Bəzi təfsirçilər **“hubut”** sözünü məqamın enməsi kimi də təfsir etmişlər.

Bəzi alimlər də yuxarıdakı hər iki iddianın mümkün olduğunu, mövzu ilə əlaqəli səhih və güclü bir dəlil olmadığı üçün dəqiq bir söz deməyin mümkün olmadığını, belə bir halda da bu mövzuda mübahisə etməyin düzgün olmayacağını söyləmişdirlər.[385]

Deməli, mövzunu Əllamə Məclisinin də görüşləri əsasında xülasə etsək, Allah taala Adəmi (ə) dünya həyatına göndərmədən əvvəl müəyyən bir məkanda (bağça və

[373] Əllamə əl-Məclisi. Biharül-ənvar. XI c. s. 156.
[374] Hicr surəsi, ayə 48.
[375] Fəxrəddin ər-Razi. Məfatihül-qeyb. II c. s. 389-390.
[376] Əllamə əl-Məclisi. Biharül-ənvar. XI c. s. 143, hədis № 13 və s.
[377] Həmin mənbə. XI c. s. 211.
[378] Həmin mənbə. XI c. s. 157.
[379] Təbəri. Təfsir. I c. s. 40.
[380] Əllamə əl-Məclisi. Biharül-ənvar. XI c. s. 205, 213-214.
[381] Həmin mənbə. XI c. s. 162.
[382] Bəqərə surəsi, ayə 61
[383] Əllamə əl-Məclisi. Biharül-ənvar. XI c. s. 143.
[384] Süleyman Ateş. Təfsir. I c. s. 145-146.
[385] DİA. I c. “Adem” maddəsi. s. 361.

ya cənnət) yerləşdirərək imtahan etmiş, ona xəta (tərki-övla) etdikdən sonra tövbə etməyi öyrətmişdir. Hətta müəllifə görə, Adəm (ə) tövbəsinin qəbul olması üçün iki yüz il ağlamışdır.[386] O, adı çəkilən əsərində Adəmin (ə) tövbəsinin qəbul olunması üçün kimlərə and verməsi və hansı kəlmələrdən istifadə etməsi haqqında da bəhs etmişdir.[387]

### 5.8. Qadağan edilən ağacın mahiyyəti

Qurani-Kərimə görə, Adəm (ə) və Həvva (ə) cənnətdə yerləşdikdən sonra orada Allahın nemətlərindən istədikləri kimi istifadə edirdilər. Həmçinin Allah onları qadağan edilmiş ağaca yaxınlaşmamalarını əmr etmişdi. Ayədə belə bəyan olunur:

**“**(Sonra) **Biz** (Adəmə) **dedik: “Ey Adəm, sən zövcənlə** (Həvva ilə) **Cənnətdə qal və hər ikiniz oradakı meyvələrdən istədiyiniz kimi, bol-bol yeyin, yalnız bu ağaca yaxın gəlməyin! Yoxsa** (özünüzə) **zülm edənlərdən olarsınız”.**[388]

Xatırladaq ki, Qurani-Kərimdə bu ağacın mahiyyəti haqqında məlumat verilməmişdir. Yalnız şeytan Adəm (ə) və Həvvaya (ə) **“Rəbbiniz sizə bu ağacı yalnız mələk olmamağınız və ya** (Cənnətdə) **əbədi qalmamağınız üçün qadağan etmişdir!”**[389] - deyərək vəsvəsə vermiş, bununla birlikdə şeytan Adəmə (ə): **“Ey Adəm! Sənə əbədiyyət ağacını və köhnəlib xarab olmayacaq** (fənaya uğramayacaq) **bir mülkü göstərimmi?”**[390] - deyərək onları yoldan çıxarmışdır.[391]

Onlar ağacdan yedikdən sonra lüt-üryan olmuş, onlar Cənnət bağlarından olan ağacların yarpağı ilə örtünmüşlər.[392]

Əllamə Məclisi yazır ki, alimlər burada qeyd edilən ağacın nə olduğu haqqında ixtilaf etmişlər. O, bu haqda belə nəql edir:

ابن عبدوس، عن ابن قتيبة، عن حمدان بن سليمان، عن الهروي قال: قلت للرضا عليه السلام: يا ابن رسول الله أخبرني عن الشجرة التي أكل منها آدم وحواء ما كانت؟ فقد اختلف الناس فيها: فمنهم من يروي أنها الحنطة، ومنهم من يروي أنها العنب، ومنهم من يروي أنها شجرة الحسد، فقال: كل ذلك حق. قلت: فما معنى هذه الوجوه على اختلافها؟ فقال: يا أبا الصلت إن شجر الجنة تحمل أنواعا فكانت شجرةالحنطة وفيها عنب، وليست كشجر الدنيا، وإن آدم عليه السلام لما أكرمه الله تعالى ذكره بإسجاد ملائكته له وبإدخاله الجنة قال في نفسه: هل خلق الله بشرا أفضل مني؟ فعلم الله عزوجل ما وقع في نفسه، فناداه: ارفع رأسك يا آدم فانظر إلى ساق عرشي، فرفع آدم رأسه فنظر إلى ساق العرش فوجد عليه مكتوبا: «لا إله إلا الله، محمد رسول الله، علي بن أبي طالب أميرالمؤمنين، وزوجه فاطمة سيدة نساء العالمين، والحسن والحسين سيدا شباب أهل الجنة» فقال آدم عليه السلام: يا رب من هؤلاء؟ فقال عزوجل: من ذريتك وهم خير منك ومن جميع خلقي، ولولاهم ما خلقتك ولا خلقت الجنة والنار ولا السماء والارض، فإياك أن تنظر إليهم بعين الحسد فاخرجك عن جواري. فنظر إليهم بعيد الحسد وتمنى منزلتهم فتسلط الشيطان عليه حتى أكل من الشجرة التي نهي عنها. وتسلط على حواء لنظرها إلى فاطمة عليهما السلام بعين الحسد حتى أكلت من الشجرة كما أكل آدم فأخرجهما الله عزو ل عن جنته، وأهبطهما عن جواره إلى الارض.

“...əl-Hərəvi adlı ravi bu haqda İmam Rzadan (ə) soruşdu:

---

386 Əllamə əl-Məclisi. Biharül-ənvar. XI c. s. 210.
387 Həmin mənbə. XI c. s. 157.
388 Bəqərə surəsi, ayə 35.
389 Əraf surəsi, ayə 20.
390 Taha surəsi, ayə 120.
391 Əllamə əl-Məclisi. Biharül-ənvar. XI c. s. 162-163.
392 Həmin mənbə. XI c. s. 158-159, 161.

- Ey Peyğəmbərin (s) övladı! Mənə Adəmin (ə) və Həvvanın (ə) yediyi ağac haqqında xəbər ver. İnsanlar bu haqda ixtilafdadırlar. Onlardan bəzisi bu ağacın buğda, bəzisi üzüm, bəzisi də həsəd ağacı olduğunu nəql edirlər. İmam (ə) buyurdu:

- Onların dediklərinin hamısı doğrudur. Dedim:

- Bəs onların ixtilaflarının səbəbi nədir? İmam (ə) buyurdu:

- Ey Əba Səlt! Cənnət ağacı müxtəlif növlü olur. Buğda ağacı həm də üzüm ola bilər. O ağaclar dünya ağaclarına bənzəmir. Allah mələklərə Adəmə (ə) səcdə etmələrini deməklə, onu kəramətləndirdi. Adəm (ə) öz-özünə dedi: "Allah məndən üstün bəşər yaradıbmı?" Allah onun öz-özünə dediklərini bildi və ona dedi: "Ey Adəm, başını qaldır və Ərşimin üzərinə bax!"

Adəm (ə) başını qaldırıb Ərşə baxdığı zaman, orada "Allahdan başqa məbud yoxdur, Məhəmməd onun rəsuludur, Əli bin Əbu Talib möminlərin əmiridir, onun zövcəsi Fatimə aləmlərin xanımlarının xanımıdır, Həsən və Hüseyn Cənnət cavanlarının ağasıdır", sözlərinin yazıldığını gördü. Bunu görən Adəm (ə) dedi:

- Ey Rəbbim, bunlar kimlərdir? Allah taala buyurdu:

- Bunlar sənin zürriyyətindən olacaq şəxslərdir. Onlar səndən və bütün xəlq etdiklərimdən daha xeyirlidirlər. Əgər onlar olmasaydı, səni, Cənnəti, Cəhənnəmi, yerləri və göyləri yaratmazdım. Onlara həsəd gözü ilə baxma, yoxsa səni buradan çıxararam!

Amma Adəm (ə) adı çəkilən bu şəxslərə həsəd gözü ilə baxdı, onların mənsub olduqları məqamı təmənna etdi və bunun da nəticəsində şeytan ona hakim oldu. Ona qadağan olunmuş ağacdan yedi. Həvva (ə) da Fatimənin (ə) məqamına həsəd gözü ilə baxdı. O da Adəm (ə) kimi o ağacdan yedi və beləliklə, Allah onları Cənnətindən çıxardı, yer üzünə endirdi".[393]

Xüsusi şəkildə qeyd etmək lazımdır ki, buradakı qadağa haram növündən olmayıb yalnız "nəhyi-tənzihi"dir. Yəni, sadəcə, məsləhət deyil. Bunu Əllamə Məclisi İmam Məhəmməd Baqirdən (ə) nəql etmişdir.[394]

Əllamə Məclisi yazır ki, İbn Abbasdan gələn rəvayətə görə, bu ağac buğda ağacı, İmam Əlidən (ə) gələn rəvayətə görə isə, kafur ağacı imiş.[395] Hətta o, Adəmin (ə) bu ağacdan on iki ədəd, Həvvanın (ə) isə altı ədəd buğda yediyini də vurğulamışdır.[396] Həmçinin müəllif əsərində bu ağacın elm ağacı olması haqqındakı rəvayətləri də qeyd etmiş, lakin İmam Rzadan (ə) nəql olunmuş hədisin doğru ola biləcəyi qənaətini də gizlətməmişdir.

Bu ağacın buğda, üzüm, əncir olduğu barəsində də rəvayətlər vardır. Bəzi alimlərin gəldiyi qənaətə görə, bu ağac simvolik bir məna daşımaqdadır və kinayəli olaraq burada cinsi birləşmə nəzərdə tutulubmuş. Çünki insan cinsi birləşmə ilə ağac kimi qol budaq açır və nəsil artırır. Bu görüşdə olan alimlərə görə, insan özünün bir fərd olaraq sonlu olduğunu görmüş, bu naqisliyi cinsi birləşmə vasitəsilə həll edərək, fərdi olaraq gerçəkləşməsə də, cəmiyyət halında əbədi yaşamaq yolunu axtarmış,

---

[393] Əllamə əl-Məclisi. Biharül-ənvar. XI c. s. 164-165.
[394] Həmin mənbə. XI c. s. 156.
[395] Həmin mənbə. XI c. s. 165.
[396] Həmin mənbə. XI c. s. 167.

həyatını özündən törəyəcək nəsillərlə davam etdirmək istəmişdir. Necə ki, ağacın meyvəsini qadının kişiyə təqdim etməsində də bu məna gizli olaraq vardır.[397]

Qadağan edilən ağac haqqında "bu ağacın mahiyyətini bilmək, bilən şəxsə fayda verməz. Həmçinin bu ağacın mahiyyətini bilməyən şəxsə də, onu bilməmək zərər verməz" deyərək bu haqdaki ən doğru məlumatın Allaha aid olduğunu deyənlər də vardır.[398]

Digər İslam qaynaqları ilə yanaşı, "Biharül-ənvar"da da qeyd olunan bu ağacın xeyri və şəri bilmə ağacı olduğu da qeyd edilir.[399] Amma bəzi alimlərə görə, bu rəvayətlərin bəzisi qeyri-İslami qaynaqlardan alınıb.[400]

Təbəri (838-923) ağacın mahiyyəti haqqında belə yazır: "Qadağan edilən ağacın müəyyən bir ağac olduğuna dəlalət edən hər hansı bir ayə yoxdur. Bəziləri bu ağacın sünbül, bəziləri isə zeytun ağacı, bəziləri də üzüm ağacı olduğunu söyləmişlər. Əgər bu ağacın bilinməsi lazım gəlsə idi, Allah taala bu ağacı bizə açıqlayardı".[401]

Şeyx Nəcməddinə görə, Allah taalanın Adəmə (ə) qadağa etməsi bir növ onu imtahan etmək üçün idi. Ayədəki ağac məhəbbət və məğfirət ağacıdır. Allah taalanın bu ağacı qadağan etməsi, Adəmdə (ə) bu ağaca qarşı həvəs və meylin oyanmasına səbəb olmuşdur. Çünki insan oğlunun qadağan edilən şeylərə qarşı həvəs və meyli vardır. Beləliklə də, Adəm (ə) bu ağacdan yemişdir. Adəmin (ə) ağacdan yeyəcəyini bildiyi halda Allah taalanın bu ağacı qadağan etməsi, Adəmin (ə) işlədiyi günahdan tövbə edərək təmizlənməsini və sevgiyə layiq olmasını təmin etmişdir.[402]

Mövzu ilə əlaqədar hədislər dəyərləndirildikdə, görünür ki, Allah taala Adəmi (ə) bununla imtahana çəkmiş və imtahandan üzü ağ çıxa bilməyən Adəmin (ə) tövbəsini qəbul etmişdir. İmam Məhəmməd Baqir (ə) buyurur: "Əgər Adəm xəta etməsəydi, heç bir mömin xəta etməzdi. Əgər Allah onun tövbəsini qəbul etməsəydi, heç kəsin tövbəsini qəbul etməzdi".[403]

## 5.9. Quranda insanın yaradılışına dair fikirlərin elmlə üst-üstə düşməsi

Yuxarıda qeyd etdiyimiz kimi, ilk insan nümunəsi olan Adəm (ə) və Həvvanın (ə) yaradılışı hər hansı bir insan fərdinin yaradılış mərhələlərindən keçdiyi kimi olmamışdır. Bununla birlikdə insan, xüsusilə də insanın doğulması və dünyaya gəlişi mövzusuna Quranda çox əhəmiyyətli bir yer verilmişdir.[404] Qurani-Kərimdə yaratma ilə əlaqəli olaraq kişi ilə qadının, cinsi əlaqə və döllənməsi ilə başlayan təbii bir prosesdən bəhs edilir və bu prosesin daşıdığı mənalar üzərində durulur. Eyni zamanda, yuxarıda da qeyd etdiyimiz kimi, insanın yaradılışı fərqli proses və fərqli mərhələlərdən keçdiyi üçün Qurani-Kərim ayələrində də bu mərhələlərin fərqliliyi başqa-başqa ifadələrlə izah edilmişdir.

---

[397] Süleyman Ateş. Təfsir. I c. s. 147.
[398] İbn Kəsir. Təfsir. II c. s. 292-293.
[399] Əllamə əl-Məclisi. Biharül-ənvar. XI c. s. 165.
[400] Süleyman Hayri Bolay. DİA. I c. "Adem" maddəsi. s. 362.
[401] Cərir ət-Təbəri. Təfsir. I c. s. 40.
[402] İsmail Hakkı Bursevi. Təfsir. I c. s. 321.
[403] Əllamə əl-Məclisi. Biharül-ənvar. XI c. s. 165.
[404] Cafer Sadık Yaran. Din ve bilim çağdaş batı ve İslam düşüncesinden seçme felsefi yazılar. Samsun, Sidre yayınları, 1997. s. 92.

Qurandakı insanın doğulması ilə əlaqəli ayələri elmi açıqlamağa və izah etməyə çalışan embrioloqlar ayələrdəki elmi həqiqətlərlə qarşılaşacaqlar. VII əsrin ilk rübündə yaşamış bir Peyğəmbərin (s) öz-özünə bu həqiqətləri ifadə etməsi mümkün olmadığı kimi, eyni zamanda, insanlar da biologiyanın inkişafına və dərinləşməsinə səbəb olan əsas elmlərin ortaya çıxmasından, xüsusilə də mikroskopun kəşfindən sonra insanın doğulması ilə əlaqəli ayələri başa düşə bilmişlər. Qurani-Kərimdə insanın yaradılışı bu şəkildə bildirilmişdir:

**"Biz sizi** (yoxdan) **yaratdıq. Məgər** (qiyamət günü yenidən dirildiləcəyinizi) **təsdiq etməzmisiniz? Bəs** (bətnlərə) **axıtdığınız nütfəyə nə deyirsiniz? Ondan** (insan) **yaradan sizsiniz, yoxsa Biz?!"**[405]

Ana bətnində rüşeymin və ya yumurtanın yerləşməsi hadisəsi Qurani-Kərimin müxtəlif ayələrində **علق "ələq"** kəlməsi ilə təsvir edilir[406] və belə buyurulur:

**"O, insanı laxtalanmış qandan yaratdı".**[407]

Həmçinin bəzi alimlərə görə, **علق "ələq"** kəlməsinə "**laxtalanmış qan**" olaraq məna verməkdənsə, "**asılıb tutulan bir şey**" olaraq məna vermək daha doğru və düzgündür.[408] Qurani-Kərimdə ana rəhmində (uşaqlıq yolu) embrionun inkişafı prosesinə dair verilən məlumat elmlə tamamilə üst-üstə düşür. Çünki rüşeymə və ya embriona işarə edən kəlmələr onun inkişafındakı əsas mərhələlərə uyğun gəlir.[409]

Qurani-Kərimin Muminun surəsində Allah taala belə buyurur:

**"Sonra nütfəni laxtalanmış qana çevirdik, sonra laxtalanmış qanı bir parça ət etdik, sonra o bir parça əti sümüklərə döndərdik, sonra sümükləri ətlə örtdük və daha sonra onu bambaşqa** (yeni) **bir məxluqat olaraq yaratdıq. Yaradanların ən gözəli olan Allah nə qədər** (uca, nə qədər) **uludur!"**[410]

Ayədə keçən "**bir parça ət"** və ya diş ilə çeynənmiş ətə oxşayan **مضغة** "müzğə" termini inkişafının müəyyən bir mərhələsindəki embrionun və ya rüşeymin görünüşünə tamamilə oxşayır. Eyni zamanda, Quranın ifadə etdiyi **مضغة "müzğə"** kəlməsinin sümüklərin inkişaf etdiyi və əzələlərlə örtüldüyü mənasındadır.[411] Həmçinin başqa bir ayədə **"Həqiqətən, Biz sizi** (babanız Adəmi) **torpaqdan, sonra mənidən** (nütfədən), **sonra laxtalanmış qandan, daha sonra müəyyən, tam bir şəklə düşmüş** (vaxtında doğulmuş) **və düşməmiş** (vaxtından əvvəl doğulmuş) **bir parça ətdən yaratdıq ki,** (qüdrətimizi) **sizə göstərək"**[412], - deyə buyurulur. Quranda insanın duyğu və hiss orqanlarının yaradıldığına da işarə edilmişdir: **"O sizə göz, qulaq və ürək verdi".**[413] Onu da demək lazımdır ki, yuxarıda verdiyimiz ayələrdəki bilgilərin heç biri bu günkü elmlə zidiyyət təşkil etmir.[414]

---

[405] Vaqiə surəsi, ayə 57-59.
[406] Rağib əl-İsfəhani. Müfrədatu əlfazil-Quran. s. 579.
[407] Ələq surəsi, ayə 2.
[408] Harun Yahya. Kuran bilime yol gösterir. İstanbul, Vural yayıncılık. 1999. s. 111.
[409] Cafer Sadık Yaran. Din ve bilim çağdaş batı ve İslam düşüncesinden seçme felsefi yazılar. 1997. s. 102.
[410] Muminun surəsi, ayə 14.
[411] Cafer Sadık Yaran. Din ve bilim çağdaş batı ve İslam düşüncesinden seçme felsefi yazılar. 1997. s. 102.
[412] Həcc surəsi, ayə 5.
[413] Səcdə surəsi, ayə 9.
[414] Cafer Sadık Yaran. Din ve bilim çağdaş batı ve İslam düşüncesinden seçme felsefi yazılar. 1997. s. 103.

## 5.10. İnsanın yaranışına aid materialist baxış və onun tənqidi-təhlili

Canlı materiyanın zirvəsini, son inkişaf həddini insan təşkil edir. Günəş sisteminin başqa planetlərinin indiyə kimi öyrənilməsi onlarda həyatın varlığını hər tərəfli sübuta yetirə bilməmişdir. İnsan zəkasının qalaktikaya nüfuz edə bildiyi yerlərdə də hələlik həyat nümunəsinə rast gəlinməmişdir. Beləliklə, kainat haqqında hal-hazırkı məlumatlarımıza görə, Yer yeganə həyat məskənidir.[415]

Lakin Qurani-Kərimin ayələrinə diqqət yetirdiyimiz zaman başqa planetlərdə də canlıların və yaşayışın olduğuna işarə edən ayələri görürük. Belə ki, böyük Quran təfsirçisi Əllamə Təbatəbaidən "yerdən başqa planetlərdə, ulduzlarda yaşayış vardır?" – deyə soruşulduqda alim Qurani-Kərimin **"Göylərin, yerin yaradılışı və o ikisində yaydığı canlılar Onun nişanələrindəndir"[416]** ayəsini dəlil olaraq göstərmişdir.[417]

Hal-hazırda doğma planetimizin yeganə yaşayış məskəni olmasını inkar edən tutarlı maddi sübutların olmamasına baxmayaraq, insan oğlu yaşadığı Yer kürəsində həyatın Allah tərəfindən yaradıldığı, yoxsa təsadüf nəticəsində ortaya çıxdığı mövzusunda iki yerə bölünmüşdür.[418]

Yer kürəsinin, həmçinin insanın yaradılışı mövzusundan danışarkən, yaradılışı təsadüflərə bağlayaraq insana və kainata təkcə maddi cəhətdən baxan və insanın meymundan törəmiş olduğunu iddia edən materialist fəlsəfədən və onların görüşlərinin çürüklüyündən bəhs etmək də yerinə düşərdi.

Materializm maddənin yeganə həqiqi varlıq olduğunu və maddədən başqa heç bir şeyin var olmadığını iddia edən bir düşüncə sistemidir. Bunlara görə, maddə əzəli olaraq vardır və sonsuza qədər də var olacaqdır. Beləliklə də, materializmdə Allahın varlığı inkar olunmaqda, həmçinin mövcud olan bütün varlıq və məxluqatın Onun yaratdığı həqiqəti rədd edilməkdədir.[419]

Materialist filosoflar həyatın əmələ gəlməsi məsələsinə tamamilə başqa cür yanaşırlar. Onlar həyatın da bütün başqa varlıqlar kimi, öz təbiəti etibarı ilə maddi olduğunu iddia edirlər. Canlı varlıq hər hansı bir mənəvi varlığın iştirakı olmadan əmələ gəlir.

Mexaniki materializmə görə, həyat hər hansı bir maddənin daimi, ayrılmaz xüsusiyyətidir. Bütün maddələrdə həyat vardır. Bunun üçün də orqanizmlərlə qeyri-üzvi təbiətin maddələri arasında prinsip etibarı ilə heç bir fərq yoxdur. Bu nöqteyi-nəzərə görə, canlı varlıqlar maddi hissəciklərin mürəkkəb surətdə qurulmuş bir birləşməsi olmaqla, özləri öz varlıqlarını müdafiə edən xüsusi növlü mexanizmlərdən başqa bir şey deyillər...[420]

Əvvəla onu demək olar ki, Allah inancına qarşı əks bir anlayışı ifadə edən, həmçinin bir dünyagörüşü olaraq bilinən ateizm[421] və bunun kökü olan materializm elmi tamamilə tənəzzülə uğramışdır. Ateizmin tənəzzülündən bəhs edərkən, qəti

---

[415] Zəlimxan Şamiloğlu. Biosfer, ekologiya, dünyamızın gələcəyini düşünəndə. Bakı, Maarif Nəşriyyatı, 2006. s. 5.

[416] Şura surəsi, ayə 29.

[417] Əllamə Təbatəbai. İnsan dünyadan əvvəl. II nəşri. Şərh və əlavələr: Rövşən Abdullaoğlu. Bakı, Qədim qala, 2013. s. 19.

[418] Həmin mənbə. s. 5.

[419] Cavit Yalçın. Tarihin en büyük bilim sahtekarlığı evrim teorisi. İstanbul, Vural yayıncılık. 1996. s. 21.

[420] Zaman Məmmədov. Təbiətşünaslıq və din. Bakı, Azərbaycan dövlət nəşriyyatı, 1961. s. 109-110.

[421] Aydın Topaloğlu. Ateizm və onun tənqidi. Diyanət İşləri Başqanlığı Nəşrləri. Tərcümə edən: Mehman Musaoğlu. Ankara, 1999. s. 9.

olaraq dünyada ateistin - yaxın keçmişə nisbətən - daha az olduğu deyil, ateist olmaq üçün daha az səbəblərin olduğunu söyləmək lazımdır. Yəni, ateist dünyagörüşünü mənimsəmək və müdafiə etmək üçün müraciət edilən fikri və fəlsəfi əsas və zəminlər elmin inkişaf etməsilə tamamilə yox olmaqdadır.[422]

Materializm canlılar aləminin necə var olduğunu, canlıların mükəmməl bir sistem və nizama hansı şəkildə sahib olduğunu izah edə bilmədiyi kimi, eyni şəkildə insanın da necə var olub, gözlər və qulaqlara, eşitmə sisteminə və s. bütün orqanlarla necə təchiz edildiyini izah edə bilməmişdir.[423]

İslama görə isə bütün insanlar bir kökdən gəlmiş, sonra isə müxtəlif qruplara ayrılmışdır.[424] Eyni şəkildə, Qurani-Kərimin ifadəsinə görə, Adəmin (ə) yaradılışı müxtəlif mərhələlərdən keçmişdir. Adəm (ə) bu mərhələlərdən keçirilərək seçilmiş, bəşəri və mənəvi qabiliyyətlər qazanaraq şərəfli bir məxluq olmuşdur. İnsanın bir təkamül keçirdiyi şübhəsizdir. Ancaq bu təkamül, tamamilə öz kökündən gələn bir təkamüldür. İddia edildiyi kimi, bir heyvanın inkişaf edərək və kamilləşərək insana çevrilməsi şəklindəki bir təkamül deyildir. Çünki təbiətdə cinslər və növlər sabitdir və heç vaxt dəyişməzlər. Heç bir toyuğun yumurtasından quş çıxmır, aslanın dünyaya gətirdiyi bala da öz cinsindən olur və bunun əksinə, məsələn, it və ya başqa bir heyvan olmur. Hər bir heyvan Allahın qoyduğu qanunla öz cinsini qoruyur. Əgər meymun təkamül nəticəsində insana çevrilirsə, fasiləsiz olaraq bu gündə də meymunlar təkamul nəticəsində insana çevrilməlidir. Hər hansı bir heyvan cinsinin başqa heyvana çevrilmədiyi kimi, insanın meymundan törəməsi iddiası da həm ağıl və məntiqdən, həm də elmilikdən uzaqdır.[425]

İlk insan olan Adəm (ə) eyni zamanda bir ruh sahibidir və Allah taalanın Adəmə (ə) ruh üfürməsindən sonra Adəm (ə) eşitməyə, görməyə, danışmağa və ətrafındakıları tanımağa başladı. Allah taala tərəfindən Adəmə (ə) hər bir şey hansı dildə və nə şəkildə adlandırılmışsa, hamısı öyrədilmişdir. Bəzi rəvayələrdə Adəmə (ə) yeddi yüz min dil öyrədildiyi deyilsə də, bu ifadə kinayəli olaraq dillərin çoxluğunu bildirir və insanların qiyamətə qədər danışacaqları bütün dilləri ifadə edir.[426]

İnsanı digər canlılardan fərqli edən danışmaq xüsusiyyəti olsa da, məsələn, tutuquşu da insanı təqlid edir, həmçinin bəzi heyvanlar insanın müxtəlif hərəkətlərini zahiri olaraq, qismən də olsa, canlandırır. Heyvanların da səsləri vardır ki, bu, onların bir növ danışma və əlaqə qurma tərzləridir. Bu halda insan ağıllı bir məxluqdur, eyni zamanda sırf bu ağılı ilə yaxşı ilə pisi ayırd edə bilməkdə və beləliklə də digər canlılardan ağıllı olması səbəbilə ayrılmaqdadır.[427]

Materializmin yoxdan xəlq edilişi (yaradılışı) inkar etməsini bir misalla açıqlayacaq olsaq, məsələn, bir fabrikdə istehsal edildiyi bilinən bir maşının öz-özünə və ya təsadüfən meydana gəldiyi sübut edilməsi imkansız olduğu kimi, yaradılmış olan kainatın öz-özünə və ya təsadüfən meydana gəldiyini söyləmək də sübut

---

[422] Cafer Sadık Yaran. Din ve bilim çağdaş batı ve İslam düşüncesinden seçme felsefi yazılar. 1997. s. 131.

[423] Cavit Yalçın. Tarihin en büyük bilim sahtekarlığı evrim teorisi. s. 22.

[424] Bu barədəki bir ayədə Allah taala belə buyurur: **"Ey insanlar! Biz sizi bir kişi və bir qadından** (Adəm və Həvvadan) **yaratdıq. Sonra bir-birinizi tanıyasınız** (kimliyinizi biləsiniz) **deyə, sizi xalqlara və qəbilələrə ayırdıq"** (Hucurat surəsi, ayə 13).

[425] Süleyman Ateş. Tefsir. I c. s. 149.

[426] Mahmud Şakir. Tarih. I c. s. 42.

[427] Həmin mənbə. I c. s. 36.

edilməsi mümkün olmayan bir fərziyyədir.[428] Təkamül nəzəriyyəsinin bir ideologiya və nəzəriyyə olduğunu, ortada elmi sübut və dəlillərin olmadığını Fillip Conson bu şəkildə etiraf etmişdir: "Kompleks bitkilər və heyvanların bakteriyalardan meydana gəldiyini iddia etmək təcrübəyə arxalanan elm yolundan çox, fəlsəfi bir sistem və cərəyana oxşayır".[429]

Materializm hər nə qədər elm görüntüsü altında insanlara zorla mənimsədilsə də, elmi əsası olmayan köhnə bir fərziyyədir. Qədim Yunanıstanda ortaya çıxan bu fərziyyə, yuxarıda da qeyd etdiyimiz kimi, XVIII əsrdə bəzi avropalı mütəfəkkirlər tərəfindən tarixin tozlu rəflərindən çıxardılmış, XIX əsrdə Karl Marks, Fridrix Engels, Çarlz Darvin və b. kimi nəzəriyyəçilər tərəfindən elmlərlə sintez edilmiş və uyğunlaşdırılmış, daha doğru bir ifadə ilə desək, müxtəlif elm sahələri materialist fəlsəfə uğrunda təfsir və təhrif edilmişdir.

## 5.11. Materializmə elmi-dini baxış

Məlum olduğu kimi, dünya fəlsəfi fikir tarixində özünəməxsus istiqaməti olan materialist fəlsəfə həmişə dinin əleyhinə olmuş, onu puç və cəfəngiyat adlandırmaqla yanaşı, İlahi mənşəyini inkar etmiş, insan zəkasının yanılması və xəstəliyi adlandırmşdır. Məşhur hind filosofu Sarvepalli Radxakrişnan (1888-1975) yazırdı: "Əgər möcüzələr Allahın varlığını sübut edirsə, elm əksinə, həmişə Allahın varlığını inkar etmişdir".[430]

Dialektik materializmin dahi nümayəndəsi sayılan Karl Marks (1818-1883) bir az da irəli gedərək "din insanlar üçün tiryəkdir" ifadəsini işlətmiş və bununla da dinin mahiyyətini və həqiqi İlahi mənşəyini ləkələmək istəmişdir. Marksın yaxın dostu Fridrix Engels (1820-1895) "Anti-Dürinq" əsərində yazırdı: "... hər bir din insanların gündəlik həyatında onlara hökmranlıq edən xarici qüvvələrin insanların beynindəki fantastik inikasından, yer üzərindəki qüvvələrin səma qüvvələri şəkli aldığı inikasdan başqa bir şey deyildir".[431] Hələ bu azmış kimi onların fəlsəfi irsinin davamçısı olan Vladimir Lenin (1870-1924) dinin insanlar üçün mənəvi araq olduğunu, ona qarşı mübarizə aparılmasının zəruri olduğunu dəfələrlə vurğulamış və qurduğu sovet ideologiyasını bu işdə fəal olmağa çağırmışdır. O, yazırdı: "Sosialist proletariatın partiyası üçün din şəxsi iş deyildir. Bizim partiyamız fəhlə sinfinin azadlığı uğrunda şüurlu, qabaqcıl mübarizlər ittifaqıdır. Belə bir ittifaq şüursuzluğa, avamlığa, yaxud dini etiqad şəklindəki cəhalətpərəstliyə laqeyd baxa bilməz və baxmamalıdır... biz öz ittifaqımızı.. fəhlələrin hər cür dini mövhumatla aldadılmasına qarşı məhz belə bir mübarizə aparmaq üçün yaratmışıq..."[432]

XVIII əsr fransız materialist filosofu Holbaxa görə, bütün dinlərin hamısı uydurmadır və əgər əsil din varsa, bu da bizim adət etdiyimiz, həyatımızın zəruri vasitəsi olan həqiqətdir. Bu həqiqət isə elmdir. Elm obyektiv gerçəkliyin qanunauyğunluqlarının düzgün inikası olduğuna görə, dini təsəvvürləri rədd edir.

---

[428] Cavit Yalçın. Tarihin en büyük bilim sahtekarlığı evrim teorisi. s. 22.
[429] Harun Yəhya. Materializm və Darvinizm. http://dinsizliyindini.imanisaytlar.com/materializmvedarvinizm.html saytına istinadən.
[430] Sarvepalli Radxakrişnan. Hind fəlsəfəsi. I c. Moskva, 1956. s. 207.
[431] Fridrix Engels. Anti-Dürinq. Bakı, Azərnəşr, 1953. s. 301.
[432] Vladimir İliç Lenin. Əsərləri. X c. Bakı, Azərnəşr, 1953. s. 77.

Fredrix Nitşe (1844-1900) "Antixrist" ("Dəccal") əsərində yazırdı: "din – zəif insanın şəxsi fantaziya və yanlışlıqlar dünyasına sığınıb gizlənmək cəhdidir".

Bütün bu deyilənlərdən aydın olur ki, dinin mahiyyətini düzgün anlamayanlar ömürləri boyu ona qarşı amansız mabarizə aparmış və indi də aparmaqdadırlar. Onlar hələ də anlamırlar ki, həqiqi səmavi din insanın insan tərəfindən istismarını, hər cür sinfi fərqləri, şovinist duyğuları qadağan edir, insanları birliyə, xalqları dostluğa, əməkdaşlığa və qardaşlığa səsləyir.

Müasir müsəlman alimləri arasında dini klassik təriflərdən az-çox fərqli və daha əhatəli şəkildə təsvir edənlər vardır. Misir alimi Məhəmməd Əbdühə (öl. 1905) görə, din insanın kainatdakı varlıqları müşahidə edərək fövqəltəbii ilahi həqiqətləri qavramasından ibarətdir. Bu ilahi həqiqətlərdən biri də peyğəmbərlik institutudur. İnsan ancaq peyğəmbərlərin gətirdiyi xəbərlərin köməyi ilə İlahi həqiqətin mahiyyətini qavrayır və hər cür davranışının qarşılığını başqa bir aləmdə görəcəyini öyrənir. Onun tələbəsi Rəşid Rza (öl. 1935) isə dini insanın öz səyi ilə öyrənə bilmədiyini, yalnız vəhy vasitəsi ilə əldə edə bildiyi həqiqətlər olaraq tərif edir. Müasir müsəlman filosoflarından Seyid Hüseyn Nəsrə görə, din insanı həqiqətə bağlayan şeydir. Hər din nəticə etibarilə biri doktrina, digəri metod olmaq üzrə iki ünsür ehtiva edir. Din əvvəlcə mütləq həqiqəti nisbi olandan ayıran bir doktrina, ikinci olaraq da həqiqət üzərinə düşünməyə, mütləq olana bağlanmağa, insan varlığının məqsəd və mənasına uyğun biçimdə Allahın iradəsinə görə yaşamağa əlverişli bir metoddur.[433]

Din öz-özlüyündə insan səadəti üçün olsa da, təəssüflər olsun ki, bəzi dinlər bəşər mədəniyyətinin ziddinə olub, insan azadlığına, onun şərəf və ləyaqətinə ləkə gətirməkdədir. Bundan başqa, bəzi dinlərdə çoxallahlıq prinsipləri yer aldığından həmin dinlərdə səma cismlərinin, cansız təbiətin və hətta heyvanlar aləminin bəzi ünsürlərinə ibadət edilir ki, bu məxluqatın əşrəfi olan insan ləyaqətinin ziddinədir. Amma əslində din Uca Allahın peyğəmbərlərinə vəhy etdiyi və insanları öz arzu və istəkləri ilə xeyirlərə, yəni dünya və axirət səadətinə aparan bir sistemdir. Başqa bir ifadə ilə desək, səmavi və ya İlahi din peyğəmbərlərin İlahi vəhyə dəvəti və təbliğatıdır ki, insanları öz iradələri ilə hər cür yaxşılıqlara təşviq edib pislklərdən çəkindirir. Dinin peyğəmbərlərə vəhy edilərək bildirilməsi mənəvi hallardandır. Bunlar maddi duyğularla dərk edilmir, onları təbliğ edən peyğəmbərlərin doğruluqları, göstərdikləri möcüzə və başqa əməllərlə başa düşülür.

Dinin həqiqi mahiyyətini başa düşən idealist filosoflar ona həmişə yüksək qiymət vermiş və onun mahiyyətini açıb göstərmişlər. Məşhur alman idealist filosofu İmmanuil Kanta (1724-1804) görə, din insanların öz vəzifələrini başa düşməsi deməkdir. Digər bir alman idealist filosofu Fridrix Hegel (1770-1831) isə Allah anlayışını mütləq ideya anlayışı ilə əvəz etmişdir. O, dinin mahiyyətini, onun əsas cəhətini zəkada görmüşdür.

Tək olan Allaha inanıb yalnız ona ibadət etməyi əmr edən səmavi din bəşəriyyətin ilk dinidir. İnsanlığın başlanğıcının vəhşət dövrü olduğunu və dinin də bir sıra yanılma, aldanma və insanların kollektiv həyəcanlarına əsaslanan batil inanc və ayinlərdən ibarət olduğunu irəli sürən materialist fəlsəfə və sosiologiya

---

[433] Günay Tümer. "Din". DİA. 44 cilddə. IX c. İstanbul, 1994. s. 45-47.

terminlərinin heç bir elmi dəyəri yoxdur. Dinin mənşəyi vəhy və peyğəmbərlikdir. Həzrət Adəm (ə) ilk insan və ilk peyğəmbərdir. İlahi vəhyə ünvan olan həzrət Adəm (ə) övlad və nəvələrini, onlara haqq dini, yəni səmavi dini öyrədərək tərbiyə etmişdir. İnsanlar sonradan müxtəlif şəkillərdə haqq və səmavi dindən uzaqlaşmış və azmışlar. Uca Allah zaman-zaman peyğəmbərləri ilə insanları haqq və tövhidə dəvət etmişdir. Buna görə də dinin qurucusu məhz Uca Allahdır.

Səmavi dinlərin əsl hədəfi insanların həm daxilini, həm də xaricini təmizləyərək onları kamillik zirvəsinə, dünya və axirət səadətinə çatdırmaqdır. Səmavi dinlərin bu xüsusiyyətlərini Qurani-Kərim belə açıqlayır:

**“Allahın dinini doğru-dürüst tutun** (qoruyub saxlayın)**, onda ayrılığa düşməyin! - deyə Nuha tövsiyə etdiyini, sənə vəhy buyurduğunu, İbrahimə, Musaya və İsaya tövsiyə etdiyini dində sizin üçün də qanuni etdi. Sənin dəvət etdiyin** (tövhid dini) **müşriklərə ağır gəldi. Allah istədiyi kimsəni özünə** (peyğəmbər) **seçər və tövbə edib ona tərəf qayıdan kimsəni də doğru yola yönəldər!”**[434]

Səmavi dinlərin hər biri əslində haqq və doğrudur, onlara əməl edilməlidir. Bu dinlər mənsubları tərəfindən edilən təhrif və dəyişikliklər nəticəsində batil olur. Vaxtı keçincə bir peyğəmbərin yeni bir şəriət gətirməsi ilə nəsx (aradan gedir) olunur. Bundan sonra ibadət və müamələt sahəsində onun hökmlərinə əməl edilmir. Allah səmavi dinlərin təhrif edilməsini düzəltmək və əməllərini yeniləmək üçün bir çox peyğəmbər göndərmişdir.[435]

Bütün bu deyilənlərdən aşağıdakı nəticələrə gələ bilərik:

- Din ilahi bir qanundur. Din Allah tərəfindən gəlir. Onu Allah qorumuşdur.

- Əbədi səadəti təmin edir. Din insanları doğru yola, mütləq xeyirə sövq edir. Mütləq xeyir dünya və axirətdə qurtuluş deməkdir ki, əbədi səadət olaraq izah edilmişdir.

- Din vəhyə əsaslanır. Din yalnız peyğəmbər adı verilən şəxslərə bildirilmişdir. İlahi dinlərdə peyğəmbərlər zəruridir. Çünkü dinin mövcudiyyəti nətcəsində insanların qurtuluşu ona bağlıdır.

- Ağıla xitab edir. Dinin xitabı ağlı başda olan insanlaradır.[436]

Dini inkar edib məxluqatın Allah tərəfindən yaradılmayıb öz-özünə təsadüfən meydana gəldiyini iddia edən təkamül nəzəriyyəsi və onun materialist tərəfdarlarının ən zəif cəhəti öz iddialarını sübut edəcək heç bir dəlillərin olmamasıdır. Arxeoloji tədqiqatlara baxmayaraq, təkamül nəzəriyyəsini dəstəkləyəcək heç bir sübut tapılmamışdır. Halbuki onların dediyi kimi olsaydı, milyonlarca dəlilin tapılması lazım idi.[437]

Təkamül nəzəriyyəsinə görə, canlılar bir-birlərindən törəmişdir. Məsələn, insan meymundan əmələ gələrək ortaya çıxmışdır. Bu təkamül prosesi də yüz minlərcə, hətta milyonlarca il davam etmişdir. Bu proses sudan quruya keçiş və ya qurudan suya keçişə də aiddir. Yaradılışı inkar edən təkamül nəzəriyyəsinin ən zəif nöqtəsi,

---

[434] Şura surəsi, ayə 13.
[435] Muhiddin Bağçeci. “Səmavi din”. Şamil İslam Ansiklopedisi. V c. Şamil yayınevi, İstanbul, 1992. s. 382.
[436] Kahraman Ahmet. Mukayeseli dinler tarihi. Marifet yayınları, Tarixsiz. s. 29-32.
[437] Həmin mənbə. s. 35.

bir əsrdən artıq müddətdə davam etdirilən arxeoloji axtarışlara baxmayaraq, heç bir "ara keçid" nümunəsinin tapılmamasındadır.[438]

Təkamül nəzəriyyəsinin müdafiəçiləri özlərinin bu ən zəif və qüsurlu cəhətlərini etiraf belə etmişlər. Məsələn, A.H.Klork belə deyir: "Əgər biz arxeoloji qazıntılar nəticəsində torpaq altındakı heyvan və bitki qalıntılarından ara keçidi təsdiqləyəcək ən xırda bir tapıntıya sahib deyilsək, o halda belə varlıqların heç bir vaxt mövcud olmadığını qəbul etməyimiz lazımdır".[439]

Təkamül nəzəriyyəsini isbat etmək üçün arxeoloji qazıntılar aparan məşhur arxeoloq Riçard Leakey 150 ildən çox davam edən bu qazıntıların nəticəsizliyini bu şəkildə etiraf etmişdir: "Təəssüf ki, insanların təkamülünü sübut edəcək çox cuzi dəlillərimiz vardır. Bunlar daşdan alətlər, kəllə sümüyü parçaları, bir dənə ayaq sümüyü parçası, yarımçıq çənə sümüyü parçası və bir çox sayda diş qalıqlarından ibarətdir. Bir vaxtlar atalarımızın yaşadığı, indi isə torpağın altından çıxardığımız qalıqlar sadəcə bunlardır. Əgər bir şəxs bir milyon il əvvəl yaşamış olan atalarımızın tapılan sümük qalıqlarını bir otağa toplamaq istəsə, bunun üçün təkcə böyük bir stol kifayətdir".[440]

Arxeoloji tapıntlar bizə tarix boyunca insanların insan, meymunların da meymun olduğunu göstərir. Materialistlərin insanın atası olaraq göstərdikləri tapıntıların bir qismi çox yaxın tarixə qədər yaşamış olan, ancaq izləri silinərək nəsli kəsilmiş qədim insan irqlərinə aiddir. Bununla birlikdə, hələ də yaşamaqda olan bəzi insan irqləri isə, materialistlərin insanın ataları olaraq göstərməyə çalışdıqları, izləri silinərək nəsli kəsilmiş bu insan irqləri ilə fiziki cəhətdən eyni görünüş və xüsusiyyətləri daşıyır.[441]

## 5.12. İslamın təkamül nəzəriyyəsinə baxışı necədir?

Yer üzündə canlı orqanizmlərin ən yüksək mərtəbəsi və mədəniyyət subyekti olan insanın təbiəti, mənşəyi və rolu, onun dünyadakı mövqeyi haqqındakı məsələ Quran və islami fikir tarixində daha dərin və bariz şəkildə izah olunmuşdur. Allah Quranda insanın müxtəlif tərkibli torpaqdan, palçıqdan, süzülmüş qarışıq mayedən və s. pak maddədən yaradıldığını belə bəyan edir: **"Biz insanı quru və qoxumuş qara palçıqdan yaratdıq".**[442]

Təəssüflər olsun ki, insanın nədənsə törəndiyini iddia edənlər də az olmamışdır. Materializmə görə, əməyin meydana gəlməsi insanabənzər meymunun insana çevrilməsi demək idi. Darvinizmə görə, "Əvvəlcə əmək sonra isə onunla birlikdə aydın nitq iki ən başlıca amil olmuş və bunların təsiri altında meymun beyni tədricən insan beyninə çevrilmişdir".

Bəşəriyyət tarixinə biganə yanaşanlar insanın mənşəyini, insanın tarixi-təkamül nəticəsində meydana gəldiyini iddia edirlər. Onlara görə, insanın təkamül xətti, insanabənzər meymunlara ümumi kökdən təxminən 12-15 mln. il əvvəl ayrılmışdır. Onlar belə ehtimal edirlər ki, insanın bu mərhələdə əcdadı ramapiteklər olmuşdur. Bu

---

[438] Harun Yahya. Evrim aldatmacası evrim teorisinin blimsel çöküşü ve teorinin ideolojik arka planı. İstanbul, Vural Yayıncılık, 1997. s. 23.
[439] Cavit Yalçın. Tarihin en büyük bilim sahtekarlığı evrim teorisi. s. 36.
[440] Harun Yahya. Kuran bilime yol gösterir. İstanbul, Vural yayıncılık, 1999. s. 48.
[441] Bax: http://www.evrimaldatmacasi.com/insanevrimsenaryo.php, (19.02.2007).
[442] Hicr surəsi, ayə 26.

yüksək inkişaf etmiş primatın qalığı Asiya və Şərqi Afrikada aşkar edilmişdir. Guya qazıntı zamanı tapılmış ali insanabənzər meymunların təbii əşyalardan müntəzəm olaraq alət kimi istifadə etməkdən ilk süni alət hazırlamağa keçməsi ilk insanın əmələ gəlməsində dönüş olmuşdur. Bu iddiada olan materialist antropoloqlara görə, insanın tarixi üç mərhələyə bölünür:

1. İnsanın antropoid əcdadı;
2. Ən qədim və qədim insanlar;
3. Müasir fiziki quruluşlu insanlar.

Darvinizm nəzəriyyəsinə görə, insanın əcdadı hesab olunan meymunlar Miosen dövründə (20-25 mln. il əvvəl) yaşamışlar. Bu nəzəriyyəçilər çalışırdılar ki, insanı embrilolоji, fizioloji və s. baxımından meymundan əmələ gəldiyini sübuta yetirsinlər. Həqiqətən insanın bu və ya digər xüsusiyyətləri baxımından heyvanlarla oxşarlıqları vardır. İnsanla heyvanın fizilоloji oxşarlıqları aşağıdakılardan ibarətdir: bütün onurğalılarda olduğu kimi, insanın bədəni də metemer quruluşa və ikitərəfli simmetriyaya, daxili skeletin əsasını təşkil edən onurğa sütununa, ürək-damar sisteminə, onurğa və baş beyinə, insanın dərisində olan bir çox xüsusiyyətlər, insanın da öz balasını südlə qidalandırması və s. əlamətlər onun heyvan orqanizmi ilə tam yaxınlığını göstərir. Amma bu oxşarlıqlara görə demək olmaz ki, insan hansısa heyvandan əmələ gəlib. Allah Quranda belə bəyan edir: **"Biz Adəm övladını hörmətli və şərəfli etdik".**[443] Yaradan tərəfindən bu qədər qiymətləndirilən insanın hansısa heyvandan əmələ gəldiyini iddia edən "alimlər" görəsən bəşəriyyət qarşısına hansı üzlə çıxmışlar? Onlar Allahın qarşısında haqq-hesab günündə nə cavab verəcəklər? **"Onların hamısını** (haqq-hesab çəkmək üçün) **bir yerə yığacaq", Onların çoxsu zənnə uyar, zənn isə həqiqət ola bilməz"**,[444] - deyə buyurur Rəbbimiz.

Darvin sübut etməyə çalışmışdır ki, insan canlı varlıqların inkişaf zəncirində yüksək quruluşlu son halqadır və insanabənzər meymunlar da uzaq ümumi əcdada malikdir. Darvin quruluşuna və fizilоloji xüsusiyyətlərinə görə digər heyvanlara nisbətən insana yaxın olan insanabənzər meymunlar şimpanze, qorilla, oranqutan və bunlara yaxın olan hibbonları "insan əcdadı" kimi qələmə vermişdir.

Bunu təsdiq etmək lazımdır ki, meymunlar cüzi xüsusiyyətlərinə görə insana oxşayırlar: onlar sevinc, kədər, balalarını mehribanlıqla oxşayır, onların qayğısına qalır və yaddaşa malikdirlər. İnsanda gözün, qulağın quruluşu meymunlarla yaxınlıq təşkil edir. Həmçinin insan üçün xarakterik olan qanın dörd qrupu həmin meymunlarda da var və onlar da insanlar kimi xəstəliklərə (qrip, çiçək və s.) malikdirlər. Amma bunların heç biri bizə əsas vermir ki, insanın meymundan əmələ gəldiyini deyək. Çünki Quran ayəsindən də gördüyümüz kimi, insan heç vaxt meymundan (və ya hansısa canlıdan) əmələ gəlməmişdir. Bunu elm də təsdiq edir. Belə ki, insanı meymundan fərqləndirən bir çox fizioloji və s. xüsusiyyətlər vardır:

- İnsan beyninin həcmi 1400-1600 $sm^3$, meymunda isə 600 $sm^3$-dir;
- İnsanda beyin yarımkürələri qabığının səthi orta hesabla 1250 $sm^2$, meymunda isə bundan 3,5 dəfə kiçikdir;
- İnsanda beyin şırımları və qırışları, ali sinir fəaliyyətinin başlıca mərkəzləri ilə əlaqədar olan təpə, alın gicgah payları daha çox inkişaf etmişdir.

[443] İsra surəsi, ayə 70.
[444] Nəcm surəsi, ayə 28.

Bütün bu deyilənlərdən əlavə, insanla meymunlar arsında keyfiyyət fərqləri də vardır:

- İnsan həyatının əsasını kollektivdə əmək fəaliyyəti, alətlərin yaradılması və tətbiqi təşkil edir;
- İnsan cəmiyyətdə yaşayır və ictimai sosial qanunlara tabedir. O, şüura, məntiqə, ağıla və nitqə malikdir ki, bunun vasitəsilə insanlarla davranır, əmək təcrübəsi toplayır və öyrənir. İnsan düşünür, elm və incəsənəti inkişaf etdirir. Bütün bu spesifik insani keyfiyyətlər insan cəmiyyətinin inkişafı ilə bağlıdır.

Darvinin bitkilərin və canlıların barəsində irəli sürdüyü fərziyyə biologiya alimlərinin və savadsız kütlənin materializmə yönəlməsi üçün əsas amil olmuşdur. O, öz cəfəng fərziyyələri ilə Qərbin elmi yığıncaqlarına hay-küy salmışdır. Dinin düşmənləri onun fərziyyələrindən din və Allahın əleyhinə istifadə etdilər. Çünki növlərin təkamül nəzəriyyəsi "Tövrat" kitabına ziddir. "Tövrat"a və bütün səmavi kitablara görə, bütün insanlar Adəmdəndir (ə) və Adəm (ə) də torpaqdan yaradılmışdır.

Təkamül nəzəriyyəsi istər Darvinin dövründə, istərsə də ondan sonrakı dövrlərdə müxtəlif surətlərə düşmüş və elm əhli tərəfindən rədd edilmişdir. Elm inkişaf etdikcə bu fərziyyə puç olub aradan gedir, Allahın isə on dörd əsr bundan öncə buyurduğu kalamlar daha da inkişaf etməkdədir. Qurani-Kərim: **"Lakin onlar** (öz peyğəmbərlərini) **yalançı hesab etdilər. Biz də onları qazandıqları günahlara görə məhv etdik". "Bunlar o kəslərdir ki, Allah onların qəlblərini, qulaqlarını və gözlərini möhürləmişdir. Onlar** (əzabdan) **qafildirlər", -** deyə bəyan edir. [445]

Məgər təkamülçülər görmürlər ki, insanın əli ilə meymunun əli arasında çox böyük fərq var? Heç bir meymun öz əli ilə, hətta ən sadə daş belə düzəltməyə qadir deyildir. Bəs necə oldu ki, meymunların inkişaf etməmiş qırtlağı və ağız aparatı insanın aydın nitq orqanına çevrildi?!

Tutaq ki, insanın morfoloji və fizioloji xüsusiyyətləri irsən keçmişdir, axı kollektiv əmək fəaliyyəti, təfəkkür və nitqə olan qabiliyyət necə irsən keçə bilər?

Bizdən fərqli olaraq dünyanın əksər dövlətlərində Darvinizm təlimi doğma kimi qəbul edilməmiş, biologiya, fəlsəfə və digər elmləri bəzəməmişdir.

Xalqımız müstəqillik əldə etmiş və öz dininə, milli-mənəvi düşüncəsinə qayıtmışdır. Buna görə də dini ideyalar elmdə, təhsildə öz yerini tutmalı və bu quruculuq işlərində Qurani-Kərimdən istifadə edilməlidir. Xüsusilə biologiya, fəlsəfə, tarix və s. elmlər yenidən işlənməli, tədris kitablarında Azərbaycan alimlərinin nailiyyətləri ilə yanaşı, Qurani-Kərimin elmi ayələri də öz əksini tapmalıdır.[446]

[445] Əraf surəsi, ayə 96.
[446] İbrahim Quliyev. Suallara cavablar (Hədisi-şəriflər kontekstində). s. 579-582.

## VI FƏSİL

## ƏLLAMƏ MƏCLİSİNİN "BİHARÜL-ƏNVAR" ƏSƏRİNDƏ VƏHYİN MAHİYYƏTİ VƏ NÖVLƏRİ

### 6.1. Vəhy və onun keyfiyyəti

Qurani-Kərim bütövlükdə Cəbrayıl (ə) adlı mələk vasitəsilə Peyğəmbərimizə (s) nazil edilmişdir. O həm kəlmə, həm də məna cəhətdən Allahın sözləri, onun kalamlarıdır. Uca Rəbbimiz bu mətləbi bizə belə bəyan edir:

**وَإِنَّهُ لَتَنْزِيلُ رَبِّ الْعالَمِينَ. نَزَلَ بِهِ الرُّوحُ الْأَمِينُ. عَلى قَلْبِكَ لِتَكُونَ مِنَ الْمُنْذِرِينَ. بِلِسانٍ عَرَبِيٍّ مُبِينٍ.**

**"Şübhəsiz ki, bu,** (Quran) **aləmlərin Rəbbi tərəfindən nazil edilmişdir! Onu Cəbrayıl** (Ruhuləmin) **endirdi.** (Günahkarları Allahın əzabı ilə) **qorxudan** (xəbərdar edən) **peyğəmbərlərdən olasan deyə, sənin qəlbinə** (nazil etdi)**".**[447] Və yaxud da **أَنْ هُوَ إِلَّا وَحْيٌ يُوحى "Bu, ancaq** (Allah dərgahından) **nazil olan bir vəhydir".**[448]

Ayələrdən də göründüyü kimi, Qurani-Kərimin sözləri vəhy adlanır ki, bu adı da ona Allahın özü vermişdir. Vəhy sözü də etimoloji baxımdan sırf ərəb mənşəli sözlərdəndir. Onun lüğəvi mənası haqqında alimlər yazırlar: "Vəhyin iki əsas mənası vardır: sürət və gizlilik". Məşhur lekskoqraf İbn Mənzur (1233-1312) vəhyə belə tərif vermişdir:

الوحي: الإشارة والكتابة والرسالة والإلهام والكلام الخفي وكل ما ألقيته إلى غيرك. يقال: وحيت إليه الكلام وأوحيت.

"Vəhy: işarə, yazı, məktub, ilham, gizli danışıq, başqasına çatdırılan hər bir məlumatdır. وحيت إليه الكلام وأوحيت dedikdə "onunla gizli danışdım" mənası başa düşülür".[449]

Vəhyin terminoloji mənalarına gəldikdə isə Əllamə Təbatəbai (1902-1983) ona belə bir tərif vermişdir: "Müsəlmanların vəhy barədə olan ümumi nəzərlərinə əsasən, vəhy Quranın öz ləfzi ilə, Allahın yaxın mələklərindən birinin vasitəsilə İslam Peyğəmbərinə (s) göndərilməsindən ibarətdir".[450]

Əllamə Məclisi "Biharül-ənvar" əsərinin XVIII cildində "Vəhyin keyfiyyəti və eniş şəkli" adlı xüsusi fəsil açmış və burada vəhyin Cəbrayıl (ə) tərəfindən gətirildiyini, vəhyin gəliş şəklini, Peyğəmbərin (s) vəhyi qəbul edən zaman keçirdiyi psixoloji əhvalı və s. haqqında geniş məlumat vermişdir. Müəllif ilk olaraq Qurani-Kərimdəki mövzu ilə əlaqəli ayələri qeyd etmiş, sonra hədisi-şərifləri nəql etmiş və daha sonra isə yeri gəldikcə, həmin ayə və hədislərə öz izahını vermiş, hətta keçmiş alimlərin fikirlərindən iqtibaslarla münasibətini bildirmişdir.

Əllamə Məclisi adı çəkilən fəsildə ilk olaraq "Məryəm" surəsinin 64-cü ayəsi olan **"Biz** (dünyaya) **yalnız sənin Rəbbinin əmri ilə enirik. Önümüzdə, arxamızda və onların arasında nə varsa ancaq Ona məxsusdur"** ayəsini qeyd etməklə, mələyin mütləq Allahın əmri ilə endiyini, Allahın izni olmadan vəhy gətirməyə qabil

---

[447] Şüəra surəsi, ayə 192-194.
[448] Nəcm surəsi, ayə 4.
[449] İbn Mənzur. Lisanül-ərəb. XV c. Dari-sadir, 2003. s. 241.
[450] İlqar İsmayılzadə. Quran elmləri ensiklopediyası. Bakı, Beynəlxalq İslam Elmləri Akademiyası, I nəşri, 2006. s. 103

olmadığını bildirmək istəmişdir.[451] Müəllif bu ayəni qeyd etdikdən sonra məşhur təfsir alimi əl-Beyzavinin (öl. 1286) fikirlərinə istinadən yazır: **"Biz** (dünyaya) **yalnız sənin Rəbbinin əmri ilə enirik"** ayəsi Cəbrayılın (ə) bir müddət Peyğəmbərə (s) gəlməməsi ilə əlaqəlidir. Çünki Peyğəmbərimizdən (s) "Əshabi-kəhf", "Zülqərneyn" və "Ruh" haqqında sual soruşulmuş, suala cavab verməyən Peyğəmbər (s) vəhyin gəlişini gözləmişdir. Lakin Cəbrayıl (ə) bir müddət - iyirmi beş gün, bəzilərinə görə isə qırx gün – nazil olmamışdır. Bunu görən müşriklər Peyğəmbərə (s) tənə vurmuş, Rəbbinin onu tərk etdiyini iddia etmişlər. Bundan sonra isə qeyd etdiyimiz bu ayə nazil olmuşdur".[452]

Əllamə Məclisi bundan sonra ayədə keçən "tənzil" sözünə izah vermiş, onu lüğəvi və digər yönlərdən şərh edərək "tənzil"in yavaş-yavaş, tədricən mənasında olduğunu və beləliklə də Qurani-Kərimin əvvəlki səmavi kitablardan fərqli olaraq birdəfəyə deyil, tədricən nazil olduğunu vurğulamışdır.

"Taha" surəsinin **"...sənə tamam-kamal vəhy olunmadan əvvəl Quranı oxumağa tələsmə və: "Ey Rəbbim! Mənim elmimi artır!" - de"** ayəsini izah edən müəllif məşhur təfsir alimi Təbərisinin (öl. 1153) "Məcməül-bəyan" (VII c. səh. 32) əsərinə istinadən yazır: **"Quranı oxumağa tələsmə"** ifadəsi haqqında Təbərisi bir neçə fikir irəli sürmüşdür. O fikirlərdən birincisi budur ki, Cəbrayıl (ə) Quranı sənə tamam-kamal çatdırmadan, o, sözünü bitirmədən onu tilavət etməyə tələsimə. Çünki Peyğəmbər (s) Cəbrayıl (ə) sözünü bitirmədən xəfifcə onun dediklərini təkrar edərdi və oxuyardı. Onun belə etməsi isə mələyin gətirdiyi ayəni unutmaqdan qorxmasına görə idi. İkincisi, ayədəki məna ola bilsin ki, Peyğəmbərə (s) biz onun mənalarını sənə izah etməmiş onları səhabələrinə çatdırmamağa işarədir. Üçüncüsü, Allah Qurani-Kərimi məsləhət bildiyi vaxt, zəruri şərait yarandığı müddətdə nazil edir. Sən onun nazil olmasını diləmə".[453]

## 6.2. Vəhyin növləri

Əllamə Məclisinin adı çəkilən fəsildə toxunduğu mühüm məsələlərdən biri də vəhyin növləri haqqındadır. O, "Şura" surəsinin 51-52-ci ayələri olan **"Allah bəşər övladı ilə ancaq vəhylə, yaxud pərdə arxasından danışar. Və ya bir elçi göndərər ki, o da Allahın izni ilə** (göndərildiyi kimsəyə) **Onun istədiyini vəhy edər. Həqiqətən, O** (hər şeydən) **ucadır, hikmət sahibidir! sənə də beləcə əmrimizdən olan bir vəhy** (möminlərə mənəvi həyat verən Quran) **göndərdik. Sən** (bundan əvvəl) **kitab nədir, iman nədir bilməzdin. Lakin Biz onu bəndələrimizdən dilədiyimizi haqq yola qovuşdurmağımız üçün bir nur etdik. Sən** (onunla insanları) **düz yola yönəldirsən"** ayələrini dəlil gətirərək vəhyin üç şəkildə - ilham, yuxu və pərdə arxasından - nazil olduğunu bəyan etmişdir.[454] Müəllifin ayədə keçən **"Ruh"** sözünə verdiyi təfsirdən də məlum olur ki, o, özündən əvvəlki bir çox alimlərə istinadən burada məqsədin Cəbrayıl (ə) olması qənaətinə gəlmişdir. Daha sonra isə ayədə işlənmiş **"kitab"** sözündə məqsədin Qurani-Kərim, **"iman"**

---

[451] Əllamə əl-Məclisi. Biharül-ənvar. XVIII c. s. 244.
[452] Həmin mənbə. XVIII c. s. 245.
[453] Həmin mənbə. XVIII c. s. 245.
[454] Həmin mənbə. XVIII c. s. 246.

sözündəki mənanın isə namaz olduğunu qeyd etmişdir. Lakin bununla yanaşı, ayədəki **"iman"** sözünə verilmiş müxtəlif izahları da əsərində qeyd etməkdən çəkinməmişdir.[455]

Müəllifin adı çəkilən əsərində diqqəti yönəltdiyi məsələlərdən biri də Qurani-Kərimin mübarək ramazan ayında nazil olmasını bildirməsidir. Bu məsələni geniş şəkildə təhlil edən müəllif yazır: "Qurani-Kərim haqqında olan etiqadımız bundan ibarətdir ki, o ramazan ayının Qədr gecəsində birdəfəyə Beytül-məmura nazil olmuş, daha sonra isə iyirmi üç illik müddət ərzində oradan da Peyğəmbərə (s) endirilmişdir. Çünki Allah elmi Peyğəmbərə (s) birdəfəyə vermişdir. Allah özü belə bəyan edir: **"...sənə tamam-kamal vəhy olunmadan əvvəl Quranı oxumağa tələsmə..."[456]**

Vəhyin Qurani-Kərimdəki növlərinə diqqəti yönəldən müəllif "Təfsiri-Nömani" əsərinə istinad edərək İmam Əlinin (ə) hədisinə görə vəhyi aşağıdakı növlərə bölmüşdür:

**-Peyğəmbərlik vəhyi**

İmam (ə) peyğəmbərlik vəhyi haqqında belə buyurmuşdur: "Peyğəmbərlik vəhyinə bu ayə misaldır: **"Şübhəsiz, Biz Nuha və ondan sonrakı peyğəmbərlərə vəhy göndərdiyimiz kimi sənə də vəhy göndərdik. Həmçinin İbrahimə, İsmailə, İshaqa, Yəquba, Əsbata** (Yəqubun övladlarından olan peyğəmbərlərə)**, İsaya, Əyyuba, Yunusa, Haruna və Süleymana vəhy göndərdik. Və Davuda Zəburu əta etdik** (deməli, sən peyğəmbərlik iddiası etmək və kitab verilmək baxımından ilk şəxs deyilsən)**".[457]**

**-İlham vəhyi**

O, ilham vəhyi haqqında isə İmamın (ə) **"Rəbbin bal arısına belə vəhy** (təlqin) **etdi: "Dağlarda, ağaclarda və** (insanların) **qurduqları çardaqlarda** (evlərin damında, üzümlüklərdə) **özünə evlər tik** (pətəklər sal)**"** ayəsini söylədiyini yazır.[458]

**-İşarə vəhyi**

O, İşarə vəhyinə dəlil olaraq isə **"Sonra** (Zəkəriyya) **mehrabdan** (məbəddən) **öz camaatının qabağına çıxıb** (əli ilə) **onlara belə işarə etdi: "Səhər-axşam** (Allahı) **təqdis edib şəninə təriflər deyin![459]**ayəsini göstərmişdir.[460]

**-Təqdirat (qədər) vəhyi**

Əllamə Məclisi qədər vəhyinə İmamın (ə) bu ayəni dəlil gətirdiyini yazır. **"O, yer üzündə möhkəm durmuş dağlar yaratdı, onu bərəkətli etdi və** (Allahdan ruzi) **istəyənlər üçün bərabər olaraq orada yer əhlinin ruzisini dörd gündə** (mövsümdə) **müəyyən etdi".**

**"Sonra Allah tüstü** (düman, yerdən qalxan buxar) **halında olan göyə üz tutdu** (göyü yaratmaq qərarına gəldi). **Ona** (göyə) **və yerə belə buyurdu: "İstər-istəməz**

---

[455] Həmin mənbə. XVIII c. s. 247.
[456] Həmin mənbə. XVIII c. s. 251-252.
[457] Nisa surəsi, ayə 163.
[458] Həmin mənbə. XVIII c. s. 255.
[459] Məryəm surəsi, ayə 11.
[460] Həmin mənbə. XVIII c. s. 255-256.

**vücuda gəlin!" Onlar da: "İstəyərək** (Allahın əmrinə itaət edərək) **vücuda gəldik!" - deyə cavab verdilər.**

**"Allah onları** (səmaları) **yeddi** (qat) **göy olaraq iki gündə əmələ gətirdi. O, hər bir göyün işini özünə vəhy edib bildirdi. Biz aşağı göyü** (dünya səmasını) **qəndillərlə** (ulduzlarla) **bəzədik və** (onu şeytanlardan, hər çür bəladan) **hifz etdik. Bu, yenilməz qüvvət sahibi olan,** (hər şeyi) **bilən Allahın təqdiridir** (əzəli hökmü, qanunudur)**!"**

**-Əmr vəhyi**

O, əmr vəhyinə İmam Əlinin (ə) Qurani-Kərimin **"Xatırla ki, o zaman həvarilərə** (İsanın on iki əshabəsinə): **"Mənə və peyğəmbərimə iman gətirin!" – deyə əmr etmişdim. Onlar isə: "Bizim** (Sənə və peyğəmbərinə) **itaətkar kəslər olmağımıza şahid ol!" – deyə cavab vermişdilər"** ayəsini dəlil olaraq göstərdiyini qeyd etmişdir.

**-Kizb vəhyi**

Kizb (yalançı) vəhyi şeytanların vəsvəsəsi kimi qiymətləndirən müəllif, İmam Əlinin (ə) Qurani-Kərimin bu ayəsini **"Beləcə, Biz hər peyğəmbər üçün insan və cin şeytanlarından düşmənlər yaratdıq. Onlar** (biri digərini) **aldatmaq məqsədilə bir-birinə təmtəraqlı** (zahirən gözəl, daxilən çirkin) **sözlər təlqin edərlər. Əgər Rəbbin istəsəydi, onlar bunu etməzdilər. Onları uydurduqları yalanlarla birlikdə boşla getsinlər!"** ayəsini dəlil olaraq göstərdiyini bildirmişdir.

**-Xəbər vəhyi**

Xəbər vəhyinə isə İmamın (ə) **"Biz onları əmrimizlə** (insanları) **doğru yola gətirən imamlar** (rəhbərlər) **etdik. Biz onlara xeyirli işlər görməyi, namaz qılmağı və zəkat verməyi vəhy etdik. Onlar yalnız Bizə ibadət edirdilər"** ayəsini dəlil göstərdiyini qeyd edir.[461]

Göründüyü kimi, Əllamə Məclisi İmam Əlinin (ə) bir hədisinə istinad edərək vəhyi yeddi yerə bölmüş, onun peyğəmbərlərə, mələklərə, şeytanlara, insanlara, yerlərə və göylərə aid olduğunu, lakin buradakı hər bir vəhyin fərqli-fərqli mənalarda işləndiyini də diqqətdən qaçırmamışdır.

Heç şübhəsiz ki, Peyğəmbərə (s) gələn vəhyin özü də keyfiyyəti və əlamətləri baxımdan müxtəlif qismlərə bölünür. Quranşünas alimlər bu vəhyi əlamətlərinə görə "Müstəqim vəhy" və "Qeyri-müstəqim vəhy" deyə iki qismə bölmüşlər. Əllamə Məclsi də "Biharül-ənvar" əsərində Məsumlardan (ə) bu mövzuda bir neçə hədisi-şərif nəql etmişdir.

**-Müstəqim vəhy**

Müstəqim vəhy o vəhyə deyilir ki, Peyğəmbərlə (s) Allah arasında heç bir vasitəçi olmasın. Alimlər bu vəhyin ən ağır vəhy olduğunu qeyd etmiş və ona belə bir tərif vermişlər: "Ən ağır vəhy müstəqim vəhy olmuşdur. Bu zaman arada heç bir

---

[461] Həmin mənbə. XVIII c. s. 254-255.

vasitə olmadan peyğəmbər ilə varlıq mənbəyi arasında birbaşa əlaqə və bağlantı yaranır”.[462]

Böyük təfsir alimi Təbərisi bu vəhyə Qurani-Kərimin “Müzzəmmil” surəsinin beşinci ayəsini dəlil olaraq göstərmişdir.[463] Əllamə Məclisi Şeyx Səduqun (915-991) “ət-Tövhid” əsərinə (səh. 6) istinadən belə nəql edir:

التوحيد: أبي، عن سعد عن ابن هاشم، عن ابن أبي نجران، عن محمد بن سنان، عن إبراهيم والفضل ابني محمد الأشعريين، عن عبيد بن زرارة، عن أبيه قال: قلت لأبي عبد الله (عليه السلام): جعلت فداك الغشية التي كانت تصيب رسول الله (صلى الله عليه وآله) إذا نزل عليه الوحي؟ قال: فقال ذلك إذا لم يكن بينه وبين الله أحد، ذاك إذا تجلى الله له، قال:

ثم قال: تلك النبوة يا زرارة، وأقبل يتخشع.

“...Zürarə İmam Sadiqdən (ə) soruşdu:

-Sənə fəda olum, Peyğəmbərə (s) bayıldığı vaxt ona vəhy nazil olurdu?

İmam (ə) buyurdu:

-Bu onunla Allah arasında heç bir vasitə olmadan vəhy nazil olduğu zaman olurdu. Bu zaman Allah öz əzəmət və cəlalı ilə ona təcəlli edirdi.”.[464]

Əllamə Məclisi Şəhraşubun (1096-1192) “əl-Mənaqib” əsərinə istinadən belə nəql edir:

وأما كيفية نزول الوحي فقد سأله الحارث بن هشام كيف يأتيك الوحي؟ فقال: أحيانا يأتيني مثل صلصلة الجرس وهو أشده علي فيفصم عني، فقد.

“Haris bin Hişam Peyğəmbərdən (s) soruşdu:

-Vəhy sizə necə nazil olur?

Peyğəmbər (s) buyurdu:

-Vəhy bəzən bir zəng səsi kimi gəlir və bu, mənə nazil olan vəhyin ən ağır növüdür. Məni taqətdən salır və yorur. Lakin mən buna baxmayaraq, bütün nazil olanları yadda saxlayıram”.[465]

Həmçinin müəllif ümmülmöminin Aişədən belə nəql edir:

أنه كان ينزل عليه الوحي في اليوم الشديد البرد فيفصم عنه وإن جبينه لينفصد عرقا.

“Peyğəmbərə (s) soyuq bir gündə vəhy nazil oldu. Vəhy kəsildikdən sonra onun alınından tər axmağa başladı”.[466]

Bu hədisləri təhlil etdiyimiz zaman belə nəticəyə gəlirik ki, müstəqim vəhy Peyğəmbərimizə (s) nazil olmuş ən ağır vəhy növüdür və bu zaman Peyğəmbərimizdə (s) yorğunluq, taqətsizlik, hərarətin yüksəlməsi, möhkəm tərləmə və s. hallar baş verirmiş.

**-Qeyri-müstəqim vəhy**

Quranşünas alimlər qeyri-müstəqim vəhyi belə tərif edirlər ki, vəhy gələn zaman Cəbrayıl (ə) peyğəmbərimizə adi insan simasında görünər və Peyğəmbərimiz (s) bu zaman heç bir çətinlik çəkmədən vəhyi qəbul edərmiş. Alimlər vəhyin bu növünə “Şüəra” surəsinin 192-194-cü ayələrini misal gətirirlər.[467]

---

462 Hüseyn Cavad Araste. Quran elmləri dərsliyi. Bakı, Nuralar nəşriyyatı, 2014. s. 46.
463 Həmin mənbə. s. 46.
464 Əllamə əl-Məclisi. Biharül-ənvar. XVIII c. s. 256.
465 Həmin mənbə. XVIII c. s. 260.
466 Həmin mənbə. XVIII c. s. 261.
467 Hüseyn Cavad Araste. Quran elmləri dərsliyi. s. 48.

Əllamə Məclisi vəhyin bu növü haqqında Şeyx Səduqun “İləlüş-şərae” əsərinə (səh. 14) istinadən İmam Sadiqdən (ə) belə nəql edir:

علل الشرائع: ابن البرقي، عن أبيه، عن جده، عن ابن أبي عمير، عن عمرو بن جميع، عن أبي عبد الله (عليه السلام) قال: كان جبرئيل إذا أتي النبي (صلى الله عليه وآله) قعد بين يديه قعدة العبد، وكان لا يدخل حتى يستأذن.

“Cəbrayıl (ə) Peyğəmbərin (s) hüzuruna gəldikdə bir qul kimi onun qarşısında əyləşər və icazəsiz içəriyə daxil olmazdı”.[468]

Deməli, vəhyin bu növünü təhlil edən zaman məlum olur ki, müstəqim vəyhdə olan ağırlıq və psixoloji gərginlik qeyri-müstəqim vəhydə yoxdur. Həmçinin Cəbrayıl (ə) Peyğəmbərimizə (s) nazil olan zaman insan simasında nazil olar və o həzrətdən icazə almadan onun otağına daxil olmaz və ya ona vəhyi çatdırmazmış.

Beləliklə, vəhyin mahiyyətinə vardığımız zaman görürük ki, onun necə olduğunu və keyfiyyətini ancaq yaşayan peyğəmbər bilir. Uca Allah ilə peyğəmbəri arasında bir sirr olan vəhy hadisəsini digər insanların tərif etməsi qaranlıqdakı görmədiyimiz hədəfə daş atmağımıza bənzəyir.

[468] Əllamə əl-Məclisi. Biharül-ənvar. XVIII c. s. 262.

# NƏTİCƏ

"Əllamə Məclisi və onun "Biharül-ənvar" əsərinin hədis tarixində yeri" mövzusu haqqında tədqiqatı tamamlayaraq aşağıdakı nəticəyə gəlirik:

**1.** Əllamə Məclisinin "Biharül-ənvar" əsəri böyük bir hədis əsəridir və özündən əvvəlki hədis əsərlərindən bəzi üstün cəhətlərə malikdir. Belə ki, müəllif daha əvvəl yazılmış əsərlərdən səmərəli şəkildə istifadə edərək onlarda olan bəzi xətaları təshih etmiş, dövrümüzədək gəlib çıxmayan mənbələrdən iqtibaslar etməklə bizim də həmin əsərlərdən bəhrələnməyimizə şərait yaratmışdır.

Əllamə Məclisi haqqındakı araşdırma bir daha göstərir ki, o, öz dövrünün bir çox elmləri sahəsində dərin biliyə sahib olmuşdur. Onun yazdığı "Biharül-ənvar" əsəri əsrlərdir ki, İslam ümməti içərisində rəğbətlə oxunmuş və həmişə əsas qaynaqlardan hesab edilmişdir. Yüzlərlə mötəbər qaynaqdan istifadə edərək belə bir fundamental əsər yazması, alimin İslam mədəniyyəti xəzinəsinə böyük töhfə verməsi heç şübhəsiz ki, onun İlahi elmə, Peyğəmbər (s) və Əhli-beytə (ə) olan məhəbbətinin təcəssümüdür.

Vəfatından üç yüz ildən artıq bir vaxtın keçməsinə baxmayaraq, o, heç vaxt müsəlman ümmətinin yaddaşından silinməmiş, əksinə, həmişə onun adına böyük elmi konfranslar keçirilmiş, haqqında tədqiqat işləri aparılmış, məqalələr yazılmışdır. Ümidvarıq ki, belə bir elm nəhəngi dünya durduqca duracaq, elm sevildikcə seviləcəkdir.

**2.** XVII əsrdə Səfəvilər dövlətində siyasi sabitliyin yaranması nəticəsində dövlətin bütün ərazilərində elm və mədəniyyətin yüksəliş dövrü başlamışdır.

Ərəb xilafəti dövründə yüksək inkişaf mərhələləri keçmiş İslam mədəniyyəti artıq XVII əsrdə tənəzzül dövrünü yaşayırdı. "Fəlsəfə elmi İbn Rüşdlə, astronomiya və riyaziyyat elmləri Uluğ Bəylə, hədis elmləri isə Şeyx Tusi (997-1068) ilə sona yetmişdir deyən" bəzi tədqiqatçılar bəlkə də bu sözlərində yanılmamışdılar. Lakin Əllamə Məclisinin Səfəvilər dövlətində şeyxülislam vəzifəsinə təyin olunması bu fikri tamamilə kökündən dəyişdirdi. Belə ki, "Biharül-ənvar"ı yazmaqla hədis, təfsir, tarix, bir sözlə, bir çox din elmlərinə yenidən rəvac verdi. Onun "Biharül-ənvar"da təbiətşünaslıq problemlərinə yer verməsi isə müsəlman aləmində tənəzzülə uğrayan dünyəvi elmlərə, xüsusilə də astronomiya və riyaziyyat elmlərinə xüsusi bir inkişaf qazandırdı.

**3.** "Biharül-ənvar" əsərinin əvvəlində müəllifin geniş müqəddiməsi verilmiş, burada əsərin yazılmasının səbəbləri göstərilmiş, hədis elmlərinin ilahiyyat elmləri içərisində çox mühüm əhəmiyyət kəsb etdiyi qeyd edilmişdir. Əsərin mənbələri haqqında məlumatı oxuduqca, müəllifin istinadından toplamaq mümkün olur. Belə ki, "Biharül-ənvar" Küleyni, İbn Babaveyh əl-Qummi, Əbu Cəfər ət-Tusi, İbn Şəhraşub, Əminüddin ət-Təbərsi, Məhəmməd bin Məkki, Şərif ər-Rəzi, Şərif əl-Mürtəza, Əli bin Musa bin Tavus əl-Həsəni, İbn əl-Mütəhhər əl-Hilli, Məhəmməd bin Əli əl-Kərakçi, Cövhəri, Firuzabadi, Mütərrizi, Rağib əl-İsfahani, İbn Faris, İbn Düreyd, Zəməxşəri və neçə-neçə müəllifin də daxil olduğu altı yüzdən çox qaynaqdan istifadə edilərək yazılmışdır.

Müəllifin istinad etdiyi mənbələrin hamısı islamşünaslıq tarixində mühüm rol oynamış şəxsiyyətlər və onların əsərləridir.

**4.** Əllamə Məhəmməd Bağır Məclisinin mənbələrdən istifadə metodu da özünün zənginliyi ilə diqqəti cəlb edir. Bəlkə də İslam aləmində ounun qədər zəngin mənbədən istifadə edən ikinci bir müəllif tapmaq olmaz. Təhlillər göstərir ki, müəllif şiə olsa da, “Biharül-ənvar” əsərini yazmaq üçün hansısa konkret bir radikal etiqada, məzhəbə və təriqətə istinad etməmiş, əksinə, müxtəlif dünyagörüşünə və məzhəblərə malik alimlərin əsərlərini seçməklə İslamdakı təfriqəni aradan qaldırmağa, ümumi bir məxrəcə gəlib, əsl həqiqətə gəlməyə cəhd göstərmişdir. Onun istinad etdiyi qaynaqlar içərisində şiə məzhəbinə məxsus mənbələr üstünlük təşkil etsə də, hənəfi, maliki, şafei və hənbəli məzhəblərinə mənsub şəxsiyyətlərin əsərləri də olmuşdur. Demək olar ki, müəllifin dilçiliyə aid istifadə etdiyi mənbələr bu qəbildən olan mənbələrdir. Bu mənbələrin başında Cövhərinin “Sihah”, Firuzabadinin isə “Qamus” əsərləri dayanır.

**5.** Məlum olduğu kimi, hədis elmində hədislər iki yöndən araşdırılır. Birincisi, hədis sənəd (və ya isnad), ikincisi, isə mətn baxımından. Əgər hədisin sənədində və ya isnadında adı çəkilən ravilər (hədis nəql edənlər) tənqid edilmişlərsə, onların rəvayət etdikləri hədislər “zəif” hesab olunur və onlara etiqadi məsələlərdə isnad etmək olmaz. Həmçinin hədis mətn baxımından araşdırıldıqda onun Qurani-Kərimə və yaxud da səhih yolla nəql olunmuş hədislə ziddiyyəti olarsa, həmin hədis də mətn baxımından zəif hesab olunacaqdır.

Əllamə Məclisi “Biharül-ənvar” əsərində hədisləri kor-koranə şəkildə deyil, onu sənəd və mətn baxımından araşdırmış və əksər halda daha çox səhih bildiyi hədisləri kitabına salmışdır. Əlbəttə, bu o demək deyildir ki, onun əsərində keçən bütün hədislər doğrudur.

**6.** “Biharül-ənvar” əsərinin məzmununun öyrənilməsi göstərir ki, burada aşağıdakı məsələlər əhatə edilmişdir:

**a)** Müəllif əsərdə yazacağı mövzu ilə əlaqəli fəsil açmış, burada ilkin olaraq Qurani-Kərimin ayələrini, sonra mövzuya uyğun hədisləri qeyd etmişdir.

**b)** Ayələrdə və hədislərdə keçən çətin başa düşülən kəlmələri izah etmiş və bu zaman dilçiliyə aid yazılmış ən qədim qaynaqlardan müqayisəli şəkildə istifadə etmişdir.

**c)** Qurani-Kərimin ayələri ilə hədisləri məna baxımından tutuşdurmuş və bunun da nəticəsində daha dolğun və düzgün bir fikrə gəlmişdir.

**ç)** Qurani-Kərimin ayələrini və hədisləri elmin müxtəlif sahələrinə (tarixə, fəlsəfəyə, məntiqə, dilçiliyə və s.) dair mənbələri tutuşdurmuş və izah etmişdir.

Bütün bu faktlar göstərir ki, Əllamə Məhəmməd Bağır Məclisi “Biharül-ənvar” əsəri üçün mənbələri təsadüfən, kortəbii şəkildə seçməmiş, hədis, təfsir, tarix və dilçilik elmlərinə aid daha çox ədəbiyyatla tanış olandan sonra özünün elmi fikirləri ilə səsləşən mənbələrə müraciət etmişdir. Onun bu əsəri Azərbaycan ilahiyyatşünaslığı üçün də öz aktuallığını saxlamaqdadır.

**7.** “Biharül-ənvar” əsəri din və təbiətşünaslıq baxımından zəngin elmi mənbədir. Burada kainatın yaradılması, yer üzündə həyatın əmələ gəlməsi, ilk insanın yaranması və s. mövzular haqqında çoxlu sayda məlumatlar öz əksini tapmışdır.

**8.** Din heç vaxt elmin əleyhinə olmayıb. İslam dini və onun iki əsas mənbəsi olan Qurani-Kərim və hədislər həmişə insanları elm və mədəniyyətə səsləmiş, elmin əhəmiyyət və faydalarının əbədi olacağını vurğulamışdır.

**9.** Elmi məlumatlarımız çoxaldıqca, Quran və hədislərdəki sətiraltı mənalar insanı daha da dərindən düşünməyə və inanclı olmağa vadar etmişdir.

**10.** “Biharül-ənvar” əsəri kontekstində vəhyin keyfiyyəti, mahiyyət və növləri haqqında məlumatlar sistemləşdirilmişdir.

**11.** Əllamə Məclisinin yetişməsində görkəmli Azərbaycan ilahiyyatşünaslarının, xüsusilə də Molla Xəlil əl-Qəzvini və Ağa Hüseyn əl-Xansarinin müstəsna xidmətləri olmuşdur.

**12.** Əllamə Məclisi Azərbaycan ilahiyyatşünaslığına xidmət etmiş, Azərbaycan Səfəvilər dövlətinin şeyxülislamı olmaqla yanaşı, bir çox Azərbaycan ilahiyyatşünasının yetişməsində böyük rol oynamış və beləliklə də ilahiyyatşünaslığımıza güclü təsir etmiş alimlərdəndir.

# İSTİFADƏ OLUNMUŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində:


1. Qurani-Kərim. Azərbaycan dilinə tərcümə edənlər: Ziya Bünyadov, Vasim Məmmədəliyev. Bakı, Azərnəşr, 1991.
2. Qurani-Kərim. Azərbaycan dilinə tərcümə edənlər: Ziya Bünyadov və Vasim Məmmədəliyev. Bakı, Nurlar, 2015.
3. Qurani-Kərim. Ərəbcədən tərcümə və şərhin müəllifi: Ayətullah Meşkini Ərdəbili. Azərbaycan dilinə tərcümə edənlər: Ağabala Mehdiyev, Dürdanə Cəfərli. Bakı, Nurlar, 2009.
4. Axundzadə Hacı Mirzə Əbu Turab. İslamın təfriqəsi səbəbləri. Bakı, Azərnəşr, 1993.
5. Allahsızla mübahisə. Ərəb dilindən tərcümə edən: Batugayev Şamsuddin Xalidoviç. Rus dilindən tərcümə edən: Qədimov Əbdülqədim. Qroznıy: Kniqa, 1991.
6. Araste Hüseyn Cavan. Quran elmləri dərsliyi. Tərcümə edənlər: E.Kərimova, M.Hüseynova, S.Ağayev. Bakı, Mirasnəşr nəşriyyatı, 2014.
7. Aslanova Rəbiyyət. İslam və Mədəniyyət. Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 2002.
8. Ateistin cib lüğəti. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1987.
9. Azərbaycan Tarixi. 2 cilddə. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1994.
10. Azərbaycan Tarixi. 7 cilddə. Bakı, Elm, 2007.
11. Baqir Mətləb. İslam fəlsəfəsi ilə tanışlıq. Saadate Razavi, I çap, 2005.
12. Bünyadov Ziya. Dinlər, Təriqətlər, Məzhəblər. Bakı, Şərq-Qərb nəşriyyatı, 2007.
13. Bünyadzadə Könül. İslam fəlsəfəsi: tarix və müasirlik. Bakı, Çaşıoğlu, 2010.
14. Dialektik materalizmin öyrənilməsinə dair metodik göstərişlər. Azərbaycan Politexnik İnstitutu, Fəlsəfə kafedrası. Hazırlayanlar: F.F.Ramazanov, Ə.A.Niyazov, X.H. Dadaşov. Bakı, 1989.
15. Dini Terminlər Lüğəti. Bakı İslam Universiteti. Hazırlayanlar: F.Quliyev, Ə.Niyazov, A.Qurbanov və b. Bakı, İpəkyolu, 2010.
16. Elmi-ateizm məsələləri. Bakı, 1961.
17. Engels Fridrix. Təbiətin dialektikası. Bakı, Partiya nəşriyyatı, 1950 və Bakı, 1966.
18. Əfəndiyev Oktay. Azərbaycan Səfəvilər dövləti. Bakı, Şərq-Qərb, 2007.
19. Əhmədov Əhmədağa. Nikatül-Quran və Əsrarül-Quran. 2 cilddə. Bakı, Öyrətmən, 1994.
20. əl-Bakuvi Mirməhəmməd Kərim Mir Cəfər əl-Ələvi əl-Hüseyni əl-Musəvi. Kitabü-kəşfil-həqayiq ən nükətil-ayat vəd-dəqayiq. Təfsiri-Qurani-Şərif. 3 cilddə. Bakı, 1322 h/q. Bakı, 2014.
21. əl-Xoyi Seyid Əbülqasim. əl-Bəyan təfsiri. 2 cilddə. Bakı çapı. Nəşr yeri və ili yoxdur.
22. Əliyev Rafiq. İslam. Bakı, II nəşri, 2004.

23. Əllamə Məclisi. Biharül-ənvarın hekayələri. Tərc: Mirhüseyn Haşımov. Bakı, İmam Əli (ə) müəssisəsi, 2001.
24. Fərzəliyev Şahin. Azərbaycan XV-XVI əsrlərdə. [Həsən bəy Rumlunun "Əhsənüt-təvarix" əsəri üzrə]. Bakı, Elm nəşriyyatı, 1983.
25. Fərzəliyev Şahin. Məryəm Mirəhmədinin "Səfəvilər dövründə din və dövlət". [Fars dilindən tərcümə edən: Şahin Fərzəliyev]. Bakı, Azərnəşr, 1997.
26. Həmədani Əhməd Səbiri. İslamda Cəfəri Məzhəbi və İmam Cəfər Sadiqin (ə) Buyruqları. Tərcümə edənlər: Mustafa Əliyev, Ağanəcəf Həmidov. Bakı, Elm nəşriyyatı, 1991.
27. Həsənli Sabir. İman və Elm. Bakı, Elm və həyat nəşriyyatı, 1998.
28. Həsənli Sabir. İslam Mədəniyyətində Elm. Bakı, Elm və həyat nəşriyyatı, 1998.
29. Hüseynov Sakit. Azərbaycanda dini tolerantlıq mədəniyyəti: Tarix və müsairlik. Bakı, Təknur, 2012.
30. Hüseynov Sakit. Məişət ekologiyası (sosial-fəlsəfi aspekt). Bakı, Sabah nəşriyyatı, 1996.
31. Xəlilov Səlahəddin. İşraqilik və müasir fəlsəfi təlimlər. Bakı, 2005.
32. İsgəndərbəy Münşi. Dünyanı bəzəyən Abbasın tarixi [Tarixe-alamaraye-Abbasi. Fars dilindən tərcümə edən: Şahin Fərzəliyev]. 2 cilddə. Bakı, Şərq-Qərb, 2010.
33. İsgəndərov Vüqar. Molla Sədra və Mütəaliyyə fəlsəfəsi. Bakı, 2012.
34. İslam məzhəbləri ilə tanışlıq. Tədqiqat qrupu. Bakı, I çap, 2006.
35. İslam: Tarix, fəlsəfə və hüquq. Tərtibçilər: Aydın Əlizadə, Elsevər Səmədov. Bakı, 3 saylı Bakı mətbəəsi, 2016.
36. İsmayılov Fərman. İnsan və dünya. Bakı, Azərbaycan dövlət kitab palatası, 1994.
37. Kollektiv. Şərq fəlsəfəsi (IX-XII əsrlər). Bakı, Bakı Dövlət Universiteti Nəşriyyatı, 1999.
38. Quliyev İbrahim. Əllamə Məhəmməd Bağır Məclisi və onun "Biharül-ənvar" əsəri: fəl.ü.f.dok. elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2015.
39. Quliyev İbrahim. Hədisi-şəriflərdə müqəddəs şəhərlərin tarixi. Bakı, Nurlar nəşriyyatı, 2012.
40. Quliyev İbrahim. Hədisşünaslığın əsasları. Bakı, Elm nəşriyyatı, 2013.
41. Quliyev İbrahim. Suallara cavablar (hədisi-şəriflər kontekstində). Bakı, Elm və təhsil nəşriyyatı, 2016.
42. Lenin Vladimir İliç. Əsərləri. X cild. Bakı, Azərnəşr, 1953.
43. Lenin Vladimir İliç. Fəlsəfə dəftərləri. Əsərlərinin tam külliyyatı. XXIX cild. Bakı, 1981.
44. Marks Karl, Engels Fridrix. Seçilmiş əsərləri. Bakı, 1983.
45. Marksizm-Leninizm fəlsəfəsinin əsasları. Bakı, Maarif nəşriyyatı, 1980.
46. Məmmədəliyev Vasim. Quran və Elm. Bakı, Qismət nəşriyyatı. 2006.
47. Məmmədov Əziz. İnsan haqqında fəlsəfi düşüncələr. Bakı, Renessans, 2000.
48. Məmmədov Zakir. Azərbaycan fəlsəfəsi tarixi. Bakı, Bilik, İrşad mərkəzi, 1994.
49. Məmmədov Zaman. Təbiətşünaslıq və Din. Azərbaycan dövlət nəşriyyatı, Bakı, 1961.

50. Mərifət Məhəmməd Hadi. Quranın tarixi. Tərcümə edən: Maqsud Sayıl. Bakı, Xəzər universiteti nəşriyyatı, 2013.
51. Mirzəyev Ataəmi. Cami, Nəvai və Füzuli yaradıcılığında 40 hədis. Bakı, Ozan, 1997.
52. Musəvi Seyyid Müctəba Lari. İslam və Qərb mədəniyyəti. Darül-bəşir, I çap, 2004.
53. Mütəhhəri Mürtəza. İslam və zamanın ehtiyacları. Tərcümə edən: A. Eyvazov, D. Şahmərdanlı, A. Mehdiyev. Bakı, Parlayan günəş nəşriyyatı, 2012.
54. Mütəhhəri Mürtəza. Materializmə yönəlmənin səbəbləri. Tərcümə edən: Ağabala Mehdiyev. Bakı, Parlaq imzalar nəşriyyatı, Bakı, 2016.
55. Mütəhhəri Mürtəza. Teizm seminarları. Tərcümə edən: Rauf İmranoğlu. Bakı, Parlaq imzalar nəşriyyatı, 2014.
56. Nağısoylu Möhsün. Füzulinin "Hədiqətüs-süəda" əsəri. Bakı, Nurlan, 2012.
57. Nəcmi Məhəmməd Sadiq. Buxari və Müslümün "Səhih"lərinə bir baxış. 2 cilddə. Tərcümə edən: Rəşad Vahidoğlu. Bakı, 2006.
58. Nəsri Abdulla. Quranda dünyaşünaslığın əsasları. Tərcümə edən: Nəsib Göyüşov. Bakı, 2003.
59. Nurullah Fuad. Azərbaycanda İslam və onun etiqad əsasları. Bakı, Nurlar, 2013.
60. Paşazadə Şeyxülislam Allahşükür. Quranın təfsiri və tərcüməsi tarixi. Bakı, Əbilov, Zeynalov və oğulları nəşriyyatı, 1998.
61. Paşazadə Şeyxülislam Allahşükür. Qurani-Kərimin təfsiri və tərcüməsinin metodoloji əsasları. Bakı, İslam araşdırmaları, IV buraxılış, İrşad, 1998.
62. Reyşəhri Məhəmməd. Mizanül-hikmət (xülasəsi). Tərcümə edən: A.Mehdiyev, E.Mahmudov və E.Quliyev. Bakı, Nurlar, 2005.
63. Rəfiqdust Səid. İslam fəlsəfəsinin təkamül yolları. Bakı, Azərbaycan Dövlət Kitab Palatası, 1994.
64. Rzayev Salman. Quran həqiqətləri. Bakı, Nurlan nəşriyyatı, 2007.
65. Selcan Məryəm. İlahi möcüzələr. 2 cilddə. Nəşr ili və yeri yoxdur.
66. Səidmehr Məhəmməd. Kəlam elmi. 2 cilddə. Bakı, Nurlar, 2013.
67. Sührəverdi Əbuhəfs. Biliklərin töhfələri (traktatdan parçalar). Ərəb dilindən tərcümə edən: Zakir Məmmədov. Şərq fəlsəfəsi (IX-XII əsrlər). Bakı, 1999.
68. Şərifov Şahlar. Məhəmməd Həsən Mövlazadə Şəkəvi və onun Kitabül-bəyan fi təfsiril-Quran əsəri. Bakı, Elm və təhsil, 2018.
69. Şəkəvi Şeyxülislam Məhəmməd Həsən Mövlazadə. Kitabül-bəyan fi təfsiril-Quran. 2 cilddə. Bakı, 1989/1991.
70. Şirazi Ayətullah Məkarim. Təfsiri-nümunə. Tərc: "əl-Qiraət" kitab mağazasının tərcümə birliyi. Bakı, "Dinin fəxri" nəşriyyatı, I çap, 2000.
71. Şirvani Əli. Fəlsəfə elmi. Bakı, Nurlar, 2017.
72. Şükürov Ağayar. Şərq fəlsəfəsi və filosofları. Bakı, Əbilov, Zeynalov və oğullar, 2005.
73. Təbrizi Cəfər Sübhani. İlahiyyat elmləri və İslam maarifi. 2 cilddə. Tərcümə edən: Mirzə Rəsul İsmayılzadə. Qum, 1993.
74. Təbrizi Cəfər Sübhani. İslamda əqidə əsasları. Tərcümə edən: Elşən Mustafaoğlu. Bakı, Qələm nəşriyyatı, 2003.

75. Təbrizi Cəfər Sübhani. Tale yaxud qəza və qədər. Tərcümə edən: Rza Şükürlü. Bakı, 2013.
76. Təbrizi Əli Hicrani. Əltafür-Rəhman: Qurani-Kərimin Azərbaycan dilində tərcümə və təfsiri. I-IV cildlər. Bakı, Zərdabi LTD MMC mətbəəsi, 2016/2017.
77. Təbrizi Əllamə Əbdülhüseyn Əmini. əl-Qədir: 11 cilddə. I-V cildlər. Bakı, Zərdabi LTD MMC nəşriyyatı, 2014/2015.
78. Təbrizi Əllamə Məhəmmədhüseyn Təbatəbai. Dinlə tanışlıq. Tərcümə edən: Nəsib Göyüşov. Bakı, Qələm nəşriyyatı, 2004.
79. Təbrizi Əllamə Məhəmmədhüseyn Təbatəbai. əl-Mizan təfsiri. 20 cilddə. I-IX cildlər. Bakı, Qələm nəşriyyatı, 2011/2017.
80. Təbrizi Əllamə Məhəmmədhüseyn Təbatəbai. Həzrət Məhəmməddən (s) ədəb qaydaları və dualar (Sünənün-Nəbi). Tərcümə edən: Baqir Orucov. Bakı, Kövsər mətbəəsi, 2013.
81. Təbrizi Əllamə Məhəmmədhüseyn Təbatəbai. İnsan dünyadan əvvəl. Tərcümə edən: Rövşən Abdullaoğlu. Bakı, II nəşri, 2013.
82. Təbrizi Əllamə Məhəmmədhüseyn Təbatəbai. İnsan dünyadan sonra. Şərh və əlavələr: Rövşən Abdullaoğlu. Bakı, Qədim Qala nəşriyyatı, II nəşri, 2015.
83. Təbrizi Əllamə Məhəmmədhüseyn Təbatəbai. İnsan dünyadan sonradan sonra. Şərh və əlavələr: Rövşən Abdullaoğlu. Bakı, Qədim Qala nəşriyyatı, IV nəşri, 2015.
84. Təbrizi Əllamə Məhəmmədhüseyn Təbatəbai. Vəhy və Quran. Tərcümə edən: Nurəddin Əliyev. Bakı, I çap, 2009.
85. Zahidi Cəlal. İslam fəlsəfəsinə bir baxış. Təbriz, Nədim nəşriyyatı, 1997.
86. Zəkuyev Əhməd. Bəhmənyarın fəlsəfi görüşləri. Bakı, 1958.

**Türk dilində:**

87. Adıvar Adnan. Tarih boyunca ilim ve din. İstanbul, Remzi Kitabevi, 1969.
88. Ateş Süleyman. Kuran-ı Kerim ve yüce meali. İstanbul, Yeni ufuklar neşriyati, 1997.
89. Aydın Mehmet. Din felsefesi. İzmir, X baskı, 2002.
90. el-Kazvini İbn Mace. Süneni-İbn Mace. 10 cilddə. Terc: Haydar Hatipoğlu. İstanbul, Kahraman Neşriyatı. Tarixsiz.
91. el-Kindi. Felsefi risaleler. Terc: Mahmut Kaya. İstanbul, 1994.
92. es-Sicistani Ebu Davud. Süneni-Ebi Davud: 16 cilddə. Hazırlayanlar: Hüseyin Kayapınar və b. İstanbul, Şamil Yayınevi, 1987.
93. eş-Şeybani Ahmet bin Henbel. Müsnet. İstanbul, Çağrı yayınları, 1992.
94. Farabi Ebu Nesr. İhsaul-ulum. Terc: Ahmet Ateş. İstanbul, 1955.
95. Freyer Hans. Din sosiolojisi. Terc: Turgut Kalpsüz. Ankara, Ankara Ünverisitesi Basımevi, 1964.
96. İbn Kesir. Hadislerle Kurani Kerimin tefsiri. İstanbul, Çağrı yayınları, 1994.
97. Keklik Nihat. Felsefe: Mukayeseli temel bilgiler ve kaynaklar. İstanbul, 1978.
98. Kırca Celal. Kurani-Kerimdə fenn bilimleri. İstanbul, 1989.
99. Korbin Henri. İslam felsefesi Tarihi. 2 cilddə. İstanbul, 1986.

100. Kuran-ı Kerim ve türkçe açıklamalı mealı. Hazırlayanlar: Ali Özek və b. Nəşr ili və yeri yoxdur.
101. Macit Karagözoğlu, Enes Topgül. Şianın hadis anlayışı üzerine incelemeler. İstanbul, Klasik, 2013.
102. Nasr Seyid Hüseyn. İslamda ilm və medeniyyet. İstanbul, 1991.
103. Özpinar Ömer. Şia hadis tarihinin teşekkül dönemi. Konya, Aybil yayınları, 2014.
104. Şamil İslam Ansiklopedisi. V cild. İstanbul, Şamil Yayınevi, 1992.
105. Tümer Günay. Din. Diyanet İslam Ansiklopedisi (DİA). 44 cilddə. IX c. İstanbul, 1994.
106. Uğur Mücteba. Ansiklopedik Hadis Terimleri Sözlügü. Ankara, Türkiye Diyanet Vakfı Yayınları, 1992.
107. Ünalan Abdullah. Şiada hadis üsulu. İstanbul, İşrak yayınları, 2008.
108. Yalçın Cavit. Tarihin en büyük bilim sahtekarlığı evrim teorisi. İstanbul, Vural Yayıncılık, 1996.
109. Yaran Cafer Sadık. Din ve bilim çağdaş batı ve İslam düşüncesinden seçme felsefi yazılar. Samsun, Sidre Yayınları, 1997.
110. Yeniçeri Celal. Uzay ayelerin tefsiri. İstanbul, 1995.

## Rus dilində:

111. Адам Мец. Мусульманский ренессанс. Москва, Наука, 1973.
112. Бортольд В.В. Культура мусульманства. Москва, Леном, 1998.
113. Ислам: Энциклопедический словарь / отв. ред. С. М. Прозоров. – Москва, Наука, Главная редакция восточной литературы, 1991.
114. Корбен Анри. История исламской философии. Москва, Прогресс-Традиция, 2010.
115. Радхакришнан Сарвепалли. Индийская философия. Москва, 1956.
116. Тейлор Э.Б. Первобытная культура. Москва, 1989.
117. Фролова Е.А. История арабо-мусульманской философии. Средние века и современность: Учебное пособие. Москва, 2006.

## İngilis dilində:

118. Corbin Henry. Avicenna and the Visionary Recital. Princeton University Press, 1960.
119. Corbin Henry. Creative Imagination in the Sufism of Ibn 'Arabi. Princeton University Press, 1969.
120. Corbin Henry. En Islam Iranien: Aspects spirituels et philosophiques (4 vols.). Gallimard, 1971.

## Ərəb dilində:

121. əl-Amili Əllamə Möhsün əl-Əmin. Əyanüş-şiə. 10 cilddə. Beyrut, V nəşri, 1403/1983.

122. əl-Amili Hürr. Əməlül-amal. 2 clddə. Qum, Darül-kütubil-İslamiyyə, 1362 h/ş.
123. əl-Amili Hürr. Vəsailüş-şiə. 30 cilddə. Qum, Müəssisətu Alil-Beyt (ə), 1414 h/q.
124. əl-Azərbaycani Bəhmənyar. Ma bədət-təbia. Qahirə, 1329.
125. əl-Bəxşaişi Əbdürrəhman Əqiqi. Təfsiru təbəqatiş-şiə. 5 cilddə. I çap, 1372 h/ş.
126. əl-Buxari Əbu Abdullah Məhəmməd bin İsmail. Səhihül-Buxari. Riyad, Darus-salam, 1999.
127. əl-Ələmi Əllamə Məhəmmədhüseyn Hairi. Dairətül-məarif. 18 cilddə. Beyrut, 1413/1993.
128. əl-Ərdəbili əl-Mişkini Əli. İstiləhatül-üsul və mözəmi əbhasiha. Qum, Mətbəətül-Hadi, VII çap, 1427 h/q.
129. əl-Ərdəbili Məhəmməd bin Məhəmməd. Camiür-rüvvat. 7 cilddə. Beyrut, 1403/1983.
130. əl-Əsqəlani İbn Həcər. Lisanül-mizan. 10 cilddə. Təhqiq: Əbdülfəttah əl-Ğüddə. Məktəbətül-məktubatil-İslamiyyə, I çap, 1423/2003.
131. əl-Əsqəlani İbn Həcər. Təhzibüt-təhzib. 11 cilddə. Beyrut, Darül-fikir, I nəşri, 1404/1984.
132. əl-Firuzabadi Məcduddin Muhəmməd bin Yaqubi. Qamusul-mühit. Beyrut, Daru ihyayit-turasil-ərəbi, 1997.
133. əl-Heydəri Əllamə Kamal. Fəlsəfə. 3 cilddə. İmam Cavad (ə) müəssisəsi nəşri, 2014.
134. əl-Hüseyni Haşim Məruf. Dirasat fil-hədis vəl-mühəddisin. II nəşri, 1398/1978.
135. əl-Xansari əl-Mühəqqiq Mirzə Məhəmməd Baqir. Rövzatül-cənnat fi əhvali-üləmais-saadat. Tehran, 1347/1928 və 7 cilddə, I çap, 1991.
136. əl-Xoyi Seyid Əbülqasim. Möcəmür-ricalil-hədis və təbəqatür-rüvvat. 23 cilddə. Qum, IV nəşri, 1410 h/q.
137. əl-Xoyi Seyid Əbülqasim. Mühazirat fi üsulil-fiqh. 4 cilddə. Qum, Müəssisə nəşril-İslami, I çap, 1419 h/q.
138. Əli Aslan Aydın. ən-Nubuvvə fil-Quran və ində fəlasifətil-İslam. Qahirə, 1958.
139. Əli Sami ən-Nəşşar. Nəşətu-fikri fəlsəfətil-İslam. Qahirə, 1977.
140. əl-Kaşani Feyz. əl-Vafi. 26 cilddə. İsfahan, Məktəbətu İmam Əli (ə), I çap, 1312 h/q.
141. əl-Küleyni Məhəmməd bin Yaqub. Üsulül-kafi. 8 cilddə. Beyrut, I nəşri, 1429/2008.
142. əl-Qummi Şeyx Abbas. əl-Küna vəl-əlqab. 3 cilddə. Mənşurati məktəbətis-Sədr.
143. əl-Qummi Şeyx Səduq. Məanil-əxbar. Qum, Müəssisətu nəşril-islami, 1389 h/q.
144. əl-Qummi Şeyx Səduq. Mən la yəhzuruhül-fəqih. Beyrut, I nəşri, 1429/2008.
145. əl-Maməqani Şeyx Məhəmməd Rza. əl-Küna vəl-əlqab. Qum, Mövludu Kəbə nəşri, Etimad mətbəəsi, I çap, 1421 h/q.
146. əl-Məclisi Əllamə Məhəmməd Baqir. Biharül-ənvar. 110 cilddə. Beyrut, Müəssisətül-Vəfa, 1403/1983.
147. əl-Məclisi Əllamə Məhəmməd Baqir. əl-Vəcizə fi ilmir-rical (Ricalül-Məclisi). Beyrut, I çap, 1415/1994.
148. əl-Məclisi Əllamə Məhəmməd Baqir. Miratül-üqul fi şərhi əxbari Alir-Rəsul (s). 26 cilddə. Darül-kütubil-İslamiyyə, III çap, 1375 h/q.

149. ən-Neysaburi Müslim bin Həccac. Səhihul-Muslim. Beyrut, Daru İbn Həzm çapı, 1998.
150. ər-Razi Əbülhəsən Əli bin Übeydullah bin Babəveyh. Fihristu əsmai üləmaiş-şiə və müsənnifihim. Təhqiq: Əbdüləziz ət-Təbatəbai. Beyrut, Darül-əzva, II çap, 1406/1986.
151. əs-Sədr Seyid Həsən. əş-Şiə və fünunul-İslam. Təhqiq: Mürtəza Mirsəccadi. Müəssisə Sibteyn, tarixsiz.
152. əş-Şirazi Sədrəddin. əl-Hikmətül-mütəaliyətil-ula fi əsfaril-əqliyyətil-ərbəa. Nəşr: Rza Lütfü. Qum, 1387 h/q.
153. ət-Tehrani Ağa Bozorq. əz-Zəriə ila təsanifiş-şiə. 25 cilddə. Qum, 1408 h/q və Beyrut, Mənşurati-darül-əzva, 1403/1983.
154. ət-Tehrani Ağa Bozorq. Təbəqatü əlamüş-şiə. Təhqiq: Əli Nəqi Münzəvi, Qum, Müəssisətu-İsmaili, tarixsiz və 17 cilddə. Daru ehyait-türasil-ərəbi, I çap, 1430 h/q.
155. ət-Təbəri Əbu Cəfər Məhəmməd bin Cərir. Camiül-bəyan. Təhqiq: Əhməd Məhəmməd əş-Şakir. Beyrut, Müəssisətu risalə, I çap, 1420/2000.
156. ət-Təbrizi Cəfər Sübhani. Buhus fil-miləl vən-nihəl. 8 cilddə. Qum, 1408/1418 h/q.
157. ət-Təbrizi Cəfər Sübhani. Dürus fi tarixil-fiqh və ədvarihi. Mərkəzi dirasatil-Mustafa (s), I çap, 1426 h/q.
158. ət-Təbrizi Cəfər Sübhani. əl-Mənahicüt-təfsiriyyə. Qum, Müəssisətu İmam Sadiq (ə), III çap, 1426 h/q.
159. ət-Təbrizi Cəfər Sübhani. Qaidətani fəlsəfiyyətani fil-hikmətil-mütəaliyyə. Qum, Müəssisətu İmam Sadiq (ə), I çap, 1424 h/q.
160. ət-Təbrizi Cəfər Sübhani. Məfahimül-Quran. 10 cilddə. Beyrut, Müəssisə ət-tarix əl-ərəbi, 1431/2010.
161. ət-Təbrizi Cəfər Sübhani. Məniyyətüt-talibin fi təfsiril-Quranil-mubin. 30 cilddə. Qum, Müəssisə İmam Sadiq (ə), I çap, 1434/2012.
162. ət-Təbrizi Cəfər Sübhani. Möcəmu təbəqatil-mütəkəllimin. 3 cilddə. Qum, Müəssisə İmam Sadiq (ə), tarixsiz.
163. ət-Təbrizi Əllamə Məhəmməd Təqi Cəfəri. əl-İlmaniyyə vəl-İslam. Darül-hadi nəşriyyatı, I çap, 2001.
164. ət-Təbrizi Əllamə Məhəmmədhüseyn ət-Təbatəbai. Bidayətül-hikmət. Qum, Mövsuatil-maarifil-İslamiyyə, 1410 h/q.
165. ət-Təbrizi Əllamə Məhəmmədhüseyn ət-Təbatəbai. əl-Əqaidül-İslamiyyə. Çapa hazırlayan: Şeyx Qasim əl-Haşimi. Mənşurati müəssiə Ələmi, I çap, tarixsiz.
166. ət-Təbrizi Əllamə Məhəmmədhüseyn ət-Təbatəbai. Həyat ma bədəl-movt. Qismuş-şuunuil-fikriyyə vəs-səqafiyyə, I çap, 2008.
167. ət-Təbrizi Əllamə Məhəmmədhüseyn ət-Təbatəbai. Nihayətül-hikmət. 5 cilddə. şərhçi: Əllamə Kamal Heydəri. İmam Cavad (ə) müəssisəsi nəşri, tarixsiz.
168. ət-Təbrizi Əllamə Məhəmmədhüseyn ət-Təbatəbai. Təfsirül-mizan. 20 cilddə. Beyrut, Müəssisə ələmi, I çap, 1997.
169. ət-Təbrizi Əllamə Məhəmmədhüseyn ət-Təbatəbai. Üsulul-fəlsəfə. Ərəbcəyə çevirən: Cəfər Sübhani. Müəssisətu İmam Sadiq (ə), Qum, III çap, 1426 h/q.

170. ət-Təbrizi Mirzə Abdullah Əfəndi. Riyazül-üləma və hiyazül-füzəla. 6 cilddə. Qum, 1401 h/q.
171. ət-Təbrizi Vəliyəddin Xətib. Mişkatül-məsabih. Dəməşq: I çap, 1381/1961, Beyrut, II çap, 1399/1989.
172. ət-Tirmizi Məhəmməd bin İsa. Sünənüt-Tirmizi. Qahirə, Darül-hədis, 1419/1998 və Beyrut, Darul-kutubil-ilmiyyə, 1989.
173. ət-Tusi Nəsirəddin. Təlxisül-mühəssəl. Beyrut, Darül-əzva, 1405/1985.
174. ət-Tusi Şeyx Məhəmməd bin Həsən. Təhzibul-əhkam. 10 cilddə. Beyrut, II nəşri, 1429/2008.
175. İbn Mənzur. Lisanul-ərəb. 15 cilddə. Beyrut, Daru Sadir, tarixsiz və Qum, 1405.
176. Nimət Abdullah. Fəlasifətüş-şiə. Beyrut, Darül-fikir, I çap, 1987.
177. Reyşəhri Məhəmməd. Mizanül-hikmət. 12 cilddə. Darül-hədis, I çap, 1422 h/q.

## Fars dilində:

178. Aştiyani Seyid Cəlaləddin. Şərhe rical arane fəlsəfiye Molla Sədra. Qum, 1378 h/ş.
179. Bəxşaişi Əbdürrəhman Əqiqi. Məfaxire-Azərbaycan, fəqihane və müfəssirane Azərbaycan. 2 cilddə. Təbriz, I çap, 1375.
180. Dehxuda Əli Əkbər. Lüğətname. Tehran, 1339 h/ş.
181. Təbrizi Əllamə Məhəmməd Təqi Cəfəri. Şərhe Nəhcül-bəlağe. 27 cilddə. İran çapı, 1390 h/q., Müəssise təhqiqat nəşre məarife Əhli-beyt (ə) çapı, və Dəftəre nəşre fərhənge İslami, Tehtan, 1376 h/q.

## Elektron resurslar:

182. http://www.al-shia.org
183. https://az.wikipedia.org
184. www.quran.az
185. www.mektebetu-nercis.com
186. www.vakfeyya.com